AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

R.HƏSƏNOV

İQTİSADİ SİYASƏT: METODOLOGİYA VƏ PRAKTİKA

Dərs vəsaiti

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.12.09 tarixli, 1358 saylı əmri ilə təsdiq edilmişdir.

8804

BAKI - 2009

Elmi redaktor: **Ş.H.HACIYEV**
iqtisad elmləri doktoru, professor

Rəyçilər: **Ə.İ.Bayramov**
iqtisad elmləri doktoru, professor

İ.Ə.Kərimli
iqtisad elmləri doktoru, professor

S.Q.Cümşüdov
iqtisad elmləri doktoru, professor

E.H.Azadov
iqtisad elmləri namizədi, dosent

Həsənov R. İqtisadi siyasət: metodologiya və praktika/Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2009, - 282 səh.

Dərs vəsaitinin Azərbaycan Dövlət İqtisad Universitetində və digər ali məktəblərdə tədris olunan iqtisadi siyasət və onun müxtəlif istiqamətləri, o cümlədən iqtisadiyyatın dövlət tənzimlənməsi üzrə fənlərin tədrisində istifadə olunması nəzərdə tutulur.

© Həsənov R., 2009
© "İqtisad Universiteti", 2009

MÜNDƏRİCAT

Giriş **6**

Fəsil 1. İqtisadi siyasətin mahiyyəti, predmeti, prinsipləri və formaları **9**

1.1. "İqtisadi siyasət" kateqoriyasının nəzəri metodoloji mahiyyəti. Ənənəvi siyasi iqtisadda dövlətin iqtisadi funksiyalarının şərhi **9**

1.2. İqtisadi siyasətin vəzifələri və subyektləri **22**

1.3. İqtisadi siyasətin əsas konsepsiyaları və məqsədlər piramidası **26**

1.4. İqtisadi siyasətdə xətalar və onlardan qaçmaq yolları **34**

1.5. İqtisadi siyasətin icraçıların seçimi və koordinasiyanın zəruriliyi **39**

Fəsil 2. İqtisadi siyasətin nəzəri konseptual əsasları **45**

2.1. İqtisadi inkişaf nəzəriyyələri: şərtləndirən amillər və aparıcı meyllər **45**

2.2. İqtisadi nizamlılıq və konstitusiyalı iqtisadiyyat **56**

2.3. İctimai seçim: metodoloji və nəzəri mülahizələr və prinsiplər **68**

2.4. İqtisadiyyatın tarazlı inkişafı problemləri və "unifikasiya edilmiş" artım reseptləri **83**

2.5. Dövlətin bazar iqtisadiyyatında iştirakı zərurəti, mahiyyəti və məqsədləri **87**

Fəsil 3. Açıq iqtisadiyyatda makroiqtisadi tarazlıq siyasəti. Milli gəlir və beynəlxalq mübadilənin qarşılıqlı əlaqəsi **103**

3.1. Makroiqtisadi tarazlığın müəyyənləşdirilməsinin baza şərtləri **103**

3.2. Makroiqtisadi tarazlığın təmin olunmasında valyuta siyasətinin rolu..... 112
3.3. Açıq iqtisadiyyatda tədiyyə balansının tənzimləyici rolu..... 117

Fəsil 4. Xarici ticarət siyasəti və xarici ticarətin iqtisadiyyatda gəlirlərin bölünməsinə təsiri..... 128
4.1. "Ticarət siyasəti" kateqoriyası və onun əsas növləri və alətləri..... 128
4.2. Beynəlxalq ticarətin tənzimlənməsi xüsusiyyətləri və alətləri..... 135
4.3. Xarici ticarətin "ümumi rifahı yaxşılaşdırılması" missiyası və "Ticarət şəraiti"..... 140
4.4. Xarici ticarət və iqtisadi inkişafın qarşılıqlı təsir xüsusiyyətləri..... 147

Fəsil 5. Maliyyə siyasəti və onun əsas istiqamətləri..... 156
5.1. İqtisadi siyasətin maliyyə mexanizmi və valyuta siyasəti..... 156
5.2. Büdcə mexanizminin hüquqi əsasları..... 170
5.3. Büdcə siyasəti və onun əsas xüsusiyyətləri..... 174

Fəsil 6. Sosial siyasətin əsasları..... 192
6.1. Sosial siyasət: mahiyyəti, formaları, məqsədləri və modelləri..... 192
6.2. Sosial siyasətin müxtəlif modellərinin maliyyə mexanizmi..... 198

Fəsil 7. Regional iqtisadi siyasət və regional inkişaf modeli..... 203

Fəsil 8. İqtisadi islahatlar iqtisadi siyasətin mühüm və universal vasitəsi kimi..... 211
8.1. Postsosialist iqtisadiyyatın transformasiyasının nəzəri-metodoloji əsasları..... 211

8.2. Çağdaş Azərbaycanın iqtisadi islahatlar modelinin formalaşması xüsusiyyətləri..... 225
8.3. Azərbaycanın iqtisadi islahatlar strategiyasının dərinləşdirilməsi istiqamətləri..... 235
8.4. İqtisadi transformasiyasının analitik informasiya sistemi..... 249
8.4.1. Makroiqtisadi və sosial inkişafın monitorinqi..... 249
8.4.2. İqtisadi təhlükəsizlik strategiyasının seçilməsi..... 266
8.5. Azərbaycan iqtisadiyyatının inkişaf strategiyasının perspektivləri..... 272
Ədəbiyyat..... 279

G İ R İ Ş

Ənənəvi olaraq, cəmiyyətin xarakterini müəyyənləşdirən ümumiləşdirilmiş iqtisadi kateqoriyalar, obyektiv qanunlar əsasında inkişaf edən təsərrüfatçılıq obyektlərinə münasibətdə "sərbəstlik" və insanların subyektiv fəaliyyətinə nisbətdə "nizam" anlayışlarıdır. Müasir cəmiyyətdə də bu anlayışlar, ən çox ehtiyac duyulan məhfumlardır. Gündəlik həyatda sərbəstlik insanın fəaliyyəti ilə, nizam isə dövlətin fəaliyyəti ilə assosiyasiya olunur. Mahiyyət etibarilə, bazar iqtisadiyyatının fəaliyyətinin səmərəliliyi, insanın sərbəstliyini qoruyan və dövlət institutlarını yaratmaqla, cəmiyyətdə nizamı təmin edən elmi konsepsiyanın mövcudluğundan asılıdır. Sərbəstlik və nizam arasında ziddiyyət yoxdur, onlar qarşılıqlı əlaqəlidir, bir-birinə xidmət edir və bir-birini tamamlayır. Nizam ancaq sərbəstlik şəraitində təmin oluna bilər. Əgər hər hansı proses nizamlanırsa, deməli məqsədli istiqamətdə inkişaf edir. Nizamlama mahiyyət etibarilə yalnız insanların davranışının intizamlığı halında mümkündür. Öz növbəsində insanların belə davranışı ancaq o zaman mümkündür ki, sərbəstlik arzuolunan (iqtisadi) nizam kimi başa düşülür. İstənilən cəmiyyətdə iqtisadi nizam aşağıdakı üç məsələnin həllini əhatə etməlidir:

- İqtisadiyyatın iş qabiliyyətini yaratmaq və təmin etmək;
- İqtisadi fəaliyyətin məqsədyönlü koordinasiyasını təmin etmək;
- Əsas ictimai – siyasi məqsədlərə nail olmaq.

Dövlətin ən mühüm vəzifələrindən biri, iqtisadi siyasətin formalaşdırılması və aparılmasıdır. Dünya təcrübəsi göstərir ki, belə məsələlərin səmərəli həlli, bazar iqtisadiyyatında adekvat çərçivə şərtlərinin müəyyənləşdirilməsi və nəzərdə tutulan tədbirlərin iqtisadi proseslərə və iqtisadi inkişafa məqsədyönlü təsirini təmin etməklə mümkündür. İqtisadi siyasətin əsas məsələləri sırasına normal fəaliyyət göstərən rəqabət prosesinin dəstəklənməsi, tam məşğulluğun təmin edilməsi, milli müəssisələrin

beynəlxalq rəqabətliliyinuin təmin edilməsi, stabil ekoloji inkişafın reallaşdırılması və s. aid edilir.

Dövlətin iqtisadi siyasətini formalaşdıran və təmin edən hökumətlərin mühüm vəzifəsi, bir tərəfdən iqtisadi fəaliyyət subyektlərinin nəzərdə tutulan səpkidə fəaliyyətini stimullaşdırmaq, digər tərəfdən isə iqtisadi fəaliyyətlə məşğul olmaqla, qərar qəbulunda xüsusi sərbəstliyi məhdudlaşdırmaq və bununla normal inkişafdan yayınmalara yol verməməkdən ibarətdir.

İqtisadi siyasət - mahiyyət etibarilə, əmək bölgüsünə əsaslanaraq iqtisadiyyata məqsədyönlü təsir edən – dövlət institutları, qanunvericiliklə müəyyənləşdirilmiş hüquqi normativ qaydalar və digər fəaliyyət alətlərini özündə cəmləşdirən tədbirlər toplusudur. Müasir anlamda "İqtisadi siyasət" kateqoriyasının yaranması tarixi çox qədim olmasa da onun mahiyyət etibarilə ayrı-ayrı elementlərinin iqtisadi idarəetmədə tətbiqi təcrübəsi qədimdir.

İqtisadi siyasətin hazırlanmasının ilk elementləri XIX əsrin sonlarına aid edilir. Bu elementlər Almaniya kansleri O.Bismarkın təklifi ilə yaranmışdır. Bütövlükdə ilk iqtisadi siyasət tədbirlərinin əsas xarakterik cəhəti, onların "nöqtəvi təsir" strategiyası olması hesab edilə bilər. Yəni ilk dövrlərdə, iqtisadi siyasət ayrı-ayrı seçilmiş istiqamətlər - gömrük, aqrar, sənaye və sosial tənzimləmə üzrə tədbirləri əhatə edirdi. Yalnız XX əsrin əvvəllərində belə "dispersion" yanaşmanın əvəzində kompleks təsir xarakterli siyasət formalaşdırılmağa başlanıldı.

Elmi ədəbiyyatda iqtisadi siyasət anlayışını müxtəlif formalarda şərh edirlər. Tanınmış alman iqtisadçısı X.Girin təbirincə, ***dövlətin iqtisadi siyasəti iqtisadi proseslərin gedişini nizamlamaq, onlara təsir etmək və ya onların axarını müəyyənləşdirməyə xidmət edən tədbirlər toplusudur.*** [1]

Beləliklə iqtisadi siyasət, iqtisad elmi və təcrübəsinin spesifik bir istiqamətidir. Məlum olduğu kimi, iqtisadi nəzəriyyələrin tarixi olduqca qədimdir və geniş spektrə malikdir. Fərqli səbəblərdən yaranması, fərqli məqsədlərə xidmət etmələri, fərqli alətlər

vasitəsilə reallaşdırılması ayrı-ayrı iqtisadi nəzəriyyələri səciyyələndirən mühüm atributlardır.

Fərqliliyi yaradan əsas faktorlardan biri, iqtisasi proseslərin hər birinin özünəməxsus daxili inkişaf xəttinə və məqsədlərinə malik olması səbəbindən, məntiqi olaraq müxtəlif nəticələrə hədəflənməsidir. İqtisadi inkişafın olduqca mürəkkəb və dinamik, qeyri müəyyən və eyni zamanda dəqiq ölçülə bilən xarakterə malik olması, onun proqnozlaşdırılması, idarə olunması və qiymətləndirilməsini çətinləşdirən əsas amillər hesab edilə bilər. İqtisadi proseslər, bütünlüklə və o cümlədən ayrı-ayrı sahəvi, coğrafi və funksional müstəvilərdə, xarakter etibarilə fərqlənsələr də, faktiki olaraq, proseslərin miqyasından asılı olmayaraq, inkişafa təsir edən faktorların sayı və əhəmiyyətliliyi azalmır.

İqtisadi inkişafın mürəkkəbliyi və fərdiliyini göstərən ibrətamiz nümunələrdən biri kimi, dünya iqtisadiyyatının və bütövlükdə cəmiyyət həyatının sürətlə qloballaşdığı, bəşəri dəyərlərin sürətlə eyniləşdiyi, o cümlədən iqtisadi inkişafda resursların limit məhsuldarlığının təmin edildiyi müasir dövrdə də ayrı-ayrı ölkələrdə və hətta ayrı-ayrı iqtisadi fəaliyyət subyektlərində fərqli iqtisadi təsərrüfatçılıq modellərinin istifadə olunmasıdır. Müxtəlif ölkələrdə sosial-siyasi idarəetmə modellərinə nisbətən iqtisadi idarəetmə modeli daha çox fərqlənir. Məhz buna görə, təxminən eyni formalaşma və inkişaf yoluna, tarixinə malik olmuş, yaxın hərbi, siyasi və hətta iqtisadi müttəfiq olan ölkələrin, məsələn ABŞ,Yaponiya, Almaniya, Fransa və s. kimi ölkələrin bir-birindən kəskin fərqlənən iqtisadi inkişaf modelinə malik olması, iqtisadi böhranın eyni xarakterli təsirlərinin fərqlənməsi və ya həmin təsirlərə qarşı aparılan eyni tipli siyasətin fərqli nəticələr verməsi yuxarıdakı fikirləri təsdiqləyir.

Dərs vəsaitinin əsas məqsədi iqtisadi siyasətin qeyd olunan xüsusiyyətlərini iqtisadi profil üzrə təhsil alan və öz biliklərini real iqtisadi proseslərin tənzimlənməsi və qiymətləndirilməsinə tətbiq etmək istəyənlər üçün, iqtisadi nəzəriyyə, dünya təcrübəsi və Azərbaycan reallıqları baxımından şərh etmək və qiymətləndirməkdir.

FƏSİL 1. İQTİSADİ SİYASƏTİN MAHİYYƏTİ, PREDMETİ, NƏZƏRİ ƏSASLARI VƏ FORMALARI

1.1. "İqtisadi siyasət" kateqoriyasının nəzəri metodoloji mahiyyəti. Ənənəvi siyasi iqtisadda dövlətin iqtisadi funksiyalarının şərhi

İqtisadi siyasət - mahiyyət etibarilə, əmək bölgüsünə əsaslanaraq iqtisadiyyata məqsədyönlü təsir edən – dövlət institutları, qanunvericiliklə müəyyənləşdirilmiş hüquqi normativ qaydalar və digər fəaliyyət alətlərini özündə cəmləşdirən tədbirlər toplusudur.

Dövlət institutları müəyyən vəzifələrin həyata keçirilməsini təmin etmək məqsədi ilə qanunvericilik və ya normativ aktlarla yaradılmış təşkilatlardır. İnstitutlar və müvafiq hüquqi qaydaların əsas missiyası iqtisadi fəaliyyət subyektlərinin davranışlarını məhdudlaşdırmaq və iqtisadiyyatın stabilliyini təmin etməkdən ibarətdir. Başqa sözlə institutlar və qaydalar ixtisaslaşma və rəqabət əsasında iqtisadi fəaliyyət subyektlərinin effektiv qarşılıqlı fəaliyyəti və bu fəaliyyətin məqsədyönlü tənzimlənməsi üçün şərait yaradılmasını təmin edirlər. Onların iqtisadiyyata təsiri iqtisadi nizamın yaradılması tədbirləri və həmçinin təsərrüfat proseslərinə təsir vasitəsilə həyata keçirilir.

Mahiyyət etibarilə, liberal dəyərlərə əsaslanan və daimi rəqabət mübarizəsini ehtiva edən bazar iqtisadiyyatı "özü inkişaf edən sistem" kimi mürəkkəbləşməyə meyillidir. İqtisadiyyatın inkişafı və təkmilləşməsi sürətləndikcə iqtisadi proseslərdə iştirak edən və qarşılıqlı münasibətlərdə olan təsərrüfat subyektlərinin sayı da artır. Müxtəlif iqtisadi və qeyri-iqtisadi faktorların təsiri altda fəaliyyət göstərən təsərrüfat subyektlərinin davranışı isə xaraktercə müxtəlif olur. Real təcrübədə, bazar mexanizminin səmərəliliyinin yüksəlməsi adətən, inkişafın ümumi yekunu kimi dəyərləndirilir. Lakin bununla belə, bazarda təsərrüfat subyektlərinin davranışının proqnozlaşdırılması və ya hansısa mənada idarə olunması, istiqamətləndirilməsi zərurəti daima artır.

Bazar iqtisadiyyatının inkişafının bütün tarixi mərhələlərində- əmtəə mübadiləsinin sadə formalarının meydana gəlməsindən başlamış milli dövlətlər cərcivəsində bazar təsərrüfatlarının və müasir, mürəkkəb beynəlxalq kooperasiya formalarının yaranmasınadək yuxarıda şərh olunanlar zərurət olmuş və indi də qalmaqdadır.

Bunun ən yaxşı nümunəsi kimi XVII əsrin sonu XIX əsrin əvvəllərində baş verən və bəşəriyyətin həyatında yeni sosial – iqtisadi inkişaf mərhələsinin əsasını qoyan sənaye inqilabları dövrünü göstərmək olar.

İqtisadi artımın yeni keyfiyyət səviyyəsinə qalxması "kütləvi istehsal üsullarının" mənimsənilməsi və "maşınlı istehsalın" tətbiqi ilə birbaşa bağlı olub, istehsal xərclərinin azalmasını və bu səbəbdən də bazar dövriyyəsinin genişlənməsini təmin etdi. Lakin bu nəticələri təsadüfi və ya yalnız bəşəriyyətin "toplanmış" biliklərinin maddiləşmiş ifadəsi kimi qiymətləndirmək doğru olmaz. Çünki, çox saylı nümunələr sübut edir ki, əslində elmi-texniki tərəqqi, iqtisadi şəraitin dəyişməsinə olan reaksiyadır. Mübadilə həcminin və tiçarətin dövriyyəsinin artması rəqabəti gücləndirir. Ona görə də "işgüzar təbəqə" yeni texniki və texnoloji həllər axtarmağa çalışırlar.

Beləliklə, XVIII-XIX əsrlərdə baş verən iqtisadi proseslər fonunda, təsərrüfatçılıq fəaliyyətinin səmərəliliyinin artırılmasına yaranan zərurət, dövlətlə digər sosial-iqtisadi fəaliyyət subyektləri arasında yeni münasibətlərin formalaşmasına ehtiyac yaratdı. Təsərrüfat sisteminin inkişafı dövlətin təminedici və təhsis edici rolunun güclənməsini tələb edirdi. Bu, dövlət tərəfindən müvafiq infrastrukturanın və hüquqi bazanın yaradılmasını, xarici və daxili təhlükəsizliyin, milli valyutanın dayanıqlığının təmin olunmasını nəzərdə tuturdu. Belə infrastruktura bazar mexanizminin özünün səmərəliliyinin artırılması üçün çox vacib idi. İlk dövrlərin təcrübəsi göstərdi ki, bazar – sənaye inqilabı, bazar- - dövlət münasibətlərinin apriori tapılan formalarının səmərəsi olduqca yüksəkdir. Bu isə öz növbəsində, iqtisadi dinamizmin hədsiz yüksəlməsinə gətirdi. Lakin, həmin dövrdə təsərrüfat sis-

teminin ümumi iqtisadi tarazlığının təmin edilməsi mexanizminin olmaması şəraitində hədsiz yüksək dinamizm ciddi təhlükə mənbəyinə çevrilə bilərdi.

1929-1933- cu illərdə baş vermiş qlobal iqtisadi böhran bu təhlükəni aşkar göstərdi. Qlobal iqtisadi böhran əslində iqtisadi nəzəriyyə və təcrübədə inqilabi dəyişikliklərə yol acdı. Artıq hamıya aydın oldu ki, dövlətin iqtisadi proseslərdə rolu dəyişməlidir. İqtisadiyyatın dövlətin tənzimləyici dəstəyinə ehtiyacı inkaredilməz zərurətə çevrildi. Beləliklə "iqtisadi siyasət" kateqoriyası təsərrüfatçılıq və idarəetmənin mühüm vasitəsinə, alətinə çevrildi.

Təsərrüfatçılıq şəraitinin dəyişməsi dövlətin infrastruktur xarakterli tədbirlərinin kəskin çoxalmasına rəvac verdi. Lakin bazar mexanizminin yeni keyfiyyətdə əsas tələbi - kənar təhsis edici vasitələrin tapılması idi, çünki baş verənlərin həlledici səbəbi bu mexanizmin özünütənzimləmə imkanlarının məhdudluğu hesab olunurdu. Ən mühüm təhsisedici tədbirlərə ilk növbədə daima inkişaf edən bazar iqtisadiyyatının makroiqtisadi tarazlığının qorunması tədbirləri aid edildi. Tarazılıq anlayışı özü isə yalnız iqtisadi deyil, həm də sosial mahiyyət daşımağa başladı. Beləliklə, geniş sosial sığorta sisteminin yaranması zərurəti meydana gəldi.

Müasir anlamda "İqtisadi siyasət" kateqoriyasının yaranması tarixi cox qədim olmasa da onun mahiyyət etibarilə ayrı-ayrı elementlərinin iqtisadi idarəetmədə tətbiqi təcrübəsi isə yuxarıda qeyd olunduğu kimi qədimdir.

İqtisadi siyasətin hazırlanmasının ilk elementləri XIX əsrin sonlarına aid edilir. İlk dəfə Almaniya kansleri O.Bismarkın təklifi ilə iqtisadi idarəetmədə yeni sahə -sosial sığortalama yaranmışdı. 1883-cü ildə sənayedə calışanların xəstəliklərdən sığortalanması haqqında, 1884-cü ildə bədbəxt hadisələrdən və nəhayət 1889-cu ildə əlillikdən sığortalanma haqqında qanunlar qəbul edildi və fəhlələrin pensiya təminatı məsələsi həll edildi. Bütövlükdə ilk iqtisadi siyasət tədbirlərinin əsas xarakterik cəhəti onların "nöqtəvi təsir" strategiyası olması hesab edilə bilər. Yəni

ilk dövrlərdə, iqtisadi siyasət ayrı-ayrı seçilmiş istiqamətlər – gömrük, aqrar, sənaye və sosial tənzimləmə üzrə tədbirləri əhatə edirdi. Yalnız XX əsrin əvvəllərində belə "dispersion" yanaşmanın əvəzində kompleks təsir xarakterli siyasət formalaşdırılmağa başlanıldı.

Elmi ədəbiyyatda iqtisadi siyasət anlayışını müxtəlif formalarda çərh edirlər. Bu sırada fikrimizcə ən yaxşı şərh tanınmış alman iqtisadçısı X.Girşə məxsusdur. Onun təbirincə, ***dövlətin iqtisadi siyasəti iqtisadi proseslərin gedişini nizamlamaq, onlara təsir etmək və ya onların axarını müəyyənləşdirməyə xidmət edən tədbirlər toplusudur.***

İqtisadiyyatın dövlət tənzimləməsi tədbirləri sistemini bir necə çəhətdən xarakterizə etmək olar. İlk növbədə siyasəti elmi və ya təçrübi baxımdan dəyərləndirmək vacibdir. Təçrübi baxımdan siyasət - dövlət tənzimlənməsinin konkret tədbirlər kompleksini əhatə edir. Nəzəri baxımdan isə siyasət, milli iqtisadiyyatın ən səmərəli inkişaf yolunun müəyyənləşdirilməsini şərtləndirən tədbirlər və əməli fəaliyyətin aparıcı motivlərinin sistemli və elmi tədqiqini nəzərdə tutur. Bu baxımdan iqtisadi siyasətdə elmi yanaşmalara, inkişaf modeli və proqnozların yaradılmasıda aid edilir.

Elmi çəhətdən iqtisadi siyasətin ən mühüm vəzifələrindən biri rasional iqtisadi təfəkkürün formalaşdırılmasıdır. Belə təfəkkürün əsas aksiomatik əlaməti, azad rəqabət şəraitində dövlətin vəzifəsinin, təsərrüfat subyektlərinin özlərinin rasional həlli axtarmalı olduqları "cərcivə" yaratmaq olmasının dərk edilməsidir. Bu baxımdan iqtisadi siyasətin səmərəliliyinin təmin olunması üçün aşağıdakı üç mühüm şərtin qorunması olduqca vacibdir:

1. **İqtisadi siyasət həmişə iki mühüm faktorun təsiri altda formalaşır: daima dəyişən təsərrüfat şəraiti və iqtisadi təfəkkür səviyyəsi.** Bu iki faktor qarşılıqlı asılı olsa da nisbi sərbəstliyə malikdirlər. Çəmiyyətin inkişaf səviyyəsi yüksəldikcə iqtisadi təfəkkür dəyişir, cünki dəyərlər haqqında təsəvvürlər dəyişir. Beləliklə hətta ənənəvi vəzifələri, yeni dəyərlər prizmasından həll etməyə calışırlar.

2. **İqtisadi siyasət ölkənin reallıqları ilə uzlaşdırıldıqda, o cümlədən siyasi qüvvələr nisbəti, istehsal-texniki potensial, sosial şərait, ümumdövlət və yerli idarəetmədə institusional qaydalar və s. nəzərə alındıqda daha effektli olur.**

3. **İqtisadi siyasət ölkənin qlobal maraqlarının və ona müvafiq formalaşdırılan dövlətin siyasi kursunun təmin edilməsinin həllediçi vasitəsidir. Basqa sözlə iqtisadi siyasət ümumi, milli qlobal siyasətin tamamlayıcısıdır.**

Müasir iqtisadi siyasətin mahiyyəti, elmi kateqoriya kimi evolyusiyası, tətbiqi xüsusiyyətləri və nəzəri-metodoloji əsaslarını daha aydın təhlil etmək, bu məsələdə yeni və klassik siyasi iqtisadın fərqlərini daha aydın dərk etmək üçün, fərdi və ictimai rifahın istehsalının xüsusiyyətlərini, o cümlədən bazarın və dövlətin rolunu müqayisə etmək vacibdir.

Klassik siyasi iqtisadın diqqət mərkəzində maddi sərvətlərin istehsalı dayanırdısa, yeni siyasi iqtisadda qeyri – maddi sərvətləri daha vacib hesab edilir. Yəni, klassik siyasi iqtisad ilk növbədə iqtisadi prosesləri öyrəndiyi halda, yenisi daha çox siyasi proseslərə diqqət verir. Lakin bu o demək deyildir ki, ənənəvi siyasi iqtisad, dövlət siyasəti məsələlərini öyrənmirdi. Yanaşma üsulu fərqli idi. Bu fikri təsdiq etmək üçün siyasi iqtisadın əsas inkişaf mərhələlərinə diqqət yetirmək vacibdir. İlk növbədə isə, ənənəvi siyasi iqtisadda dövlətin rol və funksiyaları haqda baxışları təhlil etmək zəruridir. Siyasi iqtisadın müstəqil elm kimi yaranması – kapitalizmin yaranması ilə şərtlənmişdir. İlk dövrlərdə bu elmin tədqiqi obyekti istehsal sferası yox, mübadilə sferası olmuşdur. Sonralar isə dünya ticarətinin inkişafı ticarətçilərin rolunun artmasına gətirmişdir. Siyasi iqtisadın ilk "məktəbi" – "merkantilizm" (XVI-XVIII əsrlər) məhz ticarətçilərin maraqlarının ifadəsi kimi meydana çıxmışdır. 1615-ci ildə Antuan de Monkretyen (1575-1621) "Siyasi iqtisad traktatı" adlı əsərini nəşr etdirməklə, əslində gələcək elmə ad vermişdir.

Merkantilistlərin tədqiqatlarının mərkəzində ticarət və tədiyyə balansının problemləri dayanırdı. Merkantilistlər sadə müşahidəçi deyildilər, onlar iqtisadi həyata dövlətin fəal müda-

xiləsini "mütləqləşdirməyə" çalışırdılar. Ticarət burjuaziyası öz maraqlarının ümumilli dövlət maraqları kimi ifadə etməyə can atırdı. Məhz bu prizmadan proteksionit (himayəçi) siyasət ticarət burjuaziyası ilə zadəganlığın müvəqqəti ittifaqının ifadəsinə çevrilmişdi.

Lakin inkişafın sürətlənməsi, o cümlədən, manufakturanın yayılması və maşınlı istehsalın yaranması kapitalizmin adekvat maddi – texniki bazasını formalaşdırdı. Belə şəraitdə isə, siyasi iqtisadın klassikləri kapitalizmdə sərvətlərin mənbəyini artıq mübadilə sferasında yox istehsal sferasında tapmağa çalışırdılar.

Lakin, hətta ən yaxşı "klassik" siyasi iqtisadçılar bilavasitə ictimai istehsal prosesini yox, onun yekunları – kapitalist sərvətini tədqiq etməyə üstünlük verirdilər. Məsələn, A.Smit "kapitalist sərvətinin istehsalı və yığımı şərtlərini"; D.Rikardo – "bölgü münasibətlərini"; S. de Sismondi – istehlak münasibətlərini əsas tədqiqat obyektinə çevirmişdilər.

Bununla belə, merkantilistlərdən fərqli olaraq Adam Smit (1723-1790) özünün məhşur "Xalqların sərvətliliyinin səbəbləri və xarakterinin tədqiqi" (1776) adlı əsərində dövlətin əhəmiyyətini və rolunu xüsusi mülkiyyətin xarici və daxili təcavüzlərdən mühafizə və müdafiəsində; xüsusi mülkiyyətçilər üçün əlverişli olmayan istehsalın təşkilində görürdü. David Rikardo (1772-1823) özünün əsas tədqiqatını ("Siyasi iqtisadın başlanğıcı və vergi qoyma") vergi qoymanın prinsiplərinin təhlilinə (1817) həsr etmişdir. C.Mill (1806-1873) isə özünün "Siyasi iqtisadın prinsipləri" (1848) adlı əsərində ilk dəfə olaraq bazarın "boşluqları" anlayışının şərhini verməyə çalışmışdır.

Artıq XIX əsrin 30-cu illərində liberal doktirina iki istiqamətə ayrılır: "Klassik liberal" nəzəriyyə - azad sahibkarlığı müdafiə etməklə dövlətin iqtisadiyyata hər hansı müdaxiləsinin yolverilməzliyini bəyan edirdisə, "islahatçı" müasir liberal konsepsiya tərəfdarları (İ.Bentam, Ceyms Mill və Con Mill) fundamental liberal dəyərlərdən imtina etməyərək dövlətin fəal rolunun zəruriliyini iddia edirdilər.

"İslahatçı liberal" İeremiya Bentam (1748-1842) hesab ediridi ki, maraqların harmoniyasını ("xoşbəxtliyin hesabı" (arifmetika)) düşünülmüş qanunvericiliklə təmin etmək olar. Ona görə də o, qanunvericilik sahəsində liberal islahatların ardıcıl tərəfdarı kimi tanınmışdır. İ.Bentam "irsi aristokratiya" qaydasını tənqid edərək seçki hüququnun demokratikləşdirilməsi uğrunda mübarizə aparırdı. O "ciddi cəzalandırma" tərəfdarı deyildi, çünki hesab edirdi ki, "cəzanın qaçılmazlığı" onun ciddiliyindən daha vacibdir. Bentamın ictimai siyasət konsepsiyası dövlətin əsas vəzifələri kimi yaşayış minimumu, təhlükəsizlik, bərabərlik və normal dolanışığın təmin edilməsini əhatə edirdi. I.Bentamın bu konsepsiyası klassik siyasi iqtisadın görkəmli nümayəndələri hesab olunan ata və oğul Ceyms Mill və Con Stüart Millin iqtisadi baxışlarının formalaşmasında çox mühüm rol oynamışdır.

"Liberal islahatçılıq" konsepsiyası "proqressiv inkişaf faktoru" kimi dövlətin iqtisadiyyata fəal müdaxiləsi problemini müəyyənləşdirməyə imkan vermişdir. Doğrudur həmin dövrdə dövlətin iqtisadiyyata müdaxiləsi dedikdə müasir anlamdakı iqtisadi siyasət başa düşünülmürdü. Dövlətin iqtisadiyyata müdaxiləsi ilk növbədə, iş günün, əməyin təhlükəsizliyi şərtləri və minimum əməkhaqqı səviyyəsinin tənzimlənməsinə istiqamətlənən qanunvericilik fəaliyyəti və zərurət yarandıqda sosial konfliktlərin həllində iştirak baxımından qəbul edilirdi. Bu ideyalar sonralar "fransız həmrəyçiliyi" və alman "kateder - sosializmi" tərəfdarları tərəfindən inkişaf etdirilmiş və güclü "paternalist dövlət" yaradılması cərəyanının meydana gəlməsində mühüm rol oynamışdır. Lakin iqtisadi nəzəriyyələrin əsas inkişaf istiqamətlərinin formalaşmasında bu konsesiyaların ciddi təsiri olmamışdır.

Kapitalizmin inkişafı, təsərrüfatçılıq metodlarının seçimində ənənəvi "feodal ideologiyalarının" rolunun tədricən "əməli tövsiyələrə" keçməsini sürətləndirdi. Məsələn Alfred Marşal (1842-1924) özünün məhşur əsərində dövlətin roluna çox az diqqət vermişdir. "Siyasi iqtisadın prinsiplərinin" yalnız sonuncu, 5-ci cildində vergiqoymanın ənənəvi məsələlərinin izahı verilir. Burada artıq yeni nöqteyi-nəzər vergi yükünün dəyişməsi problemi

qoyulur. Bununla belə dövlətin iqtisadiyyatdakı roluna geniş spektrdə A.Marşall tərəfindən baxılmamışdır.

Dövlətin iqtisadiyyata müdaxiləsinin tənqidi Leon Valrasın (1834-1910) "Sosial iqtisadiyyat oçerkləri. Ictimai sərvətin bölgüsü nəzəriyyəsi" (1896) adlı kitabında ətraflı əsaslandırılmışdır. A.Valras əsas funksiyaları ictimai nemət istehsalı və inhisarlar üzərində nəzarətlə məhdudlaşan, "kiçik" dövləti məqbul hesab edir. İqtisadi funksiyaların məhdudlaşdırılmasını vergilərin azaldılması üçün əsas hesab edən Valras aparıcı vergi növünün gəlir vergisi yox, əmlak vergisi olmasını məqsədəuyğun hesab edirdi.

İtalyan iqtisadçısı U.Masolla dövlət maliyyəsini tədqiq edərək, faktiki olaraq ilk dəfə "ictimai nemət" məfhumunun xarakterini açmışdır (1890). Artıq 1896-cı ildə Isveç iqtisadçısı Knut Viksel (1851-1926) sübut etdi ki, fərdi və sosial xərclərin (MPC və MSC) limit səviyyələrindəki fərq dövlət xərcləri və vergilərin hesabına ləğv edilə bilər. Bunun üçün lazım olan ictimai nemətin zəruri həcmini isə ancaq siyasi yollar – səsvermə vasitəsilə müəyyənləşdirmək olar.

Nemətlərin "ictimai" və "fərdi" növlərə ayrılması isə, bir tərəfdən onların keyfiyyət fərqi, digər tərəfdən isə ictimai rifah halının maksimum artırılmasını təmin etmək üçün "toplanması" kimi problemlər doğurdu. Bu problemlər isə ilk dəfə Valfred Paretonun (1848-1923) "Siyasi iqtisad kursu" (1896-1897) və Artur Sesil Piqunun (1877-1959) "Sərvət və rifah halı" (1912) və "Rifah – halının iqtisadi nəzəriyyəsi" (1920) əsərlərində qaldırılmışdır. Problemin belə qoyuluşu sonralar N.Kaldar, T.Sitovski, A.Berson, E.Mindol və başqaları tərəfindən rifah – halının meyarlarının yaradılması üçün özünə məxsus stimul rolu oynamışdır.

Dövlətin iqtisadiyyatda rolu haqda baxışlarda ən köklü dəyişiklik isə Con Meynard Keynsin (1883-1946) 1936-cı ildə nəşr etdiyi "Məşğulluğun, faiz və pulun ümumi nəzəriyyəsi" adlı əsəri ilə baş verdi. Qərb iqtisadi fikrində dövlətin iqtisadi siyasətini diqqət mərkəzinə çevirən yeni istiqamətin – keynisçiliyin yaranması əslində C.M.Keynsin ideyalarının hamılıqla tanınmasının ifadəsidir. Öz baxışları ilə Keyns ilk dəfə bazarın ideal

özünütənzimləyən mexanizm olması haqda neoklassik cərəyan tərəfdarlarının bəzi fərziyyələrindən imtina etdi. Keynsin təbirincə, bazar "səmərəli tələbi" təmin edə bilmir. Bunun üçün dövlətin pul – kredit və büdcə siyasəti vasitəsilə stimullaşdırıcı fəaliyyəti vacibdir. Belə siyasət milli gəlirin daha sürətli artımını təmin etmək üçün xüsusi investisiya və istehlak xərclərinin artımını stimullaşdırmalıdır. Keyns nəzəriyyəsinin əməli xarakteri, istiqamətliliyi İkinci Dünya müharibəsindən sonrakı dövrdə onun geniş yayılmasına səbəb oldu. Keynsin məsləhətləri "qarışıq iqtisadiyyat" və "ümumi rifah dövləti" nəzəriyyələri üçün ideoloji proqramla çevrildi.

XX əsrin 50-ci illərindən başlayaraq "Yeni keynsçilər" (R.Harrod, E.Domar, E.Xansen və b.) iqtisadi dinamikanın, xüsusilə inkişaf faktorları və sürətləri problemlərinin həllində böyük fəallıq göstərir, inflasiya və məşğulluq arasında optimal nisbətləri tapmağa çalışırdılar.

Bazar və dövlət tənzimlənməsinin üzvü qovuşmasını təmin etməyə çalışan Pol Samuelsonun (1915) "Neoklassik sintez" konsepsiyası məhz bu problemə həsr olunmuşdur. Ictimai nemətlər nəzəriyyəsinin müasir versiyası ilk dəfə Samuelson tərəfindən (1954) "İctimai rifahın təmiz nəzəriyyəsi" adlı əsərində öz əksini tapmışdır.

"Post keynsçilər" (Doan Robinson (1903-1983), Pyero Sraffa (1898-1983), Nikolas Kalder (1908-1986) və s. 1960-1970-ci illərdə keynsçilik ideyalarını D.Rikardonun bəzi fikirləri ilə tamamlamağa çalışırdılar. Yeni rikardoçular gəlirlərin daha bərabər bölüşdürülməsi, bazar rəqabətinin məhdudlaşıdırılması və inflyasiya ilə səmərəli mübarizə üçün tədbirlər sisteminin görülməsinə çalışırdılar.

Lakin hesab olunur ki, 1970-ci illər keynsçilikdə "məyusluq" dövrü yaratdı. Çünki təklif olunan məsləhətlər inflyasiyanın güclənməsinin, istehsalın düşməsinin və işsizliyin artmasının eyni zamanda qarşısını almaq mümkünsüz edir. Başqa sözlə Keynsçi paradiqma neoklassik paradiqmanı tamamilə aradan çıxara bilmədi. Bu iki paradiqmanı "neoklassik sintez" formasında

№ 8804

birləşdirmək cəhdləri də fayda vermədi, çünki bu konsepsiya özlüyündə "bütöv" deyildi. Belə ki, "sintez" makroiqtisadi proseslərin təhlilində makroiqtisadi proseslərin doğurduğu fərziyyələri qəbul etmirdi. Digər tərəfdən artıq 1970-80-cı illərdə dünya təcrübəsində neoklassik cərəyanın yeni istiqamətləri (monetarizm, yeni klassik iqtisadiyyat, ictimai seçim nəzəriyyəsi) keynsçiliyi ciddi şəkildə "sıxışdırmışdı".

Sadalanan yeni cərəyanların güclənməsi və direktiv iqtisadiyyatın liberal prinsiplərə söykənən bazar iqtisadiyyatına nisbətən səmərəliliyinin xeyli aşağı olması səbəbindən 80-cı illərdə sosialist sisteminin tranformasiyasının güclənməsi yeni siyasi iqtisadda dövlətin roluna yenidən baxmağı zəruri etdi. Siyasi iqtisadda yeni ideoloji cərəyan - neoinstitusionalizmin yaranması məhz dövrün tələblərinə reaksiya kimi qiymətləndirilə bilər. Bütövlükdə isə, neoinstitusionalizm dövlətin iqtisadiyyata müdaxiləsinə kifayət qədər qısqanclıqla yanaşır. Hesab olunur ki, dövlətin müdaxiləsi gücləndikcə bazar mexanizmin səmərəliliyi aşağı düşür. Ronald Kouzun məhşur teoremi (1960) məhz dövlətin müdaxiləsinin lüzumsuzluğunu sübut edir. Ancaq bununla belə neoinstitusionalistlər başa düşürlər ki, müasir dövrdə həyata keçirilən mürəkkəb xarakterli mübadilə proseslərində dövlətin aktiv müdaxiləsi ən azı ona görə vacibdir ki, dövlət "mülkiyyət hüququnu" müəyyənləşdirir və müqavilə şərtlərinə əməl olunmasını təmin edir. Başqa sözlə, ölkə əhalisinə qarşı fövqəladə inhisarçı hüquqa malik olan dövlət, bununla, mülkiyyət hüququnu öz mənafeləri baxımından yenidən bölüşdürmək imkanına malikdir. Eyni zamanda dövlət səmərəli olmayan institutlar yaradaraq, cəmiyyətin gəlirlərinin bir qismini mənimsəyə bilər. Ona görə də cəmiyyətdə xüsusi maraqları olan elə qruplar meydana gəlir ki, onlar siyasi renta axtarmaqla mövcud "oyun qaydalarını" öz mənafeləri istiqamətində dəyişməyə çalışırlar.

Nəzərə almaq vacibdir ki, köhnə institutların dəyişməsi və yenilərin yaranması özlüyündə böyük həcmdə vəsait xərclənməsini tələb edir. Belə vəsaitin əsas hissəsi isə adətən artıq əvvəlcədən istifadə edildiyindən onun istiqamətinin dəyişdirilməsi çətin məsələyə çevrilir. İş ondadır ki, mövcud "oyun qaydalarının" öyrənilməsinə, mənimsənilməsinə adamlar kifayət qədər ehtiyatlar sərf ediblər. Ona görə də yeni institutların yaranması nəinki əlavə vəsait tələb edir, həm də artıq mövcud olan "institusional" kapitalın ucuzlaşmasını (dəyərinin aşağı düşməsini) doğurur. Beləliklə əvvəlki inkişaf trayektoriyasından asılılıq effekti (path dependence) yaranır.

Lakin nə monetaristlər, nə də keynsçiliyi tənqid edən neoklassiklər, siyasi qərar qəbulu mexanizminin özünün etibarlılığına heç vaxt şübhə etmirdilər. Nəzəri baxışlarda bu boşluğu doldurmaq istəyənlər 1950-60-cı illərdə "ictimai seçim nəzəriyyəsini" yaratdılar. (C.Byukenen, Q.Tallo, M.Olson, D.Müller və s.). Bu nəzəriyyə tərəfdarları da dövlətin iqtisadiyyata müdaxiləsinin nəticəliliyinə şübhə edirdilər. Onlar, klassik liberalizm prinsipləri və marjinal təhlil metodlarını siyasi, hüquqi və sosioloji sahələrin tədqiqində ardıcıl genişləndirirlər. Qısa müddətdə bu fəallıq "iqtisadi imperializm" adlı fenomenin yaranmasına gətirmişdir. Beləliklə, bu nəzəri cərəyanın tərəfdarları "hökumət qərarlarının qəbulu prosesini" tədqiqat obyektinə çevirirlər.

"Metodoloji fərdilik" ideyasını əsas tutaraq onlar sübut edirlər ki, biznes və siyasət arasında keçilməz sərhəd yoxdur. Beləliklə, onlar "paternalist dövlət" mifinin dağılmasına səbəb olurlar. Onların fikrində "rasional siyasətçilər" ilk növbədə elə proqramları müdafiə edirlər ki, bu proqramlar həmin siyasətçilərin nüfuzunun və beləliklə, növbəti seçkilərdə udmaq ehtimalının artmasına xidmət edə bilər. Bu isə o deməkdir ki, "ictimai seçim" nəzəriyyəsi fərdilik prinsipini daha da inkişaf etdirərək onu yalnız bütün kommersiya fəaliyyətinə yox, həm də dövlətə aid edir.

İctimai seçim nəzəriyyəsinin tərəfdarlarının insan kapitalına munasibəti, bütövlükdə, insanların həmişə müəyyən davranış prinsiplərinə sadiqliyi faktoruna əsaslanır. Məlumdur ki, adətən adamlar faydalılığı maksimumlaşdırmağa (mümkün olanlardan ən yaxşı nəticəni əldə etməyə); məlum və məlum olmayan xərcləri də nəzərə almaqla iqtisadi tarazlığı təmin etməyə (mal və xid-

mətlər bazarında olduğu kimi) çalışırlar və bu zaman özlərinin üstünlük meyarlarını (əsas tələbləri üzrə meyarları) saxlayırlar.

Siyasətdə "İqtisadi imperializmin" inkişafı üç mərhələdə gedir. Birinci mərhələdə "düşmən ərazisi" sürətlə işğal edilir. Politologiyanın ənənəvi anlayışları qısa müddətdə iqtisadi dilə çevrilir. Belə fikir yaranır ki, əsas problem ümumi iqtisadi prinsiplərin (davranışın maksimumlaşdırılması, bazar tarazlığı, dəyərlərin və meyarların dayanıqlığı, xərc və faydalılıq limitlərinin nisbəti və s.) fərdi tətbiqindədir.

İkinci mərhələdə "mənimsənilmiş (işğal olunmuş)" materialın müqaviməti başlayır. İş ondadır riyazi aparat özünün inkişaf məntiqinə malikdir və tətbiq olunduğu elmin xüsusiyyətlərini nəzərə almır. Ona görə də riyazi aparatın tətbiqi üçün iqtisadi qanunların anlayış və mahiyyətinin dərindən öyrənilməsi zərurəti yaranır. Nəticədə həqiqətlə elmi ciddilik arasında problem meydana gəlir.

Üçüncü mərhələdə isə, ilk iki yanaşmanın sintezi həyata keçirilir. Yeni keyfiyyət halı yaranır - sübut olunur ki, iqtisadiyyatın universal elm olması iddiası özünü tam doğrultmasa da, onun digər sahələrə müdaxiləsi yeni biliklərin yaranmasına səbəb olmuşdur və bu müdaxilədən bütün tərəflər faydalanır.

Belə müdaxilənin daha bir üstünlüyü var. "İqtisadi imperializm" yalnız özünün ciddiliyi ilə yox, həm də izah etmə üstünlükləri ilə fərqlənir. Onun metodologiyasını daha asanlıqla öyrənmək və təbliğ etmək olar. Həm də o, standart şəraitdə düzgün seçim etmək üçün əlverişlidir. Lakin onun tətbiqi üçün ilkin fərziyyələrin daha dərin məna daşıması vacibdir. Bu yöndə ən çox uğur qazanan istiqamət isə "konstitusiyalı iqtisadiyyat" cərəyanı hesab olunur.

Keçid iqtisadiyyatlı ölkələrdə bazar iqtisadiyyatının uğurlu formalaşması üçün institusional şəraitin yaradılması zəruri addımlardandır. Lakin bunun hansı nəzəri və ya əməli konsepsiyaların bazasında aparılması xüsusi müzakirə obyektidir. Dünya təcrübəsində daha faydalı sayılan iki müvafiq konsepsiya - ordoliberal "qayda - qanun (və ya nizam) nəzəriyyəsi" və "konstitusiyalı iqtisadiyyat nəzəriyyəsi" vardır. "Nizam nəzəriyyəsi" (V.Oyken, F.Bem, B.Penke, A.Pyustov və s.) Almaniyanın məhşur "Sosial bazar iqtisadiyyatı" modelinin nəzəri - metodoloji əsaslarını təşkil etmişdir. Müharibədən sonrakı Almaniyada hökm sürən xaos, dağıntı və dərin böhrandan çıxış yolunu yalnız 1930-40-cı illərdə yaranmış "nizam nəzəriyyəsi"nin yenidən tətbiqində görərək hökumət yeni "sosial iqtisadiyyatı" yaratmağa nail olmuşdur.

Konstitusiyalı iqtisadiyyat konsepsiyası isə 1960-cı illərdə ABŞ-da yaranmışdır. Çiçəklənən "kütləvi istehlak cəmiyyətində" yaranan bu nəzəriyyə, ilk vaxtlar, Keynsçi tənzimlənmənin əleyhdarı olan universitet professorlarının "mühafizəkar utopiyası (əfsanəsi)" kimi qəbul edilirdi. Elmi dairələrin bir qrup nümayəndəsi bazar iqtisadiyyatını tənzimləyən fundamental qaydaların toplusunu formalaşdıraraq onların konstitusion qaydada təsdiq olunmasını tələb kimi irəli sürmüşlər. İdeya müəllifləri belə hesab edirdilər ki, bu prinsiplərin qəbul edilməsi və onların realizasiyası, cəmiyyətə, "şişmiş" dövlət aparatında, çox saylı "siyasi qazanc axtaranlar" və bürokratların təyziqi ilə mübarizə aparmağa kömək edəcəkdir.

Qeyd etmək lazımdır ki, ictimai seçim nəzəriyyələri çərçivəsində konstitusiyalı iqtisadiyyat nisbətən dar mövqeyə malikdir və riyazi - iqtisadi istiqamətin tərəfdarları bu nəzəriyyəyə sanki əhəmiyyət vermirlər.

Bu iki nəzəriyyənin müqayisəsi paradoksal görünür. Onların hər ikisi bazar iqtisadiyyatının təkmilləşdirilməsini istəyir və bunu dövlətin iqtisadiyyata birbaşa müdaxiləsi vasitəsilə yox, cəmiyyətin institusional strukturuna dolayı təsir vasitəsilə etməyi məqbul sayırlar. Hər iki nəzəriyyə liberal xarakter daşıyır və bu ənənəvi yox, yeni tipli liberalizmdir.

Neoklassiklərdən fərqli olaraq, neoliberallar diqqət mərkəzi kimi, limit qiymətləri toplusuna malik optimallaşdırıcı makromodellərə yox, tarazlı makromodellərə üstünlük verirlər. Tarazlıq şərtləri isə kəmiyyət yox, keyfiyyət prizmasından, institusional prizmadan şərtləndirilir və qiymətləndirilir. Hər iki yeni nəzəriyyə klassik liberalizm ənənələrinə sadiq qalaraq, fərdi azadlıq və xüsusi mülkiyyətçilik prinsiplərini qoruyur, lakin XVIII-XIX

əsrlərin klassik liberalizmindən fərqli olaraq dövlətin iqtisadi həyatda fəal iştirakını məqsədəuyğun sayır. Lakin bu iştirak və fəallıq keynsçilərin dediyi kimi başa düşülmür. Onların fikrincə əsas məqsəd - dövlətin müdaxilə siyasəti vasitəsilə "səmərəli tələbi" stimullaşdırmaq yox, rəqabətin stimullaşdırılması və gəlirin artırılmasının institusional mexanizminin yaradılmasıdır.

Bu isə, hər şeydən əvvəl təsərrüfatçılığın inhisarlaşdırılması və bütövlükdə "ədalətsiz rəqabəti" məhdudlaşdırılan möhkəm hüquqi çərçivənin yaradılması vasitəsilə mümkündür.

"Nizam nəzəriyyəsi" və "konstitusional iqtisadiyyat" bu mənada insana, onun sərbəstliyi və sosial müdafiəsinə istiqamətlənən elmi məktəblər xarakteri daşıyır. Bu nəzəriyyələr əslində azad, iqtisadi səmərəli və dayanıqlı özü inkişaf edən cəmiyyətlərin yaranması üçün əlverişli imkanlar yaradır.

1.2. İqtisadi siyasətin vəzifələri və subyektləri

Bazar iqtisadiyyatı şəraitində iqtisadi siyasətin həll etməli olduğu vəzifə və problemlər müxtəlif yanaşmalarla müəyyənləşdirilə bilər. İqtisadi inkişafın nəticəliliyi və səmərəliliyi baxımından siyasətin vəzifələrinin realizasiyası və müvafiq problemlərin həlli əslində qarşılıqlı asılıdır. Ümumi şəkildə iqtisadi siyasətin əsas vəzifə və problemlərinə aşağıdakıları aid etmək olar:

♦ **İqtisadi sistemin məhsuldarlığının və resursların bölgüsünün səmərəliliyinin təmin edilməsi.** Ölkənin iqtisadi sisteminin effektiv fəaliyyət göstərməsi üçün ilk növbədə iqtisadi nizam yaradılmalıdır. Belə nizam – iqtisadi subyektlərin motivasiyasını təmin edir və onların fəaliyyətini məhdudlaşdırır. Ona görə də qiymətlərin səviyyəsi və gəlir əldə etmək imkanları konkret iqtisadi qərarları şərtləndirir.

♦ **Resursların yenidən bölgüsünün səmərəliliyi və nəticəliliyinin təmin olunması.** Hətta iqtisadi sistemin effektli fəaliyyət göstərdiyi ölkələrdə belə ehtiyatların yenidən bölgüsü dövlətin aktual vəzifələrdən hesab olunur. Bu ilk növbədə mülkiyyət münasibətlərinin tənzimlənməsində çevikliyin təmin edilməsi baxımından vacibdir. Bazar iqtisadiyyatı şəraitində dövlət, mülkiyyət münasibətlərinə özəlləşdirmə, valyuta-maliyyə islahatları və əmlak vergisi vasitəsilə təsir edir.

♦ **Dövlət xərclərinin maliyyələşdirilməsi və dövlət büdcəsinin formalaşdırılması.** Dövlətin davamlı müddət ərzində öz iqtisadi funksiyalarını yerinə yetirməsi, o cümlədən həmin xərclərin maliyyələşdirilməsi üçün ölkənin dövlət büdcəsinin formalaşdırılması və icrası üçün elə bir sistem qurulmalıdır ki, bu iqtisadiyyatda ağır yük yox, əksinə tənzimləyici və stimullaşdırıcı dominanta çevrilsin.

♦ **İqtisadiyyatda dayanıqlığın, inkişafın davamlılığı və tarazlığın təmin olunması.** Bazar münasibətləri və rəqabət mühiti yalnız müəyyən çərçivədə baş verən dəyişiklər və təsirlər qarşısında iqtisadiyyatda stabilliyi təmin edən mexanizmlərin fəaliyyətini mümkün edir. Lakin aydındır ki, faktorların müxtəlifliyi və gözlənilməzliyi, təsirlərin kumulyativ effektinin mümkünlüyü, stabilliyin və inkişafın davamlılığı və tarazlığının təmin edilməsini çətinləşdirir. Bu baxımdan dövlətin iqtisadiyyata müdaxiləsi zərurəti yaranır. Lakin bu müdaxilənin xarakteri və onun parametrləri çox ehtiyatla seçilməlidir, çünki dövlətin düzgün olmayan addımları makroiqtisadi stabilliyi daha ciddi şəkildə poza bilər. Beləliklə bazar iqtisadiyyatı şəraitində rasional stabilləşdirici siyasətin əsas vəzifəsi müxtəlif təsirlərin qarşılıqlı kompensasiya – obsorbasiya edici mexanizmini möhkəmləndirməklə yanaşı, dövlətin iqtisadiyyata mənfi təsirlərini azaltmaqdan ibarət olmalıdır.

♦ **Ətraf mühitin qorunması və ekoloji tarazlığın təmin edilməsi.** Dünyada iqtisadi inkişaf səviyyəsinin yüksəlməsi, insanın təsərrüfat fəaliyyəti nəticəsində qısa və uzunmüddətli dövrlərdə təzahür oluna biləcək iqtisadi problemlərin sayının çoxalmasına gətirmişdir. Buna görə də təsərrüfat fəaliyyəti nəticəsində hansı istehsal üsulu və məhsulunun ətraf mühitə daha çox zərər vurması və ya zərərli tullantıların toplanması mexanizminin necə fəaliyyət göstərməsinin öyrənilməsi təbiətə daha az zərər vuran iqtisadi siyasətin aparılmasına imkan yaradır. Belə siyasət zərərli

tullantıların azaldılması və ya məhsulların istifadə müddətini çoxaltmaqla, ehtiyatlardan istifadənin məhsuldarlığını və nəticəliliyini artırar və təbiətə dəyən zərərin dolayı azaldılmasını təmin edə bilər. Dünyanın inkişaf yolu göstərir ki, əgər dövlət ətraf mühitə zərərli təsiri azaltmaq üçün reaksiya göstərmirsə, iqtisadiyyatda adekvat struktur dəyişikləri aparmırsa, artan istehsal nəticə etibarilə son həddə çata bilər və iqtisadi inkişafı dayandıra bilər.

Ümumi, funksional yanaşma baxımından iqtisadi siyasətin 6 əsas istiqaməti və ya sahəsi fərqləndirilə bilər:

1. İqtisadi fəaliyyəti tənzimləyən hüquqi normalara münasibət siyasəti;
2. İqtisadiyyatın tənzimlənməsi, rəqabətin qorunması və azad ticarətin inkişafı baxımından iqtisadi nizama münasibət siyasəti;
3. İnteqrasiya və xarici iqtisadi siyasət;
4. Təsərrüfat proseslərinə təsir siyasəti;
5. İnkişaf (artım) və struktur siyasəti;
6. Ətraf mühitə təsir siyasəti.

Bazar iqtisadiyyatı şəraitində iqtisadi subyektlərin fəaliyyətinin və planlarının koordinasiyası bazar vasitəsilə azad rəqabət mühiti, sərbəst müqavilə bağlamaq imkanları və sərbəst qiymətqoyma şəraitində həyata keçirilir. Rəqabət mühitinin mövcudluğu məhdud ehtiyatların qiymət mexanizminin fəaliyyətini təmin etməklə, ehtiyatların ilkin bazar bölgüsünü şərtləndirir. Mülkiyyətçilər və ya onların səlahiyyət verdikləri menecerlər istehsal və innovasiya ilə bağlı müstəqil qərarlar verirlər. Bazar qiymətlərindən və gələcək istehsal xərclərindən asılı olaraq gözlənilən gəlir və bir sıra hallarda müəssisənin digər məqsədləri istehsal sferalarının genişlənməsini və inkişafını stimullaşdırır. Belə istehsal sferaları əsasən cəlb olunan kapital vasitəsilə gəlir gətirirlər. Rəqabət mühiti şəraitində iqtisadi subyektlərin uzunmüddətli dövrdə öz qazanclarını maksimuma çatdırmağa çalışmaları istehsal faktorlarının cəmiyyət üçün optimal yerləşməsini təmin edir.

Beləliklə, Pareto mənasında optimallıq şəraiti yaranır. Başqa sözlə, ehtiyatların yenidən bölgüsünün başqalarına zərər vurmadan kimlərinsə xeyrinə dəyişdirilməsinin qeyri-mümkünlüyü şərti yaranır.

Lakin yuxarıda qeyd olunanlar bazarın ideal halında mümkün olur. Təcrübədə isə bazarın özünü tənzimləmə xüsusiyyətləri müxtəlif səbəblərdən zəifləyir. Ona görə də dövlət iqtisadi siyasət vasitəsilə bazarın tənzimlənmə potensialına təkan verməyə məcburdur. Bu baxımdan dövlətin bazar iqtisadiyyatında daha bir neçə mühüm vəzifəsi müəyyənləşmişdir: - Təhsil siyasətli; Əmlak siyasəti; Allokasiya siyasəti (bu siyasət dövlətin istehsal təşəbbüsləri-dövlət sifarişləri və ya bilavasitə dövlətin iqtisadi fəaliyyəti ilə aparılır); Stabilləşdirmə siyasəti; Vəsaitlərin yenidən bölgüsü siyasəti və ya sosial siyasət və s.

Ənənəvi olaraq iqtisadi siyasətin subyektləri dedikdə ilk növbədə dövlət basa düsülür. Lakin bu səthi yanaşma hesab edilməlidir.Belə ki, xüsusilə bazar iqtisadiyyatı şəraitində iqtisadi siyasətin subyektləri cox müxtəlif ola bilir. Həmin subyektlərin sırasına dövlət və onun yerli, regional strukturları ilə yanaşı qeyridövlət ittifaqları və birlikləri aiddir. Aydındır ki, dövlət hakimiyyəti, ictimai xidmətlərin təminedicisi kimi, ayrı-ayrı istehsalçı qruplar ilə müxtəlif istehlakçı, o cümlədən, əhali qruplarının iqtisadi maraqlarının uzlaşmasına xidmət etməlidir. Demokratik cəmiyyətdə, ictimai- siyasi statusa malik struturlar da, iqtisadi siyasətin subyektləri kimi, iqtisadiyyatın tənzimlənməsində iştirak edə bilərlər. Dünya təcrübəsində, iqtisadi siyasətə təsir gücünə malik orqanlar arasında, üstmilli xarakterli orqanlar da fərqləndirilir.

İqtisadi siyasətin qeyri-dövlət subyektlərinə ayrı-ayrı qrupların maraqlarını ifadə edən qurumlar aiddir. İqtisadi siyasətin formalaşması prosesində onun subyektləri arasında daimi mübarizə gedir. İqtisadi siyasətin vəzifəsi, əslində daima yeni razılaşma variantlarının hazırlanmasıdır. İqtisadi siyasət bütövlükdə, «dövlət tənzimlənməsindən» geniş anlayışdır. Dövlət iqtisadi siyasətin həyata keçirərkən onun əsas təşəbbüskarı və icraçısı olur. Makroiqtisadi tənzimlənmənin müvəffəqiyyəti dövlətin totalitarlığında yox, onun rasional siyasət aparmasındadır.

1.3. İqtisadi siyasətin əsas konsepsiyaları və məqsədlər piramidası

İqtisadi siyasət konsepsiyası dedikdə, iqtisadiyyata məqsədyönlü və əsaslandırılmış təsirin qarşılıqlı əlaqəli məqsədləri, prinsipləri, strategiyaları və alətləri sistemi başa düşülür. Belə konsepsiyanın məğzini, iqtisadi siyasətin rasional mahiyyəti fərziyyəsi təşkil edir. Təcrübədə iqtisadi siyasətin əsas tərkib hissələri kimi sosial siyasət, maliyyə-valyuta siyasəti, beynəlxalq inteqrasiya siyasəti, büdcə-vergi siyasəti, regional siyasət, struktur siyasəti və ayrı-ayrı real fəaliyyət sahələrinin siyasəti və s. ayrılır.

İqtisadi siyasətin məqsədləri mahiyyət etibarilə iqtisadi inkişafın xarakteri və potensialı ilə müəyyənləşir. İqtisadi inkişafın qlobal məqsədi -cəmiyyətin maksimum rifah halının təmin olunmasıdır. Lakin bu məqsədin dəqiq kriteriya ilə ifadəsi yoxdur. Ona görə qlobal məqsəddən əlavə əsas məqsədlər qrupu mövcuddur. Onları adətən dövlətin iqtisadi funksiyaları adlandırırlar. İqtisadi siyasətin məqsəd və vasitələrini ierarxik strukturlu piramida formasında sxemlə ifadə etmək olar. Bu məqsədləri öyrənərkən ən vacib metedoloji aspekt onların dialektik əlaqəsinin olması - yəni aşağı səviyyəni məqsədə nail olunmanın yuxarı məqsəd üçün vacibliyinin qəbul olunmasıdır.

Müasir sosial cəmiyyətdə əsas məqsədlərə-cəmiyyətin azad inkişafı və hüquqi qayda-qanunların fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi (buraya daxili və xarici təhlükəsizlik məsələləri də daxil edilir) aid olunur. Belə məqsədlər bazar iqtisadiyyatının çərçivə prinsipləri hesab olunur.

İqtisadi siyasətin əsas məqsədlərindən əlavə praktiki məqsədləri də vardır. İqtisadi təcrübədə və elmi ədəbiyyatda adətən, praktiki məqsəd müəyyənləşdirilir.-iqtisadi artım; tam məşğulluq; qiymət səviyyəsinin və milli valyutanın stabilliyi. Bir sıra iqtisadçılar buraya xarici iqtisadi tarazlıq gəlirlərin ədalətli bölgüsündə aid edirlər.

İqtisadi siyasətin qarşılıqlı əlaqəli məqsədlər toplusunu bir neçə qrupa ayırmaq mümkündür: iqtisadi sistemin məqsədləri

(məsələn, ehtiyatların bazar vasitəsilə bölüşdürülməsi prioritetləri); iqtisadi proseslərin xarakteri ilə bağlı məqsədlər (məsələn, qiymətlərin stabilliyi, tam məşğulluq); iqtisadiyyatın strukturuna təsirlə bağlı məqsədlər (məsələn, xidmət sferasının inkişafı və ya istehsal sektorunun ətraf mühitə zərərli təsirini azaltmaq üçün modernləşdirilməsi). Əhatə müddətinə görə qısa, orta və uzunmüddətli məqsədləri də ayırmaq mümkündür.

İqtisadi siyasətin bütövlükdə mövcudluğu və nəticəliliyi baxımından məqsədlərin müəyyənləşdirilməsi çox vacibdir. Lakin mahiyyətinə görə, məqsədlərin doğru olub-olmadığını, onlara bəslənilən gözləntilərin doğrulmasını yalnız müəyyən vaxt ötdükdən sonra müəyyənləşdirmək mümkündür. Əksər hallarda isə, bu vaxt artıq buraxılmış səhvləri düzəltməyə ehtiyac yaranır. Eyni zamahda nəzərə almaq vacibdir ki, bir çox sahələrdə məqsədlər əvvəlcədən ya ənənələrlə və ya Konstitusiya ilə müəyyənləşə bilir. Siyasətin qalan sahələrində isə məqsəd seçimi sərbəstdir. Məqsədlərin düzgün seçimində yaranmış şəraitin elmi əsaslara təhlili mühüm əhəmiyyətə malikdir.

Belə təhlilin ən həlledici meyarı **Məqsədlərin uzlaşması** və realizasiyasının səmərəlilik məhdudiyyətləri daxilində mümkünlüyü hesab olunmalıdır.

Məqsədlər bir-birinə münasibətdə komplementar (bir-birini tamamlayan), neytral və ya konfliktli (bir-birinə zidd) ola bilər. Əgər məqsədlər konfliktlidirsə, məsələn, A məqsədinə çatmaq üçün atılan hər bir addım B məqsədini uzaqlaşdırırsa, onda məqsədlərin prioritetliyini müəyyənləşdirmək və ya siyasi kompromis tapmaq zərurəti yaranır. Nəzərə almaq vacibdir ki, hətta məqsədlərin qısa müddətli konflikti uzunmüddətli dövrdə öz-özünə həll ola bilər. Əgər eyni vaxtda, bir neçə məqsəd müəyyənləşirsə onda, rasional iqtisadi siyasət baxımından, aşağıdakı kimi bəzi məqamları nəzərə almaq vacibdir.

Məqsədlərin ziddiyyətsizliyi. Məqsədlərin rasional sistemi daxilən ziddiyyətli ola bilməz. Məsələn, əgər bütün partner ölkələr cari tədiyyə balansının müsbət saldoya malik olması məqsə-

dini qabartmağa çalışarsa, onda belə məqsədlər sistemi ziddiyyətli olacaqdır.

Ölkə daxilində məqsədlərin uzlaşması o vaxt baş verə bilər ki, məsələn tədiyyə balansının müsbət saldosu (bu inflyasiyanın artması deməkdir) məqsədlərdən biri kimi qoyulur, eyni zamanda iqtisadi siyasətin əsas məqsədi kimi aşağı inflyasiya səviyyəsinin təmin olunması müəyyənləşdirilir. Məqsədlər nəzəri və təcrübi baxımdan uyuşmazdırsa, onda iqtisadi siyasət konsepsiyası özünü göstərir.

Məqsədlər siyahısının tamlığı. Məqsədlərin siyahısı bütün əhəmiyyətli məqsədləri əhatə etməlidir. Əks halda iqtisadi siyasət konsepsiyasını sistemli və obyektiv təhlil etmək, onun ziddiyyətlərini aşkar etmək mümkün deyil.

Məqsədlərin ierarxiyası. Məqsədlər ən mühüm və az vacib-lərə, ilk növbəli və təcili olmayanlara ayrılmalıdır. Alt məqsədlərə nail olmaq əsas məqsədlərə nail olmaq üçün fundament hesab olunmalıdır (Məsələn məhsuldarlığın artımı iqtisadi artımın əsasıdır). Vaxta görə prioritet ilk növbəli məqsədələrə məxsusdur.

Məqsədlərin açıqlığı. Məqsədlər sistemi elə qurulmalıdır ki, məqsədlərin vacibliyi və onların bir-biri ilə uyğunluğunu müəyyənləşdirmək mümkün olsun.

İcra orqanlarının razılaşdırılması. Hər bir məqsəd üçün onun realizasiyasına məsul təşkilat müəyyənləşdirilməlidir. Bu təşkilat məqsədlərin realizasiyası üçün səlahiyyətlərə malik olmaqla, öz fəaliyyəti haqda hesabatlar verməlidir.

Məqsədlərin həyata keçməsi ehtimalı. Məqsədlər həm siyasi, həm də iqtisadi baxımdan real olmalıdır.

Məqsədlərin ölçü indikatorlarının müəyyənləşdirilməsi. Məqsəd kəmiyyət ifadəsinə malik olmalıdır, yəni elə indikator müəyyənləşdirilməlidir ki, onun vasitəsilə məqsədin hansı dərəcədə əldə olunduğunu təyin etmək mümkün olsun. Belə prosedura "əməliyyatlaşdırma" adlanır. Məsələn, qiymət səviyyəsinin stabilliyi məqsədi, müxtəlif qiymət indekslərinin vasitəsilə müəyyənləşdirilə bilər (ÜDM-in qiymət indeksi və ya həyat səviyyəsi indeksi, yəni istehlak qiymətləri səviyyəsinin dəyişməsi). Lakin

bir mənalı demək olmaz, hansı inflyasiya sürəti - orta illik 1% və ya 2% qiymət səviyyəsinin stabilliyini ifadə edir.

Alətlərin istifadəsinə nəzarət. Məqsədlər elə müəyyənləşdirilməlidir ki, aparilan siyasətin nəticələri imkan daxilində istifadə olunan alətlərlə əlaqələndirilsin. Bunun üçün məsuliyyət, qərar qəbul edənlərin üzərinə düşür. Hökumətin sərəncamında müəyyən məqamlarda olan alət başqa təşkilatlarda, məsələn, Mərkəzi Bankda da ola bilər. Ona görə də belə aləti siyasət aparmaq üçün ideal hesab etmək olmaz. Ən azı ona görə ki, bir-birinə zidd tədbirlərin aparılması təhlükəsi var.

Məqsədlərin seçimini şərtləndirən mühüm bir məqamda **kollektiv qərar qəbulu vasitəsilə məqsədlərin qoyuluşunun** xüsusiyyətləri hesab olunmalıdır.

Nəzərə alsaq ki, demokratik və liberal dəyərlər baxımından məqsədlərin müəyyənləşdirilməsində ən vacibi – fərdin fikridir, onda razılaşmaq lazımdır ki, siyasi məqsədlərin seçimi üçün ya fərdi mülahizələrin aqreqasiyası və ya seçilmiş təmsilçilərin (parlament üzvləri) fikirləri əsas götürülməlidir. Hər bir zəruri halda referendumun keçirilməsi mürəkkəb və bahalı prosedura olduğu üçün, inkişaf etmiş ölkələrdə parlament demokratiyası sistemi mövcuddur və bu sistemdə siyasi məqsədlər, aşağı səmərəliliyə malik olan yekdilliklə səsvermə vasitəsilə yox, çoxluğun səsverməsilə müəyyənləşdirir. Yekdilliklə səsvermə sisteminin müəyyən üstünlükləri olsa da, məsələn bu prinsip faktiki olaraq istənilən halda azlığın hüquqlarını təmin edir, bütövlükdə onun səmərəli olmaması nümunəsi kimi tarixi faktlar çoxdur. Məsələn, XVIII əsrdə Polşada hər bir zadəgan "Liberum veto" hüququna malik idi. Ona görə də düzgün və tez qərar qəbul etmək faktiki mümkün deyildi. Müasir siyasi sistemlərdə isə, effektli qərarların stabil qəbulu əksəriyyətin səs verməsi qaydası, hüquqi dövlət və hakimiyyət bölgüsü, o cümlədən fərdin hakimiyyətinin müvəqqəti məhdudlaşdırılması (bir mandatla) vasitəsilə təmin olunur. Qərarların səs çoxluğu ilə qəbulu və siyasi rəqabət şəraitində kompromissin tapılması problemin həllinin rasionallaşmasına xidmət edir. Lakin nəzərə almaq vacibdir ki, qərarların səs çoxluğu ilə

qəbulunda ***aqreqasiya problemi*** yarana bilir. Çünki əksəriyyət bir-biri ilə rəqabət aparan alternativlərdən yalnız birini seçməlidir. Problem yalnız o halda olmur ki, fərdlərin seçdiyi üstünlüklər eynidir və ya oxşardırlar.

Erroy (Arrow) qərar qəbulunda alternativlər sırasında seçimdə problemin mövcudluğunu əks etdirən "**Qeyri-mümkünlük teoremi**" təklif etmişdir. Bu teoremə görə, aşağıdakı şərtlərin eyni zamanda ölənilməsi şəraitində iki alternativdən birinin seçilməsi mümkün deyil:

- Bütün şəxslərin səs hüququ var, bu isə diktaturanı mümkünsüz edir;
- Yalnız bu iki alternativə münasibətdə üstünlük vermə kollektiv qərar qəbulunu müəyyənləşdirir (başqa alternativlərin təsirini rədd edir);
- Qərar qəbul edənlərin üstünlük vermələrinin bütün kombinasiyaları mümkündür (fərdi üstünlük vermə sistemlərinin qeyri-məhdudluğu);
- Əgər bütün fərdlər II varianta nisbətən I varianta üstünlük verirlərsə, reallaşdırılmalıdır ("pareto - meyarı").

Məqsədlər piramidası. İqtisadi siyasətin məqsədləri nadir hallarda əvvəlcədən apriori məlum olur (məsələn, ənənələrlə müəyyənləşir). Əksər hallarda onları, çağdaş dövrdəki cəmiyyət üzvlərinin təsiri altda olan siyasətçilər müəyyənləşdirir. Konkret məqsədlər isə daha yüksək səviyyəli mücərrəd məqsədlərdən asılı olaraq formalaşır. Məsələn, nümunə üçün aşağıdakı məqsədlər piramidasını göstərmək olar. Ali məqsədi cəmiyyətin max rifahının təmin edilməsi kimi, belə məqsədə nail olunmasını isə cəmiyyətdə sülh, əmlak varidatı, azadlıq və ədalətliliyin təmin olunması kimi qəbul etsək, iqtisadi siyasətin məqsədlərini aşağıdakı kimi konkretləşdirmək olar:

Sülh. Bu məqsədə çatmaq üçün növbədə ölkə daxilində və başqa ölkələrlə müharibə olmaması təmin edilməlidir. Çox vacibdir ki, həm də sosial sülh yaransın, bu həm həmkarlar ittifaqı ilə sahibkarlar arasında münaqişələrin dinc nizamlanmasını (məsələn, əməkhaqları üzrə); həm də müxtəlif ictimai qrupların maraqlarının kompromisini əhatə edir. Xarici sülhü qorumaq üçün ordu, daxili sülhü qorumaq üçün isə hüquqi baza, məhkəmə sistemi vacibdir. Sosial sülhü təmin etmək üçün isə münaqişələrin nizamlanmasının müəyyən mexanizmi və həmçinin müvafiq iqtisadi və sosial siyasət yaradılmalıdır.

Azadlıq. İqtisadi siyasətin məqsədləri kimi bu baxımdan sahibkarlığın sərbəstliyi; sənət və iş yeri seçmə sərbəstliyi, həmçinin istehlak və sərmayə qoyuluşu sərbəstliyi seçilə bilər. Belə azadlıqların təmin edilməsi tədbirləri rəqabətin stimullaşdırılması və təhsil siyasətləri daxilində aparıla bilər.

Rəqabətin nizamlanması siyasəti, bir tərəfdən iqtisadi sərbəstliyi, digər tərəfdən isə əmək bazarında rəqabət aparan müəssisələrin müxtəlifliyini təmin edir. Peşə seçimi və iş yeri seçiminin sərbəstliyini təmin etmək üçün bu, çox vacibdir. Təhsil siyasəti ümumi və peşə təhsili almaq üçün və bütövlükdə məlumatlanmaq üçün geniş imkanlar yarada bilər. Bu zaman dövlətin pulsuz təhsil vermək imkanları mühüm əhəmiyyətə malikdir. Təhsil eyni zamanda rasional istehlak və yığım qərarlarının qəbulunu şərtləndirir. Azadlığın daha başqa mühüm cəhəti hərəkət sərbəstliyidir.

Rifah. Bu məqsəd, adambaşına gəlirin yüksək həddi, ictimai nemətlərlə təminolunmanın yüksək səviyyəsi, təbii ehtiyatların mövcudluğu, əhalinin hər nəfərinin sərbəst vaxtının həcmi və s. kimi göstəricilərlə ifadə edilə bilər. Bu məqsədə istiqamətlənən iqtisadi siyasət, ilk növbədə istehsal faktorlarının (əmək, kapital, təbii / torpaq ehtiyatları və texniki biliklər) müxtəlif təsərrüfatçılıq sahələri arasında səmərəli bölüşdürülməsini həll etməlidir. İşsizlik və istehsal güclərinin yarımçıq istifadəsi, ehtiyatların səmərəsiz xərclənməsi hesab olunur. İşsizliyin səviyyəsi yüksək olduqca, cəmiyyət istehsalı genişləndirə bilər (tam məşğulluğu təmin edənədək) və ya cəmiyyətin bütün üzvləri (ən azı əksəriyyəti) öz sərbəst vaxtlarını daha səmərəli istifadə edə bilərlər. Uzunmüddətli dövrdə istehsal güclərinin tam yüklənməməsi keçmişdə ehtiyatlarin qeyri-səmərəli istifadə olunmasını (indi istifadə olunmayan maşınlar istehsalında) göstərir. Nəhayət daha çox aktivlərin əldə olunması məqsədi də qoyula bilər. Böyük aktivlər həm də

ona görə faydalı ola bilər ki, onlar həm də təhlükəsizlik "mühiti" və ictimai qürur hissi yaradır.

Ədalət. Hər bir cəmiyyətdə ədalət haqda təsəvvürlər müxtəlifdir. Ədaləti bəziləri bərabər əməyə görə eyni miqdarda əmək-haqqı verilməsində; vətəndaşların maddi və qeyri maddi dəyərlərlə təminatında (transfert ödəmələri vasitəsilə sosial ədalətin bölgü su vasitəsilə) bərabərlikdə; dövlət qulluğuna daxil olmaq, cinsi, irqi və dinindən asılı olmayaraq aktiv və passiv seçki hüququna malik olmaq kimi qəbul edirlər. Bütün əhali üçün bərabər imkanlar ayrıca siyasi məqsədlər kimi də qəbul edilə bilər. Belə bərabərliyin əldə olunması üçün isə əsasən təhsil və əmlak siyasəti alətləri istifadə olunur. Ədalətin mühüm bir cəhəti də ondan ibarətdir ki, indiki nəsillər təbii ehtiyatları həddən artıq istifadə edərək gələcək nəsillərin iqtisadi inkişaf imkanlarını azaltmasın. Alt məqsəd kimi tam məşğulluğun təmin edilməsi götürülə bilər. Ədalətlilik yalnız maddi aspektlərlə yox, həm də hamının eyni dərəcədə dövlət qulluğuna daxil olması, açıq məhkəmə, KİV-lərə çıxmaq imkanı və s. məqsədlər toplusuna daxil olmasını əhatə edir.

Ali məqsədlər			
Sülh	Azadlıq	Rifah	Ədalət
Xarici sülh	Azad sahibkarlıq	Adambaşına gəlir	Bölgünün ədalətliliyi
Daxili sülh	Sərbəst rəqabət	İctimai rifah	İmkanların bərabərliyi
Sosial sülh	Informasiya azadlığı	Sərbəst vaxt	Tam məşğulluq
	Hərəkət sərbəstliyi	Təbii sərvətlər	Müxtəlif nəsillərin imkanlarının bərabərliyi
Aralıq məqsədlər			

İqtisadi siyasətiin prinsipləri dedikdə qərar qəbuluna təsir edən, uzunmüddətli xarakterə malik mülahizələr başa düşülür. Belə mülahizələrə, məsələn, bazar qanunlarının uçotu prinsipi və ya xarici istehsalçılara ayrı - seçkiliyin yol verilməzliyi aid edilə bilər.

Prinsiplərin pozulmasına çox nadir hallarda yol verilə bilər. Belə hallara iqtisadi vəziyyətin hədsiz ağır olduğu şərait və ya qərar qəbulu müddətinin böyüklüyü, yəni qərar qəbulu zərurəti yalnız müəyyən məqamlarda yaranan (məsələn, iqtisadiyyatın stabilləşdirilməsinin keynsçi siyasəti) hallar aid edilə bilər. Rasional iqtisadi siyasət baxımından belə hallarda nəzərdə tutulan tədbirlərin əhali üçün vacibliyi əsaslandırılmalı və bu zaman strategiyanın düzgün seçimi, o cümlədən, ölkə daxili və beynəlxalq strategiyaların fərqləndirilməsi təmin edilməlidir. Əks halda iqtisadi siyasəti ölçülüb-biçilmiş hesab etmək olmaz.

İqtisadi siyasət strategiyaları. Rasional iqtisadi siyasətin mühüm tələblərindən birini seçilmiş strategiyaların nəticələrinin dövrü olaraq qiymətləndirilməsi və onun realizasiyasının nəzarətdə saxlanılması təşkil edir. Bu zaman qiymətləndirmə meyarı kimi iqtisadi səmərəlilik, siyasi hərəkətlərin rasionallığı, istifadə olunan metodların rasionallığı (hüquqi normaların qorunması) qəbul edilə bilər. Vasitələrin seçimində isə xərclərin və nəticələrin təhlilini aparmaqla alternativ variantların müqayisəsi məqsədəuyğundur. Bu zaman müddətin ölçüsü xüsusi əhəmiyyətə malikdir. Qısa müddət seçimi məhdudlaşdırır (məsələn, gözlənilən siyasi seçkilər).

Qısa, orta və uzunmüddətli əsas effektlər ictimai məhsulun allokasiyası, bölgüsü və maliyyələşdirilməsi sferalarında müşahidə olunur. Allokasiya sferasında resursların istehlak və ya investisiya məqsədlərinə istifadəsi fərqləndirilirsə, bölgüdə ictimai məhsulun şəxslər və ya nəsillər arasında bölgüsü effektinə baxılır. Maliyyələşmə baxımından isə daxili və xarici maliyyələşmə effektləri nəzərdən keçirilir.

Alətlərin seçiminə gəldikdə isə siyasi hakimiyyətin daşıyıcıları kimi səlahiyyət institutlarını müəyyənləşdirmək vacibdir. Belə institutlar arasında məsuliyyət dəqiq bölüşdürülməlidir. Ayrı - ayrı institutların qarşılıqlı əlaqəsinin problemin effektli həllinə təsirini müəyyənləşdirməkdə mühüm məsələlərdəndir. Institutlar arasında məsləhətləşmələr, koordinasiya və kooperasiyanın aparılması da iqtisadi siyasətin ümumi effektivliyini artırmaq baxımından vacib sayılır.

1.4. İqtisadi siyasətdə xətalar və onlardan qaçmaq yolları

"Dövlət xadimləri cərrahlara bənzəyir, onların səhvləri öldürücüdür"!

Mauriak Fransis,
fransız yazıçısı, 1952-ci il
Nobel mükafatı laureatı

Mahiyyət etibarilə, iqtisadi siyasətin məqsədləri hər bir halda, dövlətin və xalqın mənafelərinə xidmətə hədəflənir. Lakin nəzərdə tutulan fəaliyyətin obyektiv və arzuolunan nəticəlilyini, müxtəlif səbəblərdən, heç də həmişə təmin etmək mümkün olmur. Bu əslində iqtisadi siyasətin predmetinin olduqca mürəkkəb və zərif olması ilə əlaqələndirilə bilər. İqtisadi siyasətdə düzgün olmayan motivlər, institusional iqtisadi sistemin yalançı siqnalları ümumi idarəetmədə səhvlərin yaranmasına səbəb olur. Başqa sözlə, iqtisadi inkişafın oldùqca çox sayda faktorlardan asılı olması, iqtisadi siyasətdə xətaları qaçılmaz edir. Tanınmış alman iqtisadçısı Horst Zibertin fikrincə aparılan siyasətin ən mühüm və ən çətin vəzifəsi mümkün və gözlənilən arzuolunmaz nəticələr haqqında vaxtında siqnallar verməkdir[1].

Dünya təcrübəsində, ilk baxışdan obyektiv meyarlara və adekvat nəticələrə istiqamətlənmiş, və müxtəlif ölkələrdə tətbiq edilmiş, iqtisadi siyasət strategiyalarının çoxsaylı nəticələri göstərir ki, iqtisadi siyasət olduqca həssas və incə yanaşmalar tələb etdiyindən onun realizasiyasının nəticələri, heç də həmişə istənilən kimi olmur. Bu fikrin doğruluğunun sübutu kimi, iqtisadi siyasətin faktiki nəticələrinin aşkarladığı, müxtəlif və ibrətamiz

[1] Х.Зиберт. Эффект кобры. Как можно избежать заблуждений в экономической политике. Пер. с немецкого, СПб, 2003.

xətalarından aşağıdakı iki nümunəni nəzərdən keçirməyi məqsədəmüvafiq hesab edirik.

•İngilis müstəmləkəsi zamanı Hindistanda çoxlu gürzə ilanı yaranmışdı. Hökumət onunla mübarizə üçün hər öldürülən gürzə başına mükafat verməyi qərara alır. Lakin əks effekt yaranır, insanlar daha çox pul qazanmaq üçün ilanları artırmağa başlayır.

•1992-1994-cü ildə neft böhranı zamanı Venesuela hökuməti neft ixracını artırmaq üçün ölkə daxilində neft məhsullarının istehlakını azaltmaq qərarına gəlir. Siyasi səbəblərdən daxili qiymətləri artıra bilmədiyi üçün, hökumət inzibati yola keçir. Qərar verilir ki, cüt günlər cüt nömrəli maşınlar, tək günlər isə tək nömrəli maşınlar işləsin. Venesuelalılar isə çox tez müddətdə çıxış yolu tapırlar. Onlar ikinci maşını alaraq hər gün maşın sürmək imkanı əldə edirlər.

Məsələ ondadır ki, "iqtisadi özünü təminetmə" zərurəti və onun yaratdığı yanaşma məharəti, insanları hər cürə hiyləgərliyə əl atmağa məcbur edir. Çox müxtəlif şəraitdə çalışan adamlar, öz həyatlarını yüngülləşdirmək üçün, cari istehsal və istehlak çərçivəsindən çıxaraq daha geniş baxmağa, bütün imkanlardan bəhrələnməyə çalışırlar.

Müasir iqtisadi nəzəriyyədə bu "assiosativ qabiliyyətlər" termini ilə adlandırılır. Buraya öz fəaliyyətində müxtəlif hiylələrlə, başqalarına zərər vurmamaqla, öz qazanclarını əhəmiyyətli artıranlar da aid edilir. Məsələn Qreqar fon Ressorinin "Məğrib əhvalatlarında" hər malın altı qiyməti müəyyənləşdirilir: kasıblar üçün, varlılar üçün, xaricilər üçün; bu qiymətlər özləri də iki növdür: ağıllı kasıb və axmaq kasıb, ağıllı varlı və axmaq varlı, ağıllı xarici və axmaq xarici üçün qiymətlər müəyyənləşdirilir.

Aydındır ki, hətta bazarda sövdələşən iki nəfərin arasında, kiminsə insafsız hərəkəti mümkündürsə, onda ayrı-ayrı fərdlərlə, kollektivin və ya hökumətin münasibətlərində insafsızlığa daha tez-tez rast gələ bilər. "Gürzə effekti" belə münasibətlərdə hər an yarana bilər. Yəni adamlarda həmişə siyasətçilərin yaratdığı "qaydaları" üstələmək imkanları yarana bilər. Siyasətçilər insan-

ların belə davranışını "sui-istifadə" adlandırırlar. Lakin əslində onların davranışı aparılan siyasətlə şərtləndirilir.

Bir çox iqtisadi problemlər insanların azadlığı və iqtisadi müstəqilliyi məsələləri ilə çıx bağlıdır. Əsas problem ondadır ki, hətta ən yaxşı məramlı dövlət qulluqçusu, hər hansı qaydanı müəyyənləşdirəndə belə, böyük çətinliklərlə üzləşir. Belə ki, o insanların yeni qaydalara mümkün reaksiyası haqda, çox az informasiyaya malik olur. İqtisadi nəzəriyyədə bu "agent-prinsipial" modeli ilə şərh edilir. Prinsipial qaydaları yaradır. Bu hüquq ona ya seçki yolu ilə və ya səlahiyyətli şəxsin qərarı ilə verilir. Agent-vətəndaşlardır. Onlar qaydalar daxilində fəaliyyət göstərməlidirlər. Hökumətin (və ya idarə edən şəxsin) məqsədi – elə qayda yaratmaqdır ki, adamlar özlərini onun istədiyi kimi aparsınlar. Deməli Prinsipial qayda yaradarkən çalışmalıdır ki, adamların mümkün reaksiyaları nəzərə alınsın, o bilməlidir ki, adamların məqsədləri və onların reaksiyasını şərtləndirən amillər hansılardır. Məsələn vergi tutma ilə bağlı Kolberin məşhur ifadəsində olduğu kimi: "Vergi tutma – qazı elə yolmaqdır ki, ən az toxunmaqla daha çox tük qoparmaq mümkün olsun".

İkinci problem ondadır ki, dövlət qulluqçuları qaydaları yaradarkən, ayrı-ayrı firmalarda və iqtisadi sahələrdə vəziyyətin necə olduğunu tam və dəqiq bilmirlər. Ona görə də qərarın necə təsir edəcəyini görə bilmir.

Dövlət və ilkin iqtisadi subyektlər arasında informasiya "assimetrik" paylanır. Ona görə də dövlət əvvəlcədən müəyyənləşdirə bilmir ki, xalq təsərrüfatında bazar sövdələşmələrində iştirakçıların qaydalardan yayılmaları-hansı səviyyədə olacaqdır.*

Başqa sözlə, iqtisadi siyasəti quranların informasiyaların azlığı və bazar sövdələşmələrində iştirakçıların müstəqil davranışı elə şərait və ya nəticələr yaradır ki, bu nəticələri əvvəlcədən görmək mümkün olmur.

Ona görə də, iqtisadi qərar qəbul edən siyasətçi nəzərə almalıdır ki, həyata keçirilən hər bir tədbirin elə nəticəsi yarana bilər ki, onu əvvəlcədən görmək mümkün olmamışdır və ya mümkün deyildir. Bir çox hallarda isə nəticələr gecikən zamanlarla baş

verir. Həm də 2-ci, 3-cü, 4-cü və s. raundlarda nəticələr gözlənilən ilkin effektdən tam fərqlənə bilər. Bu onunla bağlıdır ki, iqtisadi qarşılıqlı asılılıq münasibətləri olduqca mürəkkəb xarakterə malikdir. Ona görə də "ümumi iqtisadi tarazlıq konsepsiyası" yaranmışdır. Bu konsepsiyanın əsas ideyası "hər şey hər şeydən asılıdır", əsas yanaşma üsulu isə "iqtisadiyyata bütöv sistemi baxılmalıdır" kimi müəyyənləşir. İqtisadiyyat elə bir mürəkkəb sistemdir ki, hər bir dəyişiklik orada çoxlu müxtəlif effekt yaradır. Bu effektlər - nəticələrin "xərcləri" hesab olunmalıdır. Məsələ ondadır ki, gözləmələrin dəyişməsi ilə yanaşı, əhatə edən həqiqətlərin paradiqması da dəyişir. Məhz bu zaman insanlar hər şeyi yenidən dəyərləndirməyə cəhd edirlər. Anlaşılmazlıqlar, yeni mülahizələrlə izah olunur, köhnə sistemin qalıqları üzərində yeni qarşılıqlı münasibətlər yaranır.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, ictimai strukturları şərh edən iqtisadi modellərdə, mütləq kəmiyyət dəyişikliklərinin, keyfiyyət dəyişikliklərinə keçməsini mümkün edən "kandar qiymətləri" müəyyənləşdirilməlidir. Çünki iqtisadi sistemlərdə qarşılıqlı asılılıqlar determinləşdirilmiş deyildir, onlar qeyri-müəyyənliyə malikdirlər və tam dəyişənə qədər addım-addım stoxastik dəyişə bilərlər. Belə şəraitdə isə sistemi tarazlıqdan çıxaran amillər, tarazlığı təmin edən amillərdən az əhəmiyyətli deyildir.

Aydındır ki, böyük dəyişikliklər dövrü, siyasətçilər üçün çox risklidir, çünki artıq keçmiş - gələcək üçün nümunə ola bilmir. Dəyişikliklər çox asanlıqla hakimiyyətə qarşı çevrilə bilər. Lakin siyasətçi vəziyyəti öz mənafeyinə doğru dəyişə bilər.

Otto fon Bismark bunu belə izah edir: "Dünya tarixi özünün böyük məqamlarına - dayanacaqlarına stabil sürətli qatar kimi yaxınlaşmır. O, irəliyə doğru qeyri-müəyyən gücə malik sıçrayışlarla hərəkət edir. Baxmaq lazımdır ki, tarixin yürüşü arxasından Allah görünürmü, və onda yürüş qatarına tullanaraq kənardan tutmaq lazımdır ki, o səni nə qədər lazımsa o qədər aparsın".

Yuxarıda şərh olunan mülahizələr, fərdlərin qaydalara mümkün reaksiyasına və onunla bağlı olaraq qaydaların necə hazırlanmasına həsr olunmuşdur. Burada ən vacib məqamlardan biri,

qanunvericinin (prinsipialın) legitimliyi və onun hansı səviyyədə, həqiqətən, fərdlərin marağını qoruması hesab olunur. Dünyanın əksər ölkələrinin təcrübəsi göstərir ki, əslində prinsipial – agent modeli həmişə düz işləmir. Çünki prinsipial əslində siyasətçilər yox, onların hesabat verdikləri vətəndaşlardır. Vətəndaşların könüllü razılığı əsasında, qərar qəbulu ictimai institutlara verilə bilər. Lakin bu, uzunmüddətli evolyusiyalı inkişaf tələb edir. Bazar sövdələşmələrində, qeyri müəyyənliyin aradan qaldırılması və iştirakçıların faydalılıq səviyyəsi və alternativ xərcləri müəyyənləşdirilməsi üçün, əsas institusional qaydalar, mülkiyyət və istifadə hüquqlarıdır.

Konstitutsiya məhz belə funksiyanı həyata keçirir. Konstitusiya – hər bir vətəndaşa dair qərar verə biləcək mərkəzi hakimiyyəti formalaşdırır. Belə hakimiyyətə isə həmişə nəzarət lazımdır.

1995-ci ildə Nobel mükafatı almış, amerikan iqtisadçısı R.Luksın "Rasional gözləmələr nəzəriyyəsinin", əsas istinad nöqtəsi ondadır ki, – fərdlər qarşılaşdığı hər bir şeyi diqqətlə qiymətləndirir. Bu nəzəriyyəyə görə, bazar əqdlərinin iştirakçıları, bazardakı proseslər haqda təsəvvürlərə malikdirlər və proseslərin doğuracağı nəticələri, əvvəlcədən hesablaya bilirlər. Ona görə də, siyasətçilər nəzərə almalıdırlar ki, bazar iştirakçıları onların hər bir çağırışına, "rasional gözləmələr tərəzisi" ilə gələcəkdir. Yəni siyasətçilərin fəaliyyət dairəsi məhduddur. Avraam Linkolnun dediyi kimi "Ayrı-ayrı adamları həmişə aldatmaq olar, hamını da bir müddət aldatmaq olar, ancaq hamını, həmişə, aldatmaq olmaz".

Beləliklə iqtisadi siyasətin əsas problemi doğru və səhv stimullar arasında düzgün seçim etməkdir.

• Məhşur Avstriya filosofu Frois Qrilpalseçin (1791-1872) təbirincə hər bir xəta (azma) üç mərhələdən keçir: birinci mərhələdə o heçdən doğurur, ikinci də onu qəbul etmək istəmirlər, üçüncü də isə artıq onunla heç nə etmək olmaz.

• İqtisadi siyasət diskresion xarakter almışdır. Hökumət spontan fəaliyyət göstərək böhran – menecerinə, və ya yangınsöndürənə çevrilir. İndi siyasətçilər C.Keynisin məşhur ifadəsində olduğu kimi düşünürlər - "Uzunmüddətli dövrdə biz hamımız

öləcəyik". Yəni siyasətçilər qısamüddətli dövrdə nəticələr almaq məqsədi ilə fəaliyyət göstərirlər, ona görə də uzunmüddətli effektləri boğmağa çalışırlar.

• "İkinci ən yaxşı" nəzəriyyəsinə görə optimumun ("birinci ən yaxşı") əldə etmək üçün zəruri olan şərtlərdən biri yoxdursa, onda "ikinci ən yaxşını" əldə etmək üçün optimumun qalan şərtlərinin hamısının ödənilməsi vacib deyildir. Məsələ ondadır ki, bəzi tədbirlər ancaq müəyyən şərtlər daxilində müsbət nəticə verir, başqa hallarda isə həmin tədbir əks məhsuldar ola bilir.

Nobel mükafatı laureatı (1988) Moris Alle isə, iqtisadiyyatın səmərəliliyinin təmin olunması şərtlərini daha vacib hesab edərək, iqtisadi siyasətin əsas vəzifəsinin cəmiyyətin öz qarşısına qoyduğu inkişaf məqsədlərini müəyyənləşdirmək yox, həmin məqsədlərin qarşılıqlı uzlaşmasını və istifadə olunan vasitələrin həmin məqsədlərə nail olunması üçün ən əlverimlisi olmasını göstərmək kimi təsbit edir*.

Onun təbirincə, istənilən siyasi sistemin əsas məqsədini, insanlara adətən uyuşmaz olan məqsədlərini həyata keçirmək üçün zəruri olan norma və qaydaların formalaşdırılması təşkil edir. Mahiyyət etibarilə isə, belə norma və qaydaların öyrənilməsi və yaradılmasında aparıcı rolu siyasətçilərə yox, məhz iqtisadçılara məxsusdur.

1.5. İqtisadi siyasətin formalaşdırılması və realizasiyasının təşkilində icraçıların seçimi və koopdinasiyanın zəruriliyi

İqtisadi siyasətin həyata keçirilməsinin ən mühüm məqamlarından biri siyasətin ayrı-ayrı istiqamət və sahələrinin, müxtəlif idarəetmə orqanları və ya təşkilatları arasında bölüşdürülməsidir. Bu adətən stasionar, daimi xarakter daşıyan məsələləri əhatə etməklə, əslində özündə, iqtisadiyyatın dövlət idarəetməsi siste-

* М.Алле. Условия эффективности в экономике, М., 1998.

minin yaradılmasını ehtiva edir. Dövlət iqtisadi idarəetmə stukturu, ümumdövlət idarəetmə sisteminin tərkib hissəsi olmaqla, qanunvericilik bazası üzərində formalaşdırılmış, nisbi fəaliyyət avtonomluğuna malik, sistem xarakterli, institusional müstəvidir. İqtisadi idarəetmə sisteminin stasionar xarakterinə rəğmən, müvəqqəti xarakter daşıyan, xüsusi problemlər yarandıqda, bu sistemin funksional çərçivəsi daxilində, ayrıca strukturlar yaradıla bilər.

Siyasəti reallaşdıran təşkilatlar sistemi yarandıqdan və onların səlahiyyət dairəsi müəyyənləşdikdən sonra, iqtisadi siyasətin konkret vəzifələrinin, onlar arasında bölüşdürülməsi baş verir. Bu zaman ən vacib və çətin problem, səlahiyyətlərin müəyyənləşdirilməsində *subsidarlıq* prinsipini qorumaqla mərkəzləşmə dərəcəsini müəyyənləşdirməkdir.

Subsidarliq prinsipi – problemin həlli səlahiyyətlərinin ən aşağı səviyyədə olan təşkilata verilməsidir. Bu prinsipə əməl olunması bir sıra problemlərin həllində, məsələn kommunal və regional səviyyəli təşkilatların nisbətən üstünlüyünü təmin edir. Əslində bu onunla izah olunur ki, "öz müqəddəratını müəyyənləşdirmə" və məsuliyyət prinsipləri, siyasi sferada, maksimum şəffaflığın olmasını zəruri edir. Lazımsız dövlət müdaxiləsi və səmərəsiz siyasi qərarlardan qaçmağın ən yaxşı yollarından birini, məhz zəruri qərarların daha aşağı səviyyədə qəbul edilməsi təşkil edir.

Nəzərə almaq vacibdir ki, siyasi qərarların qəbulu, ictimai rifahın qiymətləndirilməsi ilə oxşardır. Yəni, optimal qərarın qəbulu üçün çox adamların fikrini öyrənmək vacibdir. Təbiidir ki, burada da "ictimai rifah" teoremində rast gələn "biletsizlik problemi" (free rider), yəni üstünlük vermənin səhv olması halına rast gəlmək olar.

Qərarların, xüsusi ilə iqtisadi qərarların, effektliyi üçün, qərar qəbulu və zəruri tədbirlərin görülməsi ilə bağlı xərclərin, bütövlükdə həcmi, nisbətən az və əksinə, problemin həlli haqda qərarın gözlənilən yekun faydalılığı, böyük olmalıdır. Bu şərtin ödənilməsi, müvafiq təcrübənin toplanması sisteminin təşkilini və xüsusi biliklərin olmasını tələb edir. (Məsələn, arxivləşdirmənin köməyi ilə müxtəlif ssenarilərin təhlili, modellərin yaradılması və

qiymətləndirilməsi kimi ola bilər). Lakin eyni zamanda, nəzərə almaq vacibdir ki, qərarların yüksək səmərəliliyi haqda ancaq o vaxt danışmaq olar ki, iqtisadi siyasət tədbirlərinə cəlb olunan şəxslərin hamısının istəkləri (üstünlükləri) və bütün xalq təsərrüfatı xərcləri, o cümlədən aparılan tədbirlərlə bağlı xərclər nəzərə alınıbdır. Əksər hallarda bunun üçün xərclərin və nəticələrin mürəkkəb və ətraflı hesabatını tərtib etmək lazımdır.

Qərar qəbulu ilə bağlı xərclər, onun üçün tələblərin (məsələn, səsvermədə həlledici çoxluğun tələb olunması) və səsvermə hüququna malik olanlar arasında fərqlərin artması ilə çoxalır. Ancaq qərar qəbulunun möhkəm qaydası, cəmiyyətdə psixoloji mühiti yaxşılaşdırır. Çünki belə qayda, hər bir təklifin ,bütün fikirləri nəzərə almadan qəbul edilməsi (birsəslə qəbul qaydası bu ehtimalı sıfır edir) ehtimalını azaldır və qərarların qəbulunun kimlərinsə maraqlarından asılı olmaması üçün əlverişli şərait yaradır.

Müasir iqtisadi siyasət modelinin yaradıcılarından hesab olunan Byukenen və Tallok təsdiq edir ki, qərarın limit xərcləri, limit faydalılığına bərabər olduqda onu optimal qərar kimi qəbul etmək olar*.

Qərarın iqtisadi faydalılığı, onun daha məqsədəuyğun olması və daha az mənfi törəmə effektlər yaratmasından asılıdır. Düzgün həll, optimal informasiyaya malik olmaqdan asılıdır. Optimal informasiyanı isə, yaxşı qarşılıqlı əlaqə mexanizminə malik, paylanmış sistemdən əldə etmək olar. Siyasi qərarın qəbulu sistemi nə qədər çox mərkəzləşmişdirsə, informasiya əlaqəsinin keyfiyyəti, o qədər pis olur (mərkəzləşmiş idarəetməyə malik iqtisadi sistemlərdə ən mühüm problem). Mərkəzləşmənin güclənməsi ilə, regionlar və inzibati strukturlar arasında rəqabət zəifləyir, nəticədə əhali üçün faydalı ola biləcək, rəqabət aparan ideya və planların sayı azalır. Qərarların təsirinə məruz qalacaq şəxslər, onun qəbulunda iştirak edirsə, onda seçki vasitəsilə bu və ya başqa tədbirin aparılmasına, razılıq və narazılılığı ifadə etmək olar.

---

* Р.М.Нуреев. Теория общественного выбора, М., 2005.

Ona görə də, siyasi qərarın qəbulunda, bu qərarın təsir edəcəyi şəxslərin, maraqlarını qorumaq zərurəti yaranır.

Yüksək dərəcədə, kollektiv istifadəyə malik olan rifahın (yəni bu rifahdan eyni vaxtda daha çox seçici istifadə edir) idarə olunmasını, daha yuxarı səviyyənin səlahiyyətlərinə, aid etmək, məqsədə uyğundur. Məsələn, xarici təhlükəsizlik, valyuta qanunvericiliyi, rəqabət mübarizəsini tənzimləyən hüquqi normalar və s. kimi, ölkənin bütün əhalisinin həyatına təsir edən sferaları, milli səviyyəli səlahiyyətlərə, aid etmək məqsədəuyğundur. Lokal səviyyəli məsələlərə, əhaliyə bilavasitə təsir edən sahələri, məsələn, ictimai nəqliyyat, kommunal problemlər və s. aid olunması daha effektli hesab olunur. İqtisadi siyasətin realizasiyası zamanı, lokal və beynəlxalq səviyyədə «kənar effektlər» yarana bilər. Lokal səviyyədə, ölkədaxili inzibati vahidlər arasında problemlər, danışıqlarla tənzimlənə bilir. Beynəlxalq səviyyədə yaranan problemlərlə bağlı isə, başqa ölkələrin əhalisi, səsvermə vasitəsilə öz münasibətlərini bildirmək hüququna malik deyil. Çünki, səsvermə hüququ milli sərhədlərlə məhdudlaşır.

Əhalinin geniş kütləsinin maraqlarını, daha yaxşı təmin etmək üçün, daha az mərkəzləşdirilmiş siyasi strukturların yaradılması və siyasi proseslərin dəqiq təşkilinə çalışmaq lazımdır. Bunun üçün dəqiq prosessual qaydaların yaranması və siyasi ballastın (əsas məqsədə birbaşa xidmət etməyən yük) aradan qaldırılması (o cümlədən dövlət müəssisələrinin özəlləşdirilməsi) vacibdir. Burada «subsidarlıq» prinsipini tətbiq etmək məqsədəuyğundur.

İqtisadi siyasətin bir çox sahələri, ilk baxışdan təcrid olunmuş xarakterli, müxtəlif idarələrin qərarları isə, razılaşdırmaya ehtiyacı olmayan kimi görünə bilir. Lakin müasir iqtisadi həyatın mürəkkəb qarşılıqlı əlaqələri, iqtisadi siyasətdə, müxtəlif idarələrin fəaliyyətinin diaqonal koordinasiyasını (həm horizontal, həm də şaquli koordinasiyanı) zərurətə çevirir. Əks halda razılaşdırılmış iqtisadi siyasətin aparılması mümkün deyildir. Real təcrübədə, belə koordinasiyanı aparmaq üçün, ilk növbədə idarələrarası işçi qruplar yaradılır, daha sonra, birgə fəaliyyətin maliyyələşdirilməsi zərurəti yaranırsa, maliyyə idarəsi, həmin idarələrin dolayı koordinasiyasını təşkil edir. Bu onunla izah olunur ki, dövlət bücəsinin vəsaitləri məhduddur. Məsələn, ətraf mühitin qorunmsına yönələn bəzi tədbirlər, həmin regionda, iqtisadi fəaliyyətin cəlbediciliyinin aşağı düşməsinə və vergi daxilolmalarının azalmasına səbəb ola bilər. Bunun əksi də ola bilər. Məsələn, investisiya mühitinin yaxşılaşdırılması ekoloji situasiyanı pisləşdirə bilər.

Müxtəlif idarələrin fəaliyyətinin koordinasiyası, digər başqa sahələrdə də zəruri ola bilər. Məsələn, rəqabətin və xarici iqtisadi siyasətin stimullaşdırılması tədbirlərinin razılaşdırılması həmişə vacibdir. Koordinasiyanın, yalnız vertikal xarakterli, yəni müxtəlif qərar qəbulu səviyyələrində (mərkəzi və yerli), fəaliyyətin uzlaşdırılması kimi qəbul edilməsi kifayət deyil. Horizontal koordinasiya (regionlar arası) və dioqanal koordinasiya da vacibdir. Hər bir səviyyədə idarəetmə institutları elə formalaşdırılmalıdır ki, hər üç tələb asanlıqla reallaşa bilsin.

Səmərəli iqtisadi siyasətin mühüm atributlarından biri, məsələlərin rasional bölgüsüdür. Belə bölgünün ən mühüm meyarlarına, xərclərin həcmi ilə yanaşı, siyasi qərarın açıqlığı dərəcəsi, vətəndaşlara yaxınlığı və yeniliklərin intensivliyi aiddir. Yeniliklərin intensivliyi dedikdə, ideya və konsepsiyaların rəqabəti başa düşülür. Belə rəqabət, investisiya mühitinin milli və beynəlxalq rəqabətliliyi şraitində, mobil istehsal faktorlarının cəlbi üçün, əlverişli imkanlar yaraldılmasında mühüm rol oynayır.

İqtisadi siyasətdə qərar qəbulunun mühüm bir əlamətini də, məsələlərinin şaquli bölgüsünün xüsusiyyətləri təşkil edir. Dünya təcrübəsində, bazar iqtisadi münasibətləri şəraitində, ümumdövlət miqyaslı məsələlərin hansı səviyyədə həll edilməsi, siyasi yolla müəyyənləşir. Məsələn, Avropa İttifaqı çəçivəsində, Maastrixt müqaviləsində təsbit olunmuş subsiarlıq prinsipi, hər bir müvafiq məsələnin həlli modelini müəyyənləşdirir. Avropa İttifaqı bilavasitə, ancaq elə məsələləri həll edə bilr ki, onları milli səviyyədə, adekvat həll etmək mümkn deyildir. Bütövlükdə qeyd olunduğu kimi, subsidarlıq prinsipi tələb edir ki, qeyri müəyyənlik olduğu təqdirdə, məsələlərin həlli səlahiyyətini, mümkün olan ən aşağı

səviyyəyə həvalə etmək lazımdır. Lakin bu, heç də o demək deyildir ki, məsələlərin həllində, səlahiyyətlərin bölgüsü dəyişməz olmalıdır. Çünki, zaman ötdükcə, ayrı-ayrı səviyyələrdə, qərar qəbulunun nisbi səmərəliliyi, dəyişə bilir. Ona görə də, bölgünün rasionallığını saxlamaq üçün, müstəqil ekspertlərdən ibarət komissiya, bölgünün səmərəliliyini sistematik olaraq yoxlamalıdır.

Subsidarlıq prinsipi, əhaliyə ən yaxın səviyyədə, qərar qəbulunu məqsədəuyğun hesab etməklə idarəedicilərin fərdi məsuliyyətini təmin edir.

Dar mənada subsidarlığı – qərar qəbulunda sərbəstliyi dövlətə yox, təşkil olunmuş ayrı-ayrı qruplara vermək üstünlüyü kimi də şərh etmək olar.

FƏSİL 2. İQTİSADİ SİYASƏTİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

İqtisadi siyasətin başlıca vəzifəsinin nəticə etibarilə inkişafın sürətlənməsi və onun keyfiyyətinin yüksəldilməsi, sərf olunan resursların nəticəliliyinin artırılması olması, mülahizəsini əsas götürdükdə, siyasətin inkişaf modelinə adekvatlığının təmin olunması baxımından qiymətləndirilməsi, daha düzgün hesab olunmalıdır. Dünya təcrübəsi, ayrı-ayrı ölkələrin iqtisadi inkişaf yolunun nəticələri göstərir ki, inkişaf modeli və bu modellərin əsaslandığı nəzəri konsepsiyalar, əslində, dövrün inkişaf səviyyəsi, elmi-texniki tərəqqinin xüsusiyyətləri və ölkənin milli - tarix dəyərləri ilə səciyyələnir. Bununla belə, yuxarıda qeyd olunduğu kimi, iqtisadi siyasət, bir sıra ilkin mülahizələri, o cümlədən inkişaf modeli və müvafiq nəzəriyyənin, tələb və xüsusiyyətlərini nəzərə alaraq formalaşdırılırsa, inkişafın keyfiyyətinə ciddi təsir etmək imkanına malik olur. İqtisadi inkişaf nəzəriyyələri, geniş diapozona və fərqli analtik tədqiqat aparatına malikdir. Həmin nəzəriyyələri, müxtəlif meyarlarla qruplaşdırmaq və qiymətləndirmək mümkündür.

2.1. İqtisadi inkişaf nəzəriyyələri: şərtləndirən amillər və aparıcı meyilləri

İqtisadi sistemin inkişafını izah edən iqtisadi dinamika nəzəriyyələrinin iki əsas istiqaməti vardır: iqtisadi inkişafın **artım nəzəriyyələri və dövrülük nəzəriyyələri.**

İqtisadi inkişafın artım nəzəriyyələri. Müasir iqtisadi nəzəriyyə, artımı, istehsalın öz təbii səviyyəsinə görə qısa müddətli artıb-azalması kimi yox, məhsuldar qüvvələrin inkişafı nəticəsində, real istehsal həcminin, uzun müddətli dəyişməsi kimi izah edir. Bu halda, bir tarazlıq vəziyyətdən digərinə doğru, inkişaf edən istehsalın potensial həcmi, tədqiqat obyektinə çevrilir. Real iqtisadi artımın mahiyyəti, iqtisadiyyatın potensial ehtiyatlarının məhdudluğu və ictimai tələbin sonsuzluğu kimi, əsas ziddiyyəti-

nin, yeni səviyyədə həll olunmasındadır. İqtisadiyyatın bu əbədi probleminin iki həll yolu var: - istehsal gücünün artırılması və ya mövcud güclərdən daha səmərəli istifadə olunması. Aydındır ki, iqtisadi subyektlər, həmişə yeni artıma çalışırlar. Lakin real inkişaf, heç də həmişə, potensial imkanlara müvafiq olmur.

İqtisadi artımın əsas və inteqral məqsədləri, əhalinin rifah halının yaxşılaşdırılması və milli təhlükəsizliyin təminatıdır. Əhalinin rifah-halının yaxşılaşdırılması məqsədi isə, bütövlükdə aşağıdakı göstəricilər – meyarlarda konkretləşir:

- *Əhalinin adambaşına gəlirlərinin artımı.* Bu adambaşına düşən milli gəlirin artım sürətində əks olunur;
- *Sərbəst vaxtın artması.* Bu ümumi milli məhsul və ya milli gəlirdə əks olunur. Onu qiymətləndirmək üçün iş günü, həftəsi, əməkçilərin təqaüdə qədərki ümumi iş stajı və s. dəyişməsi əsas götürülür.
- *Milli gəlirin bölgüsü.* Bu milli gəlirin, əhalinin ayrı-ayrı təbəqələri arasında paylanmasının yaxşılaşmasını ehtiva edir. Yəni, milli gəlirin artımı onun paylanmasının yaxşılaşması ilə müşayiət olunmursa belə artırnı adekvat hesab etmək olmaz.
- *İstehsal olunan məhsul və xidmətlərin müxtəlifliyinin çoxalması və keyfiyyətin yaxşılaşması.* Bu göstərici milli gəlirin tərkibinə birbaşa yox, dolayı, yəni tələbin artması vasitəsilə təsir edir.

Təcrübə göstərir ki, bütövlükdə iqtisadi inkişafın sürəti və keyfiyyəti arasında müəyyən ziddiyyət və ya uyuşmazlıq vardır. Ona görə də bir çox iqtisadçılar, dayanıqlı xarakterə malik 2-3%-lik artım sürətini, daha məqsədəuyğun hesab edirlər.

İqtisadi artım faktorlarını, təsir formasına görə, birbaşa və dolayı faktorlara ayırırlar. **Birbaşa faktorlar,** məcmu istehsal və təklifin dinamikasını müəyyənləşdirən aşağıdakı beş qrupdan ibarətdir:

- əmək ehtiyatlarının sayının və keyfiyyətinin yaxşılaşdırılması;
- əsas kapitalın həcminin və tərkibinin keyfiyyətinin yaxşılaşdırılması;
- istehsalın texnologiyası və təşkilinin yaxşılaşdırılması;

- təsərrüfat dövriyyəsinə cəlb olunan təbii ehtiyatların kəmiyyət və keyfiyyətinin yaxşılaşdırılması;
- cəmiyyətdə sahibkarlıq qabiliyyətinin yüksəldilməsi.

İqtisadi artıma təsir edən **dolayı faktorlara** - bazarın inhisarlaşma səviyyəsinin aşağı salınması; istehsal ehtiyatlarının qiymətinin azalması; gəlir vergisinin azaldılması, kredit alınması imkanlarının genişləndirilməsi və s. aiddir. Dolayı faktorlar sırasında, tələbin strukturu və bölgünün xarakteri də çox mühüm əhəmiyyətə malikdir. Tələbin tərkibində isə istehlak, investisiya və dövlət xərclərinin həcmi, ölkənin ixrac etdiyi məhsulların dünya bazarında rəqabət qabiliyyətliliyi vacibdir. Tələbin artımı, istehsalın real inkişaf sürətindən geri qaldıqda, artım sürətinin aşağı düşməsi baş verir və bu inkişafın ləngiməsi effektini doğurur.

Bölgünün xarakterinin iqtisadi artıma təsiri isə, aşağıdakılarla müəyyənləşir:

- istehsal ehtiyatlarının, sahələr və müəssisələrdə faktiki allokasiyası;
- təsərrüfat subyektləri arasında gəlirlərin bölüşdürülməsi qaydası.

Bölgünün, artımın keyfiyyətinə ən yaxşı təsiri, ölkədə maksimum faydalı, məhsul istehsalının təmin olunması və istehsal faktorları sahiblərinin gəlirlərinin, artım sürətinin, məhsuldarlığın artım sürətinə müvafiqliyi şəraitində baş verir.

Məhsulun artım sürəti ilə, istehsal faktorlarının həcminin dəyişməsinin nisbəti, iqtisadi artımın tipindən asılıdır. Nəzəri cəhətdən, iqtisadi artım və onun birbaşa faktorları, iki növ – intensiv və ya ekstensiv ola bilər. Doğrudur, təcrübədə artım tipləri, «təmiz» şəkildə mövcud olmur. Çünki, artım faktorlarının təkmilləşdirilməsi, ETT tətbiqi əsasında baş verir. Bu isə istehsal vasitələrinə və ya işçi qüvvəsinə investisiya qoymaq deməkdir. Yəni, nəticə etibarilə, keyfiyyətin mütləq yaxşılaşması baş verir. Ona görə də, real iqtisadi prosesləri tədqiq edərkən, ***əsasən intensiv*** və ya ***əsasən ekstensiv*** artım tipləri təsnifləşdirilir.

Dünya təcrübəsində, artımın tipi müəyyənləşdirilərkən, real ÜMM-in artım sürətində, intensiv faktorların xüsusi çəkisi, əsas

götürülür. Həmin faktorların xüsusi çəkisi, 50%-dən çox olduqda, iqtisadi artım intensiv tipli, əks halda isə, ekstensiv tipli hesab olunur. Məsələn, 70-80-ci illərdə SSRİ-də intensiv faktorların milli gəlirin artımında payı 20-30%, inkişaf etmiş kapitalist ölkələrində isə 50%-dən çox olmuşdur.

İstehsal prosesində istifadə olunan, əmək və kapitalın nisbətlərini müəyyənləşdirən, makroiqtisadi göstəricilərin dəyişməsinə təsirin xarakterinə görə ETT-in bir neçə növü fərqləndirilir:

- Əməyin kapital tutumunun, hər bir müəyyən qiymətinə (K/L -const) istehsal faktorlarının limit məhsuldarlıqlarının eyni nisbətləri uyğun gəlirsə, başqa sözlə $\Delta Y_t/\Delta L_t = \Delta Y_t/\Delta K_t \rightarrow$ hər bir t dövrü üçün stabil olduqda , ***Xiksə görə*** **neytral ETT** var. Əməyin kapital tutumunun sabitliyi şəraitində, əməyin limit məhsuldarlığı ($\Delta Y_t/\Delta L_t$), kapitalın limit məhsuldarlığına ($\Delta Y_t/\Delta K_t$) nisbətən daha sürətlə artarsa, əməyə qənaətli, əks halda isə kapitala qənaətli, texniki tərəqqi olması qəbul edilir.

- Elmi texniki tərəqqi inkişaf etdikcə, əmək məhsuldarlığının müəyyən orta qiymətinə, əmək məhsuldarlığının limit qiyməti uyğun gəlirsə, yəni Y_t/L_t – const ; $\Delta Y_t/\Delta L_t$ – const olursa, belə növ tərəqqi ***Solouya görə*** **neytral ETT** adlanır.

- Kapitalın limit məhsuldarlığının sabitliyi şəraitində ($\Delta Y_t/\Delta K_t$ - const), onun orta məhsuldarlığı sabit qalırsa (Y_t/K_t - const) onda elmi texniki tərəqqi ***Harroda görə*** **neytral** adlanır.

İqtisadi nəzəriyyədə artım problemi, «uzunmüddətli» və «hədsiz uzunmüddətli» dövrlər üçün öyrənilir. İkinci halda, ən çox tətbiq edilən nəzəriyyə, «iqtisadi artım mərhələləri» konsepsiyası adlanır. Onun mahiyyətini, cəmiyyətin inkişafındakı keyfiyyət evalyusiyasının qiymətləndirilməsi təşkil edir və əsas məqsəd, hər mərhələdə, cəmiyyətin inkişaf xüsusiyyətlərinin müəyyənləşdirilməsindən ibarətdir. Cəmiyyətin inkişaf mərhələlərinin təsnifatında iki məşhur konsepsiya vardır:

K.Marksın «formasiya nəzəriyyəsi». Bu nəzəriyyənin mahiyyətini, hər bir inkişaf səviyyəsində mövcud olan, «istehsal qüvvələrinin», «istehsal münasibətlərinə» müvafiqliyi təşkil edir.

Bu iki kateqoriyanın üzvü vəhdəti, «istehsal üsulunu» yaradır və iqtisadi bazis üzərində sosial-siyasi üstqurum formalaşır. Bu nəzəriyyənin ən böyük fərqləndirici cəhəti inkişafın determinləşdirilməsidir. Məhz ona görə də Marks formasiyaları bir-birini inqilablarla əvəz edir və kommunizmlə bitir.

U.Rostounun «iqtisadi artım mərhələləri» nəzəriyyəsi isə əksinə, evolyusiyalı inkişafın mövcudluğunu əsas götürür. Rostou iddia edir ki, tarixi iqtisadi inkişafın əsasında üç ümumiləşdirici cəhət dayanır: - texnikanın inkişaf səviyyəsi; iqtisadi artım sürətinin yığım norması; istehlak norması. Bu cəhətlərin keyfiyyət fərqliliyinə görə Rostou iqtisadi inkişafın beş mərhələsini fərqləndirir.

1. Ənənəvi və ya sinifli cəmiyyət. Onun əsas əlamətləri: kənd təsərrüfatının üstünlüyü, iqtisadiyyatda statik tarazlıq, aşağı yığım norması, istehsalçıların ETT-ni inkar etməsi, yüksək əhali artımı. Aşağı iqtisadi artım və əhalinin yüksək artımı, gəlir səviyyəsi və əhalinin sayının stabilləşməsinə gətirir.

2 Yüksəlişə doğru inkişaf üçün şəraitin yaradılması dövrü. Bu dövr istehsalın səmərəliliyinin və iqtisadi artımın təmin olunması üçün şəraitin tədricən yaradılması ilə xarakterikdir.

3. Yüksəliş dövrü. Onun əsas əlamətləri, milli gəlirdə yığım normasının artırılması, ETT-nin nəaliyyətlərinin tətbiqi vasitəsilə hakimiyyət institutları və ənənələrin inkişafa maneələrinin aradan qaldırılması və s. hesab olunur.

4 Yetkinliyə doğru inkişaf dövrü. İqtisadi artımın sürəti çoxalır. İstehsal həcminin genişlənməsi, əhalinin artım sürətini üstələyir və nəticədə əhalinin həyat səviyyəsi yüksəlir.

5. Yüksək kütləvi istehlak cəmiyyəti. Bu mərhələdə, istehsalın artımı üçün, resurs məhdudluğu problemi yox olur. Əksinə, istehlak və ekoloji təmizlik cəhətdən məhdudiyyətlər yaranır, uzunmüddətli istehlak məhsullarına və xidmətlərə tələbin əhəmiyyəti artır.

Son dövrlərdə isə, iqtisadi inkişaf konsepsiyaları sırasında, «**Sənaye və postsənaye cəmiyyəti**» nəzəriyyəsi daha çox şərh olunur. Konsepsiyanın müəllifi **Helbreyt** hesab olunur. Onun mahiyyətini, müasir sənaye strukturunun inkişaf perspektivləri meyli təşkil edir.

Bütövlükdə iqtisadi dinamikanın inkişafı, yuxarıda qeyd olunduğu kimi, uzunmüddətli xarakterli meyillər əsasında formalaşan, artım nəzəriyyələri ilə izah olunur. Lakin, iqtisadi inkişafın artım nəzəriyyəsi ilə yanaşı, iqtisadi fəallığın rəqslərinin xarakteri əsas götürülən «inkişafın dövrülüyü» nəzəriyyələri, daha çox istifadə olunur.

İqtisadi inkişafın dövrülüyü nəzəriyyələri. İqtisadi inkişafın dövrülüyü nəzəriyyələri, iqtisadiyyatın tarazlı inkişafını xarakterizə edən göstəricilər toplusunun vəziyyəti ilə, «iqtisadi konyunkturanı» qiymətləndirməyə imkan verir.

İnkişafın dövrülüyü nəzəriyyələri, dünyanın inkişafının əsası kimi dünya elmində Qədim Yunanıstan və Qədim Çin dövründən (xüsusi ilə Çin daosların əsərlərində) məlumdur.

İqtisadi inkişafın dövrülüyü nəzəriyyələrinin, elmi əsaslandırılmış şəkildə formalaşması, iqtisadi böhran və tənəzzüllərin getdikcə qloballaşması fonunda baş vermişdir.

Doğrudur, hələ XVIII əsrdə geniş miqyaslı böhranlar, o cümlədən 1720-ci ildə Fransa və İngiltərədə, Missispi və Cənub Dəniz Kompaniyası ətrafında baş verən tələtümlər, dövrünün inkişaf etmiş ölkələri kimi yenə də Fransa və İngiltərədə 1763-1793-cü illərdəki ticarət böhranları, konyukturanın güclü dəyişmələrini doğuran səbəblər kimi, ciddi müzakirələrə səbəb olmuşdur. Lakin həmin dövrlərdə bu hadisələr, daxili səbəblərlə yox, xarici və formal səbəblərlə izah olunmuşdur. 1815-ci ildə, məşhur Vaterleo döyüşündən sonra, ticarətin qısa müddətdə canlanması istehsalın kəskin artmasına səbəb oldu. Lakin, cəmi bir il sonra, alıcılıq qabiliyyətinin kəskin aşağı düşməsi səbəbindən böhran yarandı. Daha bir ildən sonra, 1817-ci ildə canlanma baş verdi, sənayedə yüksəliş yarandı, ancaq 1819-cu ildə yenə aşağı düşmə və 1821-ci ildən isə yüksəliş baş verdi. Yeni canlanma

1825-ci ildə, artım pikində, panikaya çevrildi. Məhz bu hadisələr Adam Smit və David Rikardonun ilkin bitkin elmi-iqtisadi nəzəriyyələrində, inkişafın dövrülüyünü, təsadüfi faktorlarla izah etmək cəhdlərinin doğru olmadığını göstərdi.

Klassik iqtisadçıların mövcud baxışlarının, reallıqdan fərqlənməsi, iqtisadi inkişafın yeni prinsiplərini formalaşdırmağı zəruri edirdi. Yeni baxışların formalaşmasında, pionerlik **Simon de Sismondiyə** məxsusdur. «Yeni Edinburq ensiklopediyası» üçün, «Siyasi iqtisadın yeni prinsipləri» adlı məqalə yazan Sismondi (1819 il) Vaterleodan sonra baş verən böhranları təhlil edərək, bir sıra yeni iqtisadi prinsiplər təklif etdi. Onun fikrincə, dövrülük və böhranların baş verməsinin aşağıdakı kimi əsas səbəbləri vardır.

1. Cəmiyyətin iqtisadi strukturunun təşkili qeyri-təkmil olduğundan, sahibkar «metofizik cəmiyyət» düşüncəsi ilə hərəkət edir. Onun istehsal üçün əsas meyarı, qiymət-xərc münasibətidir. Lakin, öz aralarında, hər hansı digər koordinasiya olmadığına görə, həmişə mümkün sərhədlər pozulur.
2. Sənaye yüksəlişi dövründə, istehlaka yönəldilə biləcək gəlir, bazarın təklifindən az olur. Çünki istehlaka tələb, Sismondiyə görə, əvvəlki ilin gəliri ilə müəyyənləşir. İnkişaf dövründə isə, cari ilin məhsulu ilə, əvvəlki ilin gəliri arasında ciddi fərq yaranır.
3. Zəngin ölkələrdə istehsalın həcminin artımı, tələblə yox, kapitalın artması ilə bağlıdır. Bu isə qeyri-düzgün meyildir.
4. Sismondinin ən vacib tezisi isə, böhranın səbəbinin, gəlirin qeyri-bərabər bölgüsündə olmasıdır.

Dünya təcrübəsində, iqtisadi inkişafda müşahidə olunan dövrülüyün intensivləşməsi, onu izah edən nəzəriyyələrin çoxalmasına səbəb oldu. U.Mitçellin fikrincə, artıq XIX əsrdə onları ideoloji tezislər üzrə aşağıdakılar kimi quruplaşdırılması mümkün oldu[1].

---

[1] Уэслей К.Митчелль. Экономические циклы. М., 1930. С.5-6.

İqtisadi dövrlərin fiziki proseslərə müvafiq izahı nəzəriyyələri.

1. Helbert Cevons nəzəriyyəsi. Məhsuldarlıq dövrlərinin 3,5 illik günəş radiasiyası dövrləri və 7-illik, 10-illik konyuktura dövrləri ilə üst-üstə düşməsini iddia edir. Bu nəzəriyyə 1801-ci ildə *Uilyam Herşelin* günəş ləkələrinin dəyişməsinin, metroloji şəraiti və beləliklə məhsuldarlıq və qiymətləri dəyişməsi tezisinə əsaslanırdı. Bu tezis *Şvab* tərəfindən kəşf olunmuş və 1857-ci ildə Kral Astronomik cəmiyyət tərəfindən təsdiq olunmuş günəş ləkələrinin dövrülüyü ideyası ilə daha da inkişaf etmişdir.

İlk dəfə *Uilyam Stenli Cevons* (ata) 1721-1878-ci illərin ticarət konyukturunu tədqiq edərək, 157 ildə 16 böhranın olduğunu aşkar etdi. Başqa sözlə, konyukturanın 10,466 illik dövrünün, günəş dövrü ilə 10,45 tam üst-üstə düşdüyünü göstərdi. Lakin 1878-ci ildə, astronomlar günəş dövrünü 11 il hesablamağa başladılar. Ona görə də H.Cevons (oğul) konyuktura dövrlərinin 3,5 illik tezisini əsaslandırdı. Onun fikrincə iqtisadi artımın 1 dövrü bum yaratmır. İki və ya üç dövr birlikdə isə bum yarada bilər və onun mənfi təsiri güclənər.

2. Henri Murnəzəriyyəsi. Amerikan alimi Henri Mur, 1814-cü ildə, Veneranın Yerə nisbətən vəziyyətinin dəyişməsinin 8 illik dövrünü əsas götürərək təklif etdi ki, metreoloji şərait, məhz bu dövrülüklə dəyişir. Murun ideyasının əsasını, 8 ildən bir Veneranın, Yerə istiqamətlənmiş günəş şüalarının qarşısına çıxması nəticəsində, maqnit sahəsinin dəyişməsi müddəası təşkil edirdi.

Yerin maqnit sahəsinin dəyişməsi, yağıntının miqdarını və beləliklə məhsuldarlığı dəyişir. Buna görə Mur, 8 illik və 33 illik konyuktur dövrləri təklif etdi. Lakin, Murun nəzəriyyəsi, hamılıqla qəbul edilmədi. Məsələn, *U.Beveric,* Avropada taxılın qiymətlərinin 300 illik (1545-1844) dinamikasını harmonik analiz üsulları ilə, tədqiq edərək, metreoloji şəraitin dəyişməsinin, bir neçə müxtəlif dövrülüyünün olmasını aşkar etdi. Onun dövrləri, 5,1 və 35,5; 5,671; 9,750; 54,0; 68,0 və s. arasında, 8 illik dövr olmamışdır. Bevericin əsas nəticəsi ondan ibarətdir ki, günəş sistemində

dəyişmələr, 10-20 müxtəlif istiqamət üzrə baş verir. Belə dəyişmələr, müntəzəm və parabolik xarakterli, həm də qeyri-müntəzəm, ani ola bilər. Ona görə də, onların Yerdəki məhsuldarlığa təsiri müxtəlifdir.

3. 1919-cu ildə *Ellsuore Xentiqton,* metreoloji şəraitin konyukturaya təsiri, ideyasını irəli sürdü. O, 1870-1914-ci illərin statistikasını təhlil edərək, nəticə çıxarmışdır ki, «əhalinin sağlamlığı, konyukturanın nəticəsi yox, səbəbidir». «İqtisadi dövrlər, əhalinin mənəvi vəziyyətindən daha çox asılıdır. Mənəvi vəziyyət, daha çox sağlamlıqdan, o isə daha çox havadan asılıdır».

İqtisadi inkişafın dövrülüyünü, fiziki proseslərlə izah edən nəzəriyyələrin bəziləri, onun institusional xarakterindən tam imtina etmir. Bu tipli nəzəriyyələrin ən mühümlərindən biri, *Verner Zombartın* nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə, üzvü və qeyri-üzvü xammalı emal edən sənaye sahələrinin dinamikası, fərqli ritmlərə malikdir. Məsələn, polad sənayesi və pambıq mahlıcı sənayesinin inkişafında, müxtəlif dövrlər ola bilir. Zombart nəzəriyyəsinin əsas nəticəsi ondadır ki, iqtisadi böhranlar, fiziki və iqtisadi proseslərin uyğunsuzluğu ilə bağlıdır.

İqtisadi dövrlərin emosional proseslərə müvafiq izahı nəzəriyyələri

1. *A.Piqu* nəzəriyyəsinə görə, istənilən dinamikanın qiymətləndirilməsində optimizm və pessimizm meyilləri, müəyyən səhvlər nəticəsində, əksinə çevrilə bilir. Yəni «konyukturanın əlverişliyinə olan inamın dəyişməsi, dövrün ritmliyinin əksinə dəyişməsinə gətirir. Bu proses yeni səhvlər doğurur və onlar bir-birini əvəzləyərək zəncir yaradır». Piqu hesab edir ki, belə vəziyyətin yaranması, psixoloji amillə bağlıdır və qeyri-müəyyənlikdən, informasiya qıtlığından doğur.

2. *M.Xekster* nəzəriyyəsinə görə isə, qeyri-müəyyənlik və psixoloji amilin kökü, təsərrüfatdan kənarda yerləşir. Xeksterin fikrincə «...əhvali-ruhiyyədə olan dəyişmə, topdansatış qiymətlərində baş verən dəyişmələrdən əvvəl baş verir; doğum faizində dəyişmələr isə ... işsizlikdə dəyişmələrdən 17 ay əvvəl, ölüm

faizində – qiymətlərdən 17 ay və ... işsizlikdən isə 10 ay əvvəl baş verir».

Xekster nəzəriyyəsi, Piqu nəzəriyyəsinə və Xentiqnton nəzəriyyəsinə son dərəcə oxşardır. Yeganə fərq, demoqrafik statistika ilə havanın dəyişmə dinamikası arasında asılılıqların, Xeksterin, nəzərə almamasıdır.

İqtisadi dövrlərin institusional proseslərə müvafiqliyi nəzəriyyələri

İqtisadi dövrlərin yaranmasının əsas səbəbini, təsərrüfat institutlarının dəyişməsi ilə əlaqələndirən nəzəriyyələr. Bu tipli nəzəriyyələr iki qismə ayrılır:

a) *E.Fogel* nəzəriyyəsinə görə, sosial proqress addımlarla gedir, onun sürəti və istiqamətinin dəyişməsi, iqtisadi proseslərin sakitləşmiş tarazlığını müəyyən vaxtdan bir dəyişir. Xüsusi mülkiyyətin və təşəbbüsün mövcud olduğu cəmiyyətdə, müxtəlif faktorların təsiri ilə tarazlıq pozulur. Yəni, qeyri-müntəzəmlik iqtisadiyyatın təşkilindən doğur. Ona görə də «proqres», ümumiyyətlə, «rəqslərin» əsas səbəbidir.

b) *C.Şumpeter* nəzəriyyəsinə görə, yenilik «dalğavari» gəlir və yüksəlişə səbəb olur, onun ardınca isə, böhran və tənəzzül yaranır. Şumpeter hesab edir ki, çox məhdud sayda sahibkarlar tərəfindən həyata keçirilən mexaniki kəşflər, yeni məhsul istehsalı, yeni fəaliyyət forması, yeni bazarın tapılması və s. kimi yeniliklər, iqtisadi fəaliyyətdə canlanma yaradır. Bütün iqtisadi subyektlər, yeni şəraitdən bəhrələnməyə çalışır. Müəyyən dövrdən sonra isə, yeni səviyyədə ifrat istehsal baş verir və yeni böhran başlayır.

İqtisadi dövrləri, mövcud təsərrüfatçılıq institutlarının fəaliyyəti ilə izah edən nəzəriyyələr. Bu tipli nəzəriyyələr, daha çox saylıdır və müxtəlif müddəalara əsaslanır.

a) Pul gəlirlərinin alınmasının, texniki şərtlərinə görə yaranan dövrlər.

T.Veblen, J.Leskyür hesab edir ki, gəlirin alınmasının perspektivlərinin dəyişməsi, müəssisələrin kapitallaşmasında və işgüzar planda dalğa yaradır, bu isə öz növbəsində rəqslərə səbəb olur.

Bu cərəyanın digər tərəfdaşları, Q.Dennison, L.Frank, S.Kuznes, T.Mitçel və s. hesab edirlər ki, pulun hərəkətində rəqslər, vasitəçilərin, hazır məhsul və xammala olan sifarişlərdən doğur və xammal istehsalı mərhələsinə doğru getdikcə artır. Bu rəqslərin amplitudası, tələbin amplitudasından xeyli böyükdür. Onun səbəbini isə, təsərrüfat sisteminin «rəqabətliyi» tezisində axtarmaq lazımdır.

b) Dövrülüyün yaranması səbəbini, bir tərəfdən gəlirlərin bölgüsü və xərclənməsi və digər tərəfdən, istehsal prosesində olan qeyri-tarazlıqda izah edən nəzəriyyələr.

R.Mey – İstehsal olunan məhsulların, pul dəyərinin dəyişməsinə nisbətən əməkhaqqının dəyişməsi gecikir, ona görə də istehlak tələbi, cari təklifi gah üstələyir, gah da geri qalır.

E.Lederer – Qiymətlərin artması və azalması sürətlərinin fərqli olması istehlakçıların gəlirinin yüksəlişi dövründə istehsaldan geri qalmasını və əksində enmə dövründə onu qabaqlamasını doğurur.

P.Martin – Yüksəliş, dövriyyə kapitalının artımını tələb edir. Belə kapital isə, canlanmanı davam etdirmək üçün, istehlaka yönəldilən fondların hesabına əldə oluna bilər. Canlanma o vaxt başlaya bilər ki, tənəzzül dövriyyə kapitalına olan tələbi azaltsın.

c) İnkişafda dövrülüyün, ümumi istehsal və istehlakda tarazlığın olmaması səbəbindən, baş verməsini əsaslandıran nəzəriyyələr.

Ç. Xardi – xüsusi təsərrüfat planlarının mövcudluğu, qeyri-müəyyənliyin yaranmasına və beləliklə məhsul istehsalında, çatışmamazlıq və artıqlığa səbəb olur.

A.Aftalyon, M.Bunyatyan – əlverişli ticarət-sənaye konyukturası, sənaye avadanlığının kəskin artımına və daha sonra isə məhsul artımına səbəb olur və istehlak malfarına tələbin limit qiymətlərini aşağı salır. Nəticədə, tənəzzül başlayır və məhsul artımı azalır. Limit qiymətləri qalxdıqca isə ,əksinə proses başlayır.

d) İqtisadi dövrlərin yaranmasını istehlak, yığım və yeni tikintiyə kapital qoyuluşu proseslərində, tarazlığın pozulması ilə əsaslandıran nəzəriyyələr:

M.Tuqan-Baranovski – Canlanma dövründə kapitala tələb, nəqd yığımı üstələyir. Tənəzzül dövründə isə, kapital qoyuluşu, cari yığımdan geri qalır. Sərbəst borc kapitalı, o vaxtadək yığılır ki, onun investisiyaya yönəldilməsi, yenidən gərginləşir və yüksəlişin yeni dövrü başlayır.

C.Qabson – Yüksəliş dövründə gəlirin kəskin artımı, kapitalın artıq yığımı və onun, yeni zavod və fabriklərin tikintisinə yönəlməsinin çoxalması baş verir. Ona görə də, tələb, kapital təklifindən geri qalır. Bundan sonra tənəzzül başlayır, gəlir azalır və kapital yığımı kəsilir, istehlak, istehsala çatır və yeni canlanma başlayır.

C.Xell – İstehlak mallarına tələbdə və tikinti xərclərində nisbi azalma, tikinti işlərində böyük dəyişiklik yaradır. Bu dəyişiklər isə, istehlak tələbində dəyişikləri gücləndirir.

d) Dövrülüyün yaranmasını, bankların fəaliyyəti ilə əlaqələndirən nəzəriyyələr.

A.Hakksen – Gələcək haqda təsəvvürlər əlverişli olduqda, banklar kreditləşdirməni asanlaşdırmaqla, iş adamlarının alıcılıq qabiliyyətini artırır. Canlanma o vaxtadək davam edir ki, banklar, ssudanı kəsmək məcburiyyətində qalır. Bu vəziyyətdə, böhran və tənəzzül baş verir, həmin müddətdə isə, banklarda vəsait toplanır və onlar yeni ekspansiyaya başlayırlar.

R.Xoutri – Banklarda böyük ehtiyat olduqda, onlar uçot faizini aşağı salır və ssudanı stimullaşdırır, sahibkarların ehtiyat fondunu zəiflədir. Onda onlar dərəcəni qaldırır və pula tələb azalır. Banklarda pul yığılır və yeni dövr başlayır.

2.2. İqtisadi nizamlılıq və konstitutsiyalı iqtisadiyyat

XX əsrin əvvəlləri, Birinci Dünya müharibəsinin başa çatması dövrü, adətən, müasir, dünya təsərrüfat sisteminin formalaşmasının başa çatması dövrü kimi qiymətləndirilir. Lakin, eyni zamanda bu dövr, həm də, iqtisadi inkişafın, hər hansı ölkə daxilində və sırf, iqtisadi səmərəlilik meyarları əsasında, qiymətləndirilməsi dövrünün də başa çatması kimi, dəyərləndirilə bilər. Belə ki,

bir tərəfdən yeni, dünya təsərrüfat sisteminin yaranması ilə səciyyələnən, ölkələrin iqtisadi qarşılıqlı asılılığının güclənməsi, iqtisadi proseslərin təsir zonasını xeyli genişləndirir və ölkədən kənar təsir faktorlarının rolunu artırır. Digər tərəfdən isə, birinci amilin də təsiri ilə, ənəvi iqtisadi faydalılıq göstəricilərinə münasibət dəyişirdi. Çünki bütövlükdə iqtisasi fəaliyyətin ictimailəşməsi səviyyəsi artırdı, başqa sözlə baş verənlərdə birbaşa və xüsusi ilə, dolayı, maraqlı elementlərin sayı hədsiz artdığından, onların reaksiyalarını əvvəlcədən nəinki müəyyənləşdirmək, hətta onları görmək çətinləşir və ya mümkün olmurdu. Beləliklə, ənənəvi liberal iqtisadiyyata münasibətdə, yeni fərqli qiymətləndirmələrin və geniş mənada, təsərrüfatçılığa metodoloji yaxınlaşmaların axtarışı aktuallaşırdı. Dünya iqtisadiyyatında, çoxtərəfli tənzimləmə qaydalarını yaradılması, iqtisadi böhranların qarşısının alınması, faktiki olaraq, yeni dünya iqtisadi nizamının yaradılması üzrə axtarışlar və müzakirələr, bir çox digər mühüm nəticələrlə yanaşı, bazar iqtisadiyyatının klassik modelinə olan münasibətlərində transformasiyasını şərtləndirdi. Belə demək mümkünsə, fərdi merkantil maraqlara əsalanan iqtisadi səmərəlilik, daha çox ictimai maraqlara istiqamətənirdi. Məşhur "böyük tənəzzül" və ondan çıxış modelləri və nəzəriyyələri, o cümlədən iqtisadi fikirdə, Keyns inqilabı və onun doğurduğu nəticələr, Almaniyada Hitlerin, ABŞ-da isə Ruzveltin praqmatizm və sərt dövlət nəzarətinə əsaslanan, iqtisadi inkişaf strategiyaları (eyni paraleli, qismən və şərti olaraq, SSRİ –nin iqtisadi siyasəti üzrə də aparmaq olar), bazarın tam sərbəstliyinin səmərəsizliyini sübut edərək, onun məhsuldar elementlərinin yeni prinsiplərlə tətbiqini əsaslandırdı. Belə yeni prinsiplər məhz ictimai maraqların daha geniş nəzərə alınması ideyasına əsaslanırdı.

İqtisadi təsərrüfatçılıqda ilk dəfə belə ideyalara əsaslanan, "Sosial bazar təsərrüfatı" (sosiale Markwiztschaft) nəzəriyyəsi və kateqoriyası, termini, II Dünya müharibəsindən sonra, Qərbi Almaniyanın iqtisadiyyat naziri Ludviq Erxard tərəfindən aparılan, iqtisadi siyasət sayəsində məşhurlaşmışdır. Həmin dövrdə Avropada hakim olan, lakin ABŞ və Böyük Britaniya iqtisadçıla-

rının bəyənmədikləri, iqtisadi baxışlara tam uyğun olmayan, liberal bazar siyasəti, Almaniyada, 1948-ci ildə, pul islahatlarının başlanması ilə, rəsmən qəbul edildi. Bu islahatlar, sonralar "alman iqtisadi möcüzəsi" adı ilə tanınan, məşhur, iqtisadi dirçəlişin əsasını təşkil etmişdir. İndiyədək, sosial bazar təsərrüfatı konsepsiyası, alman iqtisadi siyasətinin, aparıcı istiqaməti hesab olunur.

Almaniyada sosial bazar təsərrüfatının tətbiqi və onun nəzəri əsaslarının təkmilləşdirilməsində, bu nəzəriyyənin, metodoloji fundamenti hesab olunan "nizamlılıq nəzəriyyəsi"nin, böyük rolu vardır. Bu nəzəriyyənin tərəfdarları,Volter Oyken, Frans Byem, Vilhelm Pienke, Aleksandr Pyustov, Leongard Mikş, Alfred Müller-Armak, hələ kecən əsrin 30-cü illərindən başlayaraq, nizamlılıq nəzəriyyəsinin formalaşmasında, mühüm rol oynamışlar.

"Nizamliliq nəzəriyyəsinin" mahiyətini, daha dolğun dərk etmək üçün, rəqabətli bazar təsərrüfatının formalaşmasını şərh edən, iki müxtəlif yanaşmanın, T.Xatçinson tərəfindən təklif olunan, müqayisəsini nəzərdən keçirmək məqsədəuyğundur. T.Xatçinsonun müqayisə etdiyi, yanaşmaların biri, utopik "maxsimum" və ya "optimum" səviyyəsi ilə səciyyələnən iqtisadiyyatın, rəqabətli tarazlığını ifadə edən, xalis abstrakt modelə əsaslanan, "Rikardoçu" yanaşma, digəri isə siyasi , sosial və xüsusi ilə iqtisadi nizamlılığın, hüquqi əsasları və strukturunu ifadə edən və ümumi terminlərlə ifadə olunan "Simitçi" yanaşmalardır[1]. T. Xatçinson sübut edir ki, sosial bazar təsərrüfatının, siyasi proqramının nəzəri konsepsiyası, hesab olunacaq "nizamlılıq nəzəriyyəsi", "Simitçi" yanaşmaya əsaslanır. Belə ki, bu nəzəri konsepsiya, hüquqi və institusiolnal qaydalara söykənməklə, neoklassik ənənələrin hökmran istiqamətinə, açıq zidd xaraker daşıyır, ona görə də, "iqtisadi fərdilik və azad bazar" anlayışlarının, digər elmi şərhlərinə nisbətən, daha çox, Simit ideyalarına yaxındır. Ancaq həmin mülahizələri, müasir "konstitusiyalı iqtisadiyyat" paradiqması haqqında da demək olar. Belə ki, bu paradiqma da bütövlikdə, institusional təhlilə yeni yanaşmanı təmin edən, bir sıra kəsişən nəzəri konsepsiyalar (ictimai secim nəzəriyyəsi, mülkiyyət hüququ nəzəriyyəsi, yeni institusional iqtisadiyyat ya s.) bazasında yaranmışdır.

[1] Hatchinson T.W. The Politics and Philosophy of Economists. Marxians, Keynesians and Austrians, Oxford, 1981, p. 155-175.

Sosial bazar təsərrüfatı və konstitusiyalı iqtisadiyyat, müəyyən mənada klassik siyasi iqtisadın yenidən "bərpası" kimi qəbul edilə bilər. Bu baxımdan həmin konsepsiyaların qarşılıqlı əlaqələrinin öyrənilməsi məqsədə uyğün hesab olunur.

Sosial bazar təsərrüfatının nəzəri konsepsiyası. Sosial bazar təsərrüfatı konsepsiyası banilərinin, siyasi və nəzəri baxışları, çox fərqlidir. Bununla belə, forma və məzmun müxtəlifliyinə baxmayaraq, onların ümumi cəhətlər çoxdur. Məsələn, Oyken və Byemin Frayburq məktəbi ilə, Pienke, Pyustov və bilavasitə, bu terminini ilk dəfə təklif edən, Müller- Armak məktəbinin təmsilçiləri, belə hesab edirlər ki, təmiz iqtisadi siyasət, hər şeydən əvvəl, hüquqi və institusional strukturun yaradılmasına istiqamətlənən nizamlılıq siyasəti olmalıdır

Sosial bazar təsərrüfatı nəzəriyyəsinin baniləri, İkinci Dünya müharibəsindən sonrakı dövrdə, mərkəzləşdirilmiş iqtisadi planlaşdırmanın və müharibədən sonrakı dövrün, inzibati iqtisadiyyatının nasional-sosialist variantını, kəskin tənqid edirdilər. Doğrudur bu zaman, onlar yeni əks nəzəriyyə yox, yalnız bazar iqtisadiyyatının xüsusi versiyasını təklif edirdilər. Nəzərə almaq lazımdır ki, həmin dövrdə inzibati iqtisadiyyatın çatışmazlıqları, Almaniya cəmiyyətinə taniş deyildi, lakin cəmiyyət bazar iqtisadiyyatının, kəskin problemlərsiz, fəaliyyət göstərməsinə heç inanmırdı. Liberal "Laissez-faire" ideyası, tərəfdarlarının mülahizələrindən fərqli olaraq, alman neoliberaları eyni zamanda, normal fəaliyyət göstərən qiymət mexanizminə malik, institusional strukturun yaradılmasında, dövlətin əlahiddə rolunu xüsusi qeyd edirdilər. Neoliberalların, klassik liberallardan (azad rəqabət tərəfdarları) ciddi fərqi, rəqabətə yanaşmada təzahür edir. Neoliberallar elə hesab edirlər ki, dövlət, yalnız "son tələb" funksiyasını (müəyyən mülkiyyət hüquqlarını müəyyənləşdirilir və hər

hansı müdaxilədən çəkilir) yerinə yetirirsə, rəqabət mexanizmi öz-özünə avtomatik işləyə bilməz. Onların mülahizələrində, rəqabət prosesinə nəzarətdə həlledici rol, dövlətə verilir, çünki belə hesab olunur ki, nəzarətsiz fərdi qüvvələrin təsiri altda, genişlənən disproporsiyalar və inhisarçı meyillər, rəqabət prosesini pozur.

Neoliberalların qeyd etdiyi kimi, klassik liberalizmin bu baxımdan əsas xidmətləri, fərdi maraqlar və sosial qazancın əldə olunması arasında, əhəmiyyətli əlaqənin məhz, rəqabətlə təmin olunması, ideyasının irəli sürülməsidir. Lakin, bu mülahizə ancaq, istehsal rəqabəti üçün doğrudur. Rəqabət nizamı, bütövlükdə institusional siyasətin aparılmasını tələb edir. İnstitusional siyasət isə, qaydalar və institutların müəyyən strukturuna əsaslanır. Burada əsas mövqelərdən birini, stabil pul dövriyyəsini təmin etməli olan, "pul konstitutsiyası" təşkil edir. Ona görə də, institusional strukturun, dəyişən şəraitdə rəqabət prosesinə təsiri, daima izlənilməlidir.

Sosial bazar təsərrüfatı banilərinin fikrincə, ən mühüm problemlərdən biri, rəqabət nizamının yaradılmasıdır. Belə nizam, siyasi və fərdi qüvvələrin, ilk növbədə, dövlətin müdaxiləsinin, həmçinin fərdi hakimiyyətin cəmləşməsi və sui-istifadəsinin qarşısını almalıdır. Əlbəttə, fərdi hakimiyyətin təsirindən, qorunmanı təmin edəcək institusional zəmanətlər dedikdə, neoliberallar, yalnız kartel və inhisarların, hədsiz güclənməsinə mane olan qanunların qəbul edilməsini yox, həm də müflisləşmə, patent, kooperasiya, vergilər və s. kimi qanunların, rəqabət nizamının saxlanılmasına təsirinin ardıcıl izlənməsini nəzərdə tuturdular. Bununla belə, sosial bazar nizamının müdafiəçiləri olan neoliberallar, rəqabət nizamının qorunmasını, dövlətin, sosial-bazar təsərrüfatındakı fəal rolunun, yalnız bir hissəsi hesab edirdilər. Onlar rəqabətli bazara, insan həyatının digər "nizamları" ilə qarşılıqlı əlaqəli olan, "qismən nizam" kimi baxırdılar. Hesab olunurdu ki, sosial həyatda elə fövqalədə, mühüm problem yoxdur ki, prinsip etibarilə bazar, onu həll edə bilməsin. Bununla belə, Frayburq məktəbinin nümayəndələri (onları ordoliberallar adlandırırdılar, ordoliberalizm-neoliberalizm kimi, sosial bazar təsərrüfatı nəzəriyyəçilərinin baxışlarının özünəməxsusluğunu ifadə edən addır), bazar prosesinin, arzuolunmaz, sosial nəticələr doğurmasını qəbul edirdi. Belə nəticələr, bəzi ümumi bəşəri meyarlara uyğun olmadığı üçün, müəyyən korreksiyalara ehtiyac yaradır.

Neoliberalların hamısı, səmərəli fəaliyyət göstərən rəqabət mexanizmindən kənarda, əlavə "sosial siyasət"in olmasını zəruri hesab edirlər. Lakin, rəqabət mexanizminin institusional forması haqda, neoliberalların fikirləri üçt-üstə düşdüyü halda, yardımçı sosial siyasətin təbiəti haqda, onların fikirləri, fərqli idi. Frayburqlu ordoliberallarla müqayisədə, A.Müller-Armak sosial inqridientlərə, xüsusi ilə iqtisadi təhlükəsizliyin siyasi aspektlərinə, daha çox diqqət yetirirdisə, B.Pienke daha geniş, sosial və mənəvi qiymətlərə üstünlük verirdi. Frayburq universitetinin professoru V.Vanberqin fikrincə, alman neoliberallarının hazırladığı sosial siyasət proqramında, sosial ədalət və bərabərlik, iqtisadi və sosial mərkəzsizləşdirmə ideyaları aparıcı rol oynayırdı. Ona görə də, bu proqramda gəlirlərin yenidən bölgüsu, sosial təhlükəsizlik və ədalətli sosial siyasət, kiçik və orta sahibkarlığa yardım, şəhər və regional, planlaşdırma orqanlarının institusional strukturunun islahatları və s. tədbirlər xüsusi yer almışdır.

İdeya baniləri, sosial bazar təsərrüfatını iqtisadi, sosial və siyasi nizam kimi qəbul edərək, sosial siyasətə (onun bütün təzahur formalarında), bazarın azadlığının uzunmüddətli siyasi zəmanəti kimi, xüsusilə önəm verirdilər. Onlar doğru olaraq belə hesab edirdilər ki, bazar nizamının yüksək iqtisadi səmərəliliyi, özözlüyündə onun uzunmüddətli stabilliyini təmin edə bilməz. Bu, yalniz o halda mümkün ola bilər ki, stabilliyin təmin olunması, daha çox adamlar üçün, mühüm əhəmiyyətli məsələ kimi, (məsələn, iqtisadi təhlükəsizlik, bölgü prolblemi və s.), sosial nizamın əhatə dairəsinə aid edilsin. Hesab edilirdi ki, siyasi baxımdan, azad bazar nizamı, geniş ictimai dəstək aldıqda yaşaya bilər. Ona görə də onların, yardımlı sosial siyasət, proqramını "kompensasiya yaradan mexanizm" kimi, qəbul etmək olar.

Bazar prosesinə korreksiyanı mümkün hesab edən, alman neoliberalları, eyni zamanda, bu siyasətin, kobud müdaxilələrlə yox, bazara uyğün və qiymət mexanizminə mane olmamaq şərti ilə, aparılmasını zəruri hesab edirdilər. Hətta B.Oykenin fikrincə, sosial siyasət, bazar prosesinə birbaşa müdaxilədən fərqli olaraq, formalaşmış struktur sərçivəsində, daha səmərəli fəaliyyət göstərən institusional siyasətin tərkib hissəsi olmalıdır.

"Nizam nəzəriyyəsi" konstitusiyalı iqtisadiyyatdır. "Nizam nəzəriyyəsi" və "Nizam siyasəti" anlayışlarının, mahiyyətcə özünəməxsusluğunu müəyyənləşdirmək üçün, "iqtisadi nizam" və ya "sosial nizam" anlayışlarının iki, fərqli, şərhinə nəzər salmaq vacibdir. Bu anlayışlar bir tərəfdən, müəyyən sosial mühit daxilində, adamların seçimləri çoxluğunun birləşməsi nəticəsində, yaranan fəaliyyət və sövdələşmələrin yekun "şəklini" ifadə etmək üçün istifadə olunur. Digər tərəfdən isə bu terminlərlə, adamların fəaliyyəti və sövdələşmələrinin yekun "şəklini", müəyyən mənada "yaradan" və tərəflərin seçimini, onların sosial nizamına uyğunlaşmasını təmin edən, qanun və qaydalar sistemini işarə edirlər. Bu fərqləri, F.Xayek "fəaliyyət nizamı" ilə, "qaydalar nizamı" arasındakı fərqlər kimi, xarakterizə edir.

"Nizam nəzəriyyəsi" və "nizam siyasəti", iqtisadi nizam anlayışını, sözün ikinci mənasında, yəni fərdlərin öz seçimlərini həyata keçirdikləri, institusional sərhədləri müəyyənləşdirən, qaydalar (qanunlar) sistemi kimi qəbul edir. Bu mənada, sosial bazar təsərrüfatı konsepsiyası, müasir konsitusiyalı iqtisadiyyatın əsas xüsusiyyətini ifadə edir. Belə konsepsiya, institusional iqtisadi nizam probleminə, siyasi seçim problemi kimi baxmaqla, əsas diqqəti, hüquqi institusional strukturun, bazar elementlərinin fəaliyyəti və sövdələşmələrin yekun şəklinə, necə təsir etməsinə yönəldir.

Alman "nizam nəzəriyyəsinin" və müasir konstitusiyalı iqtisadiyyatın, əhəmiyyətli oxşarlığına baxmayaraq, onlar bir-birindən müəyyən dərəcədə fərqlənirlər. Məsələn, konstitusiyalı iqtisadiyyat nəzəriyyəsində, hüquqi konstitutsion qaydaların, alternativ sıralarının xüsusiyyətlərinin müqayisəli təhlili, ilk dəfə,

iqtisadçı Valter Oyken və hüquqşunas Frans Byem tərəfindən, təklif olunmuş və sonralar, onların tələbələri tərəfindən davam etdirilmişdir. Lakin, alman neoliberalizminin digər, tanınmış nümayəndəsi olan A.Müller-Armak üçün, bu yanaşma, aparıcı olmamış və heç də həmişə, onun sosial bazar təsərrüfatı konsepsiyası ilə, üst-üstə düşməmişdir. B.Vanberqenin fikrincə, məhz bu baxımdan, demək olar ki, "oyun qaydaları" kimi qəbul edilən, konstitusiyalı iqtisadiyyatla (Oyken və Byem), "nəticə" kimi qəbul edilən konstitusiyalı iqtisadiyyat arasında müəyyən ziddiyyətlər vardır. Əslində bu ziddiyyət, "sosial" termininin Müller-Armak konsepsiyasındakı, iki mənalığı ilə bağlıdır. Bir tərəfdən bu, bazar nizamının hüquqi institusional struktur və onun daha geniş, sosial institusional nizamın tərkib hissəsi olmasına, münasibəti təzahür etdirir. Digər tərəfdən isə bu, bazar prosesinin nəticələrinin xarakteristikası kimi qiymətləndirilir. Bu mənada Müller-Armak konsepsiyası, bazarın yaratdığı və geniş sosial məqsədlər və meyarlara tam uyğun qəlməyən nəticələrin aradan qaldırılması üçün siyasi iradəlik və niyyətlərin mövcudluğunu ifdə edir.

Konstitusiyalı və ya qaydaların (qanunları) qorunmasına istiqamətləndirən iqtisadiyyat, sosial bazar təsərrüfatı konsepsiyasının, tam mənada, "nizam nəzəriyyəsi" kimi, qəbul edilən cəhətlərində daha düzgün əks olunur. Dövlətin, "iqtisadı nizam" yaradılmasında aktiv rolunu müdafiə edən alman neoliberalları, belə hesab edirlər ki, bu, dövlətin iqtisadi proseslərə birbaşa müdaxiləsini yox, müvafiq "oyun qaydalarının" yaradılması, tətbiqi və korreksiyasını əhatə edir. Qaydaların qorunması yönündə, perspektivlərin müəyyənləşdirilməsində, alman "nizam nəzəriyyəsi" və müasir konstitusiyalı iqtisadiyyat konsepsiyası, sıx qarşılıqlı əlaqəli olsa da, onlar kifayət qədər müxtəlif, məsələlər üzrə istiqamətlənmişdir. Müxtəlif yanaşmaların təhlili gostərir ki, konstitusiyalı iqtisadiyyatın, tətqiqat predmetinin vahid şərhi yoxdur[1]. Konstitusiyalı iqtisadiyyatın mahiyyəti haqda, iki tərif var. Bu

[1] Hayek F. Low. Legistation and Librerty Vol. 11- London, 1973, p.238.

təriflər "konstitusiya" termininin iki şərhi ilə bağlıdır. Birincisi - "ümumi" anlamda "konstitusiya" dedikdə, adamların sosial davranışını müəyyənləşdirən, bütün qaydaların "əhatə" olunması başa düşülür. Bu halda, konstitusiyalı iqtisadiyyat konsepsiyası, əsasən qaydaların və institutların yaranması və dəyişməsi, onların fərdlərin qarşılıqlı əlaqəsinə təsirini öyrənir. Daha "dar" anlamda, "konstitusiya" termini, qaydaların (qanunların) xüsusi hissəsini, məhz dövlət qaydalarını (qanunlarını) əhatə edir. Bu mənada, konstitusiyalı iqtisadiyyat, elə qaydaları əhatə edir ki, onlar, "dövlətin" yaradılmasının əsaslarını və onun fəaliyyətinin məhdudlaşdırıcı çərçivəsini, müəyyən edir[1].

Müqayisədən qörünür ki, alman "nizam nəzəriyyəsi", əsas diqqəti, kortəbii bazar nizamının hüquqi, institusional strukturuna və müəyyən mənada, onun əksi olan, mərkəzləşdirilmiş planlı iqtisadiyyata yönəldilir. Dövlətə hansı məhdudiyyətlərinin lazımlı olması, müasir konstitusiyalı iqtisadiyyat ilə müqayisədə, sosial bazar təsərrüfatı nəzəriyyəçilərini daha az maraqlandırır.

Alman neoliberallarının, elmi və siyasi proqramlarının, ümumi məqsədinin dövlətin və özəl qüvvələrin məhdudlaşdırılması və onlara nəzərət olunması təşkil edirdi. Ümumi şəkildə onlar, siyasi konstitusiya ilə, iqtisadi və sosial konstitusiyanı birləşdirən, tam əhatəli konstitusiya nizamı, konsepsiyasının tərəfdarları kimi çıxış edirlər. Konstitusiyalı iqtisadiyyatın və ya qaydaların (qanunların), qorunmasına istiqamətlənən iqtisadiyyatın, yuxarıda şərh olunan təhlili, sosial bazar təsərrüfatı konsepsiyasının, yalnız bir tərəfini-istiqamətini əks etidirir. Qeyd olunduğu kimi, bu konsepsiyaların, qaydaların qorunmasını mütləq hesab etməyən istiqamətidə vardır. Bu istiqamət, rəqabətli bazar nəticələrinin, prosesin gedişində əldə oluna bilməyən, sosial məqsədlərlə, uzlaşmasını təmin etmək üçün, siyasi korreksiyaların aparılmasını zəruri hesab edir.

[1] В.Ванберг. «Теория порядка» и конституционная экономика. Вопросы экономики. 1999, № 12. С. 99.

Sosial bazar konsepsiyasının, birmənalı anlaşılmaması, hətta neoliberralların, bəzi görkəmli nümayəndələrinin ona qarşı çıxmasına gətirmişdir. Belə tanınmış neoliberallardan olan F.Xayek, "sosial" sözünün "bazar təsərrüfatı" ilə birləşdirməsinin, heç bir mahiyyət daşımadığını göstərərək deyir ki, bu "... siyasi şuarların, bütün zövqlərə uyğyn qələn, gözəl pərdə altda gizlədilməsidir".

Xayekin, sosial bazar təsərrüfatı konsepsiyasını, qəbul etməməsinin ən mühüm arqumenti ondan ibarətdir ki, "sosial ədalət" meyarına cavab verən nəticələri almaq niyyəti, əslində bazar prinsiplərinə ziddir. "Bazar nizamı, kortəbii xarakter daşıdığı və konkret ümumi qaydalara əsaslandığı üçün, fərdlərə öz maraqlarına uyğun, sərbəst seçim imkanları yaradır, ona görə də, spesifik nəticələr, hər hansı nəzəriyyədən kənardır. Ümumi davranış qaydalarına əsaslanan, kortəbii "bazar nizamı" prinsipi vasitəsi ilə, konkret nəticələrin müəyyənləşdirilməsi, qeyri mümkündür. Eyni vaxtda, "bazar nizamının" fəaliyyətindən bəhrələnmək və onun nəticələrini idarəetmək mümkün deyildir. Bazarın yaratdığı nəticələrə nəzarət etmək cəhdi, bazar prosesinin spesifik xarakterini pozur. Xayek, məhz bu baxımdan, sosial bazar təsərrüfatının, "bazar təsərrüfatı" olmasına şübhə edir.

Aydındır ki, burada Xayekin məntiqi düz xətlidir: əvvəlcədən müəyyənləşdirilmiş nəticələr alınacaqsa, rəqabət mübarizəsi öz mahiyyətini itirir, nəticələrlə, birbaşa manipulyasiya imkanı qalan bazar, əsl xarakterini saxlaya bilməz. V.Vanberqin fikrincə, Xayek o öz qiymətləndirmələrində, neoliberalların nəzərdə tutduqları bir məqamı görməmişdir. Neoliberallar, oyun analogiyası ilə dedikdə, "bazar oyunun", əsl oyun olmasını arzulamaqla, iştirakçıların, hətta bəzi səbəblərdən həmişə, "qeyri qənaətbəxş" nəticələrə malik oyunçuların, müəyyən müddətdən sonra, oyunu "normal" hesab etmələrini məqbul sayırdılar. Əlbəttə iştirakçıların, oyunu "normal" hesab etmələri, bütün digər şərtlər daxilində, ilk növbədə, "bazar oyununun" bölgü nəticələrindən asılı olacaqdır.

Sosial bazar təsərrüfatı konsepsiyasının, tam dəstəklənməsi baxımından, nəticələrin bölüşdürülməsi qaydası, bazar prosesinin

institusional strukturunun tənzimlənməsi üçün, iki səbəbdən və ya iki yolla, əsas hesab oluna bilər. Birinci səbəb – qaydaların (qanunlar) istənilən qiymətinin alınmasının, gözlənilən nəticələr modelindən, güclü asılılığıdır. Bu xüsusi ilə, bazar qaydalarına aiddir. Digər tərəfdən, nəticələr modelinin, normativ standartlara (daha doğrusu etik) uyğunlaşdırılması niyyətinin, "oyun" iştirakçıları üçün əhəmiyyətliliyinə baxmayaraq, qoyulmuş qaydaların, mümkün qədər sərbəst seçilməsi və ya dəyişdirilməsinin arzu olunmazlığının apriori izahı yoxdur.

Nəticələr haqda müzakirələrin, bazarın institusional strukturuna daxil edilməsinin İkinci səbəbi, gəlirlərin və maddi nemətlərin bölüşdürülməsi kimi, bazar nəticələri üçün, "məqbul" variantların, müəyyən sərhədlərinin formalaşdırılmasıdır. Nəticələrə görə meyarları nəzərə alan, ikinci səbəb və ya istiqamət, birinciyə nisbətən daha real, hesab olunur. Lakin aydın deyil ki, nəyə görə "oyunçular", qeyri-müəyyən nəticəli əsl oyunlarda, daha çox uduş almağa imkan verən seçim edə bilməzlər, ancaq eyni zamanda, oyunçular müəyyən mənada, "zəmanət nizamı" ilə razılaşırlar. Nəticələrə istiqamətlənən, sosial bazar təsərrüfatı konsepsiyası, əslində hər iki nəticəni, hesablama üsulunu, özündə ehtiva edir. Bazarın neoliberal müdafiəçiləri sübut edirlər ki, "nəticələrin korreksiyası", ancaq bazar prosesinə müvafiq vasitələrlə aparıla bilər. Qaydalara uyğun tənzimləməni, onlar, körtəbii müdaxilənin əksinə olaraq, bazara müvafiq vasitələrlə müdaxilə hesab edirlər. Aydındır ki, "digər sosial məqsədlərə" dəstək üçün, təklif olunan "bazara müvafiq müdaxilə" anlayışı, başqa şərhlərə, məsələn, siyasi məcburetməyə nisbətən, daha səmərəlidir və onlarla birgə yolverilməzdir. Əslində, "bazar prosesinə müvafiq müdaxilə" anlayışı ilə, neoliberallar möhtəkirlik edərək, bir çox yayılmış subsidiya və transfer proqramları kimi, tənzimləmə metodlarını ört-basdıq edirlər. Belə metodlar, çox uzun müddət alman sosial konsepsiyasında istifadə olunmuşdur. Fikrimizcə, bəzən "sosial bazar təsərrüfatının aşınması" adlanan, belə iqtisadi inkişaf, ola bilər ki, "bazar təsərrüfatına" ,"sosial" sözünün artırılmasının mənasızlığı haqqda, F.Xayekin şübhələrini təsdiq edir.

"Nizam nəzəriyyəsinin" normativ aspekti. Alman "nizam nəzəriyyəsi" və konstitusiyalı iqtisadiyyat tərəfdarları institusional struktura diqqəti cəlb etməklə, klassik ənənələrə marağı bərpa etmişlər. Bu həm də "nizam nəzəriyyəsinin" normativ aspektlərinə aiddir.

Müasir konstitusiyalı iqtisadiyyatda, bu aspekt, iki əsas elementlə xarakterizə olunur. Aktiv element – hansı "zəruri" institusional strukturun, yarana biləcəyi haqqa, konstruktiv yanaşma; və institusional tədbirlərin əsas normativ qiymətləndirmə meyarları kimi, maraqlı tərəflərin razılığının öyrənilməsi ilə bağlı, ikinci yanaşma. Bu iki cəhət, alman "nizam nəzəriyyəsini"də əhatə edir, ancaq onlarda xüsusi ilə ikinci yanaşma çox səthi istifadə olunur.

Konstitusiyalı iqtisadiyyat, F.Xayekin adı ilə bağlı olan körtəbii artım və mədəni evolyusiyaya diqqəti cəlb etməyin əksinə olaraq, qayda və institutların, "müvafiq" strukturu şəraitində, seçim aspektlərinə zəif əhəmiyyət verir. Konstitusion seçimə diqqət yetirmə sayəsində, alternativ qayda və qanunların fəaliyyəti haqda, informasiya baxımından pozitiv, müqayisəli institusional təhlil, son dərəcə vacibdir. Alman neoliberalları isə, konstitusiyon nizam yaradılması sahəsində, konstruktiv siyasi məsələlərə eyni dərəcədə əhəmiyyət verirlər. Onlar kortəbii, spontan inkişaf edən, "lazımi" iqtisadi konstitusiyanın perspektivliyinə inamsız yanaşırlar. Baxmayaraq ki, müqayisəli institusional təhlil ideyaları, o qədər də ümumi deyildi, hesab edirdilər ki, iqtisadiyyatın əsas vəzifəsi – həqiqi institusional xarakteristikalar haqda, informasiya əldə etməklə, "yaxşı iqtisadi konstitutsiya" uğrunda, siyasi axtarışda iştirak etməkdir.

"Zəruri" və ya "arzu olunan", konstitusiyalı nizam anlayışları, alternativ institusional vasitələri qiymətləndirməyə imkan verən, müəyyən normativ meyarlar və ya standarların mövcudluğunu qəbul edir. Fərdi azadlıq haqda klassik, liberal suala həm alman "nizam nəzəriyyəsi" və həm də konstitusiyalı iqtisadiyyatda, eyni dərəcədə əhəmiyyət verilir. Lakin hər iki nəzəriyyədə, secim azadlığı kriteriyasının, onların normativ izahına daxil

edilməsi üsulu haqda baxışlar fərqlidir. Alman neoliberalları, öz arqumentlərini elə izah edirlər ki, sanki "fərdi azadlıq" dəyəri, lazımı normativ standart kimi qəbul edildikdə, "zəruri" konstitusion nizamın seçimi, nəzəri obyektin ciddi pozitiv, sübut etmə arqumentinə çevrilir.

Konstitusiyalı iqtisadiyyat problemləri ilə məşqul olan, müasir iqtisadçılar isə, daha dəqiq ifadə etməyə ustunluk verirlər. İnstitusional secim prosesində, analitik informasiyanın mühüm əhəmiyyətini qəbul etsələr də, onlar, qaydaların ədalətliliyini müəyyənləşdirən əsas instansiyanın - fərdlər olmasını ,düzgün hesab edirlər. Onların fikrincə, bütün tərəflərin razılığı, konstitusiya tədbirlərinin "ədalətliliyi" və yüksək "keyfiyyətliliyini" göstərir.

Beləliklə, "nizam nəzəriyyəsi"ni, müasir konstitusiyalı iqtisadiyyatın əsl sələfi hesab etmək, o qədər də düzgün olmaz. Lakin, yuxarıdakı təhlil göstərir ki, alman neoliberalları öz nəzəriyyələri ilə, konstitusiyalı iqtisadiyyat tərəfdarlarının, sonralar, daha da dəqiqləşdirdiyi məsələlərə diqqət yetirmişlər. Yəni, alman neoliberalları və konstitusiyalı iqtisadiyyat nəzəriyyəçiləri, eyni istiqamətdə işləmişlər.

2.3. İctimai seçim: metodoloji və nəzəri mülahizələr və prinsiplər

İctimai seçim nəzəriyyəsinin əsası, XVIII-XIX əsrlərdə səsvermə problemlərini öyrənən, riyaziyyatçıların əsərlərində (J.Konorse, T.Laplas, L.Kerrol) qoyulmuşdur. Sonralar siyasi fəlsəfə tədqiqatçıları T.Qobbs, B.Spinoza və s., politoloqlar C.Medison və A. de Tokvill, ictimai seçimin müxtəlif prizmalardan, nəzəri əsaslarını verməyə çalışmışlar. Ictimai seçim nəzəriyyəsinin aktuallığı, 1930-1940-cı illərdəki bazar sosializmi və maddi rifah iqtisadiyyatı barəsində, diskusiyalar dövründə daha da yüksəldi. İqtisad elminin müstəqil istiqaməti kimi isə, ictimai seçim nəzəriyyəsi 1950-1960-cı illərdə K.Errou (1951, 1963), E.Dauns (1957), D.Blek (1958), C.Byukenen və Q.Tallok (1962), M.Olson

(1965) və U.Niskanen (1971) əsərlərinin nəşrindən sonra formalaşdı.

İctimai seçim nəzəriyyəsi, makroiqtisadi qərarların formalaşmasının siyasi mexanizmini öyrənir. Ona görə də, bəzən bu nəzəriyyəni, "yeni siyasi iqtisad" adlandırırlar[1]. Bu nəzəriyyə tərəfdarları dövlətin iqtisadiyyata müdaxiləsinin səmərəliliyinə şübhə ilə yanaşmaqla keynsçiliyi tənqid edirlər. Klassik liberalizm prinsiplərini ardıcıl inkişaf etdirərək, makroiqtisadi təhlil üsullarının vasitəsilə onlar, ənənəvi olaraq politoloqlar, hüquqşünas və sosioloqların tədqiqat sferasına daxil olan problemləri şərh etməyə və həllinə cəhd edirlər.

Belə müdaxilə "iqtisadi imperializm" adlanır. Iqtisadiyyatın dövlət tənzimlənməsinin, keynsçi baxışlarını tənqid edərək, ictimai seçim nəzəriyyəsi tərəfdarları, maliyyə - kredit siyasəti vasitəsilə iqtisadiyyata təsir etməni yox, hökumət qərarlarının, qəbulu prosesini öyrənməyi, düzgün hesab edirlər.Yəni mahiyyətcə "ictimai seçim nəzəriyyəsi", institusional nəzəriyyənin tərkib hissəsidir.

İnstitusional iqtisadi nəzəriyyə. İnstitusionalizm müstəqil istiqamət kimi, XX əsrin əvvələrində yaransa da, uzun müddət digər iqtisadi nəzəriyyələrə nisbətən kölgədə qalmışdır. İqtisadi nemətlərin hərəkətinin, institusional faktorlarla izahı, çoxları tərəfindən qəbul olunmurdu. Bunun əsas səbəblərini, iki böyük qrupa ayırmaq mümkündür. Əvvəla, "institut" termini ilə, insanların adət və ənənələrinə uyğun gələn, hətta qanuni status almış sosial-psixoloji hadisələr və məfhumlar, o cümlədən həmkarlar ittifaqı, dövlət, korporasiya, adətlər və s. kimi anlayışlar başa düşülür. Digər tərəfdən isə, institusionalistlər başqa ictimai elmlərin (hüquq, sosialogiya, psixologiya, politologiya və s.), üsullarını iqtisad elminə tətbiq etməyə çalışırdılar. Ona görə də onlar, digər tədqiqatçılarla, iqtisadiyyatın dili sayılan qrafik və formullarla da-

[1] Р.Нуреев. Теория общественного выбора// «Вопросы экономики». 2002 г. №8. С. 122-149

nışa bilmirdilər. Əlbəttə, səbəblərin bir çoxu, obyektiv əsasa malik idi. Lakin 1960-1970-ci illərdə, vəziyyət əsaslı şəkildə dəyişdi. Tədqiqatçıların diqqət mərkəzində artıq, adətlər yox, insanların standart vəziyyətlərdə davranışlarını şərtləndirən, sosial institutlar dayandı.

Bununla da, daimi təkrarlanan proseslərin (cəmiyyətdə təkrar istehsal olunan) tədqiqi və qiymətləndirilməsi üçün, şərait yarandı. Yəni, proseslərin obyektiv qanunauyğunluqlarının öyrənilməsi və formalaşdırılması vasitəsilə, iqtisadi - riyazi modellərin yaradılması imkanı meydana gəldi. İnstitutlar, individualist - fərdi məqsədlərin, əldə olunması vasitəsi anlamında qəbul edilməyə başlandı.

Yaranmış prinsipial dəyişikliklərin mahiyyətini qavramaq üçün "köhnə institusionalistlərlə" (T.Veblen, C.Kommons, C.Helbreyt), "yeni institusionalistlərin" (R.Kouz, C.Byukenen, X.Demses, M.Olson, R.Pozner) baxışları arasında mövcud olan fərqləri nəzərdən keçirmək vacibdir. **Əvvəla** - "köhnə" institusionalistlər, qeyd edildiyi kimi əsasən hüquq və siyasətdən iqtisadiyyata gəlməyə çalışaraq, iqtisad elminin müasir problemlərini, digər ictimai elmlərin metodları ilə həll etməyə can atırdılar. Neoinstitusionalistlər isə tam əks yolla gedir. Politoloji və siyasi problemləri, neoklassik iqtisadi üsullarla, ilk növbədə isə müasir makroiqtisadiyyat və oyunlar nəzəriyyəsinin aparatı vasitəsilə həll etməyə çalışırlar.

İkincisi - ənənəvi institusionalizmin əsas həll vasitəsi, induksiya metodudur. Yəni onlar, fərdi hallardan ümumiləşdirməyə doğru getməyə çalışırlar. Əslində, məhz buna görə, ümumi institusional nəzəriyyə formalaşmamışdır. Neoinstitusionalizm əksinə - deduksiya üsulundan çıxış edərək neoklassik iqtisadi nəzəriyyənin prinsipləri vasitəsilə ictimai həyatın konkret problemlərini izah edir.

Üçüncüsü - "Köhnə" institusionalizm, radikal iqtisadi fikir cərəyanı kimi, əsasən kollektivlərin (ilk növbədə həmkarlar təşkilatı və hökumətin), fərdlərin maraqlarının qorumasına daha çox diqqət yetirir; neoinstitusionalizm isə əsas diqqəti, öz maraqları və iradəsinə görə daha faydalı hesab etdiyi kollektivi seçən, müstəqil fərdlərə yönəldir. Yeni institusional nəzəriyyə, XX əsrin sonlarında formalaşmışdır (D.Nort və b.). Onun əsas diqqət mərkəzi, sosial institutlara xas olan "oyun qaydaları" üzərində cəmləşmişdir. Oyun qaydaları ayrıca, həm iqtisadi agentlərdən, həm də təşkilatlardan kənarda tədqiq olunur. Lakin əvvəllər, institutlar iqtisadiyyata münasibətdə ekzogen, yəni kənar subyekt kimi, həm də iqtisadi institutlar, siyasi institutlardan ayrıca öyrənilirdisə, yeni siyasi iqtisadda onlar, vahid struktur kimi, insanların qarşılıqlı əlaqəsini təmin edən sistemin elementləri kimi tədqiq olunur. İctimai seçim nəzəriyyəsində, iqtisadiyyat və siyasət bir-birini şərtləndirən, qarşılıqlı münasibətdə olan və daima bir - birinə çevrilən fəaliyyət sferaları kimi qəbul edilir. Yeni siyasi - iqtisadi təhlil metodu, təkcə siyasi proseslərin iqtisadi əsasını yox, həm də bazar iqtisadiyyatına müdaxilənin siyasi metodlarını öyrənir.

Son on illiklərdə iqtisadi tədqiqatlarda və ekspert qiymətləndirmələrində institusionalist aparatın tətbiqi sürətlə genişlənir. Bunu bir neçə, mühüm səbəblə izah etmək olar. Belə səbəblərə ilk növbədə, ortodoksal siyasi iqtisadın, bir neçə "zəif" xüsusiyyətlərini aid etmək düzgündür. Tam rasionallıq, mütləq məlumatlılıq, təkmil rəqabət, yalnız qiymət mexanizmi vasitəsilə tarazlığın təmin olunması və s. kimi klassik iqtisadi kateqoriya və fərziyyələr müasir inkişaf səviyyəsində öz aksiomatik mahiyyətini dəyişir. Ona görə də müasir iqtisadi, sosial və siyasi proseslərin kompleks və hərtərəfli təhlilinə ehtiyac artır. Digər tərəfdən müasir inkişaf mərhələsində ənənəvi iqtisadi tədqiqat üsullarının tətbiqi arzu olunan nəticələr vermir[1].

Qloballaşma və iqtisadiyyatın getdikcə daha artıq dərəcədə "virtuallaşması", ayrı-ayrı ölkələrdə, bütövlükdə bazar münasibətlərinə əsaslanan təsərrüfatçılığın, müxtəlif modellərinin (ame-

---

1 Р.Нуреев. Институтсионализм: прошлое, настоящее, будущее// Вопросы экономики. 1999. №1.

rikan, alman, yapon, isveç və s.) yaxınlaşması üçün, obyektiv əsaslar yaratsa da, institusionalizmin "regionallığı" qalmaqdadır. Məsələn, amerikan və qərbi Avropa institusionalizmi arasında, kifayət qədər geniş fərqlər vardır.

Amerikan iqtisadi baxışları və tədqiqat üsulları, ənənəvi olaraq, dünyada öncül sayılır, lakin, institusionalizm metodlarının inkişafında avropalılar daha irəlidədirlər. Bu "metomorfoza" milli - mədəni ənənələrlə izah olunur. Tarixi ənənələrə malik olmayan ölkə kimi, amerikalı tədqiqatçıların yanaşması mücərrəd, rasional fərd prizmasından yanaşmadır. Qərbi Avropada isə şəxslər arası münasibətlərin, yalnız bazar sövdələşmələri vasitəsilə məhdudlaşdırılması ilə xarakterizə olunan cəmiyyət və fərdlərin qarşı-qarşıya qoyulması, qəti yolverilməz hesab olunur. Məsələn, amerikan neoinstitusionalistləri, normaları, ilk növbədə, seçkilərin nəticəsi hesab edirlər. Fransız tədqiqatçıları isə, normaları, rasional davranışın ilkin şərtləri, hesab edirlər. Ona görə də rasionallıq, məhz davranış norması kimi, izah olunur.

Müasir iqtisad elmində institutlar anlayışı, cəmiyyətin "oyun qaydası" və ya "insanın yaratdığı" məhdudiyyətlər çərçivəsi, kimi qəbul edilir. Bu oyun qaydaları və ya çərçivə məhdudiyyətləri, insanlar arasında qarşılıqlı münasibətləri və onların həyata keçirilməsi mexanizmləri, sistemlərini təşkil edir. Institutlar, insanların qarşılıqlı əlaqələrini şərtləndirən motivlərin strukturunu yaratmaqla, qeyri müəyyənliyi azaldır, gündəlik həyatı təşkil edir.

İnstitutlar formal və qeyri-formal (məsələn, adət və ənənələr), qruplara ayrılır. Formal institutlar dedikdə, təşkilatlar və müvəkkəl olunmuş şəxslər (dövlət məmurları) tərəfindən, müəyyənləşdirilən və qorunan, qaydalar başa düşülür. Mahiyyət etibarilə, istənilən institutun yaradılması, vahid standartların formalaşdırılması yolu ilə, xərclərin azaldılması və məhdudiyyətlərin faydasının artırılmasıdır. Cəmiyyətin inkişafı, formal və qeyri – formal qaydaların dəyişməsi, həmçinin, bu qaydalara əməl olunmasının təmin yolları və səmərəliliyinin dəyişməsini doğura bilər. Aydındır ki, formal qaydaların dəyişməsi, daha çox birbaşa xərc, tələb edir. Lakin ümumiyyətlə hesab olunur ki, xərclərin həcmindən asılı olmayaraq, qeyri-formal qaydaların dəyişdirilməsi, daha çətin, ağrılı və uzunmüddətli prosesdir.

İqtisadi subyektlər, adətən öz bilik və bacarıqlarını, imkanlarını, daha çox fayda götürmək üçün, siyasi və iqtisadi dairələrdə fəaliyyət göstərən, aralıq və ya əsaslı təşkilatların yaradılmasına istiqamətləndirirlər. Belə təşkilatların yaradılmasının əsas şərti, onların formal qaydalarda tələb olunan, dəyişikliyi təmin edə bilməsidir. İnqilablar və ciddi islahatlar dövründə, formal qaydaların dəyişməsinin, iqtisadi nəticələri də özünü tez göstərə bilər. Qeyri-formal qaydaların dəyişməsi isə, tədrici xarakterli olub, təsadüfi, təbii seçmə və mədəni inkişaf səviyyəsi, faktorları ilə şərtlənir.

İnstitusional dəyişikliklərdə təşkilatlar, çox mühüm rol oynayır. Təşkilat - sözün geniş mənasında, hansısa məqsədə nail olmaq üçün birləşmiş, bir qrup adamlardan ibarətdir. Dəyişikliklərin istiqamətini, məhz seçilmiş məqsədə çatma xərclərinin aşağı salınması, təşkil edir. Ümumiyyətlə, dəyişikliklərin iki strategiyası var: mövcud məhdudiyyətlər çərçivəsində dəyişmələr və çərçivənin özünün dəyişdirilməsi. Institusional dəyişiklər, adətən, təşkilatı eksperiment və səhvlərin aradan qaldırılması xarakteri daşıyır. Burada əsas problem, cəmiyyətin təklif olunan dəyişikləri, hansı çərçivədə, qəbul edə bilməsidir. Çünki, əvvəla, ayrı - ayrı ölkələrdə eyni instituta münasibət və onun nəticəliliyi müxtəlif ola bilər. Digər tərəfdən, hər bir institusional sistem, məhsuldar və əks məhsuldar stimullar yarada bilir. Əgər transaksiya xərcləri çox, əks əlaqə isə zəifdirsə, institusional inkişaf, iştirakçıların və ya oyunçuların subyektiv baxışları üzrə yönələcəkdir. Məhz bu məqam, müxtəlif institusional məhdudiyyətlərin meydana gəlməsinə, özünəməxsus institusional tələblərin yaranmasına, imkan yaradır.

Aydındır ki, uzunmüddətli iqtisadi dəyişiklər, əsas etibarilə siyasi və iqtisadi agentlərin, qısa müddətli qərarlarının yığılmasının nəticəsidir. Agentlərin qərarları isə, onların subyektiv fikirlərinin məhsuludur. Ona görə də, nəzərdə tutulanlarla, nəticələrin uyğun olması dərəcəsi, agentlərin subyektiv mülahizələrindən ası-

lıdır. Bu baxımdan nəticələr, nəinki qeyri-müəyyən, hətta gözlənilməz ola bilir.

Beləliklə, institusional dəyişikliklərin, hansı nəticələrə gətirməsini öyrənmək üçün, iqtisadi agentlərin fəaliyyət prinsipləri araşdırılmalı və onların davranışının rasionallığı, qiymətləndirilməlidir. Əslində ictimai seçim nəzəriyyəsi, rasional seçim nəzəriyyəsinin xüsusi halıdır.

Neoklassik iqtisadi nəzəriyyədə, rasionallıq dedikdə, malik olduqları resurslar, o cümlədən biliklər və partnyorların bir – birinə qarşı davranışlarındakı gözləmələr daxilində, individlərin, faydalılığının maksimumlaşdırılması başa düşülür. Hesab olunur ki, rasional individlər, öz hərəkətlərinin xərcləri və qazanclarını müqayisə edə bilməklə yanaşı, fəaliyyətlərinin nəticələrinidə dərk edə bilirlər. Neoklassiklər, rasionallığın təmin edilməsində, qəbul edilmiş ümumi qaydalar, adət və ənənələrə, ciddi əhəmiyyət vermirlər. Lakin bununla belə, qeyri-müəyyənliyi azaltmaq üçün, iqtisadi agentlər ənənələri nəzərə almağa məcburdur. Çünki ,qeyri - müəyyənlik yüksək olan sahədə, neoklassik mülahizələrin universallığı itir. Rasional individ, optimal nəticələrə yox, sosial nəticələrə, daha çox əhəmiyyət verir. Digər tərəfdən, zaman ötdükcə, hər hansı rasional fəaliyyət, qeyri - rasional ola bilər.

Rasional seçim nəzəriyyəsi rasionallıq probleminə bu baxımdan çevik yanaşmanın tərəfdarıdır. Belə yanaşma aşağıdakı üç istiqamətdə formalaşmışdır:

Şotland mənəviyyat fəlsəfəsi prinsipləri - cəmiyyətdə fərdiləşdirilmiş davranış konsepsiyasını formalaşdırmışdır. (F.Xatçenson, A.Ferqyuson, D.Yum, A.Smit);

Utilitarizm cərəyanı - mənəvi dəyərlər və qiymətləndirmələrin üstünlüyü prinsipləri (hər bir invidiv nəyin "yaxşı", nəyin "pis" olduğunu dərk edir);

Neoklassik nəzəriyyə (A.Marşall) - adamlar arasında qarşılıqlı münasibətlərin rolunun əhəmiyyəti.

Rasionallıq aksiomu, reallığı hərtərəfli əhatə etmir. Bu aksiom, reallığın ideal halının təsəvvürünü formalaşdırır. Belə təsəvvür isə, fəaliyyət sahəsindən asılı olmayaraq, fərdlərin davranışının əsas fərziyyələrini müəyyənləşdirməyə imkan verir. Rasional seçim nəzəriyyəsi universaldır. Ayrı-ayrı elm sahələrində mahiyyətcə, eyni seçim qaydaları, müxtəlif anlayışlarla adlandırılsa da, rasionallığın üç cəhəti - seçimin fərdi xarakteri, məhdudluğu və subyektivliyi hamılıqla qəbul edilir. Rasionallığın müəyyənləşdirilməsində, fərdin seçdiyi məqsəd, aparıcı olduğundan, əslində rasional halların sayı, faktiki olaraq çox genişdir.

Neoklassik nəzəriyyədən fərqli olaraq, rasional seçim nəzəriyyəsinə görə, gündəlik qərar qəbulunda vaxt, transaksiya xərcləri və informasiya faktorları mühüm rol oynayır. Ona görə də rasional seçim, yalnız yeganə və ciddi (maksimumlaşdırma) prinsipə yox, həm də bu faktorlar baxımından, əlçatan səviyyədə, tələbatın max ödənilməsi prinsipinə əsaslanır. Bu baxımdan, rasional seçimin müxtəlif növləri mövcuddur. Məsələn, R.Kouzun "transaksiya xərcləri"; N.Saymonun "məhdud rasionallıq"; C.Stiqlerin "yarımçıq məlumata əsaslanan neoklassik təhlil"; H.Bekkerin "ailə münasibətlərində qeyri-müəyyənlik" - metod və konsepsiyaları əsasında ,rasional seçimin müxtəlif nəzəriyyələri, mövcuddur.

Rasional seçim nəzəriyyəsi, "metodoloji fərdilik" konsepsiyasını inkişaf etdirir. Bu o deməkdir ki, ictimai strukturlara, öz məqsədələrini güdən individlərin toplusu kimi baxılır. Lakin bu, heç də individlərin öz məqsədlərini mütləqləşdirməsinə gətirmir. Çünki fərdlər, təşkilat daxilində, həmişə öz maraqlarını müəyyən, mənəvi məhdudiyyətlər daxilində güdə bilirlər.

Rasional seçim nəzəriyyəsi daxilində, ilk vaxtlarda, iki istiqamət - ictimai və sosial seçim istiqamətləri yaranmışdır. Ictimai seçim istiqaməti daxilində isə, iki məktəb - Çikaqo və Virciniya məktəbi formalaşmışdır. Çikaqo məktəbi 1930-cu illərin ortalarında yaranmışdır, bazarın effektivliyi və neoklassik qiymət nəzəriyyəsinin uğurlarına daha çox diqqət yetirilməsi ilə tanınır. Virciniya məktəbi də əslində Çikaqoda yaranmışdır. Lakin 1950-ci ildə, C.Byukenenin Virciniya universitetinə gəlişindən sonra, daha çox uğur qazanmışdır. Bu məktəbin nümayəndələri üçün, əsas tədqiqat obyekti, bazarın üstünlükləri yox, aparılan siyasətin

naqislikləri olmuşdur. Siyasətin özü isə, yalnız mübadilə kimi qəbul edilir. Həm də Virciniya məktəbi (C.Byukenen, U.Hatter, R.Vayninq, L.İger, C.Brenani, U.Buş, R.Vaqner, Q.Tallok, D.Müller, R.Tollison), bu mübadilədə, konstitusiyalı iqtisadiyyatın, etik əsaslarının pozitiv yox, normativ təhlilini əsas sayırlar.

Virciniya məktəbindən fərqli olaraq, sosial seçim nəzəriyyəsi tərəfdarları isə, (ilk növbədə K.Errou, A.Berqson, A.Sen, C.Romer, C.Elster, K.Moen) fərdlər qrupunun maraqlarını, daha yaxşı ifadə edən rifah funksiyasını yaratmağa çalışırlar. Belə funksiya institutları prosedur və qaydaları tətbiq etmə mexanizmi kimi yox, siyasi sövdələşmə və ya oyunun əsasında dayanan, tarazlıq alətləri kimi xarakterizə edir.

C.Byukenen və yeni siyasi iqtisadın təşəkkülü. İctimai seçim nəzəriyyəsinin yaradıcılarından biri, Amerika iqtisadçısı Ceyms Maykl Byukenendir. C.Byukenenin və Q.Tallokun, 1969-cu ildə Virciniyada yaratdığı İctimai seçim tədqiqatları Mərkəzi (Corc Meyson Universiteti), yeni siyasi iqtisadın əsaslarının yaradıcısı, hesab olunur.

C.Byukenen, müqavilə (kontrakt) paradiqması çərçivəsində, iqtisadi nəzəriyyənin predmetinə, yeni şərh vermişdir. Hələ, keynisçiliyin hökmranlığı dövründə, 1960-cı illərin əvvəlində, Cənub İqtisadi Assosiyasiyasının Prezidenti kimi, o, assosiyasiya üzvlərinə müraciətində, iqtisadiyyatı "bazar və cəmiyyət institutları" haqqında elm adlandırmışdır. Onun fikrincə bu elm, "Fərdlərin hüquqları toplusu və ya strukturunu dəqiq müəyyənləşdirməkdən başlayır; iqtisadi fəaliyyətin nəticələrini, əvvəlcədən göstərən və izah edən təsdiqləyici mülahizələr toplusunu və həmçinin struktur dəyişmələrinin, nəticələrə təsiri haqda şərti mülahizələri təqdim edir". Fərdlərin hüquqlarının dəqiq müəyyənləşdirilməsi, bazar iqtisadiyyatının səmərəli fəaliyyəti üçün imkan yaratmaqla bərabər, digər iqtisadi sistemlərlə müqayisədə, onun əsas üstünlüklərini aşkar olunmasına əlverişli şərait açır. Dövlət və hüququn yaranması səbəbləri və mənşəyinin, azad fərdlərin müstəqil müqaviləsinin nəticələri kimi şərhi, "ictimai müqavilə (sosial kontrakt) nəzəriyyəsinə aid hesab olunur. İctimai müqavilə (kontrakt),

nəzəriyyəsinin əsasını qoyanlardan biri, məhşur ingilis filosofu və iqtisadçısı Con Lokk (1632-1704) olmuşdur. C.Byukenen Con Lokku özünün ideya sələfi hesab edir.

Məhz C.Lokkun əsərlərində, ilk dəfə vətəndaş cəmiyyətinin zəruri şərti və dövlət hakimiyyəti səlahiyyətlərinin müqaviləli şərhi kimi, xüsusi mülkiyyətin əsaslandırılmasına rast gəlinir[1]. "Müqavilə nəzəriyyəsi - "azadlığı "təbii vəziyyət" kimi təsəvvür edir və onun əsasında yaşamaq, azadlıq və mülkiyyət hüququnun dayandığını göstərir. Hesab olunur ki, bu hüquqların hər biri, digərinin realizasiyası üçün, ilkin şərtləri yaradır və biri digərinə çevrilir. Yaşamaq hüququ, xoşbəxtlik və faydalılığa söykənən fəaliyyətdə reallaşır. Azadlıq hüququ, despotizmi rədd edir. Mülkiyyət hüququ, bu hüquqların ilkin şərti və qarantı rolunu oynayır. Azad fəaliyyət, müstəqil fikir, fərdi seçmə və düşünülmüş məqsədli xarakterə malikdir.

C.Lokkun bu ideyaları və onun bəzi sonrakı davamçılarının fikirləri, bazar təsərrüfatının ideal modelini təsvir etdiyi üçün, mücərrəd xarakter daşıyır. Belə bazarda, hamı sadə məhsul istehsalçısı kimi, tam təkmil rəqabətlilik şəraitində fəaliyyət göstərir. C.Byukenen isə, cəmiyyətin müqavilə nəzəriyyəsinə istinad edərək, siyasi münasibətlər sferasında, ideal bazar mexanizminin müsbət cəhətlərini və imkanlarını göstərməyə çalışmışdır. C.Byukenenin hələ 1954-cü ildə, nəşr etdirdiyi "Səsvermədə fərdi seçim və bazar" adlı məqaləsində, ictimai seçimin iki səviyyəsini fərqləndirirdi. 1) ilkin, (konstitusiya qəbul edilənədək reallaşan seçim), 2) konstitusiyadan sonrakı seçim. İlkin mərhələdə fərdlərin hüquqları müəyyənləşdirilir, onlar arasında münasibət qaydaları yaradılır. Postkonstitusiya mərhələsində isə, fərdlərin, müəyyən olunmuş qaydalar daxilində, davranış strategiyası formalaşdırılır. Başqa sözlə, cari siyasət, konstitusiya qaydaları daxilində oyunun nəticəsidir. Ona görə də siyasətin nəticəliliyi və səmərəliliyi, daha çox ilkin konstitusiyanın necə tərtib olunma-

[1] Дж. Локк. Два трактата о правлении, кн. 2. В книге Локк Дж. Сочинения. В 3 т. М. Мысль 1988, т. 3. С. 262-356

sından asılıdır. C.Byukenen, doğru olaraq elə hesab edirdi ki, konstitusiya, ilk növbədə dövlətin yox, vətəndaş cəmiyyətinin əsas qanunudur. Hüquqi sistem, ictimai nemət yox, özünəməxsusluğu ilə seçilən ictimai kapitaldır. Qanunların ictimai kapital kimi hərtərəfli əsaslandırılması "Azadlıq sərhədləri" əsərində verilmişdir. "Təcrübədə formalaşmasından asılı olmayaraq qanunlar sistemi, özlüyündə elə ictimai kapitaldır ki, onun faydası zaman ötdükcə artır"[1].

Adi kapitaldan fərqli olaraq etibarlı hüquqi sistemin faydası, fərdlərarası münasibətlərin stabilliyinin artmasında, özünü təzahür etdirir. Belə fayda, adi kapitalın faydasından fərqli olaraq, ani yaranmır və özünü həmin anda biruzə vermir.

Digər tərfdən isə, hüququ sistemin daima "silkələnməsi", hüquqi prinsiplərin pozulması nəticəsində, ictimai kapital həmişəlik itrilə bilər. Postkonstitusion seçim hər şeydən əvvəl oyun qaydalarının" - hüquqi doktrinalar və "işçi qaydaların" *(working rules)* seçimidir. Bu seçim, əslində ictimai nemətlərin istehsalı və bölgüsünə hədəflənən, iqtisadi siyasətin, konkret istiqamətlərinin müəyyənləşdirilməsinin əsasını təşkil edir.

Məlum olduğu kimi, elmin fəlsəfəsinin yaradıcılarından olan İ.Lakotaşın təbirincə, hər bir elm sahəsi, "əsas nüvə" və "müdafiə kəməri"dən ibarətdir. Yeni siyasi iqtisadın nüvəsini, aşağıdakı üç ideoloji mülahizə təşkil edir: - **metodoloji fərdilik; - iqtisadi insan konsepsiyası; - siyasətin mübadilə olması.**

Metodoloji fərdilik. Resursların məhdudluğu şəraitində, hər bir fərd, mövcud alternativlərdən birini seçmək məcburiyyətindədir. Fərdlərin bazarda seçim davranışının, təhlili üsulları, kifayət qədər universaldır. Bu metodları, insanın seçim etdiyi bütün sahələrə, tətbiq etmək olar. İctimai seçim nəzəriyyəsinin əsas fərziyyəsi, ondan ibarətdir ki, insanlar siyasi sferada, öz maraqlarını güdməklə hərəkət edirlər və bizneslə siyasət arasında, keçilməz

[1] Бьюкенен Дж. Границы свободы. Между анархией и лефиафаном. Сочинения. М., Таурус Альфа, 1997.

maneə yoxdur. Bu tezis, mahiyyətcə, dövlətin zəruriliyi haqdakı mifi dağıdır. Çünki hesab olunur ki, dövlətin ictimai maraqlardan qeyri məqsədləri yoxdur.

"Rasional siyasətçilər", ilk növbədə elə proqramları müdafiə edilər ki, bu proqramlar, həmin siyasətçilərin nüfuzunu artırır və onların yeni seçkilərdə qələbə qazanmaq şansını çoxaldır. Beləliklə, ictimai seçim nəzəriyyəsi, fərdiçilik prinsipini ardıcıl olaraq tətbiq etməklə, bu prinsipi bütün fəaliyyət sahələrinə, o cümlədən dövlət qulluğuna şamil etməyə cəhd edir.

İqtisadi insan konsepsiyası. (Homo economicus) Bazar iqtisadiyyatında insan, özünün seçim meyarlarını, əmtəələrlə eyniləşdirir. Elə qərar qəbul etməyə çalışır ki, faydalılıq funksiyasını maksimumlaşdırsın. Yəni, insanın davranışı rasionaldır. Fərdin rasionallığı prinsipi, bu nəzəriyyə üçün tam universal hesab olunur. Bu o deməkdir ki, seçicidən başlayaraq, prezidentə qədər hamı öz fəaliyyətində, ilk növbədə iqtisadi prinsipləri qorumağa çalışır. Başqa sözlə, qərar qəbulunda həmişə, limit xərcləri və faydası müqayisə edilir (MB ≥ MC).

Siyasət mübadilədir. C.Byukenenin təklif etdiyi, ictimai seçim nəzəriyyəsinin mühüm prinsipi kimi, qəbul edilən siyasətin, mübadilə prosesi xarakterinə malik olması ideyası, əslində K.Vikselə məxsusdur. Siyasi və iqtisadi bazarlar arasında əsas fərqi, C.Byukenen insanların, maraqlarının meydana gəlməsi şərtlərində görürdü. "Siyasət, fərdlər arasında mübadilənin mürəkkəb sistemidir. Belə mübadilədə fərdlər, adi bazar mübadiləsində əldə edə bilmədikləri məqsədlərə çata bilmək üçün, kollektiv cəhdlər edirlər. Burada fərdi maraqlardan savayı, maraq yoxdur. Bazarda insanlar, almanı - apelsinə dəyişirlər, siyasətdə isə hamıya və hər kəsə: xidmətçidən hakimədək, nemətləri əldə etmək üçün vergiləri ödəməyə razılaşırlar"[1].

İctimai seçim nəzəriyyəsi tərəfdarları, siyasi bazarlara, analoji əmtəə bazarı kimi baxırlar. Bu baxımdan, dövlət - insanların

[1] Дж.Бьюкенен. Сочинения. Серия «Нобелевские лауреаты по экономике» М.: Таурус Альфа. 1997.

qərar qəbuluna təsir etmə, ehtiyatların bölgüsündə iştirak etmə, idarəetmə ierarxiyasında mövqe tutmaq uğrunda, rəqabət arenasıdır.

Ancaq, dövlət - özünəməxsus bazardır. Bu bazarın iştirakçıları, qeyri - adi mülkiyyət hüququna malikdirlər. Seçicilər - ali dövlət orqanlarına təmsilçiləri seçmək, deputatlar qanunları qəbul etmək, məmurlar isə onların icrasına nəzarət etmək hüququna malikdirlər. Seçicilər və siyasətçilər səsləri və seçkiqabağı vədlərini mübadilə edən fərdlər kimi qəbul edilir.

Bir sıra alimlərin fikrincə, Byukenenin bu yaxınlaşmasına, bəzi zəruri əlavələrin edilməsi mümkündür. Siyasətdə, kollektiv fəaliyyət təcrübəsi geniş yayıldığından, siyasi prosesləri və mübadilə prosesini, bir fərdin yox, bir qrup şəxsin maraqları prizmasından, təhlil etmək mümkündür və ya daha məqsədəuyğundur. İnsanlar, sosial və ya əmlaka malik olma əlaməti, dini və ya siyasi partiyaya mənsub olma əlaməti və s. üzrə qruplara, yəni eyni məqsədə çalışanların qrupuna, ayrıla bilirlər. Bu zaman, hətta metodoloji fərdilik prinsipindən uzaqlaşmaqda olar.

Qrupları öz məhdudiyyətləri, faydalılıq funksiyası və s. olan son bölünməz obyektlər kimi təsəvvür etmək olar[1]. Lakin qrupların müxtəlif faydalılıq funksiyaları və maraqlara malik fərdlərin birləşməsi kimi tədqiq olunması daha düzgün və ardıcıl hesab olunur. Bu mənada, siyasi mexanizmin fəaliyyətinə qrup maraqlarının toqquşması prosesi kimi baxmaq olar. R.Xardin[2], belə yanaşmanı tətbiq edərək, nəticə çıxarır ki, konkret qrup maraqlarının reallaşdırılması, məhz siyasi proseslər çərçivəsində razılaşmanın məhsuludur. Bu yanaşmaya görə, siyasi proseslər əlavə faydalar əldə etməkdə, qruplararası razılaşma üçün əlverişli məqamdır. Siyasi seçim prosesləri ənənəvi olaraq politologiyanın tədqiqat obyektidir. Lakin, nəzəriyyə baxımından bəzi siyasi proseslərə iqtisadi tədqiqat üsulları tətbiq edilə bilər.

[1] М.Олсон. Логика коллективных действий. Общественные блага и теория групп. М. Фонд экономической инициативы, 1995.
[2] Р.Нуреев. Теория общественного выбора// Вопросы экономики. 2002. №8. С.122-149

Son dövrlərdə neoinstitutsionistlər, bir neçə ilkin ideoloji mülahizələrdən ("müdafiə kəməri") imtina etməklə, institusionalizmin klassik, makroiqtisadi proqramını dəyişməyə çalışırlar.Yeni baza ideyası kimi, mülkiyyət hüququ anlayışını daxil edərək, əvəzində, bazarın ideallığı mülahizəsindən imtina edilir. Eyni zamanda, transaksiya xərclərinin mövcudluğunu qəbul edən neoinstitusionalistlər, bəzi, ilkin mülahizələrin (informasiyanın tamlığı və bazardakı agentlər üçün rasionallığı) qismən dəyişməsini, məqsədəuyğun hesab edirlər.

Yeni yanaşma, nəticənin insanın davranış modelindən və fəaliyyət göstərdiyi şəraitdən asılı olması faktına, önəm verir. Neoklassik yanaşmanın ideal modellərindən imtina, informasiyanın natamamlığı, məhdud rasionallıq, iştirakçıların opportunist davranışının mümkünlüyünü nəzərə almaqla, yeni qərarlar və nəticələrə gətirir.

İnformasiyanın natamamlığı. Verilən informasiyanın tamlığı haqda mülahizələr qeyri-real hesab olunur və iqtisadi tədqiqatların dairəsini əhəmiyyətli dərəcədə daraldır. XX əsrdə iqtisad elminin inkişafı bir çox hallarda qeyri - müəyyənlik probleminin və bununla bağlı informasiya axtarışı və onun sonrakı emalı probleminin öyrənilməsi ilə müəyynələşmişdir. (F.Naytın - qeyri-müəyyənlik və risk problemləri üzrə; C.Fon Neymanın və O.Morqanşterin - gözlənilən faydalılıq nəzəriyyəsi; C.Stiqlerin - informasiya axtarışı nəzəriyyəsi və s.[1].

Məhdud rasionallıq. Bu mülahizə, Q.Saymonun məhdud rasionallıq nəzəriyyəsindən törəmədir. Q.Saymon, informasiyanın natamamlığı şəraitində seçimin alternativ proseduralarını təklif etmişdir. Qərar qəbulu prosesi iki mərhələli: 1) axtarış; 2) məqbul variantın qəbul edilməsi kimi təsəvvür olunur. Saymon konsepsiyası, C.Stiqlerin təklif etdiyi informasiya axtarışı nəzəriyyəsi ilə oxşardır.

Hər iki yanaşmada, hazır alternativin olmaması mülahizəsi yer almışdır. Ancaq Saymon hesab edir ki, hər hansı faydalılıq funksiyasını maksimumlaşdırmaq mümkün deyildir.

[1] Р.Нуреев. Теория общественного выбора// Вопросы экономики. 2002. №8. С.122-149.

İştirakçıların opportunist davranışı. Opportunist davranış anlayışı, iqtisadi agentin yeni məna alan, motivasiyası ilə birbaşa bağlıdır. Əgər ilk vaxtlarda, "öz marağı" motivi, mütləq "eqoizm" adlandırılırdısa, sonralar bu fikirin mütləqliyi, getdikcə itməyə başladı. Neoinstitusionalistlər bu motivi, "opportunist davranış" kimi şərh edirlər. "Opportunist davranış", təşkilatın maraqlarının realizasiyasına mane olan, aldatma, informasiyanın gizlədilməsi, düz yoldan çəkindirmək və s. kimi hərəkətləri özündə "cəmləşdirən, dəqiq hesablanmış, öz şəxsi məqsədələrinə can atmaq kimi, başa düşülür. Opportunist davranış, sadə eqoizmdən fərqlənir.

Sadə eqoizm, fərdlərin məlum qaydalara, həmişə əməl etməklə oynamasıdır. Bu zaman təbii ki, öz marağı konsepsiyası əsas tutulur. Beləliklə, nəticə çıxarmaq olar ki, əslində, informasiyanın natamamlığı, məhdud rasionallıq və opportunist davranış qaydalarının nəzərə alınması siyasi proseslərin dərk olunması üçün son dərəcə vacibdir.

Beləliklə, ictmai seçim nəzəriyyəsinin predmetini nəzərdən keçirərək yekunlaşdırmaq olar ki, ictimai seçim nəzəriyyəsi (public choice theory) – insanların, hökumət idarələrini, öz maraqları üçün istifadə etməsi metodları və üsullarını öyrənən nəzəriyyədir. Nəzəriyyənin tədqiqat obyekti - birbaşa və həm də təmsilçi demokratiya şəraitində, **ictimai seçimdir.** Onun əsas sahələri - seçki prosesi, depuptatların fəaliyyəti, bürokratiya nəzəriyyəsi, tənzimləmə nəzəriyyəsi və konstitusiyalı iqtisadiyyatdır.

Əgər əvvəllər, siyasi iqtisad və iqtisadiyyat (ekonomiks) bərabər hüquqlu elmi fənlər hesab olunurdusa, XX əsrdə siyasi iqtisada, iqtisad elminin ancaq bir bölməsi kimi baxmağa başladılar. Lakin XX əsrin sonlarında, siyasi iqtisad, yeni mahiyyət aldı. Yeni siyasi iqtisad - hökumətin, iqtisadi idarəetmə fəaliyyəti metodlarını, həmçinin insanların, hökumət idarələrini öz maraqları üçün istifadə etməsi, metod və üsullarının tədqiqini əsas məsələyə çevirdi.

2.4. İqtisadiyyatın tarazlı inkişafı problemləri və "unifikasiya edilmiş" artım reseptləri

İqtisadi siyasətin və iqtisadiyyatın dövlət tənzimlənməsinin müasir vəzifələri sırasında, inkişafın tarazlığının təmin olunması və müxtəlif resurslardan istifadə kombinasiyalarını dəyişməklə, dinamikada arıtmı sürətləndirmək məsələləri, daha prioritetli vəzifələrə çevrilmişdir.

Mahiyyət və nəzəri meyarlar baxımından, milli iqtisadiyyatın tarazlı fəaliyyəti, bütün qarşılıqlı əlaqəli bazarlarda, tələb və təklifin bərabərliyinin təmin olunması anlamında başa düşülür. İqtisadi fəaliyyətdə üç belə bazar qəbul edilir: məhsul və xidmətlər, istehsal faktorları və pul bazarları. Nəzəri və təcrübi baxımdan bu bazarların tarazlı fəaliyyəti, aşağıda sərh olunduğu kimi müxtəlif məqsədlərin əldə olunmasını nəzərdə tutur.

Məsələn, məhsul və xidmətlər bazarında tarazlıq dedikdə, istehsalçıların öz gəlirlərini maksimumlaşdırması, istehlakçıların isə, aldıqları məhsuldan maksimum fayda götürməsi başa düşülür. İstehsal faktorları bazarında isə tarazlıq: - bazara daxil olan bütün ehtiyatların öz alıcısını tapmasını, təklifi formalaşdıran ehtiyatların sahibkarlarının limit gəlirinin, tələbi formalaşdıran hər ehtiyacın limit məhsuluna bərabərliyini etiva edir. Pul bazarında tarazlıq: - əhali və sahibkarların istədikləri qədər pul təklifinin olmasını nəzərdə tutur.

İqtisadiyyatda ümumi tarazlıq ideyası A.Smitə məxsusdur. Onun fikrincə, istehsalçı və istehlakçıların sərbəstliyi, xaos yaratmır, əksinə şəxsi mənafeni güdən iqtisadi subyektlərin maraqları, hamı üçün əlverişli olan ümumi tarazlığın yaranmasını doğurur. Təkmil rəqabət şəraitində, ilk dəfə ümumi tarazlığın prinsipcə mümkünlüyünü və onun riyazi ifadəsini Valras vermişdir. O sübut etmişdir ki, birindən başqa, digər bazarlarda tarazlıq varsa, o bazarda da tarazlıq yaranacaqdır. Valras hesab edirdi ki, belə bazar pul bazarıdır (Qeyd etmək lazımdır ki, Fridmenin məhşur monetarizm nəzəriyyəsi Valrasın bu ideyasının əksidir).

Mikroiqtiadi səviyyədə Valrasın tarazlıq modeli nəzərdə tutur ki, tələb və təklif hər bir məhsul, xidmət və ehtiyatlar üçün tarazlığa malikdir. Makroiqtisadi səviyyədə isə məcmu tələb və təklifin bərabərliyi nəzərdə tutulur. Başqa sözlə Valras qanuna görə hər hansı bir bazarda tələbin artıqlığı varsa, digərlərində həmin ölçüdə təklifin artıqlığı vardır. Yəni ümumi saldo həmişə sıfıra bərabərdir. Valrasa görə tarazlığın təmin olunması təkcə təkmil rəqabətin mövcudluğunu yox, həm də qiymətdən başqa tələb və təklifin bütün faktorlarının sabitliyini tələb edir. Təbiidir ki, belə fərziyyələr real iqtisadiyyatda həmişə özünü doğrultmur. Ona görə də ümumi tarazlıq tipik deyil, «ideal» hal üçün mümkündür. Lakin bu halın tədqiqi, rəqabətli iqtisadiyyatın hədəfini müəyyənləşdirməyə və tarazlığa mane olan səbəbləri aşkarlamağa imkan verir.

İqtisadi tarazlığın, təmin olunması üsullarının xarakteristikaları arasında, Marşall konsepsiyası, daha məhşurdur. Bu konsepsiyaya görə istehsalçı və istehlakçılar, satış və alış planlarını, qarşılıqlı olaraq iqtisadi konyukturaya görə tənzimləyirlər. Ona görə də, bazarda tarazlıq – tələbin qiymətinin təklifin qiymətindən üstünlüyü və ya əksinə təsiri ilə formalaşır. Belə üstünlüyə reaksiya olaraq istehsalçılar, istehsalın həcmini müvafiq olaraq artırıb, azaldırlar.

Müasir dövrdə makroiqtisadi tədqiqatlarda, tarazlığa doğru hərəkəti - daha çox, iqtisadi agentlərin gözləmələri ilə korrektə olunan stoxostik, ehtimallı proses kimi qiymətləndirirlər. Nəzərdə tutulur ki, iqtisadi subyektlər, tələb və təklifin həcmi haqda qərarları, müxtəlif vaxtlarda qəbul edirlər.Ona görədə, məcmu tələb, cari iqtisadi konyuktura ilə, yəni qüvvədə olan qiymətlərə görə müəyyənləşirsə, istehsal həcmi haqda qərar, istehsal prosesindən əvəl qəbul edilir. Makroiqtisadi nəzəriyyədə, «gözləmələr» konsepsiyasını, 30-cu illərdə İsveç alimi Q.Mürdal təklif etmişdir. Mürdal, gözləmələrin iki tipini fərqləndirməyi vacib hesab edirdi.: «ex poste» gözləmə, yəni baxılan dövr bitdikdən sonra, istehsalçı və istehlakçıların qiymətləndirməsi və «ex ante», iqtisadi agentlərin, qərar qəbulu prosesində formalaşan, plan və

məramlarındakı gözləmələr. Bu tipli konsepsiyalara, ekstropolyasiyalı, adaptiv və rasional gözləmə konsepsiyalarını aid etmək olar. Tarazlığın digər modelləri sırasında, Kene cədvəli, Marksın geniş və təkrar istehsal sxemi, Leontyevin «xərc-buraxılış» modeli, yetərincə istinad olunan modellər hesab edilir.

İqtisadi inkişafın tarazlğı problemi, son dövrlərdə də iqtisadi siyasətin mühüm vəzifələrindən hesab olunur. Bununla belə, tarazlıq problemi iqtisadi inkişafın dayanıqlığı və davamlılığı xüsusiyyətləri ilə, eyni əhəmiyyətli kimi qəbul olunur. İqtisadi siyasətdə, yuxarıda sadalanan xüsusiyyətlərin, uyğunluğunun təmin olunması şərti ilə həlli, düzgün həll hesab olunur. Digər tərəfdən, həmin xüsusiyyətlərin birgə həllinin təmin olunması, iqtisadi inkişafın, resurslardan istifadənin intensivliyinə, yeni baxışların tətbiqi vasitəsilə, daha da gücləndirilməsi şəraitində baş verməsi, son dövrlərdə xüsusi ilə aktuallaşmışdır.

Bununla belə, iqtisadi inkişafda, tarazlıq və sürətli artımın təmin olunmasına yanaşmalarda müxtəliflik vardır. Dünya təsərrüfat sistemində, son illərdə baş verən institusional dəyişikliklər, həmçinin inkişaf etmiş ölkələrin və beynəlxalq iqtisadi təşkilatların, inkişaf etməkdə olan ölkələrə və o cümlədən "tranzitiv" iqtisadiyyatlı ölkələrə, yardım layihələrində, müxtəlif inkişaf nəzəriyyələrinə istinad edərək, tətbiq ediləcək konsepsiyaların, benefisiar ölkələrin kompleks transformasiyasını doğuracağı haqqında, təsəvvürlər yaradılır. Belə nəzəriyyələrdə, iqtisadi inkişafın ən mühüm şərtləndirici faktoru kimi, "idarəetmə" amili önə çəkilir və ona görə də institutların dəyişməsi zərurəti, daha səylə qabardılır. BMT-nin "Minilliyin layihəsi" proqramında da, bu səpkidən insan kapitalına, infrastruktura və kənd təsərrüfatı texnologiyalarına iri miqyaslı, koordinasiya olunan investisiya qoyuluşları, zəruri hesab edilmişdir.

Lakin, inkişaf nəzəriyyələri ilə məşğul olan bir sıra tanınmış ekspertlər isə, fərqli məntiqləri irəli sürürlər. ABŞ-da, sosial elmlər sahəsində, tanınmış alim olan **Albert Xirşmanın** məntiqinə görə, iqtisadi artım imkanları, çox müxtəlif ola bilir. Ona görə də, ayrı-ayrı nəzəriyyələrdə tələb olunan "şərtlər toplusu", mütləq he-

sab olunmamalıdır. Xirsman, hətta Helbreyti tənqid edərək qeyd edir ki, təklif olunan kompleks proqramlar, əslində çox mürəkkəb və geniş olduğundan , iqtisadi cəhətdən geri qalmış ölkələr, onların icrasını həyata keçirə bilməzlər. Eyni zamanda, Xirsman hesab edir ki, inkişafı yarada biləcək faktorlar, olduqca çoxdur və müxtəlif xarakterlidir. Hətta, aşağı inkişaf səviyyəsinə malik olan ölkələr üçün, xarakterik olan inkişafın qeyri-tarazlığı belə, inkişaf üçün əlverişli imkanlar yarada biliər. Son illərin təcrübəsi göstərir ki, Xirsmanın bu ideyası, əslində doğrudur. Məsələn, İkinci Dünya müharibəsindən sonrakı Qərbi Almaniya, XX əsrin sonundakı, vahid Almaniya iqtisadiyyatının bərpası, 90-cı illərin sonunda, məhşur dünya maliyyə böhranı şəraitində Malayziya təcrübəsi və s.

Mütəxəssislərin qənaətinə görə, son 50 ilin dərsləri göstərir ki, effektiv inkişafın təmin olunması baxımından, inkişaf etməkdə olan ölkələrdə siyasətcilər "kompleks" yox, "strateji" məntiqə daha çox üstünlük verməli, "qlobal" düşünərək, "lokal" fəaliyyət göstərməlidirlər. İqtisadi inkişafda, irimiqyaslı sıçrayışlara can atmaq yox, inkişaf prioritetlərini müəyyənləşdirərək, ardıcıl və kumulyativ dəyişikliklərə çalışmalıdırlar.

Dünya təcrübəsinin təhlili göstərir ki, müvəffəqiyyət qazanmış ölkələrin ümumi cəhətləri, çoxdur. Belə ölkələrdə, mülkiyyət hüququ və müqavilə öhdəlikləri, daha effektiv qorunur, makroiqtisadi stabillik təmin olunur, dünya iqtisadiyyatına inteqrasiyaya, məhsulların diversifikasiyasına və yeniliklərə çalışılır. Lakin məsələ ondadır ki, belə ölkələr, öz məqsədlərinə müxtəlif yollarla nail olurlar. Məsələn, dünya bazarına sürətli inteqrasiya, ixracın subsiyalaşdırılması (cənubi Koreya), azad iqtisadi zonalar (Malayziya), çox milli müəssisələrin investisiya yatırımlarının stimullaşdırılması (Sinqapur), xüsusi iqtisadi zonalar (Çin), regional azad ticarət razılaşmaları (Meksika) və ya idxalın liberallaşdırılması (Çili) vasitəsilə həyata keçirilə bilir.

Nəzərə almaq vacibdir ki, ən yaxşı inkişaf strategiyaları, yerli özəllikləri nəzərə almalı, üstünlükləri inkişaf etdirilməli və maneələri tədricən aradan qaldırılmasını əsas götürməlidir. Məhz bu baxımdan, dünya təcrübəsi sübut edir ki, universal səmərəli

islahat modeli yoxdur. Bütün məqsədlərə eyni zamanda nail olunması, praktiki cəhətdən mümkün deyildir. Ən mühümü, iqtisadi artıma qarşı maneələri eyni vaxtda azaltmaqdır.

Ayrı-ayrı ölkələrdə belə maneələr özləridə fərqlidir. Ona görə də islahatlar, dəqiq düşünülmüş proqramlarla aparılmalıdır. Bu baxımdan məhşur "Vaşinqton" və"Post-Vaşinqton" konsessusları, konkret fəaliyyət strategiyası yox, ümumi problemlər siyahısı kimi qəbul edilməlidir. Ümumiyyətlə son dövrlərin təcrübəsi göstərir ki, Xirsmanın yanaşması özünü daha çox doğruldur. Zaman ötdükcə iqtisadiyyatın zənginləşməsi, dinamik modellərin üstünlüyünü artırır, indi ,"sekond-best" (ikinci yaxşı), iqtisadiyyat modelinin tərəfdarları çoxalır, "davranış" iqtisadiyyatı isə, "rasional oyunçunu" pis vəziyyət salır. İqtisadiyyatın siyasiləşməsi, yenidən adi hadisəyə çevrilir.

2.5. Dövlətin bazar iqtisadiyyatında iştirakı zərurəti, mahiyyəti və məqsədləri

Məlum olduğu kimi, klassik mənada iqtisadiyyat – insanların qeyri-məhdud tələbatının, məhdud xarakterli təbii resurslar və istehsal imkanları ilə, ödənilməsi problemlərini, həll etməyə çalışan elm və praktiki fəaliyyət sahəsidir. Bütövlükdə iqtisadiyyat, tədqiqat baxımından fərqlənən, institusional xarakterli iki böyük bölməyə ayrılır: mikro və makroiqtisadiyyat.

Mikroiqtisadiyyat – ayrı-ayrı iqtisadi elementlərin, iqtisadi davranışını öyrənir. Belə elementlərə, ev təsərrüfatları, firmalar, sahələr və konkret bazarlar aiddir.

Ümumiləşmiş şəkildə, mikroiqtisadiyyatın problemləri, ayrı-ayrı məhsul və xidmətlərin istehsal həcmləri və qiymətləri, həmçinin müxtəlif bazarların, qarşılıqlı fəaliyyəti nəticəsində, məhdud ehtiyatların, yenidən bölgüsünün sonsuz alternativlərinin yaranmasına aiddir.

Makroiqtisadiyyat isə əksinə, iqtisadiyyatın bütövlükdə fəaliyyətini tənzimləyir. Burada əsas diqqət, məhsul və xidmətlərin

ümumi həcmi və qiymətlərin orta səviyyəsinin dəyişməsi, işsizliyin artıb-azalması və s. kimi problemlər üzərində cəmlənir.

Lakin diqqət mərkəzinin müxtəlifliyi, bu iki bölmənin, birbirindən tamamilə ayrı sahələr olması demək deyildir. Sadəcə olaraq, onların tədqiqat alətləri və analitik qiymətləndirmə meyarları müxtəlifdir. İqtisadi siyasət dedikdə, adətən, makroiqtisadi problemlərin tənzimlənməsi və ya həlli variantları arasında, seçimlə bağlı fəaliyyyət, başa düşülür. Bu baxımdan iqtisadi siyasət, əksər hallarda, makroiqtisadi siyasətlə eyniləşdirilir.

Makroiqtisadi siyasət – bütövlükdə iqtisadiyyata təsir edən vasitələr və hərəkətlər toplusudur. Praktikada makroiqtisadi siyasəti, adətən hökumət həyata keçirə bildiyi üçün, onun təhlili, faktiki olaraq, bilavasitə hökumətin iqtisadi fəaliyyətinin təhlilinə çevrilir. Hökumətin makroiqtisadi siyasəti isə, siyasi parametrlər və ya siyasi alətlər adlanan, vergi stavkaları, dövlət xərcləri və hökumətin subsidiyaları ilə tənzimlənir.

Ümumiyyətlə, makroiqtisadi siyasətin zəruriliyi, daimi polemika obyektinə çevrilmişdir. Bəziləri hesab edir ki, bazar iqtisadiyyatı şəraitində, makroiqtisadi tənzimlənməyə ehtiyac yoxdur. Bəziləri isə hesab edir ki, məsələn, işsizlik və inflyasiya ilə mübarizə, iqtisadi inkişafın sürətlənməsinə xidmət edir.

Makroiqtisadiyyat, təkcə makroiqtisadi faktların qəbul edilməsi yox, həm də iqtisadi fəaliyyətin yekunlarının, makroiqtisadi siyasətlə qarşılıqlı asılılığını öyrənir. Əslində makroiqtisadi siyasətin zəruriliyi, onun iqtisadiyyatın səmərəliliyinə təsiri ilə müəyyənləşir. Digər tərəfdən, makroiqtisadi proseslərin istiqamətlərinin seçimində, mütəxəssislərin müxtəlif fikirlərə malik olması, hökumətin öz siyasətinə daha məsul yanaşmasını tələb edir. Çünki, mütəxəssis rəyində fikir müxtəlifliyi, həm də qeyri-iqtisadi xarakterli, sosial-mənəvi dəyərlərin müxtəlifliyini də yarada bilir.

Dünya təcrübəsində, əsas makroiqtisadi problemlərə inflyasiya, işsizlik və iqtisadi artım prosesləri aid edilir. ***İnflyasiya*** –ən ümumu formada, müxtəlif səbəblərdən, qiymətlərin orta səviyyəsinin yüksəlməsidir. İnflyasiyanın hansı səbəblərdən baş verməsi və onun sürəti, inflyasiyaya qiymət verilməsi üçün, olduqca

vacibdir. Çünki, qiymətlərin tədricən artması, qədim tarixə malik olmaqla yanaşı, resursların istifadəsinin intensivliyinin və məhsulların xərc stukturunun mürəkkəbləşməsinin, obyektiv olaraq yüksəlməsi fonunda baş verdiyindən, inflyasiya özlüyündə, qaçılmaz iqtisadi proses xarakterinə malikdir. Lakin bununla yanaşı, qeyd olunmalıdır ki, nəticə etibarilə inflyasiya, milli pulun alıcılıq qabiliyyətini aşağı salır. Praktikada inflyasiya, ikili xarakterə malikdir: xərclərin artmasının doğurduğu inflyasiya və məhsul qıtlığının doğurduğu inflyasiya. Hər iki halda inflyasiya, əhalinin pula etibarlılığını aşağı salır və onun dövriyyə sürətini artırır. Beləliklə, iqtsadiyyatda "inflyasiya gözləmələri" ilə müəyyənləşən, qeyri-stabilliyin yaranması üçün, əlverişli mühit formalaşır. İnflyasiyanın ölçü vahidi, onun artım sürətidir. İnflyasiyanın artım sürəti, müəyyən dövr (il, ay) ərzində, qiymətlərin məcmu səviyyəsinin artma faizini, əks etdirir. ***İşsizlik*** – iş qabiliyyətli əhalinin, müəyyən hissəsinin, işlə təmin olunmamasıdır. Aydındır ki, əhalinin iş qabiliyyətli hissəsinin hamısını, işlə təmin etmək, əməli cəhətdən mümkün deyildir. Ən azı ona görə ki, bu say, çox dinamik dəyişir, digər tərəfdən isə, müəyyən səviyyədə işsizlik, iqtisadiyyat üçün sərfəlidir. İşsizliyin, ancaq müəyyən səviyyədən ötməsi, narahatlıq yaradır. Yol verilə bilən işsizlik səviyyəsi, bir neçə növ işsizlik səviyyələrinin cəmindən ibarətdir:

Friksion işsizlik (iş axtarmaq və ya iş gözləməklə bağlı işsizlik); *struktur işsizlik* (istehlakın strukturunda baş verən dəyişikliklərin, iş qüvvəsinə tələbin strukturunu dəyişməsindən yaranan işsizlik); *dövrü işsizlik* (iqtisadi dövrlərin müəyyən fazasında, tələbin azalması səbəbindən yaranan işsizlik). Tam məşğulluq dedikdə, iqtisadçılar, friksion və struktur işsizliyin cəmi qədər, olan səviyyəni hesaba almırlar. Yəni, tam məşğulluq şəraitində işsizlik var və onun səviyyəsi, friksion və struktur işsizliyin cəminə bərabərdir. Bu səviyyə, işsizliyin təbii səviyyəsi, həmin vəziyyətdə baş verən istehsalın həcmi isə, ölkənin istehsal potensialı adlanır. İşsizlik səviyyəsinin, iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi, Oyken qanununa əsasən mümkündür. Real iqtisadi siyasətdə, çox mühüm əhəmiyyətə malik olan Oyken qanununa

görə, «İşsizliyin faktiki səviyyəsi onun təbii səviyyəsini bir faiz ötərsə,ölkədə istehsal olunan ümumi daxili məhsulun həcmi 2,5 faiz az olar». ***İqtisadi artım*** – makroiqtisadiyyatın əsas tədqiqat obyektlərindən biri olaraq, işsizlik və inflyasiyanın mövcudluğu şəraitində, ÜDM-in və ya adambaşına ÜDM-in artımının xarakterini öyrənir. İqtisadi artımı yaradan faktorlar, altı qrupa ayrılır. Onların dördü: təbii ehtiyatların sayı və keyfiyyəti; əmək ehtiyatlarının sayı və keyfiyyəti; əsas kapitalın həcmi; texnologiya – təklif faktorları adlanır. Lakin, real artımla, iqtisadiyyatın artım qabiliyyətini, fərqləndirmək vacibdir. Belə ki, artım tələb və bölgü faktorlarından da asılıdır. Başqa sözlə istehsal potensialını daha məqsədəuyğun istifadə etmək üçün, yalnız ehtiyatların dövriyyəyə tam cəlb edilməsi kifayət deyildir. İqtisadi artıma təsir edən, təklif və tələb faktorları, qarşılıqlı asılıdırlar. İqtisadi artımın sürət və xarakterinə münasibət, birqiymətli deyil. Ətraf mühitin aşınmasının sürətlənməsi, artımın, əhalidə sabaha ümidsizlik yaratması və onun bəşəri mənəvi dəyərlərlə uzlaşmaması və s. kimi arqumentlərdən çıxış edən bir sıra mütəxəssislər, müəyyən səviyyədə və şəraitdə, iqtisadi artımın qarşısını almağı, onu zəiflətməyi məqsədəuyğun hesab edirlər.

Bazar iqtisadiyyatında dövlət, müəyyən xüsusiyyətlərə malik adi iştirakçılardan biridir. Ona görə də, onun iqtisadi subyekt kimi, kapital və gəlirin "dairəvi hərəkətində" iştirakı xüsusiyyətləri, bütövlükdə, inkişaf mərhələsindən daha çox asılıdır. Müasir dövrdə, dövlətin bu prosesdə fəaliyyətinin əsas istiqaməti, "ictimai tələb" və ehtiyatlardan istifadə ilə bağlıdır. "İctimai tələb" dedikdə, bazar mexanizminin xarakterindən doğan "boşluqların", yaratdığı problemlərin həllində dövlətin roluna olan tələb, başa düşülür.

Bazarın "boşluqları" (fiaskosu) *(market failuers)*, - bazarın ehtiyatların səmərəli istifadə olunmasını təmin edə bilməməsi hallarıdır. Dünya təcrübəsində, adətən aşağıdakı dörd hal və ya vəziyyət, bazarın yaratdığı "boşluq" hesab olunur: 1) inhisarçılıq; 2) informasiyanın çatışmamazlığı və ya asimmetriyası; 3) kənar təsir effektinin yaranması; 4) ictimai nemətlər istehsalı. Bu halların hər birində, dövlət, bazarın fəaliyyətinə müdaxilə edir. Yaranmış problemlərin həlli üçün,o, antiinhisar siyasəti, sosial sığorta fəaliyyəti və kənar mənfi təsirlərin məhdudlaşdırılması siyasətini reallaşdırır. Bu məqsədlə dövlət, həm müsbət, həm də mənfi stimullardan istifadə edə bilər. Eyni zamanda dövlət, müəyyən, xüsusi hüquqlara malikdir. Ən vacib belə hüquq isə, onun fövqəladə ,məcburetmə hüququdur.

İqtisad elmində "məcburetmə" anlayışı - adamların seçim sərbəstliyini məhdudlaşdırmaqla, onların birgə fəaliyyətə yönəldilməsi kimi, qəbul edilir. Dövlət məcburetmə üçün legitim, hüquqi və institusional hakimiyyətə malikdir. Cəmiyyətdə oyun qaydalarının müəyyənləşdirilməsi imkanları, məhz bununla formalaşır. Dövlətin, belə hüquqlara malik olması zərurəti və ya cəmiyyətdə, iqtisadi fəaliyyətdə, məcburetmənin tətbiqinin zəruriliyi, Dövlətin bilavasitə adamlar üçün, istehsal etdiyi nemətlərin, təbiəti ilə də bağlıdır. Belə nemətləri, iki qrupa ayırmaq olar: Xalis ictimai nemətlər və xalis fərdi nemətlər.

Xalis ictimai nemətlər - elə nemətlərdir ki, onlar haqqı ödənilib - ödənilməməyindən asılı olmayaraq, kollektiv istehlak olunur. Belə nemətlərin istehlakı, iki xüsusiyyətə malikdir: seçilməsi və imtina olunması mümkün deyildir. Məsələn, milli müdafiə və ətraf mühitin qorunması, belə nemətlərdəndir. İstehlakda seçimin, qeyri-mümkünlüyü *(nonrivalness)* xüsusiyyəti, belə başa düşülməlidir ki, bir nəfərin xalis ictimai neməti istehlak etməsi, həmin nemətin başqaları tərəfindən, istifadə olunması imkanlarını azaltmır. Belə nemətlər, rəqabət obyekti olmur, çünki istifadə həcmindən asılı olmayaraq, əlavə istehlakçının onu istifadə etməsinin limit xərcləri sıfıra bərabərdir. Ona görə də belə nemətlərin istifadəsi üçün, hər hansı birbaşa haqq ödənilməsini tələb etmək mümkün deyildir. İstehlakdan imtina *(nonexludability)* xüsusiyyəti, o deməkdir ki, heç bir kəs, hətta istehlakın haqqını ödəməkdən imtina edərsə belə, həmin nemətlərin istehlakından məhrum edilə bilməz. Xalis ictimai nemət, özünə məxsus, müsbət kənar effektə malikdir - kimsə onu istifadə etməyə başlarsa,

həmin nemət, hamı üçün açıq olur. Həm də, əlavə istehlakçılardan imtina olunması xərcləri, hədsiz yüksək olur.

Xalis ictimai nemətlərin xüsusiyyətlərini, daha aydın dərk etmək üçün onu, xalis fərdi nemətlərlə, müqayisə etmək məqsədəuyğundur. Xalis fərdi nemətlər *(pure private good)* - elə nemətlərdir ki, onun hər vahidi, ayrıca haqq müqabilində satıla bilər. Xalis fərdi nemətdən fərqli olaraq, xalis ictimai nemət, istehlak vahidlərinə ayrıla bilmir və hissə - hissə satıla bilmir. Xalis ictimai nemətin hissəciklərinin, qiymətinin müəyyənləşdirilməsinin qeyri-mümkünlüyü, həmin nemətlərə olan məcmu tələbin müəyyənləşdirilməsi xüsusiyyətləri ilə, izah olunur. (Şəkil 1). Bu halda qiymət, dəyişən kəmiyyət deyil və hər vahidin qiymətini müəyyənləşdirmək mümkün deyil. Çünki onun istehlakı, hər kəsin öz əlahiddə hüququdur. Ona görə də, xalis ictimai nemətə olan tələbin əyrisi, həmin nemətin mövcud olan bütün həcminin, limit faydalılığını əks etdirir. Xalis fərdi nemətlərə tələbin həcmini isə adamlar özləri tənzimləyir:

$$Q_d = Zq_i.$$

Xalis ictimai nemət üçün bu mümkün deyildir. Bütün istehlakçılar onun bütün həcmini istifadə etməlidir.

$$Q_s = q_1 = q_2 = ... = q_n$$

Bu, hər bir istehlakçının, nemətlərdən istifadədə keyfiyyət, həcmi və s. meyarlar baxımından, özəl tələblərinə yol verilməməsi ilə izah olunur. Məsələn, teatrda tamaşaçılar, parter, loja və ya amfiteatrı seçməklə müxtəlif qiymətli biletlər ala bilirlər, lakin, ölkənin müdafiə qabiliyyətindən faydalananlar belə seçim edə bilməzlər.



Şəkil 1. Xalis fərdi və xalis ictimai nemətlərə məcmu tələbin müəyyənləşdirilməsi

Göründüyü kimi, xalis fərdi nemətlərə, məcmu tələbdən (bu tələb üfüqi xətlə fərdi tələblərin cəmlənməsi ilə alınır) fərqli olaraq, xalis ictimai nemətlərə, məcmu tələb, şaquli xətlə, bütün limit faydalarının cəmlənməsindən (mövcud olan həcm baxımından) alınır. Beləliklə, aydın olur ki, həm fərdi, həm də ictimai seçim, əslində, iqtisadi qarşılıqlı əlaqəli fəaliyyəti prosesində - individlərin verdikləri üstünlükləri müəyyənləşdirir, nəzərə alır və həyata keçirir. Hər iki halda, Pareto - optimallığının əldə olun-

ması üçün imkan yaranır. Lakin onlar arasında, ciddi fərqlər də vardır. Bu fərqlər, optimallıq meyarlarının seçimindən asılı olaraq, alət və vasitələrin müxtəlifliyi səbəbindən yaranır.

Qeyd etmək vacibdir ki, istehlak seçiminin qeyri – mümkünlüyü və imtina olunması xüsusiyyətləri, ictimai nemətlərin heç də hamısı üçün xas deyildir. Əgər, hətta bu xüsusiyyətlərin hər hansı biri, nisbətən zəif olarsa, onda "qarışıq nemətlər" yaranır. Məsələn, əgər milli müdafiə və ya dövlət tərəfindən göstərilən səhiyyə xidmətlərini, ictimai istehlakdan çıxarmaq mümkün deyildirsə, Ronald Kouzun dediyi kimi, gəmilərin hərəkəti üçün mayak xidmətini, ictimai nemətlər sırasından çıxararaq, haqqı ödənilən, fərdi nemətlərə aid etmək olar.

İctimai nemətlər, ümummilli və lokal (regional, yerli) ola bilir. Sonuncular, yerli hakimiyyət tərəfindən istehsal olunur. Hökumət isə, ictimai nemətlərlə yanaşı digər sosial nemətlər (xidmətlər), məsələn, sosial təminat təqaüdü, işsizliyə görə müavinət, məktəbdə oxumağa görə dotasiya, infrastruktur təminatı (yollar və s.) istehsal edir. Bu nemətlərin əksəriyyəti, bütövlükdə (və ya bəzən qismən) fərdi istehlak olunur. Həmin nemətlərdən kənar şəxslərin istifadəsinin qarşısını almaq üçün, onlara bu nemətləri əvəzi ödənilməklə təklif etmək olar. Əslində, təcrübədə çox az sayda nemətlər var ki, xalis ictimai nemətlərə məxsus olan bütün xüsusiyyətlərə malikdirlər.

Xalis ictimai nemətlər istehsalı, bir sıra çox saylı müsbət kənar effektlərin yaranması ilə müşayiət olunur. Həmin effektlərin, daxili effektlərə çevrilməsi baş verməzsə, bazar iqtisadiyyatı şəraitində belə nemətlərin istehsalı mümkünsüz olar.

Məlum olduğu kimi, iqtisadi mahiyyətə görə, istehsalın səmərəli həcmi elə nöqtədədir ki, orada limit ictimai fayda (qazanc) *(marginal social benefits)*, limit ictimai xərclərə *(marginal social costs)* bərabər olur. MSB = MSC. Xalis ictimai nemətlərin istehlakı, kollektiv baş verir, lakin istehlakın fərdi faydası müxtəlifdir. Təcrübədə, hər kəsin aldığı faydanı müəyyənləşdirmək üçün, dəqiq informasiya əldə etmək çox çətindir. Ictimai neməti qrup halında istehlak edənlərin sayı, az olduqda, könüllü

kooperasiya əsasında, müsbət kənar effektləri, daxili effektlərə çevirmək olar. Lakin qrupun həcmi böyüdükdə, informasiyanın gizlədilməsi ehtimalı da sürətlə böyüyür.

Əgər xalis, ictimai nemətlərin istehlakının haqqının ödənilməsi, onların istifadə olunmasının, limit faydalılığı baxımından, həyata keçirilirsə, alınmış faydanın real həcminin azaldılması və düzgün informasiyanın gözlədilməsi üçün, güclü stimul yaranır. Həqiqətən, əgər istehlakçı xalis ictimai nemətlərin istehlakından, haqqı ödənilməsindən, asılı olmayaraq fayda alırsa, onda artıq xərcə düşmədən, həmin nemətləri, havayı almaq arzusu yaranır. Belə situasiya "biletsiz sərnişin" *(free - rider problem)* problemi adlanır. (Şəkil 2)

"Biletsiz sərnişin" problemi necə yaranır?



Şəkil 2.

Arzuolunmaz belə halın baş verməməsi üçün, məcburetmə vacibdir. Kiçik və bütöv kollektivdə, bu çox simvolikdir. "Biletsiz" problemi, iri qruplarda daha tez - tez yaranır, çünki qeyd etdiyimiz kimi, belə qruplarda dəqiq informasiya almaq çətinləşir. Anonimlik (tanınmamazlıq), "biletsizliyi" bir növ stimullaşdırır. Nəticədə isə, ictimai nemətlərin istehsalının səmərəliliyi, arzolunan səviyyədən aşağı düşür. Bazar özlüyündə, bu problemi həll etməyə, qadir deyildir. Ona görə də, bazarın belə "boşluqlarının" həllində, dövlət, mühüm rol oynayır.

İctimai nemətlərin istehsalı, kifayət qədər olmadıqda, problemin rasional həll yolu - vətəndaşların məcburilik əsasında, ictimai nemətlərin istehsalının maliyyələşdirilməsində iştirakını

təmin etməkdir. Ona görə də, dövlət nəinki, xüsusi nemətlərə olan tələbin ödənilməsini təmin edir, həm də belə istehsal üçün, dövlət, spesifik imkanlara və ya ehtiyatlara malikdir. Məsələn, həmin ehtiyatların ən əhəmiyyətlilərindən biri, vergilərdir. Vergiqoymanı tətbiq etməklə dövlət, vətəndaşların, gəlir alması hüquqlarını məhdudlaşdırır. Gəlirlərin bir qismini, vergi formasında, mənimsəyən dövlət, əslində mülkiyyətçi kimi çıxış edir. Sanki, dövlət, səhmdar cəmiyyətə kapital yatırmış və ona müvafiq dvident alan səhmdar kimi, öz payını tələb edir. Vergilər, dövlət maliyyəsinin, əsas fundamentini yaradır, onun bir hissəsi, sonra dövlət mülkiyyətinə çevrilir. Dövlətin sərəncamında qalan ehtiyatların məcmusu, iqtisadiyyatın ictimai sektorunu təşkil edir. Bu baxımdan, dövlət mülkiyyətini, yığılmış ehtiyatlar, dövlət maliyyəsini (gəlirlər və xərclər) isə, yığılan və xərclənən vəsaitlər axını kimi, başa düşmək lazımdır.

Bazar iqtisadiyyatı şəraitində, ictimai sektorun, mövcudluğu vacibdir. Çünki ictimai sektor olmadıqda, xüsusi sektorun səmərəli fəaliyyəti, mümkün deyildir. Keçmiş sovet respublikaları və digər, bəzi tranzitiv iqtisadiyyatlı ölkələrin təcrübəsi, bunu sübut edir. İqtisadiyyatın xüsusi bölməsində, maliyyə ehtiyatlarının əsas mənbəyi kimi, istehsal faktorları üzərində mülkiyyətçilikdən gələn gəlirlər çıxış edir, əvəzsiz daxil olmalar, nadir və ikinci dərəcəli ehtiyat hesab olunur. İctimai sektorda isə əksinə olur. Əsas gəlir mənbəyi kimi vergilər, yəni firma və adamların məcburi ödəmələri çıxış edir. Dövlətin malik olduğu istehsal faktorlarından, əldə etdiyi qeyri - vergi gəlirləri isə, ikinci dərəcəli hesab olunur. İnkişaf etmiş ölkələrdə büdcə gəlirlərinin 80-90% -i vergi gəlirlərinin, qalan 10-20% -i isə, qeyri - vergi gəlirlərinin payına düşür.

Beləliklə, yuxarıdakı şərhləri ümumiləşdirərək, ictimai seçim anlayışını aşağıdakı kimi dəqiqləşdirə bilərik. İctimai seçim - ictimai nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı haqda, kollektiv qərarların hazırlanması və qəbul edilməsidir. Kollektiv qərar, siyasi proseslərin köməyi ilə, cəmiyyətdə mövcud zövqlərin və meyarların uzlaşdırılması, qarşılıqlı razılaşdırılmasını əhatə edir, təmin edir. Ona görə də hər bir siyasi qərar - hər şeydən əvvəl, ictimai nemətlər haqda qərardır. "Biletsiz" probleminin həlli üçün, mərkəzləşdirilmiş mexanizmlər vacibdir. Demokratiyanın əsasını təşkil edən müxtəlif institutlar, o cümlədən seçki qanunları, təmsilçilik orqanları, referendumlar və s., adamların zövq və üstünlük meyarlarını, aşağıdakı üç qrup sualın, həlli baxımından sistemləşdirir və ümumiləşdirir.

1. Nemətlərin, ictimai və fərdi xarakterliliyini necə müəyyənləşdirmək, yəni nemətləri, bu qruplara necə ayırmaq məqsədəuyğundur?

2. Nemətləri cəmiyyətin üzvləri arasında necə bölüşdürmək lazımdır?

3. "Biletsizlərə" qarşı hansı nəzarət tədbirinin görülməsi məqsədəuyğundur?

Problemin həlli baxımından, dövlətin əsas vəzifəsi, bölgü və yenidən bölgünün düzgün təşkilidir. Yenidən bölgü, həm vergi tutulması, həm də maddi yardım, dotasiya və subvensiyalar vasitəsilə baş verir.

Məqsədlər baxımından, dövlətin həyata keçirdiyi yenidən bölgü, məqsədyönlü və təsadüfi (xüsusi məqsədlərsiz) ola bilir. Nəticə və ya mərhələ baxımından, yenidən bölgünün birinci və ya ikinci (törəmə) effekti fərqlənir. Məsələn, az təminatlı ailələrə maddi yardımın göstərilməsi tələbi artırır və ona görə də ərzaqın qiyməti qalxır. Başqa sözlə, bu tədbirin həyata keçirilməsindən yalnız ehtiyacı olanlar deyil, həm də ərzaq istehsalçıları faydalanırlar. Yenidən bölgünün obyektləri, iqtisadi (istehlak nemətləri və xidmətlər, ehtiyatlar) və institusional faktorlar ola bilər. Belə institusional faktorlara "oyun qaydalarının" dəyişdirilməsi, məsələn, kvota, rüsum və taariflərin tətbiqi, dəyişdirilməsi və ləğvi, aid edilə bilər. Sonuncular, mal və xidmətlərin ixrac və idxalı üçün yeni ticarət şəraiti yaradır, yəni yerli və xarici sahibkarların fəaliyyətinə təsir edir və beləliklə, onların qazanclarının yenidən bölgüsünü şərtləndirir.

İctimai nemətlərə dövlət təminatı, fərdlərin istehlak imkanlarının sərhədlərini genişləndirir. Lakin bununla bərabər, dövlətin

iqtisadiyyata müdaxiləsinin təhlükəli həddini aşmaq ehtimalı artır. Ona görə də belə şəraitdə ən mühüm və mürəkkəb vəzifə, dövlətin ictimai nemətlərlə təminatı sərhədlərinin düzgün (rasional və ya optimal), müəyyənləşdirilməsidir.

Bazar mexanizminin, iqtisadi inkişafın bütün problemlərini, həll etmək imkanına malik olmadığı, kapitalizmin ilkin dövrlərindən məlumdur. A.Smitin, "bazarın gözəgörünməz əli" prinsipi üzərində qurulmuş nəzəriyyəsi, özündən əvvəlki dövrün "mütləq monarxiyasının", azad bazara ciddi maneə yaratmasına cavab kimi, meydana gəlmişdir. Smit öz nəzəriyyəsində, bazar mexanizminin dayanıqlığının, kənar himayəyə ehtiyacsızlığını sübut edərək, dövlətin iqtisadiyyatdakı rolunu, "gecə gözətçisi" funksiyası (ifadə Hayekə məxsusdur) ilə, eyniləşdirmişdir. Dövlət, A.Smitin təbirincə, ancaq xüsusi mülkiyyəti və onunla bağlı münasibətlərdə, sərbəstliyi qorumaq, bunun üçün zəruri, hüquqi bazanı yaratmaq və təmin etmək, vəzifələrini həyata keçirməlidir.

Qeyd etmək vacibdir ki, kapitalizmin inkişafı ilə, burjuaziyanın siyasi hakimiyyəti ələ keçirməsi, dövlətin, ancaq "gecə gözətçisinə" çevrilməsinə imkan vermədi. Dövlət, nəinki dünya bazarında ölkənin mənafeyini qorumaq, həm də daxildə, sosial-iqtisadi prosesləri qorumağa məcbur oldu. İqtisadi infrastrukturanın yaradılması, sənayenin müdafiə və digər sahələrinin yaradılması və fəaliyyətinin təşkili, maliyyə-bank sistemi və pul dövriyyəsinin təşkili, dövlətin zəruri funksiyalarına çevrildi.

Dövlətin iqtisadiyyata müdaxiləsi, böhranlar və tənəzzüllər dövründə artır, normal inkişaf dövründə isə azalırdı. Ötən dövr ərzində, proteksionistlər və fritrederçilər arasında, dövlətin rolu haqqındakı bitməyən mübahisələr, onun rolunun inkarı yox, sərhədləri, obyekt və subyektləri, təsir forma və metodlarının seçimi, müdaxilənin sosial qiyməti, obyektivliyi və istiqamətliyi haqda getmişdir. XX əsrin ortalarından başlayaraq, dövlətin iqtisadiyyatdakı rolu, əsaslı transformasiya olundu. "Böyük tənəzzül", yüksək proqresə malik istehsal, vertikal və horizontal əlaqələrin intensiv inkişafı, beynəlxalq mübadilənin mürəkkəbləşmiş olduğu şəraitdə, bazar mexanizminin acizliyini, tam sübuta yetirdi.

"Böyük tənəzzüllə" eyni vaxtda, C.Keyns təsərrüfat mexanizmini dövlət tənzimlənməsinin nəzəri əsasını, A.Hitler və F.Ruzvelt formaca fərqli,mahiyyətcə isə, eyni olan, təcrübi əsasını qoydu.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatın idarə olunması prosesində, Keyns nəzəriyyəsi və onun tərəfdarlarının, dövlətin iqtisadiyyata müdaxiləsi tələbi, yeganə ideya deyil. Bir sıra neokeynsçi baxış tərəfdarları, hətta konservativ nəzəriyyəçilərlə birgə, dövlətin iqtisadiyyata müdaxilə etməsini, müdafiə edirlər. Lakin, hər iki nəzəri fikrin tərəfdarları ,dövləti, müəyyən mülkiyyətə malik olan və cəmiyyətin strateji məqsədlərinə, nail olunmasına istiqamətlənmiş, iqtisadi siyasət apara bilən, təsərrüfat funksiyalarına malik, iqtisadi sistem subyekti kimi qəbul edirlər. Onların arasında fərq, əsasən, dövlətin təsir metodlarının seçimindədir.

Keyns və onun birbaşa tərəfdarları, hesab edirlər ki, bazarın müəyyən parametrlərinin izlənməsi, dövlətin iqtisadi funksiyalarına aiddir. Hər bir qeyri-tarazlıq təsiri, qeydə alınaraq, müəyyən stabilləşdirici tədbirlər vasitəsilə, kompensasiya olunmalıdır. Hökumətin, iqtisadi təsir mexanizmi belə qurulmalıdır. İqtisadi artımın, dövlət tərəfindən tənzimlənməsinin, obyektiv zərurəti nədədir?– sualına cavab, kifayət qədər sadədir. Dövlət, bazar mexanizminin mövcud çatışmamazlıqlarını, aradan qaldırmağa borcludur. Məhz bu baxımdan, aydındır ki, dövlət tənzimlənməsinin məqsədləri, qarşılıqlı əlaqələrdə olsalar da, əhəmiyyəti, təsir dairəsi və nəticələrinə görə, xeyli fərqlidirlər. Əsas məqsədlər – iqtisadi və siyasi stabilliyin qorunması, rəqabət üstünlüklərinin təmin olunması, iqtisadi təhlükəsizlik, bazar mexanizminin, müxtəlif situasiyalara, adaptasiyasının təmin olunması isə, ümumidir.

Dünya təcrübəsində, iqtisadiyyatın dövlət tənzimlənməsinin, üç tipini ayırmaq mümkündür: -idarəetmədə tam dövlət inhisarı; -bazar və dövlət alətlərinin müxtəlif kombinasiyası,(buna nümunə Yaponiya, Cənubi Koreya, İsveç, Almaniya, Çin, Avstriya modellərini göstərmək olar); və xüsusi mülkiyyətin qeyri-məhdudluğuna əsaslanan ifrat liberalizm.

Dövlət tənzimlənməsinin səmərəliliyini, müəyyənləşdirən əsas amillərdən biri, onun institusional strukturudur. Ölkədə,

idarəetmənin mərkəzləşdirilməsi səviyyəsindən asılı olaraq, qərar qəbulu və təsir imkanları formalaşır. İnstitusional strukturun variasiyaları genişdir. Bütövlükdə isə, müasir dünya təcrübəsində, dövlət tənzimlənməsinin idarəetmə orqanları vasitəsilə ifadəsinin iki modelini ayırmaq olar:

1. Reaktiv (adaptasiya) modeli. (məsələn ABŞ modeli). Bu model, bazarın səhvlərinə dəqiq reaksiya vermə imkanına malikdir. Bu, idarəetmə funksiyalarının çevikliyi, makro və mikro səviyyələrdə, birbaşa və dolayı tənzimləmə alətlərindən istifadə, dövlət və xüsusi biznesin əməkdaşlığının müxtəlif formalarından istifadə olunması ilə təmin olunur.

2. Proaktiv model (məsələn Yaponiya). Bu model, bazar mexanizmində mümkün qəzaları, dövlət müdaxiləsinin dəqiq həcmlərinin müəyyənləşdirilməsi, proqnozlaşdırma, dövlət və müəssisələrin danışıqlarında, koordinasiya və təsisedici tövsiyyələrin verilməsi yolu ilə, həll etməyi məqsədəuyğun hesab edir.

Müasir dünya təcrübəsində, dövlətin, iqtisadi funksiyalarını, aşağıdakı əsas qruplarda ifadə etmək olar:

1. Hüquqi bazanın təmin olunması və rəqabət mühiti yaratmaqla, bazar sisteminin fəaliyyətinin himayə olunması. Rəqabət mühiti, antiinhisar qanunvericiliyi ilə qorunmalıdır.
2. Sərvətlər və gəlirin yenidən bölgüsü, milli məhsulun strukturunu dəyişmək məqsədilə, ehtiyatların bölgüsünün korreksiyası, məşğulluq və inflyasiya üzərinə, nəzarət vasitəsilə, iqtisadiyyatın stabilləşməsinin təmin olunması.
3. Bazar mexanizmlərinin bəzi elementlərinin, təsirinin məhdudlaşdırılması. Məsələn, məcmu istehlak və ictimai rifahın təmin olunması üçün, dövlət bazarın və ictimai maraqların qorunmasını təmin etməlidir.
4. Dünya iqtisadiyyatında milli rəqabət üstünlüklərinin yaradılması və qorunması.

Dövlətin iqtisadi funksiyalarının bu təsnifatını yeganə hesab etmək olmaz. Xüsusilə, keçid iqtisadiyyatına malik ölkələrdə, dövlətin əsas iqtisadi funksiyalarında mövqelərin dəyişməsi, məntiqi və qanunauyğun hesab oluna bilər. Məsələn, belə ölkələrdə, infrastrukturanın əsas komponentlərinin, təbii inhisarların, bir sıra xüsusilə vacib sahələrin (məsələn, müdafiə sənayesi, Azərbaycan üçün neft-qaz sənayesi və s.), birbaşa dövlət mülkiyyətində qalması; iqtisadiyyatın restrukturizasiyasının siyasətinin formalaşdırılması və həyata keçirilməsi; ÜDM-in dövlət büdcəsi vasitəsilə yenidən bölüşdürülməsində dövlətin fəal iştirakının təmin olunması, xarici iqtisadi siyasət, sosial müdafiə və sosial təminat siyasəti və s., dövlətin əsas iqtisadi funksiyalarına aid olunması, fikrimizcə, məqsədəuyğun sayılmalıdır. Dövlətin iqtisadiyyatı tənzimlənmə baxımından müdaxiləsi iqtisadi siyasəti vasitəsilə həyata keçirilir. Hökumətin iqtisadi siyasəti dedikdə, iqtisadi alətlər vasitəsilə təsərrüfat subyektlərinin davranışının norma və qaydalarının müəyyənləşdirilməsi başa düşülür.

İqtisadiyyatın dövlət tənzimlənməsinin məqsədləri, metodları və alətləri, ümumiyyətlə dəyişkəndir. Belə ki, ümumi texnoloji inkişaf səviyyəsindən, siyasi qüvvələrin dislokasiyasından, iqtisadi siyasətdəki dəyişikliklərdən, bazar iqtisadiyyatının ümumi inkişaf səviyyəsindən, asılı olaraq, tənzimlənmə sisteminin çevik dəyişməsi labüddür.

Dövlətin fəaliyyətinin bu istiqaməti, sanki, dövlətin bazar iqtisadiyyatına müdaxiləsinin, aşağı sərhəddini müəyyənləşdirir. Ancaq müasir dövrdə, dövlətin iqtisadi funksiyaları, daha genişdir. Bu funksiyalar, infrastrukturun inkişafı; məktəb təhsilinə dotasiya; işsizliyə görə müavinət; cəmiyyətin az təminatlı kateqoriyasına verilən təqaüd və müavinətlərin, müxtəlif növləri və s., kimi fəaliyyət sahələrini əhatə edir. Bu sahələrin kiçik bir hissəsi, xalis ictimai nemətlərə aid edilə bilər. Onların böyük qismi, kollektiv yox, fərdi istehlak edilir. Buna baxmayaraq, bütövlükdə son yüz ildə, inkişaf etmiş ölkələrdə, dövlət xərclərinin payı ÜDM-də sürətlə artma meyilinə malikdir. Digər tərəfdən dövlət, adətən antiinhisar və anti inflyasiya siyasəti aparır və işsizliyi azaltmağa çalışır. Son onilliklərdə dövlət, struktur dəyişikliklərinin tənzimlənməsində, daha aktiv iştirak edir, elmi-texniki tə-

rəqqini stimullaşdırır və milli iqtisadiyyatın, yüksək inkişaf tempini, qorumağa səy göstərir. Bu funksiyalara, regional və xarici iqtisadi tənzimləməni əlavə etsək, dövlətin rolunun XXI əsrdə artması səbəbləri aşkar olar.

Lakin, bazar iqtisadiyyatı şəraitində, dövlətin iqtisadi tənzimləmə rolu, hədsiz arta bilməz. Bazar iqtisadiyyatı, dövlətin iqtisadi funksiyalarına müəyyən məhdudiyyətlər qoyur. İlk növbədə qeyd etmək lazımdır ki, bazar mexanizmini dağıtmaqla, onu birbaşa inzibatçılıqla əvəz etməyə, nəticələnə biləcək müdaxilələr, yolverilməzdir. Burada, bazar mexanizminə üzvü qoşulan dolayı tənzimləyicilər, (vergilər, subsidiyalar və s.) daha səmərəli metodlar hesab olunur. Ona görə də dövlət tənzimlənməsi, bazar qüvvələrini dəyişməli, yalnız, həmin qüvvələri gücləndirməyə və ya zəiflətməyə çalışmalıdır. Nəzərdən qaçırmaq olmaz ki, bütün iqtisadi tənzimləyicilərin təsiri, ziddiyyətlidir. Qısamüddətli fayda, uzunmüddətli dövrdə, böyük itkilərlə əvəzlənə bilər. Digər tərəfdən, iqtisadi tədbirlərin çox böyük dəstəsi müxtəlif, bəzən isə əks istiqamətlərdə təsir edir. Ona görə də birbaşa və dolayı, inzibati metodların təsir dairələri, dəqiq müəyyənləşməlidir

FƏSIL 3. AÇIQ İQTİSADİYYATDA MAKROİQTİSADİ TARAZLIQ SİYASƏTİ. MİLLİ GƏLİR VƏ BEYNƏLXALQ MÜBADİLƏNİN QARŞILIQLI ƏLAQƏSİ

3.1. Makroiqtisadi tarazlığın müəyyənləşdirilməsinin baza şərtləri

Yuxarıda qeyd olunduğu kimi, mahiyyət etibarilə, makroiqtisadi tarazlığın təmin olunması problemi – məcmu milli məhsul istehsalı, məşğulluq və qiymətlərin dəyişən dünya təsərrüfatı şəraitində tənzimlənməsi probleminin həlli, iqtisadi siyasətin vacib vəzifələrindən hesab olunur. Problemin həllini təmin edən siyasətin formalaşdırılması və reallaşdırılması kifayət qədər mürəkkəb məsələdir. Çünki milli iqtisadiyyat ilə dünya təsərrüfat sistemi arasında əlaqələr çox cəhətli və çox saylıdır. Digər tərəfdən isə, dövlət tənzimlənməsi prinsiplərinin qiymətləndirilməsi çətindir. Bu məsələnin həlli açıq iqtyisadiyyat şəraitində xüsisilə çətinləşir.

Beynəlxalq makroiqtisadiyyatda iqtisadi siyasətin əsaslarından biri, xarici ticarət və valyuta kursunun ölkənin milli gəlirinə təsiri xarakterinin müəyyənləşdirilməsidir. İqtisadi nəzəriyyədə Keyns "inqilabından" sonra, makroiqtisadi təhlildə əsas çətinlik, real gəlirin və qiymətlərin dəyişilməsinin proqnozlaşdırılması hesab olunur. Uzun müddətli polemikadan sonra, qiymət və milli gəlirin, eyni vaxtda artırılması və azaldılmasını, təmin edə bilən iqtisadi sistemdə məcmu tələbi, pul və digər faktorların dinamikasını müəyyənləşdirən konsensus formalaşdırılmışdır. Lakin, standart makroiqtisadi model çərçivəsində, milli gəlir və qiymətlərin səviyyəsini, ayrılıqda müəyyənləşdirməyə imkan verən, məcmu tələbin xarakterini müəyyənləşdirmək, mümkün deyildir.

Bu problemin həlli üçün, üç variant və ya fərziyyənin, irəli sürülməsi mümkündür.

1. Keyns nəzəriyyəsinin, ekstremal fərziyyəsinin, əsas götürülməsi. Burada nəzərdə tutulur ki, qiymətlər, iqtisadiyyatdakı daxili proseslərə, təsir etmir. Ona görə də, məcmu gəlir və xərclər,

qiymət dinamikasına əsasən hesablanan, real ölçülərlə ifadə oluna bilər.

2. Keynsin, real gəlir və qiymət səviyyəsini, əlaqələndirən təklif əyrisinin (yuxarı istiqamətlənən), istifadə olunması. Bu əyri vasitəsilə, məcmu tələbin genişlənməsinin ölkədə məhsul istehsalına təsirini, milli gəlir və qiymət artımı elementlərinə ayırmaq mümkündür.

3. Üçüncü fərziyyə, təklifin şaquli əyrisi ilə bağlıdır. Şaquli təklif əyrisi real gəliri (milli gəlir), "tam məşğulluq" və ya "işsizliyin təbii səviyyəsində" fiksə edir. Gəlirin, bu səviyyədən "sürüşdürülməsinin" yeganə mümkün yolu, təklifin genişləndirilməsidir. (Bu əmək məhsuldarlığının artırılması, əhalinin artımı, kapital yığımı, istifadə olunan torpağın artırılması və ya məhsul buraxılışını artıran, institusional dəyişikliklər və s. vasitəsilə mümkündür).

Sərh olunan fərziyyələrin, Keyns ideologiyasına ən yaxın olanı birincisidir. Lakin, qiymətlərin, real gəlir və xərclərin qarşılıqlı əlaqəsi üçün, ən əhəmiyyətli faktor olmaması ideyası, Keyns nəzəriyyəsinin yeganə əsası olsaydı, onda, müasir iqtisadi proseslər (məsələn, yüksək inflyasiya), bu ideologiyanı və onun nəticələrini tam inkar edərdi.Bununla belə, qeyd etmək lazımdır ki, 2-ci və 3-cü fərziyyələrdə də (baxmayaraq ki, onlarda qiymətlərin sərbəstlik dərəcəsi yüksəkdir), analoji nəticəyə gəlmək olar. Başqa sözlə, Keyns nəzəriyyəsinin "günahı" yoxdur.

Beləliklə, işsizlik səviyyəsinin çox yüksək olmasını fərz edərək, hesab etmək olar ki, məcmu tələb, ilk növbədə qiymətlərə yox, real gəlirə təsir edir, onda cari qiymətlərlə (inflyasiya nəzərə almamaqla) dəyişən milli gəliri Y, tələbin təsirinə məruz qalan real milli gəlir kimi, qəbul etmək olar. Tam məşğulluq və inflyasiya şəraitində isə, məcmu tələbin dəyişməsi ilə, dəyişməyən milli gəlir, real milli gəlirin qiymət səviyyəsinin ölçüsü kimi qəbul edilir. Aralıq vəziyyətlərdə isə, yəni gəlir və qiymət səviyyəsinin tələbin rəqsi ilə dəyişməsi, gəlir və qiymətlərin tələbin təsiri ilə, eyni vaxtda dəyişilməsi kimi, qəbul olunur. Bu baxımdan aşağıdakı kimi, bir sıra hallarda, qiymətlərin dəyişməsinə tələbin

dəyişməsinin təsiri ilə, milli gəlirin dəyişməsinin əlavə nəticəsi kimi baxmaq mümkündür.

Xarici ticarətin gəlirdən və gəlirin məcmu tələbdən asılılığı. Emprik tədqiqatlar göstərir ki, idxalla, həmin ölkənin real milli məhsulu arasında, birbaşa müsbət asılılıq var. Bu, iki səbəblə izah olunur.

1. İdxal, əksər hallarda milli məhsul istehsalı üçün, aralıq məhsul və ya xammal rolunu oynayır.

2. İdxal – məcmu, real xərclərdə dəyişmələrə reaksiya verir. Məhsul və xidmətlərə nə qədər çox xərclənirsə, onun xaricdə istehsal olunan hissəsinə çəkilən xərclər də artır.

İdxalla gəlir arasında funksional asılılığın vacib parametri, "idxala limit meyililiyi" göstəricisidir. Bu göstərici idxal həcmində dəyişikliklərin, həmin dəyişmələri doğuran, real milli gəlirin dəyişmələrinə (sabit qiymətlərdə) nisbətini ifadə edir. Gəlirin artımının idxalın artımı ilə əlaqələndirilməsi sayəsində idxala limit meyilliliyi, rifah halın yaxşılaşmasının hansı ölçüdə idxala sərf olunduğunu göstərir. Bu proses isə, ticarət balansını pisləşdirir və daxili məhsula tələbi artırmaq üçün multiplikativ prosesə yardım etmir.

İxracın, milli gəlirlə əlaqəsi isə, daha mürəkkəbdir. Çünki bu, milli gəlirin dəyişmələrinin - daxili tələbin, daxili təklifin və ya xaricdə bizim ixracın strukturunun dəyişmələri nəticəsində, baş verməsindən asılıdır. Daxili tələbin artması, milli gəliri artırırsa da, nəticə etibarilə ixracı azaldır. Ona görə də, açıq iqtisadiyyatın keynsçi modellərində fərz olunur ki, ixrac ümumiyyətlə milli gəlirdən asılı deyil. İxracı, milli gəlirlə eyni istiqamətdə dəyişdirə bilən iki faktor var: - təklifin artımı və ya istehsal xərclərinin istənilən üsulla azaldılması; ikincisi isə, xaricdə bizim ixraca tələbin artması.

Bütövlükdə isə, keynsçi nəzəriyyələr hesab edir ki, ixraca olan tələb ekzogen kəmiyyətdir.

Devalvasiyanın və deflyasiyanın milli gəlirə təsiri. Açıq iqtisadiyyat şəraitində, milli gəlirin dinamikasına təsir edən, qarşılıqlı asılılıq zəncirlərindən biri də, bütövlükdə pul kredit siyasətinin alətləri toplusu və valyutanın kursu siyasətidur. Belə

nəzərə almaq vacibdir ki, alətlərin və faktorların çoxtərəfli təsiri mümkündür. İndiki halda, biz onlardan yalnız - milli valyutanın devalvasiyası və deflyasiyasının təsirini tədqiq edəcəyik.

Devalvasiya milli gəlirə necə təsir edir? İlk növbədə devalvasiya, ixracın real həcmini artırır, idxalı isə azaldır. Beləliklə, ixrac və idxalla rəqabət sahələrində gəlir artır və yeni iş yerləri yaranır. Ona görə də hesab olunur ki, devalvasiya milli gəliri artırır. Bu məntiq ölkənin ixracına dünya tələbinin strukturunda baş verən dəyişikliklərlə təsdiq edilir.

Lakin, iqtisadi mahiyyətinə görə, devalvasiyanın milli gəlirə təsiri, aşağıdakı üç səbəbdən mübahisəlidir. 1. Devalvasiya, ticarət balansının bilavasitə yaxşılaşdırmaya bilər. Çünki ixracın və idxalın qiymət elastikliyi, həmişə eyni istiqamətli və sürətli olmur. 2. Devalvasiya, xarici ticarət şəraitini (P/P_m) pisləşdirə bilər və buna görə də hər idxal vahidi müqabilində, tələb olunan ixracın, real həcmini artıra bilər. Əgər ticarət şəraiti pisləşirsə, devalvasiya nəticəsində, rifah-halın daha vacib göstəricisi olan, ölkənin real alıcılıq qabiliyyəti - özümüzün istehsalı olanları almaq imkanlarına nisbətən daha çox azalacaqdır. Bu halda əhali real alıcılıq qabiliyyətinin azaldığını dərk edərək, öz xərclərini azaldacaqdır. Bu isə devalvasiyanın mənfi nəticələrini daha da çoxaldacaqdır. Bu prosesin sonunu hesablamaq olar. Müvafiq dünya təcrübəsi, belə ümumi nəticə çıxarmağa imkan verir ki, devalvasiya, ticarət şəraitini pisləşdirirsə, o milli gəliri azaldır.

Bu baxımdan, milli gəlirin artmasının kafi şərti, ümumilikdə devalvasiyanın, ticarət şəraitini yaxşılaşdırması və ya ən azı onu dəyişdirməməsi hesab oluna bilər. Eyni zamanda, nəzərə alınmalıdır ki, uzunmüddətli perspektivdə, alıcılıq qabiliyyəti pariteti bərpa olunduqca, ticarət şəraiti (P/P_m), öz əvvəlki vəziyyətinə qayıdır.

Yuxarıda deyilənlərdən aydın olur ki, ticarət şəraitini, müvəqqəti olsa da, pisləşdirən hallardan başqa, digər hallarda devalvasiya sərfəlidir.

Lakin bir cəhəti də nəzərə almaq lazımdır:

♦ Uzun müddətli planda devalvasiya, tədiyyə balansının pisləşdirdikdə, ölkənin valyuta ehtiyatları itir. Bu halda, fiksə olunmuş kurs, valyuta ehtiyatlarını azaldır.

♦ Real milli gəlirlə ($Y_r = Y/P$), rifahı daha doğru ifadə edən, gəlirin real alıcılıq qabiliyyəti (Y_p) arasında fərq var. Çünki xarici ticarətlə ölkə özündə istehsal etdiyi məhsullardan fərqli məhsullar alır. Milli gəlirin real alıcılıq qabiliyyəti aşağıdakı kimi hesablanır.

$$Y_p = \frac{\text{(Milli məh. nom. həcmi)}}{\text{(daxili və bizim aldığımız xar. məh.)}} = \frac{Y \text{ və ya } P_y}{(1-a)\,P + a\,P_m}$$

Burada - a- idxala sərf olunan milli xərclərin payı, (1-a) – ixrac qabiliyyətli məhsul və xidmətlərin daxili bazarda alınmasına sərf olunan xərclərin payı, P – milli iqtisadiyyatda istehsal olunan məhsul və xidmətlərin qiymət indeksi, P_m – idxalın qiymət indeksidir. Kəsrin məxrəcindəki ifadə, satın alınan(yalnız özümüzdə istehsal olunmayan) məhsul və xidmətlərin xüsusi çəkisinin qiymət indeksini göstərir. Bu indeks, çəki əmsalları, xərclərdəki paya (a və (1-a))əsasən hesablandığından, ÜDM deflyatoru indeksindən, daha çox həyat dəyəri indeksinə yaxındır. Aydındır ki,bizim ticarət şəraitini (P/P_m) pisləşdirən istənilən faktor, hətta real milli gəliri (Y) azaltmadan bizim real alıcılıq qabiliyyətini (Y_p), azalda bilər. Devalvasiya belə nəticəyə gətirə bilirsə, deməli, o, real rifahı da aşağı sala blər.

3. Devalvasiya tədiyyə balansını tənzimləməyə istiqamətlənirsə, yəni onun kəsirini ödəməyə xidmət edirsə, iqtisadiyyata müsbət təsir edir. Belə ki, devalvasiya, milli valyutanın qeyd olunmuş süni kursunun saxlanılması üçün, ehtiyatların xərclənməsinin qarşısını alır. Lakin devalvasiyanın əhəmiyyəti şişirdilirsə və ya milli valyutanın sərbəst bazarda rolu düzgün qiymətləndirilmirsə, bu başqa xoşagəlməzliklər yarada bilər. Məsələn, tədiyyə balansının müsbət saldosu, valyuta ehtiyatını artırmağa sövq edə bilər. Bu isə süni qiymətlə alınan valyutanın, uzunmüd-

dətli dövrdə dəyərinin itməsinə gətirir. Beləliklə, bir daha aydın olur ki, devalvasiya milli gəliri tədiyyə balansının kəsirinin ödənilməsinə qədər yaxşılaşdırır.

Yuxarıdakı şərhləri ümumiləşdirərək, nəticə çıxarmaq olar ki, devalvasiya və ya milli valyutanın ucuzlaşması ölkənin iqtisadi qüdrətini o halda artırır ki, bu 1. Ticarət balansını pisləşdirmir; 2. Ticarət şəraitini pisləşdirmir; 3. Rəsmi ehtiyatların təmiz artımını və ya itkisini azaldır.

Devalvasiyanın iqtisadiyyata təsirini tam aydınlaşdırmaq üçün onun ayrı-ayrı əhali qruplarının gəlirlərinə təsirini də öyrənmək vacibdir. Devalvasiya ilk növbədə elə sosial qruplara sərfəlidir ki, onlar xarici ticarət dövriyyəsi üçün istehsal edir və ticarət aparırlar. İxracedicilər və idxalla rəqabət aparan istehsalçılar üçün, xarici istehsalçılara nisbətən daha əlverişli şərait yaranır. Xarici ticarət dövriyyəsində iştirak etməyən qruplar isə devalvasiyadan uduzurlar. Devalvasiya əhalinin bəzi qruplarının (müəllimlər, həkimlər və s.) həyat dəyərini artırır. Beləliklə, gəlirin paylaşmasında dəyişiklik baş verir. Doğrudur, uzunmüddətli planda devalvasiya gəlirin paylanması strukturunda dəyişiklik yarada bilməz. Qısamüddətli dövrdə isə devalvasiya qiymət və gəlirləri dəyişməyə bilər.

Deflyasiya isə, mahiyyətcə pulun alıcılıq qabiliyyətinin artmasına səbəb olan qiymət enməsidir. Bir çox səbəblərdən (dövriyyədəki pulların azaldılması, deflyasiya gözləntiləri, mal və xidmətlər təklifinin tələbdən artıq olması, qiymət enmələrinin inzibati tədbirləri, daxili qiymətlərdən daha ucuz qiymətə malların kütləvi surətdə idxalı və s.) baş verməsi və nəticələrinin geniş spektri baxımından (məsələn, pulun qıtlığı, yüksək faiz, büdcənin deflyasiya baxımından itkiləri təsərrüfat fəaliyyətinin məhdudlaşdırılması və s.) deflyasiya çoxplanlı bir prosesdir.

Deflyasiya, həmçinin, qiymət artımını yavaşıtmaq və ya qiymətləri aşağı salmaq məqsədi güdən, tələbatın məhdudlaşdırılması siyasətinin nəticəsi də ola bilər. İnflyasiya və onun nəticələri ilə mübarizənin ən təsirli vasitəsi olaraq, iqtisadi mahiyyət baxımından, iqtisadi siyasət aləti kimi, deflyasiya pulun kəmiyyət

konsepsiyasına söykənir. Sosial mahiyyət baxımından isə burada, bəzi sosial-iqtisadi qrupların maraqlarının müdafiəsi tələblərinə nisbətən bazar iqtisadiyyatı qanunauyğunluqlarına xüsusi üstünlük verilir. Texniki planda isə, nəzərdə tutur ki, insanların inflyasiyanı törədən və dəstəkləyən fəaliyyəti və davranışına təsir göstərmə mexanizmlərinin hamısı, geri dönmə xüsusiyyətinə malikdir. Deflyasiya tədbirləri müəyyən mənada, kəmiyyət nəzəriyyəsinin qəbul etdiyi inflyasiyaya zidd olan vəziyyətin yaradılmasını nəzərdə tutur.

Deflyasiya siyasətinin bütün növləri iqtisadiyyatda pul axınlarının müxtəlif üsullarla məcburi azalmasına gətirib çıxarır:

- Pulun dövriyyədən çıxarılması: dövriyyədən çıxarılmış və az sayda yeni əskinaslara dəyişdirilmiş əskinasların faktiki məhv edilməsi; bank depozitlərindən istifadənin məhdudlaşdırılması.
- İqtisadiyyatın sərəncamında olan maliyyə vəsaitlərinin azaldılması (maliyyə deflyasiyası); dövlət xəzinəsinin bank sisteminə olan borcunun ödənilməsi, xüsusi tədbirlər vasitəsilə kredit verilməsi imkanlarının məhdudlaşdırılması, uçot məzənnəsinin artırılması iqtisadiyyatdakı sərbəst ödəniş vəsaitlərinin "çıxarılması" məqsədilə dövlət borc istiqrazlarının buraxılışının artırılması.
- Dövlət xərclərinin artırılmasından əvvəl pulların yığılmasına üstünlük verən büdcə və vergi siyasətinin aparılması: xüsusilə, gəlir vergisinin köməyi ilə istehlak və investisiyalara yönəldilən vəsaitlərin azaldılması. Büdcənin tarazlaşdırılması və gəlirlərin xərcləri üstələməsi (investisiyalar və aparatın fəaliyyətinə çəkilən dövlət xərclərinin məhdudlaşdırılması, vergi daxilolmalarının nisbətən yüksək həddinin saxlanılması) siyasəti.
- Dövlət iqtisadi idarəetməsinin (Dirijizm) müxtəlif tədbirlərinin tətbiq edilməsi: qiymətlərin və hətta əməkhaqlarının məhdudlaşdırılması və icbari aşağı salınması, bəzi sosial güzəştlərin (sosial müavinətlərin) məhdudlaşdırıl-

ması, istehsalın təşkili və müəssisə siyasətinin əlaqələndirilməsi (müqavilələr).

Dünya təcrübəsində, deflyasiya siyasətini əks etdirən ən səciyyəvi tədbirlər, bilavasitə İkinci Dünya müharibəsindən sonra iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə yayılmışdır.

Dövlət xərclərinin məhdudlaşdırılması. 1920-ci ildə Böyük Britaniya dövlət xərclərini kəskin surətdə azaltmağa başladı və nəticədə ümumi fəallıq xeyli azaldı və vergi daxilolmaları aşağı düşdü. Bu cür siyasəti Almaniya 1931-ci ildə, Fransa isə 1935-ci ildə tətbiq etmişdi və bu, məmurların məvaciblərinin aşağı salınması ilə (Almaniyada 20%, Fransada isə 10%) həmçinin, ictimai işlərin azalması ilə nəticələnmişdi.

İqtisadiyyatda məsrəflərin azaldılması. 1920-1930 - cu illərdə deflyasiya siyasətinin təşkilatçıları cəhd göstərirdilər ki, əməkhaqqına, həmçinin, onların fikrincə, qiymətlərə də təzyiq göstərməklə məsrəfləri aşağı salsınlar: Britaniya və alman hökumətləri əməkhaqqının 20%, fransız hökuməti isə 10% azaldılmasını tövsiyə edirdi. Almaniyada işsizlik müavinətləri alanların sayını azaltmışdı; hər üç ölkədə 1935-1936 -cı illərdəki qiymətlərin dondurulması və ya məhdudlaşdırılması aparılmışdı. Bütün bu tədbirlər həqiqətən də əməkhaqqının azalmasına, işsizliyin artmasına, iqtisadi durğunluğa gətirib çıxarsa da, qarşıya qoyulan məqsədə nail olunmuşdu; qiymətlər əməkhaqqı ilə müqayisədə daha az enmişdi, mənfəətlər isə, əksəriyyət baxımından elan edilmiş, ümumi ixtisara salmadan, uzaqlaşa bilmişdi.

Pulun qiymətinin artırılması. Belə tədbirlər möhtəkirliyin azaldılması (ehtiyatların yaradılması, kapitalların ixracı) və investisiyaların məhdudlaşdırılmasına gətirir. Böyük Britaniyada 1923-1926-cı illərdə uçot məzənnəsi 3,5-dən 5%-dək qalxmışdı. Almaniyada, sadəcə, 1931-ci ilin yayı ərzində 7-dən 15%-dək, ABŞ-da 1928-1929-cu illərdə 3-dən 5%-dək artmışdı.

Pul və maliyyə funksiyaları. Böyük tənəzzül dövründə deflyasiya ilə mübarizə tədbirləri kimi (Almaniya 1926-1948-ci illərdə, Fransa isə 1945-ci ildə) pul nişanlarının dəyişilməsindən başqa, digər tədbirləri də misal göstərmək olar: - gəlirlərin yarandığı

mənbədə vəsaitlərin azaldılması formasında icbari borcların yaradılması və onların istifadəsi məhdudlaşdırılmış əmanətlərə əlavə olunması və ya dövlət istiqrazlarına çevrilməsi (Böyük Britaniya, İtaliya, Almaniya); borclar-kapitaldan və ya əldə olunmuş sərvətlərdən götürülmə; fövqəladə vergilər ("həmrəylik" vergisi, Fransa, 1946, yüksək gəlir üzrə vergi, Böyük Britaniya, 1945-1952-ci illər); şirkətlərə ödənilən dividentlərin məhdudlaşdırılması (Almaniya, 1934, 1937, 1941; İtaliya, 1935-1936, 1940; Fransa, 1941). Vəziyyətdən asılı olaraq, fiskal və ya yarımfiskal götürmələr özlərində sırf maliyyə və sosial məqsədləri (ən yüksək, və ya ən spekulyativ gəlirlərə toxunulur) ehtiva edir və ya əksinə, əmanətlərlə bağlı motivlərə görə yüksək gəlirləri qorumağa xidmət edir. (ABŞ, 1953, Almaniya, 1954).

Deflyasiya siyasəti, iqtisadiyyatın idarə olunması və inflyasiya ilə mübarizəyə dair klassik iqtisadi nəzəriyyələrin ən sadə və aşkar tətbiqidir. Hidravlikanın qanunları az və ya çox açıq tərzdə tətbiq edərək, sanki bu nəzəriyyə, mal və pullara olan təklif və tələb dövriyyəsini tənzimləmək üsulunu təqdim edir. Lakin bu cür "su borusu kranı" texnikası səthidir, bəzən də çox sərt və səmərəsizdir. Belə ki deflyasiya:

- hər hansı proqnozlaşdırma, qəbul olunmuş tədbirlərin mümkün müşayiətedici nəticələri və təsərrüfat obyektlərinin reaksiyasını nəzərə almır ;
- cəmiyyəti əşyalar dünyası kimi qəbul edərək, o, fərdi faciələr doğura bilər ki, onlar heç bir iqtisadi artım ideyaları ilə əsaslandırıla bilməz. Əməkhaqqının azaldılması və ona təzyiq edilməsi (işsizlikdən faktiki olaraq bu gözlənilir) ən mübahisəli və ən təhlükəli konservatizmlə bağlıdır.

Ümumi anlamda, deflyasiya siyasətinin tərəfdarları həmişə ümid edirlər ki, belə siyasət, ilk növbədə, əməkhaqqının azaldılması hesabına qiymət artımının dayandırılmasına nail olacaqdır. Lakin onlar itkinin əvəzi üçün mənfəət sahiblərinin sərəncamında olan imkanları nəzərə almırlar. Deflyasiyanın nəticələri həmişə məyusedici olur, onun yeganə şübhəsiz nəticəsi isə sosial gerilənin yaranmasıdır. Minimum səviyyədə tarazlığa nail olmağa

yönəlmiş hər hansı deflyasiya ilə bağlı olan addım qaçılmaz durğunluğa və tənəzzülə aparır. Məhz bu səbəbdən, cəmiyyət həmin "metodlara" əsaslanan, lakin daha yüngül dozalarla verilən və inkişafı dayandırmadan iqtisadiyyatın həddən artıq "qızmasını" aradan qaldırmağa yönəlmiş sabitləşdirmə siyasətinə üstünlük verir.

3.2. Makroiqtisadi tarazlığın təmin olunmasında valyuta siyasətinin rolu

Açıq iqtisadiyyat şəraitində, makroiqtisadi siyasətin mühüm vəzifələrindən biri, valyuta siyasətinin seçilməsidir. Hər bir ölkə, beynəlxalq aləmdə baş verən dəyişiklərə reaksiya verərkən, ilk növbədə, iki yoldan birini seçir: şəraitin aydınlaşması məqsədi ilə passiv gözləmə yolu və ya ölkənin bütün əlaqələri üzərində, ciddi nəzarət yaratmaqla, aktiv fəaliyyət yolu. Makroiqtisadi stabilliyə çalışan ölkə, valyuta siyasətində problemlərin (bu problemlər əsasən tədiyyə balansında və valyuta bazarında baş verir) həllinə beş formada yaxınlaşa bilir. Şərhlərimizin sadəliyi və qiymətləndirmələrimizin aydınlığı üçün, fərz edək ki, hər bir həll üsulu tədiyyə balansının kəsirinə və valyuta kursunun düşməsinə, reaksiya formasında təzahür edir.

1. Milli iqtisadiyyatın "status – kvo" şəraitini və ya valyuta kursunu dəyişmədən ümumi tədiyyə balansı kəsirinin maliyyələşdirilməsi.

a) Müvəqqəti maliyyələşdirmə: kəsirin yaranmasının müvəqqəti olması məlumdursa, ölkə öz ehtiyatlarına müraciət edir və elə tədbirlər həyata keçirir ki, ehtiyatların azaldılması daxili bazarda pul təklifinə təsir etməsin. Eyni zamanda, ehtiyatların bərpa olunmasını gözləyir ki, ümumi balans təmin olunsun və müsbət saldo yaransın.

b) "Açar valyuta" ölkəsində kəsir və ya "göz yaşları yaratmayan kəsir", halında valyuta siyasəti. Əgər ölkənin milli valyutası beynəlxalq hesablaşmalar alətidirsə, kəsirin müəyyən həcmə qədər artması təhlükəli hesab olunmur və valyuta siyasətində heç bir korreksiya aparılmır .

2. Valyuta nəzarətinin gücləndirilməsi. Bu halda hökumət ölkə ilə qalan dünya arasında əlaqələri çox dəqiq tənzimləyir. Məsələn, valyuta kursunu dəyişdirmədən, xaricə aparılmaq üçün rezidentlərin pul dəyişməsi kəskin məhdudlaşdıra bilər.

3. Üzən valyuta kurslarının tətbiqi. Bu halda valyuta kursunun tənzimlənməsi, tamamilə, valyuta bazarının öhdəsinə buraxılır, yəni onun tarazlıq halına qədər aşağı düşməsinə, təbii "şərait yaradılır".

4. Daimi - qeyd olunmuş kursların tətbiqi. Bu variantda hökumət iqtisadiyyatda dəyişiklər etməklə onu formalaşmış valyuta kurslarına uyğunlaşdırır. Əgər xarici ödəmələrdə kəsir varsa və xaricilər ölkənin valyutasını daha saxlamaq istəmirlərsə, hökumət valyuta ehtiyatlarını xərcləməklə, yaratdığı pul təklifini azaldaraq deflyasiya siyasəti aparır, qiymət və gəlirləri azaldır. Bu siyasət o vaxtadək aparılır ki, xarici valyutaya tələb və təklif qeyd olunmuş valyuta kursu səviyyəsində tarazlaşır.(Belə siyasət tədiyyə balansının tənzimlənməsinin "klassik üsulu" hesab olunur).

5. Valyuta kurslarında kompromis siyasət. Bu halda ölkədə 3-cü və 4-cü variantlarda şərh olunan siyasət modellərinin kombinasiyasını həyata keçirir. Tənzimləmə, valyuta kurslarının özünün hərəkəti ilə qismən baş verir.

a) Dəyişən valyuta paritetləri və ya Bretton-Vuds valyuta sistemi üzrə siyasət. Burada ölkə, 4-cü variant üzrə qeyd olunmuş kursu saxlamaq üçün iqtisadiyyatda dəyişikliklər aparır. Bu o vaxtadək davam edir ki, dəyişiklər mümkündür. Əks halda, valyutanın deflyasiyası baş verir və yeni valyuta kursu qeyd olunur.

b) Valyutanın tənzimlənən "üzməsi" siyasəti. Rəsmi orqanlar valyutanı tədricən yeni paritet yaranana qədər dəyişirlər. Yeni paritetə doğru hərəkətdə milli valyuta hər gün, əvvəldən nəzərdə tutulmuş və elan olunmuş ölçüdə devalvasiya oluna, yəni ucuzlaşa bilir (sürüşkən bağlılıq). Bundan əlavə, kurs əvvəlcədən elan olunmuş dövrlüklə, böyük ölçüdə azala bilər (sürünən bağ-

lılıq) və ya hər gün, əvvəlcədən elan olunmayan həcmdə (çirkli üzmə) azala bilər. Bütün belə hallarda hökumət, iqtisadiyyatın yeni şəraitə uyğunlaşması və valyuta bazarında zəruri əməliyyatların aparılmasının, maliyyə mənbələrinin axtarılması tədbirlərini görür.

Dünya təcrübəsi göstərir ki, bu strategiya variantlarının konkret tətbiqi, heç də asan deyildir. Məsələn 1-ci strategiya, əlverişli və tətbiqi nisbətən asandır. Lakin, tədiyyə balansında müsbət saldoya malik ölkələrdə rezidentlər borclu ölkədəki qazandıqlarını, Mərkəzi Banka təqdim edərək, onu konvertasiya etmək istəyəndə, ehtiyatlar kəskin azalır və ölkə beynəlxalq aləmdə "defolt" vəziyyətinə gəlir. Hətta bəzən belə hallarda, BVF-da borclu ölkəyə kömək edə bilmir, çünki onun vəsaitləri, donor ölkələrin paylarından ibarətdir. 2-ci variantda strategiya isə, 1-ciyə nisbətən, daha ciddi tədbirlər aparılmasını tələb edir. Lakin bu, sosial baxımından ən pis variant hesab olunur (təcrübədə bu variant ən çox istifadə olunur). Bu variant idxalın kvotalaşdırılması ilə eyni tipli hesab olunur.

Yuxarıda qeyd etdiklərimiz göstərir ki, praktikada açıq iqtisadiyyat şəraitində valyuta siyasəti faktiki olaraq aşağıdakılar arasında seçimlə şərtlənir:

- valyuta kurslarının təmiz üzməsi strategiyası (3-cü variant);
- valyutanın tənzimlənən üzməsi strategiyası (5b variantı);
- qeyd olunmuş kurs (bütün iqtisadiyyat onun qorunmasına istiqamətlənirsə) (4- cü variant).

Açıq iqtisadiyyatda valyuta siyasəti tipinin düzgün müəyyənləşdirilməsi üçün təklif olunan variantların müqayisəli təhlilini aparmaq məqsədəuyğun hesab edilir. İlk növbədə qeyd olunmuş kursların üstün cəhətləri hesab edilən arqumentləri araşdıraq: hesab edilir ki, qeyd olunmuş kurslar üzən kursların yaratdığı - destabilləşdirici möhtəkirliyin və qiymət intizamının pozulmasının qarşısını almağa qadirdir. Aydındır ki, istənilən valyuta rejimi, əgər bu rejim möhtəkirlərin gələcəklə bağlı gözləmələrinin qeyri-stabilliyini yaradırsa təhlükəlidir. Lakin, M. Fridmanın təsdiq etdiyi kimi, destabilləşdirici siyasət, bir tərəfdən, bütövlükdə

cəmiyyətə zərər vurur; maliyyə panikası və iqtisadi böhran yarada bildiyi üçün, həm də onu yaradanlar və həyata keçirənlərə zərər vurur. Digər tərəfdən isə, destabilləşdirici siyasət, qeyd olunmuş sistemə nisbətən, üzən sistemdə daha böyük ehtimala malikdir. Belə ki, qeyd olunmuş sistemdə, adətən, möhtəkirlər dövlətin kursu saxlamaq niyyətinin möhkəm olduğuna əmin olduqları üçün, dağıdıcı addımlara meyillənmirlər.

Valyuta rejiminin, qiymət intizamının pozulması və onun vasitəsilə, inflyasiyanı gücləndirməsinə gəlincə, demək lazımdır ki, əlbəttə, valyuta kurslarının ciddi bağlılığı, mənfi saldoya malik ölkələrin hökumətləri beynəlxalq hesablaşmalarda müsbət saldolu ölkələrdəkinə nisbətən daha ehtiyatlı hərəkətə sövq edir. Ona görə də hesab olunur ki, üzən kurslara keçməklə, kəsirli ölkələr sərbəstliklərini artırırlar. Digər tərəfdən ənənəvi olaraq, kəsirli ölkələrdə əsas tənzimləmə vasitəsi kimi - deflyasiya tədbirləri müsbət saldolu ölkələrdə isə, inflyasiya tədbirləri istifadə edilir. Ona görə də, üzən rejimə keçid vasitəsilə, daha dəqiq və düşünülmüş qaydada formalaşdırılmış inflyasiya siyasətini formalaşdırmaq mümkündür. Bunlarla bərabər qeyd etmək vacibdir ki, üzən kurslar şəraitində yüksək inflyasiya təhlükəli vəziyyətdir. Çünki, bəzi hökumətlər qeyd olunmuş valyuta rejimini, saxlamağa məcbur olmadıqda, idarə olunmayan inflyasiyada maraqlı olurlar.

Həqiqətən, qeyd olunmuş valyuta rejimləri tədiyyə balansı kəsirli olan ölkələr üçün daha çox məhdudiyyətlər yaradır. Belə ölkələr kəsiri uzun müddət saxlaya bilmir, çünki sadəcə olaraq, onların ehtiyatları və kredit qabiliyyətləri tükənir. Müsbət saldolu ölkələrdə isə, bununla bağlı çətinliklər nisbətən azdır və onlar yalnız uzun müddətdən sonra, özünü göstərə bilir: - belə ölkələrdə uzun müddətdən sonra, valyuta-qızıl ehtiyatlarının hədsiz artmasından narahatlıq yarana bilir. Valyuta ehtiyatlarının həcmi tədiyyə balansını müsbət saldosu səbəbindən çox yüksək həddə çatdıqda hökumətlər pul kütləsinin artmasının, həmçinin daxili bazarda kreditləşdirmənin qarşısını texniki cəhətdən daha ala bilmir və buna görə də inflyasiyanın güclənməsi dövrü başlayır. Belə-

liklə, dünya təcrübəsində, tədiyyə balansının kəsirliliyi və böyük müsbət saldosunun yaratdığı asimmetriya dəyişən konyunktura şəraitində qeyd olunmuş valyuta kurslarından, üzən kurslara keçidi, inflyasiyalı iqtisadi siyasətə keçid kimi, xarakterizə etməyi mümkün edir. Bu müddəanın ən yaxşı sübutu, 1971-ci ildən sonra pul kütləsinin və qiymət səviyyəsinin, bütün dünyada, bütövlükdə artması faktı hesab edilə bilər.

Yuxarıda qeyd olunanlarla yanaşı vurğulamaq vacibdir ki, valyutanın sərbəst üzməsinin, həmişə yüksək inflyasiya yaratmasının bir mənalı təsdiqi yoxdur. İqtisadi siyasətin əsas məqsədi tam məşğulluğun, təmin edilməsi kimi müəyyənləşdirilir və bu zaman inflyasiyaya diqqət yetirilmirsə çevik valyuta kurslarına üstünlük verilə bilər. Çünki, belə kurslar kəsir balanslı ölkələrə deflyasiya siyasəti aparmayaraq məşğulluq və gəlirlərin azalmasından qaçmağa imkan verir. Hansı ölkə daha çox inflyasiyadan çəkinirsə, qeyd olunmuş kurslar siyasətini seçə bilər. Beləliklə, qeyd olunmuş və ya üzən valyuta kurslarının seçilməsinin üstünlüklərinin müqayisəsi əslində işsizlik və ya inflyasiyanın optimal nisbətlərinin müəyyənləşdirilməsi məsələsinin xüsusi halıdır. Doğrudur, qiymət intizamı məsələsi təcrübədə hər iki sistemin fəaliyyət göstərməsini mümkün edir. Lakin, hansı kursun üstün olmasının qiymətləndirilməsi heç də həmişə doğru olmayan, qiymətlərin stabilliyinin əsas hesab edilməsi fərziyyəsinə əsaslandığından subyektiv seçim məsələsidir.

Dünya təcrübəsinin, valyuta kurslarının müəyyənləşdirilməsi ilə bağlı, bir sıra dərslərinin təhlili və yuxarıda qeyd olunan nəzəri ümumiləşdirmələrin əsasında açıq iqtisadiyyat şəraitində valyuta rejiminin seçimində aşağıdakı qiymətləndirici mülahizələrin nəzərə alınması məqsədəuyğun hesab edilir:

- Rəsmi dövlət orqanlarının, qeyd olunmuş kursları saxlamaq imkanları şəksizdirsə, destabilləşdirici möhtəkirlik ehtimalı çox kiçik olacaqdır;
- Qeyd olunmuş kurslar, "qiymət intizamının " qorunmasını və dünya iqtisadiyyatında bütövlükdə aşağı inflyasiya sürətini (aşağı səviyyədə məşğulluq və gəlirliliyin mümkünlüyü ehtimalı ilə) şərtləndirir;
- Valyuta kurslarının ciddi bağlanmasından, yarana biləcək uduş və ya itkilər, aparılan iqtisadi siyasətdən yaranan və ya iqtisadiyyatda mümkün olan makroiqtisadi "şoklardan" asılıdır. Bununla belə, daxili tələbin sürüşmələri ilə yaranan şokların kompensasiyası üçün, qeyd olunmuş kurslar daha üstün əhəmiyyətə malikdir; ixrac tələbi ilə bağlı sürüşmələr üçün isə, çevik kurslar daha əhəmiyyətli hesab edilir;
- Sonuncu qənaətə görə, üzən kurslar stabil və proqnozlaşdırılan büdcə və pul siyasətinə malik ölkələr üçün, daha əhəmiyyətlidir. Daxili qeyri-stabilliyin mənbəyi olan qeyri-stabil iqtisadi siyasətin ləğv edilməsi mümkün "şokları" xarici ticarət bölməsi ilə məhdudlaşdıracaq və üzən valyuta kursları isə, onları müəyyən qədər, "xüsusiləşdirməyə" imkan yaradacaqdır;
- Avtonom pul-kredit və büdcə siyasəti aparan ölkələr, qeyri aşkar şəkildə öz daxili iqtisadiyyatlarında yaranan "şoklara" üstünlük verirlər. Onlar, xarici təsirlərdən özlərini qorumağa çalışaraq, daxili problemlərini, təkbaşına həll etməyə cəhd edirlər. Belə olduqda isə, onlar üzən valyuta kurslarından istifadədə maraqlıdırlar.

3.3. Açıq iqtisadiyyatda tədiyyə balansının tənzimləyici rolu

Açıq iqtisadiyyatda beynəlxalq iqtisadi münasibətlər ənənəvi olaraq, iki əsas kanal – beynəlxalq ticarət və maliyyə axınları vasitəsilə həyata keçirilir. Beynəlxalq ticarət vasitəsilə istehsal və istehlak olunmuş məhsul və xidmətlərin bir hissəsi ixrac və idxal olunur. Maliyyə axınları sahəsində beynəlxalq münasibətlərin yaranması isə, milli iqtisadiyyatların qarşılıqlı asılılığı, insanların milli və xarici aktivlərə malik olması, xarici banklarda pul baratının saxlanılması, qiymətli (o cümlədən xarici) kağızlar və daşınmaz əmlak alması və s. kimi səbəblərlə izah olunur.

Ölkələrin qarşılıqlı asılılığının güclənməsi, milli gəlirin və digər əsas iqtisadi göstəricilərin, heç də həmişə daxili faktorlardan asılı olmamağını şərtləndirən əsas amillərdən hesab olunur. Belə şəraitdə, hər hansı dövlətin iqtisadi siyasəti, mütləq qaydada, ölkə iqtisadiyyatının beynəlxalq əlaqələrini, nəzərə almaqla qurulmalıdır. Belə mexanizm isə dünya təcrübəsində, tədiyyə balansı (TB) vasitəsilə yaradılır və tətbiq edilir.

Tədiyyə balansı – ölkənin bütün rezidentlərinin, müəyyən təqvim dövrü ərzində (il, rüb və ya ay) ərzində, qalan dünya ilə, bütün iqtisadi münasibətlərinin, əlaqələrinin və sövdələşmələrinin maliyyə yekunlarını əks etdirən, ikiqat qeydolunma prinsipi (kredit və debet) ilə qurulmuş matris cədvəldir.

Tədiyyə balansının kredit bölməsi – ölkədən dəyərlərin getməsi və onun müqabilində, kompensasiyaedici ödəmələrin, o cümlədən, valyuta formasında gəlməsini əks etdirir. Debet bölməsi isə, ölkəyə yeni dəyərin gəlməsini və onun müqabilində ödəmə kimi, valyutanın getməsini göstərir. Sövdələşmələrin kredit və ya debet bölməsinə aid edilməsi məhsul və xidmətlərin idxalı və ixracında heç bir problem yaratmır. Lakin, bir sıra hallarda isə, bu müəyyən çətinliklər yarada bilir. Bu ilk növbədə rezident və iqtisadi sövdələşmə anlayışlarının, müəyyən olunmasındakı xüsusiyyətlərlə şərtlənir. Məsələn, ölkənin xaricdən aldığı uzun və qısamüddətli borclar, tədiyyə balansının kredit bölməsində əks olunmalıdır. Belə ki, xaricdən alınan borclar, xarakterinə görə ixracla oxşardır, çünki bu halda da ölkə, xarici kreditora özünün borc öhdəliyini - sadəcə bir kağız formasında ifadə olunmuş öhdəliyi, satır. Başqa sözlə, borc öhdəliyi də ixrac kimi, pul əldə etmək vasitəsidir, sadəcə olaraq bu halda, pul bank depozitləri formasında olmaqla, müvafiq qaydada xərclənməlidir. Oxşar hal, debet hesabında da baş verir. Məhsul və xidmətlərin idxalı, ölkəyə dəyərlərin gəlməsini əks etdirir və bu halda onların əvəzinin, nəqd pulla ödənilməsi də mümkündür. Lakin xaricilərin kreditləşdirilməsində isə, ölkə beynəlxalq statuslu öhdəliklər alır ki, bu da faktiki olaraq gələcəkdə ödəmək haqqında zəmanətli vəd hesab olunur. Beynəlxalq təcrübədə qəbul olunmuş, qeyri-formal

terminoloji ifadə qaydalarına görə, xaricə kreditlərin verilməsi, "kapitalın ixracı" və əksinə xarici borclar isə, "kapitalın idxalı" adlanır. Lakin qeyd edildiyi kimi, "kapital ixracı" debet kimi (məhsul və xidmətlərin idxalı kimi) ,"kapitalın idxalı" isə kredit kimi (məhsul və xidmətlərin ixracı kimi) qeydə alınır.

Ölkənin rəsmi aktivlərinin artması tədiyyə balansında debet kimi qeyd edilir. Rəsmi aktivlərin artması, onun strukturu ilə birbaşa bağlı olsa da (bu struktur onu təşkil edən vasitələrin seçimi və xüsusi çəkiləri ilə müəyyənləşir), dövlət saxlanclarında aktivlərin artması, məhsul idxalına oxşardır, baxmayaraq ki, yeni aktivlərin bu səbəbdən artması, o cümlədən qızılın alınması üçün mütləq "təmiz ixrac ", yəni ixracın idxaldan artıq olması vacibdir.

Tədiyyə balansının tərtib olunmasında, ölkələr arası axınların müqayisəliliyini təmin etmək, bəzi hallarda müəyyən çətinliklərə səbəb olur. Belə ki, bəzən bu axınların beynəlxalq xarakteri, aydın olmur və ya axınlar birtərəfli olur. Məsələn hədiyyələr və müxtəlif köməklər (təbii fəlakətlər zamanı göstərilən müxtəlif xarakterli köməklər) iqtisadi dəyərlərin qarşılıqlı axınlarının uçota alınması mümkün olmayan hissələri (belə hallarda balansda "təmiz səhvlər və buraxmalar" adlı xüsusi sətir yazılır) ölkənin aktiv və passivlərinin görünməyən və ya hiss olunmayan artımı (məsələn, xarici firma öz gəlirlərini ölkəsinə qaytarmadan, işlədiyi ölkədə reinvestisiya edir, dünya təcrübəsinə əsasən, dövlət statistikasında, ancaq repatriasiya edilmiş gəlir, tədiyyə balansının müvafiq bölməsində qeydə alınır). Belə hallar, balansın tərtib olunmasında, texniki çətinliklər yaradır və bu problemlər, ölkədə formalaşmış iqtisadi siyasət, o cümlədən iqtisadi uçot və statistikanın, xüsusiyyətlərindən asılıdır.

Tədiyyə balansının hesabları, informasiya daşıması nöqteyi - nəzərindən unikal xarakterə malikdir. Belə ki, bu hesablar, ölkələrarası maliyyə, real əmtəə və xidmətlər axınını olduğu kimi ifadə edir və ona görə də, hər bir ölkə üçün siyasi qərarların qəbulunda mühüm rol oynayır. Məsələn müasir dövrdə tədiyyə balansının daşıdığı informasiyanın üç mühüm istiqamətini aşağıdakı kimi ifadə etmək olar:

- Ölkələr arası mübadilənin nəticələrinin, sistematik yazılışı vasitəsi ilə milli valyutanın, "üzən" kurslarının stabilliyini müəyyənləşdirmək olar; tədiyyə balansı, valyutanın onu öz əllərində saxlamaqda maraqlı olan tərəflərdə (həmin ölkə valyutasının rezidentləri) və həmin valyutanın tez mübadiləsində maraqlı olan tərəflərdə (xaricilər) akkumliyasiya səviyyəsini müəyyənləşdirməyə imkan verir.
- Tədiyyə balansı, fiksə olunmuş valyuta şəraitində, mühüm informasiya daşıyır. Tədiyyə balansı vasitəsi ilə valyutanın xaricilərin əlində toplanmış həcminin, müəyyənləşdirilməsi və ona görə də, valyutanın fiksə olunmuş kursunun saxlanılmasının, xüsusi ilə böhran şəraitində məqsədə müvafiqliyi haqqında qərar qəbul etməyə imkan verir.
- Tədiyyə balansı borclar, faiz ödəmələri və əsas borcun, toplanması haqqında və ölkənin gələcək ödəmələri, həyata keçirmək üçün, qazana biləcəyi valyutaların həcmi haqqında, məlumatları əks etdirir. Belə informasiya, ölkənin öz borclarının, qaytarması xərclərini, müqayisə etməyə imkan verir.

BVF standart təsnifatına görə, tədiyyə balansı iki əsas hesabdan ibarətdir: cari və kapital hesabları. Cari hesab, ticarət balansını əks etdirir və adətən müsbət olduqda yaxşı hesab olunur (merkantilistlərdən miras qalmış, qədim ənənələrə əsasən). Lakin heç də həmişə, mənfi saldolu balans, pis qiymətləndirilə bilməz. Məsələn, investisiya mühiti yaxşı olduqda ölkəyə çoxlu avadanlıq gəlir, ticarət balansı mənfi olur.

Cari əməliyyatlar balansının müsbət olması o deməkdir ki, əmtəə və xidmətlər, birtərəfli köçürmələr, hədiyyələr və s. ölkələrarası axınları üzrə, ölkənin debeti kreditindən çoxdur və ölkədə, xaricilərə, nə qədər yeni tələblər yaranmışdır. Başqa sözlə, ölkənin xaricdə sərvəti artmışdır və o, "təmiz investora" çevrilmişdir. Cari əməliyyatlar balansının mənfi olması isə, əksinə ölkənin "təmiz borcunu "əks etdirir. Belə yanaşmadan istifadə edərək ölkənin milli məhsulunun hesablanmasında tədiyyə balansının rolunu qiymətləndirmək olar. "Təmiz investor" olan ölkə,

daxili yığımı ($İ_d$) artırmaq əvəzinə, özünün milli yığımının (S) bir hissəsini xaricə investisiya ($İ_X$) edir. Başqa sözlə milli yığım $S= İ_d + İ_X$ kimi hesablanır. Burada $İ_X = S - İ_d$ faktiki olaraq, milli gəlirin, ölkənin bütün xərclərindən (E), o cümlədən daxili yığımdan, artıq olan hissəsini ifadə edir. Ölkənin bütün xərcləri, xarici və milli, məhsul və xidmətlərə olan fərdi istehlak xərcləri(C), üstəgəl, məcmu dövlət xərcləri(G), üstəgəl, istehsal vasitələrinin alınmasına xərclənən fərdi investisiyalardan($İ_d$) ibarətdir.

Məlumdur ki, ölkədə istehsal olunmuş milli məhsulun istifadəsi, $Y = C + İ_d + L + X - M$ kimi ifadə olunur, digər tərəfdən, daxili milli xərcləri $E = C + İ_d + G$ kimi ifadə etsək, onda, milli məhsul (Y) milli xərclərdən, cari tədiyyə balansı və ya təmiz ixrac qədər fərqlənir. $Y - E = X-M$. Beləliklə, tədiyyə balansının cari hesabının saldosu, eyni zamanda dörd müxtəlif qaydada hesablana bilər və ya müqayisə edilə bilər: saldo, məcmu ixracla, məcmu idxalın fərqi; təmiz xarici investisiyalar $X-M = İ_x$; ölkə daxilində investisiya olunmamış yığım $X-M = S - İ_d$ və milli gəlirlə, milli yığımın fərqinə $X-M = Y-E$ bərabərdir. Bu nəticələr ölkədə makroiqtisadi şəraitin idarə olunmasında saldonu istifadə etməyə imkan verir. Aydındır ki, cari hesabın saldosuna nail olunmaq üçün, iki müxtəlif məsələni həll etmək vacibdir: milli xərclərə nəzərən milli gəlirin artırılması (Y-E), milli yığımla daxili investisiyanın fərqinin ($S - İ_d$) artırılması.

Dünya təcrübəsində tədiyyə balansının cari hesabında yaranmış mənfi saldo, adətən aşağıdakı mənbələr vasitəsilə ödənilir:

- Aktivlərin bir hissəsinin xaricilərə satılması, yəni ölkə iqtisadiyyatına birbaşa və ya portfel investisiyalar qoyulması;
- Xarici banklar, hökumətlər və ya beynəlxalq təşkilatlardan borc alınması;
- Mərkəzi Bankda saxlanılan, rəsmi valyuta ehtiyatlarının istifadəsi vasitəsilə.

Lakin aydındır ki, cari hesabın maliyyələşdirilməsi sonsuz davam edə bilməz. Likvidliyə malik aktivlər, azaldıqca, ölkəyə kredit vermək arzusunda olanlar azalır. Ona görə də, cari hesabda

korreksiyalar zərurətə çevrilir. Bu xaricə ödənilən xərclərin azaldılması və ya xaricə satışın artırılması vasitəsilə mümkün olur.

Ölkənin aktivləri ilə beynəlxalq mübadilə tədiyyə balansının kapital və ya maliyyə əməliyyatları bölməsində, hesabında əks olunur.

Tədiyyə balansı, ikiqat qeyd prinsipi ilə tərtib olunduğuna görə, əslində mahiyyət etibarilə, sıfıra bərabər olmalıdır, yəni, dövlət bütün borclarını ödəməlidir. Ona görə də, cari əməliyyatlar üzrə kəsir, kapital əməliyyatları üzrə müsbət artıma bərabər olmalıdır. Əks halda tədiyyə balansı mənfi yekuna – kəsirə malik olur. Onun kəsiri isə, yuxarıda qeyd olunan kimi, rəsmi valyuta ehtiyatlarının istifadəsi və ya qismən milli valyutanın mübadilə kursunun dəyişməsi yolu ilə örtülə bilər.

Mərkəzi Bankın, makroiqtisadi situasiyanı nəzarətdə saxlamaq məqsədi ilə, açıq bazarda beynəlxalq ehtiyatlarının alıb-satması rəsmi valyuta müdaxiləsi adlanır. Hazırda dünya təcrübəsində rəsmi valyuta ehtiyatlarına monetar qızıl, nəqd xarici valyuta, xarici hökumətlərin qiymətli kağızları və depozitləri; SDR (xüsusi borc hüquqi) və BVF-da ölkənin ehtiyat kvotası aid olunur. Beynəlxalq hesablaşmalar təcrübəsində, istifadə olunan «təmiz rəsmi valyuta ehtiyatları» göstəricisi, ölkənin ödəmə qabiliyyətliliyini və valyuta pul-kredit siyasətinin düzgünlüyünü əks etdirir. Bu göstərici vasitəsilə, həm də idxalın ödənməsi üçün, valyuta ehtiyatlarının kifayətliliyi həddi hesablanır. Bu göstərici isə, mövcud ehtiyatların hesabına ölkənin nə qədər müddətdə öz idxalını ödəmək imkanına malik olduğunu göstərir. Bu isə, dünya təcrübəsində ölkənin beynəlxalq kreditlər almaq üçün imkanları əks etdirir. BVF tövsiyələrinə görə, keçid iqtisadiyyatına malik ölkələr üçün, bu göstərici ölkənin iki - üç aylıq idxal həcmindən az olmamalıdır.

Tədiyyə balansı, ölkənin ödəmə qabiliyyətliliyinin göstəricisi rolunu oynamaqla bərabər, mühüm makroiqtisadi tənzimləmə vasitəsidir. Milli hesabların iqtisadi məntiqinə görə, ölkədə istehsal olunan milli məhsul, əhəmiyyətli dərəcədə təmiz xarici əlaqələrdən asılıdır.

Açıq iqtisadiyyatda, milli hesabların əsas eyniliyi, geniş yayılmış, Y= C + I + G + NX formulu ilə ifadə oluna bilir.

Burada C – istehlak, I - investisiya, G - dövlət xərcləri, NX = EX - IM tədiyyə balansının cari hesabı, təmiz ixrac göstəricisidir. Milli hesabların əsas eyniliyini, təmiz ixrac göstəricisinin hansı səbəbdən milli iqtisadiyyatın mühüm göstəricisi olmasını ifadə edir. Belə ki, əsas eyniliyin sağ tərəfi ölkə daxilində istehsal olunmuş məhsullara olan məcmu xərcləri ifadə etdiyindən təmiz ixracda olan dəyişikliklərin, məcmu məhsul istehsalında və məşğulluğun təmin edilməsində yarada biləcəyi dəyişikləri göstərə bilir. Əsas eynilikdən təmiz ixrac formulu NX = Y - (C + I + G) kimi ifadə olunur. Məhsul buraxılışı daxili xərcləri üstələyirsə, ölkə yaranan fərqi ixrac edir: təmiz ixrac müsbət qiymət alır. Əksinə, daxili istehsal xərcləri ödəmirsə, ölkə yaranmış fərq qədər idxal edir: təmiz ixrac mənfi qiymət alır.

Keyns modelinə görə, qapalı iqtisadiyyatda təmiz ixrac sıfıra bərabər olduğundan, avtonom daxili xərclərin hər hansı komponentinin: istehlak, investisiya və ya dövlət xərclərinin dəyişməsi, milli gəlirin və ya milli məhsul istehsalının, multiplikativ artımını doğurur. Keyns, bu artımı müəyyənləşdirən xərclər multiplikatorunu aşağıdakı kimi təklif edir.

$$\frac{\Delta Y}{\Delta A} = \frac{1}{1-b}$$

burada, bərabərliyin sağ tərəfi xərclərin multiplikatoru adlanır, b-istehlaka olan limit meyilliyini ifadə edir.

Xərclərin hər bir sonrakı dövründə, yığıma olan limit meyilliyi, (s = 1-b), itki kimi təsir göstərərək, təkrar xərclərin tədricən azalmasını yaradır.

Ölkənin beynəlxalq ticarətdə iştirakı dərəcəsi xərc multiplikatoruna təsir edir. Açıq iqtisadiyyatda bu həm də «xarici ticarət multiplikatoru» adlanan bu multiplikatorun hesablanması üçün təmiz ixrac funksiyasının təhlili vacibdir. Qəbul edilir ki, ixrac ölkənin milli gəlirinin ölçülərindən yox, xaricdə gəlirin ölçülərindən

asılıdır. Eyni zamanda ölkənin milli gəlirinin artımı onun idxalını, idxala olan limit meyilliyinə mütənasib artırır. Təmiz ixrac funksiyası: $NX = g - mY$ kimi ifadə edilir. Burada g- avtonom təmiz ixrac, m - idxala olan limit meyilliyini, yəni, milli gəlirin bir vahid artmasının idxalı neçə vahid artırmasını göstərir.

$$m = \frac{\Delta IM}{\Delta Y}$$

İdxala olan limit meyilliyi, yığıma olan limit meyilliyi kimi, daxili xərclər axınından olan itkidir. Ona görə də açıq iqtisadiyyatda, xərclərin dövriyyəsinin sonrakı mərhələlərində yeni xərclərə çevrilən əlavə gəlirin payı, (1-m-g) qədər olacaqdır.

Beləliklə, bu yanaşmaya əsasən, xarici ticarət multiplikatorunun qiymətini müəyyənləşdirmək üçün, aşağıdakı tənliklər sisteminin həllə vacibdir:

1. $Y = C + İ + G + NX$, Milli hesabların əsas eyniliyi;
2. $C = a + b(Y-T)$, Kensçi istehlak funksiyası,(Y-T) sərəncamda qalan gəlirdir;
3. $İ = e - dr$, investisiya funksiyası;
4. $NX = g - mY$, təmiz ixrac funksiyası.

Bu tənliklərin birgə həllindən xarici ticarət multiplikatorunun ifadəsi

$$\mu = \frac{1}{1 - b + m} \quad \text{və ya} \quad \mu = \frac{1}{s + m} \text{ kimi alınır.}$$

Nəzərə almaq vacibdir ki, açıq iqtisadiyyatda xərc multiplikatorunun əhəmiyyəti, qapalı iqtisadiyyatdakına nisbətən azdır, çünki idxal xərcləri, yığımla olduğu kimi, daxili məhsula olan tələbin elementlər kimi itir.

Keyns yaxınlaşmasına görə milli gəlirin artması, daxili məcmu tələbi artırır və idxalı artırır. Bu multiplikativ prosesdir. Lakin onun xarakteri, cari əməliyyatlar balansını və beləliklə də tədiyyə

balansını bütövlükdə hansı dərəcədə pisləşdirməsindən asılıdır. Nəzərə almaq vacibdir ki, milli gəlirin istənilən səbəbdən artımı, cari əməliyyatlar balansını pisləşdirmir. Məsələn, əgər xaricdə bizim məhsula tələb artırsa, daxili istehsal və ixrac potensialı və deməli cari əməliyyatlar balansı yaxşılaşır.

Cari əməliyyatlar balansı, daha çox, ölkənin milli gəlirinin əmtəə və xidmətlərin artması hesabına yaxşılaşır. Məsələn, texnoloji yeniliklər səbəbindən, təklif artırsa, bu ixracı genişləndirir və daxili bazardan xarici məhsulu sıxışdırır.

Tədiyyə balansının, cari və kapital hesablarının qarşılıqlı əlaqəsi isə, əsas eynilikdən alınan milli yığımın həcmi S_m vasitəsilə ifadə olunur. $S_m = Y - C - G$ ölkədə yığıma yönəldilə bilən məhsulun həcmini göstərir. Əsas eyniliyə görə $I - S_m = - NX$

Başqa sözlə, yığıma gedən beynəlxalq vəsait $(I-S_m)$ və beynəlxalq mal və xidmət axını (NX) arasında asılılıq mövcuddur. $(I-S_m)$ milli investisiyanın, milli yığımdan fərqini göstərir və kapital hərəkəti hesabını xarakterizə edir. Bu göstərici eyni zamanda investisiyanın xarici borcla maliyyələşdirilən hissəsini göstərir.

$$NX = S_m - I$$

Cari əməliyyatlar hesabı isə, mal və xidmətlərin hərəkəti sayəsində xaricdən alınan təmiz vəsaitin həcmini xarakterizə edir. Yəni faktiki olaraq bu iki axın bərabər olmalıdır.

Əgər məcmu investisiya milli yığımdan çoxdursa $(I > S_m)$ artıq hissə xaricdən maliyyələşməlidir. Bu maliyyələşmə isə ,ixracdan çox idxal, almağa imkan verir $(I_m > E_x)$, yəni təmiz ixrac, mənfi saldoya malik olur $(NX < 0)$. Əksinə olduqda isə, $(S_m > I)$ artıq milli yığım, xariciləri kreditləşdirməyə yönəlir. Belə ki, bu halda $(E_x > I_m)$ olur, yəni xaricilər bizim ixracımızı ödəmək üçün kreditə əl atır. Onda bizim təmiz ixrac $(NX > 0)$ müsbət saldolu olur. Başqa sözlə kapital hərəkəti hesabı və cari hesab birbirini tənzimləyir.

Beləliklə, milli hesabların əsas eyniliyi, həm də, tədiyyə balansının cari əməliyyatlar və kapital hesablarının bir-birini

tənzimləməsini, kompensasiya etməsini göstərir, (burada əlbəttə, **"Rəsmi valyuta** ehtiyatlarını dəyişməsi" maddəsi nəzərə alınmır, **beləki, tədiyyə** balansının tərtibində məhz bu maddə, kapitalın **hərəkəti** hesabının cari hesabı tənzimləməməyinin əsas amili **hesab** edilir).

Açıq iqtisadiyyatda baş verən prosesləri, tədiyyə balansı prizmasından təhlil edərək, əmtəə və xidmətlərin beynəlxalq axınları modelini qurmaq və iqtisadi siyasətdə onun istifadə olunması imkanlarını qiymətləndirmək olar. Araşdırmalarımızın Azərbaycana bir başa aid olunması üçün, təhlili, kiçik iqtisadiyyatlı ölkələr prizmasında aparmağı məqsəd uyğun hesab edirik. "Kiçik "iqtisadiyyatlı ölkə dedikdə, dünya bazarında nisbətə kiçik mövqeyə malik olan və dünyada faiz dərəcəsinə təsir etməyən ölkələr qəbul edilir. Başqa sözlə belə ölkələrdə, faiz dərəcəsi, qapalı iqtisadiyyatda olduğu kimi, yığım və investisiya ilə tənzimlənmir. Burada faiz dərəcəsi, dünya maliyyə bazarlarında üstünlük təşkil edən, real, dünya faiz dərəcəsinə (r^*) bərabər tutulur.

Modeli formalaşdırmaq üçün, aşağıdakı üç fərziyyəni qəbul edirik:

1. İqtisadiyyatda məhsul istehsalının həcmi $Y = F(K, L)$ kimi, istehsal funksiyası ilə müəyyənləşdirilir;
2. İstehlakın həcmi, sərəncamda olan gəlirdən, müsbət asılıdır: $C = C(Y-T)$;
3. İnvestisiyanın həcmi, real dünya faiz dərəcəsindən, mənfi asılıdır $İ = İ(r^*)$.

Milli hesabların əsas eyniliyindən $NX = S_m - İ$; $NX = (Y-C-G)-İ$ olduğunu bilərək, yuxarıdakı fərziyyələri istifadə edərək, $NX = Y - C(Y-T) - G - İ(r^*) = S_m - İ(r^*)$ alarıq.

Bu ifadədən belə nəticə çıxarmaq olar ki, açıq iqtisadiyyatda, dünya maliyyə bazarlarındakı dərəcə ilə müəyyənləşən, faiz dərəcəsi, qapalı iqtisadiyyatdakı dərəcədən yuxarı olarsa, onda yığım investisiyadan çox olacaq, yəni kapitalın hərəkətində mənfi saldo yaranacaqdır. Kapitalın hərəkəti hesabı ilə, cari hesabın bir-birini kompensasiya etməli olması səbəbindən isə bu halda cari əməliyyatların saldosu müsbət olacaqdır.

Beləliklə yuxarıda şərh olunanlardan, belə bir mühüm nəticə çıxarmaq olar ki, tədiyyə balansının, cari və kapital əməliyyatları və həmçinin rəsmi hesablaşmalar maddəsi bütövlükdə, yığım və investisiyaların həcmini müəyyənləşdirən büdcə - vergi siyasəti və dünyada faiz dərəcəsinin dəyişmələrindən asılıdır. Başqa sözlə, tədiyyə balansının təhlili, ölkənin iqtisadi siyasətinin formalaşmasında real təsirləri müəyyənləşdirilməsinə imkan verir.

FƏSİL 4. TİCARƏT SİYASƏTİ VƏ XARİCİ TİCARƏTİN İQTİSADİYYATDA GƏLİRLƏRİN BÖLÜNMƏSİNƏ TƏSİRİ

4.1. "Ticarət siyasəti" kateqoriyası: əsas növləri və alətləri

Açıq iqtisadiyyat şəraitində ticarət siyasəti istənilən hökumətin beynəlxalq iqtisadi münasibətlər sahəsində fəaliyyətinin mühüm tərkib hissəsidir. Bəzi hallarda ticarət siyasəti idxal və ixracın dövlət tənzimlənməsi ilə eyniləşdirilir, bəzən isə bu xarici ölkələr və beynəlxalq təşkilatlarla beynəlxalq ticarət sahəsindəki qarşılıqlı münasibətlərin istiqamətləndiricisi kimi qəbul edilir.

Müasir ticarət siyasəti – bütövlükdə beynəlxalq ticarət dövriyyəsində olan mal və xidmətləri bu ölkələrin və ölkələrarası birliklərin daxili bazarlarına buraxılması, cəlb olunmasının şərtlərini, birbaşa və ya dolayı formada müəyyənləşdirilməsi, həmçinin ölkədə istehsal olunan mal və xidmətlərin xarici bazarlara çıxarılmasının təmin olunması tədbirləridir.

Beynəlxalq iqtisadi münasibətlərin ümumi strukturu baxımından ticarət siyasəti, ölkənin beynəlxalq əmək bölgüsündə, yəni məhsulların beynəlxalq mübadiləsində iştirakı şərtlərini müəyyənləşdirir. Aydındır ki, bu şərait, ilk növbədə iqtisadi faktorların təsiri altında formalaşır. Lakin bütün ölkələr, beynəlxalq əmək bölgüsündən daha yaxşı faydalanmaq üçün müxtəlif tədbirlər görməyə çalışır. Çünki hər bir ölkə, eyni zamanda, xarici siyasət vasitəsilə, öz məqsədləri üçün, ciddi problemlərin həllini, asanlaşdırmağa cəhd edir. Belə problemlərə aşağıdakılara aid etmək olar:

Əvvəla, mal və xidmətlərin daxili və xarici bazarlara daxil olması şərtləri – əslində milli müəssisələrin xarici müəssisələrə nisbətən rəqabət qabiliyyətliliyi səviyyəsini səciyyələndirir və ona görə də bu şərtlər dünya bazarında rəqabət mübarizəsində mühüm alətə çevrilir;

İkincisi, beynəlxalq iqtisadi - ticari mübadilə siyasi problemlərlə həmişə sıx bağlıdır, məsələn, cərimə və sanksiyaların tətbiqi, embaro və stimullaşdırma, qadağan olunmuş silahların yayılmasının qarşısının alınması, müxtəlif beynəlxalq öhdəliklərə əməl olunması və s.;

Üçüncüsü, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən faydalanmaq, o halda mümkündür ki, daxili bazarın bütövlüyü, ətraf mühitin, istehlakçıların maraqlarının və hüquqlarının qorunması təmin edilsin;

Dördüncüsü, hökumət həmişə nəzərə almalıdır ki, xarici ticarət mübadiləsinin inkişafı milli təhlükəsizlik, ictimai asayış və son dövrlərdə xüsusilə aktuallaşan xarici və daxili iqtisadi təhlükəsizliyin qorunması çərçivəsində aparılmalıdır.

Beynəlxalq iqtisadi münasibətlərin yeni-yeni formalarının inkişafı ticarət iqtisadi problemləri həm dəyişdirir, həm də onları mürəkkəbləşdirir.

A.Daniltsevin fikrincə, bu xüsusiyyət, ticarət siyasətinin tarixi xarakterə malik olmasından irəli gəlir.

Ticarət siyasətinin tarixi xarakteri aşağıdakı amillərlə izah edilir.

1. Ticarət-siyasi sahələrdə dəyişiklərlə, beynəlxalq iqtisadi münasibətlərin transformasiyası arasında sıx qarşılıqlı əlaqə vardır. Ticarət siyasətinin tətbiq dairəsi genişlənir, paralel olaraq onun alətləri genişlənir, dəyişir, müxtəlifləşir. Burada aparıcı təsir, istehsalın beynəlmilləşməsi və iqtisadi inteqrasiyanın güclənməsi hesabına baş verir.

2. Praktiki ticarət siyasəti beynəlxalq-hüquqi aktlar və beynəlxalq institutların müəyyən sisteminə bağlıdır. Ona görə də, ticarət siyasətinin tətbiq dairəsində və alət seçimində dəyişikliklər, onun hüquqi bazasında əks olunur və əksinə, beynəlxalq razılaşmalarda olan dəyişiklər praktiki ticarət siyasətinə ciddi təsir edir.

3. Ticarət siyasətinin realizasiyası, ziddiyyətli şəraitdə, çoxlu ticarət konfliktləri və ümumi prinsiplərdən yayınmalar şəraitində baş verir.

Müasir ticarət siyasətinin mühüm meyillərindən biri, əsasən daxili iqtisadi problemlər, başqa sözlə, daxili iqtisadi və ticarət siyasəti ilə bağlı, tənzimləyici qərar və qanunvericilik aktlarının rolunun artmasıdır.

Müasir dövrdə, ticarət siyasətinin mühüm bir xüsusiyyəti də onun təsir dairəsinin nisbətən genişləndirilməsidir. İndi bu dairəyə yalnız mal və xidmətlərin, beynəlxalq mübadiləsi prosesində yaranan iqtisadi münasibətlər deyil, həm də bu proseslə, bu və ya başqa şəkildə bağlı olan, ictimai istehsal prosesində yaranan münasibətlər aid edilir. Bu onunla bağlıdır ki, dünya iqtisadiyyatının qloballaşması, iqtisadiyyatın bütövləşməsi və vahid təkrar istehsalı prosesinin yaranmasını doğurur və onu sürətləndirir.

4. Beləliklə ümumilləşdirərək qeyd etmək olar ki, ticarət siyasəti, daxili bazara xarici məhsulların və yerli məhsulların xarici bazarlara daxil olunmasının təmin edilməsi və tənzimlənməsi siyasətidir. Ticarət siyasəti BƏB-lə birbaşa bağlıdır və ona görə də, iki cəhətlə xarakterizə olunur. Bir tərəfdən beynəlxalq mübadilə, istehsalın və gəlirin artması səmərəliliyin yüksəldilməsinə səbəb olur, digər tərəfdən isə, ölkənin xarici ticarətdə iştirakı daxili və xarici bazarlarda rəqabəti gücləndirir.

Bu cəhətlər, ticarət siyasətinin tarazlaşdırılmasını tələb edir. Ticarət siyasətinin tarazlaşdırılması özlüyündə, kifayət qədər mürəkkəb məsələdir. Çünki milli ticarət siyasəti ticarət partnyoru olan ölkələrin milli maraqları ilə konflikt yaradır. Təsərrüfat subyektlərinin rəqabəti isə onların ölkələrinin siyasətlərində, konflikt yaradır. Bu konflikt üç istiqamətdə genişlənə bilər:

a) Xarici mal və xidmətlərin daxili bazara girməsinin məhdudlaşdırılması;

b) Razılaşmalar və qarşılıqlı güzəştlər əsasında BİM-də ticarət və s. məhdudiyyətlərin zəiflədilməsi;

c) Beynəlxalq ticarət konfliktlərinin yaranması.

Bütövlükdə, ticarət siyasətinin iki əsas istiqaməti, növü fərqləndirilir: proteksionizm və azad ticarət siyasəti. Ticarət siyasəti mahiyyətinə görə iki və çoxtərəfli əsasda həyata keçirilə bilər.

Proteksionizm və azad ticarət siyasətinin əsas xarakterik xüsusiyyətlərini aşağıdakı kimi fərqləndirmək olar.

1	**Əsas vəzifə**	Daxili bazarda xarici rəqabətin zəifləndirilməsi
		Milli məhsulların, xarici bazarda rəqabətliliyi üçün maneələrin götürülməsi, daxili bazarda rəqabətin inkişaf etdirilməsi
2	**Əsas tətbiq sahəsi**	Daxili bazar
		Xarici bazarlar və daxili bazarlar
3	**Təsir mexanizmi**	Daxili bazara daxil olmanın məhdudlaşdırılması
		Xarici bazara daxilolmanın təmin olunması tədbirləri
4	**Alətlər**	Ticarət məhdudiyyətləri
		Ticarət məhdudiyyətlərinin iki və çoxtərəfli razılaşmalar əsasında zəiflədilməsi
5	**Siyasətin formalaşması əsasları**	Siyasət, əsasən avtonom xarakter daşıyır
		Əsasən, iki və çoxtərəfli razılaşmalar və güzəştlər üzərində qurulur
6	**Ən səmərəli tətbiq şəraiti**	Bütövlükdə iqtisadiyyatın aşağı rəqabətliliyi, iqtisadi çətinliklər, İqtisadiyyatın artımı üçün əlverişli şəraitin mövcudluğu. Bütövlükdə rəqabət qabiliyyətli iqtisadiyyat

Ticarət siyasətinin yuxarıda qeyd olunan əsas vəzifələrinin realizasiyası ticarət siyasətinin alətləri və ticarət rejimləri vasitəsilə həyata keçirilir.

Ticarət siyasətinin alətləri dedikdə, milli bazarlara, mal və xidmətlərin buraxılmasını tənzimləyən iqtisadi, hüquqi, inzibati və siyasi vasitə, üsul və formalar başa düşülür.

Ticarət siyasətinin alətləri, əsasən milli qanunvericilik və dövlətin öhdəlik götürdüyü beynəlxalq hüquqi normativ aktlara əsasən tətbiq edilir. Lakin nəzərə almaq vacibdir ki, iqtisadi

siyasət alətlərinin tətbiqi, hüquqi normalar daxilində baş verdikdə, onların praktiki istifadəsində hüquqi mexanizmdən kənar, milli adət, mentalitet və hətta sahibkarların korporativ maraqlarının ifadəsi kimi amillərdə nəzərə alına bilər.

Tənzimləmə vasitələri, ölçüləri dedikdə isə, qanunvericilik və onun tətbiqi təcrübəsi, həmçinin, hakimiyyət orqanlarının bazara müdaxiləsini ifadə edən hər hansı hərəkəti başa düşülür. Belə vasitələr bəzən ticarət siyasəti çərçivəsindən kənara çıxa bilir. Məsələn, tədiyyə balansının vəziyyətinə, milli valyuta kursuna təsir edə biləcək makroiqtisadi xarakterli hərəkətlər və s. Ölkənin ticarət siyasəti, onun ticarət rejimlərində təzahür edir.

Ticarət rejimi – xarici mal və xidmətlərin ölkənin daxili bazarına buraxılmasının tənzimlənməsi, həmçinin milli məhsul və xidmətlərin, həmin dövrdə xarici bazarlara buraxılmasının təmin edilməsi üçün ölkədə tətbiq edilən tədbirlər kompleksidir.

Ticarət rejimi təbii olaraq ölkənin beynəlxalq iqtisadi münasibətlər sisteminə səmərəli qoşulması, başqa sözlə, beynəlxalq əmək bölgüsünün imkanlarından daha çox faydalanmasına istiqamətləndirilir.

Ölkənin beynəlxalq əmək və istehsal faktorları bölgüsündə iştirakı iki cəhətdən dəyərləndirilə bilər. Bir tərəfdən bu, iqtisadiyyatın effektliyinin və resurslardan istifadənin səmərəliliyinin artırılması vasitəsilə istehsalın və gəlirin genişləndirilməsidir. Əlverişli şəraitdə ölkə, beynəlxalq mübadilədə nə qədər fəal iştirak edirsə, yəni onun iqtisadiyyatının açıqlıq səviyyəsi nə qədər yüksəkdirsə və milli müəssisələr nə qədər çox dünya bazarlarına çıxırlarsa məcmu effekt o qədər yüksək olacaqdır. Digər tərəfdən, ölkə beynəlxalq mübadilədə nə qədər çox iştirak edirsə, onun müəssisələri, daxili və xarici bazarlarda o qədər çox xarici rəqabətlə qarşılaşır.

Beləliklə, kəskin xarici rəqabət şəraitində iqtisadiyyatın yüksək dinamikliyinin təmin edilməsi və effektliliyinin yüksəldilməsilə, iqtisadiyyatın və resurslardan istifadənin effektliyinin aşağı salınması bahasına xarici rəqabətin süni şəkildə yumşaldılması və iqtisadiyyatın daha səmərəsiz strukturunun təmin olunması arasında seçim problemi yaranır.

Başqa sözlə ticarət siyasəti vasitələrinin düzgün istifadə olunması xarici rəqabətin kəskinləşməsinin mənfi təzahürlərini azaltmaqla iqtisadiyyatın açıqlığını artırmağa imkan yaradır.

Ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı üçün əlverişli şəraitin təmin olunması iki istiqamətdə mümkündür.

Birinci istiqamət – dövlətin, daxili bazarda milli və xarici məhsulların rəqabəti prosesinə müdaxiləsidir. Dövlətin əsas vasitələri, bu zaman xarici malların daxili bazara daxil olmasını məhdudlaşdırmağa yönəlir.

İkinci istiqamət isə milli istehsalçıların xarici bazarda rəqabət şəraitinin yüksəldilməsi hesab olunur. Bu zaman əsas vəzifə xarici dövlətlərin öz daxili bazarlarını qoruma tədbirlərini, xüsusilə onlar diskriminasiya xarakteri olduqda neytrallaşmasını əhatə edir.

Ticarət siyasətinin hər iki istiqaməti qarşılıqlı əlaqəlidir. Dövlətin ticarət siyasətinin həyata keçirilməsi həmişə ticarət tərəfdaşı olan ölkələrin eyni tipli müqavimətləri ilə qarşılaşır, çünki həmin tərəfdaş ölkələr qarşılıqlı ticarətdə öz mənafelərini qorumağa çalışır.

Bu baxımdan ticarət siyasəti, bütövlükdə ziddiyyətli və konfliktli xarakter daşıyır. Qarşılıqlı ziddiyyətlər və konfliktlər beynəlxalq mübadilənin bütün kəsimlərində mövcuddur. Onlar əslində ticarət-siyasi qərarların qəbul edilməsi, bütövlükdə ticarət siyasəti alətlərinin tətbiqi mexanizminin formalaşması üçün mühüm əhəmiyyət kəsb edir.

Beynəlxalq iqtisadi əlaqələrin və ticarət mübadiləsinin genişlənməsi və sürətlənməsi ticarətdə məhdudiyyətlərin tətbiqi prinsiplərinin müəyyənləşdirilməsi üçün vahid norma və qaydaların yaradılmasını son dərəcə aktuallaşdırmışdır. Belə norma və qaydaların yaradılması üçün əsas məhdudiyyətlər və meyarlar aşağıdakılar hesab olunur.

1. Ölkələr arasında bərabər və ədalətli rəqabət şəraitinin saxlanılması.

2. Beynəlxalq mübadilənin iştirakçıları üçün həddsiz ağır olan ticarət məhdudiyyətlərinin tətbiq olunmasının qarşısının alınması.

3. Ticarət məhdudiyyətlərinin stabilliyi və proqnozlaşdırıla bilən olmasının, transperantlığının təmin edilməsi.

Ticarət siyasəti alətlərinin, istifadə olunması üçün beynəlxalq iqtisadi münasibətlərin, əməkdaşlığın aşağıdakı istiqamətləri tərkib hissələri ayrılır:

- Əmtəələrlə ticarət;
- Xidmətlərlə ticarət;
- Kapitalın beynəlxalq hərəkəti;
- İntelektual mülkiyyət hüququ ilə ticarət;
- İşçi qüvvəsinin beynəlxalq miqrasiyası;
- Beynəlxalq iqtisadi inteqrasiya;
- Beynəlxalq valyuta-kredit münasibətləri.

Ümumi şəkildə ticarət siyasəti alətlərinin təsnifləşdirilməsi, kifayət qədər çətin məsələdir. Əvvəla bu alətlər, öz təsir mexanizmi və vasitələrinə, sahə və istifadə məqsədlərinə görə çox müxtəlifdir.

İkincisi, təsnifləşdirmə meyarları həmişə ziddiyyətli olur, çünki eyni formalı alətlər, müxtəlif sferalarda və fərqli məqsədlərlə tətbiq oluna bilir.

Üçüncüsü, öz mexanizmlərinə görə oxşar alətlər əksər hallarda prinsipcə, artıq ticarət siyasəti alətlərinin müəyyən təsnifləşdirmə sisteminə daxil edilmişdir.

Beləliklə, ilk növbədə, ticarət siyasəti alətlərinin təsnifləşdirmə meyarlarını müəyyənləşdirmək üçün onları aşağıdakı sferalara ayırmaq lazımdır:

- Tətbiq sferası;
- İqtisadi təsir mexanizmləri üzrə;
- Rəqabət mühitinə təsir məqsədlərinə görə;

Ticarət siyasəti dövlətin iqtisadiyyatın digər sahə və sektorlarındakı siyasəti ilə sıx bağlıdır. Belə sahələrə:

- Ədalətli rəqabətin təmin edilməsi;
- Dövlət büdcəsinin formalaşması;

- Ayrı-ayrı sahələrdə istehsalın stimullaşdırılması;
- Kənd təsərrüfatı siyasəti;
- İqtisadi inkişaf və sənayeləşdirmənin gücləndirilməsi;
- İqtisadi blokların yaradılması və iqtisadi inteqrasiyanın inkişafı;
- Valyuta və pul- kredit siyasətinin həyata keçirilməsi və s.

4.2. Beynəlxalq ticarətin tənzimlənməsi xüsusiyyətləri və alətləri

Ticarət siyasətinin tənzimlənməsi alətlərini iki böyük qrupa ayırırlar. Müasir dövrdə daha çox istifadə olunan gömrük-taarif tədbirləri vasitəsi tənzimləmə alətləridir.

Gömrük rüsumu – əmtəələrin ölkə ərazisinə gətirilib-aparılması (o cümlədən, tranziti) zamanı mütləq hesab olunan dövlət tərəfindən alınan ödəmələrdir.

Gömrük rüsumu ən qədim və ənənəvi tənzimləmə vasitələrinə aiddir. Onun ən mühüm xüsusiyyəti sağlam rəqabət mühitinin qorunması şəraitinin təmin edilməsidir. Gömrük rüsumu xarici istehsalçıları bazara daxil olmaqdan məhrum etmir, sadəcə onları qiymət baxımından nisbətən əlverişsiz şəraitə salır. Digər tərəfdən gömrük rüsumları ticarət məhdudiyyətləri sırasında ən transperent məhdudiyyətlər hesab olunur.

Dünya təcrübəsində beynəlxalq ticarətin tənzimlənməsində idxal rüsumları daha çox istifadə olunur. Çünki bütün ölkələr, ixracı hər hansı formada məhdudlaşdırmaq yox, onu stimullaşdırmağa çalışır.

Hər bir ölkənin tətbiq etdiyi rüsumlar, onun beynəlxalq öhdəlikləri ilə müəyyənləşdirilməsindən asılı olaraq muxtar (və ya əsas) və müqavilə rüsumlarına ayrılır. Muxtar rüsumlar – heç bir, iki və ya çox tərəfli müqavilə öhdəliklərindən asılı olmayaraq müəyyənləşdirilir. Belə rüsumlar, adətən, ölkənin qarşılıqlı müqaviləyə malik olmadığı ölkədən, idxal olunan mallara qoyulur, ona görə də, adətən yüksək olur.

Müqavilə (konvensiya) resursları – bir-birinə qarşılıqlı ticarət rejimi müəyyənləşdirən ölkələr arasında tətbiq olunur.

Ticarət preferensiyalarından istifadə edən ölkələrlə ticarəti inkişaf etdirmək üçün ən aşağı dərəcəyə malik olan rüsumlar-güzəştli (preferensial) rüsumlar tətbiq edilir. Preferensiya sistemi daxilində hətta rüsumsuz ticarət rejimi tətbiq oluna bilir.

Rüsumlar alınma formasına görə advalor, xüsusi və kombinə olunmuş formalara ayrılır.

Advalor rüsumlar – əmtəənin dəyərinə görə faizlə hesablanır. Xüsusi rüsumlar – ölçü vahidinə görə, pul həcmi ilə müəyyənləşdirilən rüsumlardır. Kombinəolunmuş rüsumlar – həm advalor, həm də xüsusi rüsum növlərinin, eyni zamanda, tətbiq olunduğu rüsumlardır.

Gömrük rüsumları ilə yanaşı təcrübədə bir sıra digər yığımlar da tətbiq edilir. Belə yığımlar rüsumlar kimi mallar gömrük sərhəddini keçərkən tutulur və malların dəyərini artırır. Bu yığımlar tamam başqa iqtisadi və hüquqi mahiyyət daşısa da, adətən, ticarət rejiminin təhlili zamanı nəzərə alınır. Belə yığımlara (liman, gömrük və s.), əsasən, müxtəlif xidmətlər üçün yığımlar aid edilir.

Gömrük rüsumlarının müxtəlif dərəcələrinin bu və ya başqa ölkə ilə xarici ticarətdə əmtəə təsnifatına uyğun sistemləşdirilmiş siyahısı gömrük taarifi adlanır. Gömrük taarifi ticarət siyasətinin mühüm aləti hesab olunur.

Taariflər üç əsas elementdən ibarət olur: gömrük rüsumunun dərəcəsi; xarici ticarətin tənzimlənməsi və uçotu məqsədilə, formalaşdırılan əmtəələrin təsnifatı sistemi; muxtar, konvensiyalı və güzəştli rüsumların tətbiqi qaydaları.

Gömrük taarifi bir və çoxkanallı ola bilər. Adətən, gömrük taarifi təcrübədə istehsalçılar, istehlakçılar, ölkə daxilində proteksionizm və azad ticarət tərəfdarlarının maraqları və həmçinin, ölkənin ticarət partnyorlarının, ticarət-siyasi maraqları arasında siyasi kompromisin nəticəsində, formalaşır.

Lakin, aydındır ki, həmin sosial qrupların iqtisadi maraqları arasındakı ziddiyyətlər, heç də həmişə iqtisadi nəzəriyyə baxımından, optimal qərar çıxarılmasına imkan verməyəcəkdir.

Məsələ ondadır ki, iştirakçıların maraqlarının müxtəlifliyi, taarifqoymanın məqsədlərinin müxtəlifliyini doğurur. Ona görə də, əslində universal taarif prinsipləri yoxdur. Belə məqsədlər, proteksionist və ya fiskal ola bilər. Təcrübədə, ən geniş yayılan, taarifqoyma prinsipi isə, taarifin eskalasiyası və səmərəli taarif müdafiəsi sistemi hesab olunur.

Taarif eskalasiyası prinsipi – taarif dərəcəsinin məhsulun emal dərinliyi ilə mütənasib artırılmasını nəzərdə tutur.

Səmərəli taarif müdafiəsi sistemi – xarici xammal və dəstləşdirici mallara aşağı dərəcədə, son məhsula isə yüksək dərəcədə rüsum müəyyənləşdirilməsidir. Bu zaman sahənin taariflə müdafiəsi, rüsum dərəcəsindən daha çox idxal malları ilə istehsal olunan son məhsulun nisbətindən (rüsumların fərqindən) asılı olacaqdır.

Səmərəli taarif dərəcəsi hazır məhsul və onun istehsalı üçün idxalolunan xammal və komponentlərin müəyyən olunmuş idxal rüsumları səviyyəsinə, ölkədə emalı hesabına əmtəənin dəyərinin artımının, taarif olmadıqda emal prosesində yaranan əlavə dəyərə nisbəti kimi müəyyənləşdirilir.

Bu göstərici, gömrük taarifinin bu və ya başqa sahə(bu və ya başqa məhsulun istehsalı) üçün səmərəliliyini ifadə edir.

Ümumi şəkildə, səmərəli taarif dərəcəsi aşağıdakı formula vasitəsilə hesablanır:

$$q = \frac{t - axt1}{1 - a}$$

burada:

q- son məhsula səmərəli taarif dərəcəsi;

t – son məhsula nominal taarif dərəcəsi;

t_1– xərc elementlərinə nominal taarif dərəcəsi;

a– son məhsulun dəyərində idxal elementlərinin xüsusi çəkisi.

Səmərəli taarif müdafiəsi prinsipinin mühüm bir xüsusiyyəti **ondadır ki**, sahənin taariflə qorunması səviyyəsini yüksəldilməsi – **yalnız** taarif dərəcəsinin yüksəldilməsi yox, həm də idxal olunan **xərc** elementlərinə, rüsumların aşağı salınması vasitəsilə mümkündür. Sonuncu halda isə, əvvəla, iqtisadiyyatın və istehsalçıların, idxal rüsumunun tətbiqi nəticəsində itkisi azalır; beynəlxalq rəqabətin qorunması və ticarətin liberallaşdırılmasının davam etdirilməsi mümkün olur; və nəhayət, ticarət tərəfdaşlarından oxşar qarşılıqlı güzəştləri tələb etmək mümkün olur.

Ticarət siyasətinin tənzimlənməsində, qeyri-taarif tənzimlənməsi vasitələri mühüm əhəmiyyətə malikdir. Qeyri-tarif tənzimlənməsi alətləri iki böyük qrup tədbirləri, inzibati və qismən iqtisadi xarakterli tədbirləri, əhatə edir. Birinci qrupa, xarici ticarətin kəmiyyət məhdudiyyətləri, lisenziyalaşdırma, qadağalar və "könüllü" məhdudiyyətlər vasitəsilə birbaşa tənzimlənməsi və ya idxalın (ixracın) birbaşa məhdudlaşdırılması alətləri aiddir. Bu alətlər, adətən, ölkədə müvafiq güclü qanunvericilik bazasına və WTO/GATT çərçivəsində qəbul edilən inzibati idarəetmə bazasına əsaslanır.

Qeyri-taarif tənzimlənməsinin ikinci qrupuna inzibati, ticarət maliyyə-kredit, texnoloji siyasət, təhlükəsizlik, o cümlədən, sanitar və ekoloji tədbirlər aiddir. Belə tədbirlər nəticəsində, bir qayda olaraq, mal və xidmətlərlə ticarət məhdudlaşır. Yəni, ticarətin məhdudlaşdırılması, belə tədbirlərin əsas məqsədi yox, onun mümkün nəticəsi kimi qiymətləndirilməlidir. Həm də belə tədbirlər, əsasən, beynəlxalq mexanizmlər vasitəsilə razılaşdırıldığından onların beynəlxalq ticarətə məhdudlaşdırıcı təsiri minimal olur.

İqtisadiyyatın qloballaşması və iqtisadi inteqrasiyanın güclənməsi gömrük-taarif siyasətinin liberallaşdırılması nəticəsində müasir dövrdə qeyri-taarif tənzimlənməsinin əhatə dairəsi, xeyli genişlənmişdir. Hazırda 500-dən artıq qeyri-taarif tənzimlənməsi vasitəsi tətbiq olunur. Belə tədbirlər taarif məhdudiyyətlərindən fərqli olaraq, adətən, icra orqanları səviyyəsində tətbiq edilir, daha çevik xarakter daşıyır və seçim imkanları daha geniş olur.

Qeyri-taarif alətləri, daxili bazarın qorunması, siyasi, sosial, fiskal maraqların təmin olunması, hətta ədalətsiz rəqabətə qarşı mübarizə vasitəsi rolunu da oynayır. Bəzən belə tədbirlər özünün

birbaşa təyinatından kənarlaşaraq xarici ticarətə maneələr də yaradır, bəzən isə, tərəfdaş ölkələrə siyasi təsir alətinə çevrilir.

Qeyri-taarif alətlərinin birinci qrupunun kəmiyyət məhdudiyyətlərin diapazonu çox genişdir. Buraya idxalın (ixracın) qadağan olunması, əmtəələrin kvotalaşdırılması və lisenziyalaşdırılması tədbirləri daxildir.

Qeyri-taarif alətlərinin ikinci qrupuna aid edilən tədbirlər sırasında əsas yeri xarici ticarətin vergi alətləri vasitəsilə tənzimlənməsi tədbirləri tutur. Vergi sisteminin xarici ticarətə təsiri bazar münasibətləri şəraitində iki istiqamətdə – dolayı və spesifik xarakterdə baş verir. Birinci halda bu, ölkədaxili iqtisadi proseslərə təsir kimi təzahür edir. Burada xarici ticarət effekti "müşayiətedici" nəticədir. İkinci halda, vergi alətləri, bilavasitə xarici ticarət əməliyyatlarına tətbiq edilir və ya proteksionizmin gizli forması kimi istifadə olunur.

Qeyri-taarif alətlərinin sırasında, həmçinin ticarətdə texniki maneələr mühüm rol oynayır. Ticarətdə "texniki maneələr" məhsula texniki tələblər kimi ifadə olunan, dövlət tədbirləri və məhdudiyyətlər hesab olunur. Belə maneələrin əsas təyinatı xarici istehsal məhsullarının, ölkənin daxili bazarına daxil olmasının məhdudlaşdırılması hesab olunur.

Texniki maneələr, standartlar, texniki norma və qaydalar, təhlükəsizlik tədbirləri, qablaşdırma tələbləri və s. kimi texniki xarakterli tələblər formasında ola bilir. WTO tələblərinə görə texniki tələblər texniki reqlament və standartlarda əks olunur.

Xarici ticarətin qeyri-taarif tənzimlənməsinin vacib bir istiqaməti dövlət və hökumət satınalmalarının tənzimlənməsidir. Məsələ ondadır ki, dövlət satınalmalarının əsas məqsədi, yalnız dövlətin istehlak bazarının tələblərinin ödənilməsinin təmin olunmasında deyildir. Bir sıra digər funksiyalar belə satınalmaları xarici ticarət siyasətinin elementinə çevirir.

WTO-nun məlumatlarına görə hazırda dövlət satınalmalarına ÜDM-in 10-15%-i sərf olunur. Son dövrlərdə dövlət satınalmalarının həcmi, əhəmiyyətli dərəcədə artmışdır.

4.3. Xarici ticarətin "ümumi rifahı yaxşılaşdırılması" missiyası və "Ticarət şəraiti"

Xarici ticarətə dair bütün nəzəriyyələri birləşdirən ən ümumi mülahizələrdən biri ondan ibarətdir ki, xarici ticarət bütövlükdə ümumi rifahı yaxşılaşdırır. Bu mülahizə müəyyən dərəcədə doğrudur. Lakin "ümumi rifahın yaxşılaşdırılması" xarici ticarətin iştirakçılarının hamısı üçün düz mütənasib ola bilməz. Çünki əvvəla, ayrı-ayrı ölkələrin qarşılıqlı ticarətdən aldıqları qazanc dünya qiymətlərindən asılı olduğu üçün müxtəlifdir. Digər tərəfdən isə ölkənin xarici ticarətdən aldığı qazanc, ölkə daxilində istehsalçı və istehlakçılar, idxalçı və ixracçılar arasında fərqli qaydada bölüşdürülür. Eyni zamanda nəzərə almaq vacibdir ki, xarici ticarətin, beynəlxalq əmək bölgüsünün daşıyıcısı kimi, ixtisaslaşma nəticəsində resursların sahələr arası bölgüsündə yaratdığı dəyişikliklər, istehsal faktorlarının gəlirliliyini də dəyişir.

Beynəlxalq ticarətdən yaranan gəlirin ölkə daxilində və ölkələrarası bölgüsünün xarakteri, nəticə etibarilə, ticarətə cəlb olunmuş məhsul və xidmətlərin qiymət səviyyəsi və həcmləri ilə müəyyənləşir. Ona görə də, yalnız müqayisəli xərclər və ya digər ticarət nəzəriyyələrinin köməyi ilə, həmin məhsulların dünya bazarına təkliflərinin həcmini müəyyənləşdirmək, yetərli hesab oluna bilməz. Çünki məlumdur ki, hər hansı məhsulun müqayisəli üstünlüyü o vaxt reallaşa bilər ki, həmin məhsulun dünya qiyməti, daxili qiymətdən yüksək olsun. Nəzərə alsaq ki, dünya bazarında məhsulun qiyməti və satış həcmi, əsasən tələb və təklif arasında tarazlıqla müəyyənləşir, onda belə mülahizə yürütmək olar ki, beynəlxalq ticarətdə gəlirlərin həcmini və bölgüsünün xarakterini qiymətləndirmək üçün, ticarət nəzəriyyələri, mütləq tələbin təhlili əhatə olunmaqla öyrənilməlidir.

Belə şəraitdə, dünya qiymətlərinin müəyyənləşdirilməsi və qarşılıqlı ticarətin həcminin təyin olunması üçün, limit xərcləri ilə müəyyənləşən, istehsal həcmi ilə qiymətlər arasında münasibətləri ifadə edən "daxili təklif əyriləri", indiki gəlir səviyyəsində istehlakçıların zövqləri və seçimləri ilə müəyyənləşən, istehlak həcmi

və qiymətlər arasındakı münasibətləri ifadə edən "tələb əyriləri" təhlili əsas vasitə və ya üsul hesab olunmalıdır .

Dünya bazarında tələb və təklifin qarşılıqlı münasibətini təsvir etmək üçün eyni məhsulu dünya bazarına çıxaran iki partnor ölkədə ticarətin yaratdığı şəraitə nəzər yetirək. Bu iki ölkədə daxili qiymətlərin fərqliliyi həmin məhsullara olan tələbi və dünya bazarının təsiri nəticəsində onların qiymətlərini müəyyənləşdirir. Məlum olduğu kimi, azad bazar münasibətləri və liberal beynəlxalq ticarət şəraitində daxili qiymətlər adətən dünya qiymətləri səviyyəsinədək dəyişir. Ona görə də əgər ölkədə daxili qiymət dünya qiymətindən ilkin olaraq aşağıdırsa ($P_o < P_d$), istehsal stimullaşır. Bu o deməkdir ki, daxildə istehsal və ixrac təklifi artır, ancaq bu zaman daxili qiymətlər də artır və ona görə daxili bazarda tələb azalır. Başqa sözlə ölkənin dünya bazarına təklifinin həcmi, qiymətin artması şəraitində təklif və ölkə daxilindəki tələb arasındakı fərqin həcmi ilə müəyyənləşir.

Dünya bazarındakı qiymətlər daxili bazardakı qiymətlərdən kiçik ($P_o < P_d$) olan ölkədə isə, məhsula tələb artacaq, ancaq bu ölkədə həmin məhsulun istehsalçıları, təklifi azaldacaqlar. Beləliklə, dünya bazarında məhsula tələbin həcmi qiymətlərin düşməsi şəraitində ölkədə tələb və daxili təklifin həcmi arasındakı fərqlə müəyyənləşəcəkdir. Ticarət əlaqələri gücləndikcə, ($P_o < P_d$) olan ölkədə qiymət və onun xarici bazara təklifi artır. ($P_o < P_d$) olan ölkədə isə qiymət azalır, ölkənin idxalına tələb artır. Onda ixrac təklifi və idxal tələbi əyriləri, dünya bazarının tarazlı qiymət səviyyəsində kəsişir.

Tələb və təklif modeli (İS-LM) göstərir ki, azad ticarət qarşılıqlı əlverişli olsa da, ölkə daxilindəki əhali qrupları bu haldan müxtəlif dərəcələrdə faydalanır. Yəni, mahiyyətə görə beynəlxalq ticarətdə idxalçı ölkədə istehlakçılar, ticarətin inkişafından daha çox udurlar, çünki daha aşağı qiymətlə və daha çox məhsul ala bilirlər. Lakin ixracçı ölkədə istehlakçılar uduzur çünki daxili qiymət artımı onları daha az məhsul almağa məcbur edir.

Əksinə şərait istehsalçılar üçün yaranır. Belə ki, idxal əvəzedici sahələrdə istehsalın həcmi azalır, çünki daha səmərəli xarici istehsalçılar rəqabət mübarizəsi ilə onları qiyməti və istehsal həcmini azaltmağa məcbur edir. İxrac sahələrində isə istehsalçılar udur. Çünki dünya bazarına daxil olaraq onlar istehsalı genişləndirmək və daha yüksək qiymətlə məhsul satmaq imkanı əldə edilir.

Beynəlxalq ticarətin, istehlakçı və istehsalçı qruplarının maraqlarına təsirini bilərək, ixracedici və idxalçı ölkələrdə maddi rifahın dəyişilməsini qiymətləndirmək olar. Lakin nəzərə almaq lazımdır ki, bu halda biz ayrı-ayrı qrupların öz subyektiv qiymətləndirmələri daxilində hərəkət edə bilərik. (Məsələn: aydındır ki, kasıbın 1 manat itirməsi ilə varlının 1 manat qazanması effekti eyni ola bilməz).

Ümumiyyətlə, "tələb-təklif" modeli vasitəsilə tarazlı bazarın qiymətləndirilməsi, bütövlüklə sübut edir ki, beynəlxalq ticarətin inkişafı, bütün ölkələrə qazanc gətirir. Lakin nəzərə almaq vacibdir ki, idxalçı ölkədə təmiz qazanc, istehlakçıların qazancının, idxalla rəqabət aparan istehsalçıların itirdiklərindən, qat-qat çox olması hesabına yaranırsa, ixrac edici ölkədə isə əksinə, rifahın ümumi yaxşılaşması, istehlakçıların hamısının zərərə düşməsinə baxmayaraq istehsalçıların böyük qazancı hesabına baş verir. Əslində bu, çox mühüm və prinsipial nəticə, xarici ticarətin tənzimlənməsində dövlətin rolunu şərtləndirir.

Xarici ticarətin qazancının ölkələr arasında dəyişməsinə gəldikdə isə, bu partnor ölkələrdə qiymətlərin necə dəyişməsindən asılıdır. Hansı ölkədə qiymətlər daha çox dəyişərsə o ölkə daha çox udur. Başqa sözlə idxala tələbin və ya ixrac təklifinin elastikliyi nə qədər aşağıdırsa ticarətdən ölkənin əldə etdiyi qazanc o qədər çox olmur.

"Ticarət şəraiti" indeksi və onun iqtisadi mahiyyəti. Hər hansı ölkə üçün, xarici ticarətin əlverişli olub – olmamasının qiymətləndirilməsində, "ticarət şəraiti" (terms of trade) və ya "ticarət şərtləri" adlanan göstərici istifadə olunur. (Mahiyyətinə görə, bu ifadə "ticarət şəraiti" kimi qəbul edilsə daha məqsədəuyğundur.)

"Ticarət şəraiti" göstəricisi dedikdə ölkənin ixrac qiymətlərinin idxal qiymətlərinə olan nisbəti ($P_{ixr.}/P_{idx}$) başa düşülür. Bu göstəricinin yüksəlməsi (ticarətin şəraitinin yaxşılaşması), ümumi halda xarici ticarətin səmərəliliyinin yüksəlməsini və əksinə göstəricinin azalması, ticarətin səmərəliliyinin pisləşməsini ifadə edilir. Doğrudan da, əgər dünya bazarında ölkənin ixrac etdiyi malların qiyməti onun idxal etdiyi malların qiymətinə nisbətən artırsa, bu o deməkdir ki, ölkə, özünün 1 ixrac vahidinə görə əldə etdiyi qazanc müqabilində, daha çox idxal malı ala bilər. Yəni, ölkə xarici ticarətdən daha çox uduş əldə edir.

Dünya təcrübəsində ticarət şəraiti göstəricisi ölkə və ya ölkələr qrupu üçün idxal və ixrac qiymətləri indeksi əsasında hesablanır. (Adətən, bu məqsədlə daha çox, Laspeyras indeksi istifadə olunur.)

T - ilində ticarət şəraitinin (o) - bazis ilindəkinə nisbətən dəyişməsi, Laspeyras indeksi ilə aşağıdakı kimi hesablanır:

$$TŞ^t_o = \frac{\Sigma P(eks)^i * \delta X^i_o}{\Sigma P(imp)^i * \delta M^i_o}$$

Burada, $P(eks)^i$ – i qrup ixrac məhsulunun (t) ilində qiymətinin onun bazis ilindəki (o) qiymətinə nisbəti; $P(imp)^i$–(i) qrup idxal məhsulunun (t) ilindəki qiymətinin onun bazis (o) ilindəki qiymətinə nisbəti; δX^i_o – bazis (o) ilində ölkənin məcmu ixracında (i) qrup məhsulunun ixracının payı; δM^i_o – bazis (o) ilində ölkənin məcmu idxalında (i) qrup məhsulunun idxalının payını əks etdirir.

Ticarət şəraitinin dəyişilməsi ölkənin dünya ticarətində payının dəyişməsini doğurur və onu xarakterizə edir. Ticarət şəraiti özlüyündə daxili və xarici bazarda tələbin dəyişməsindən, istehsal şəraitinin dəyişməsindən, ayrı-ayrı məhsulların bazarlarının inhisarlaşma səviyyəsindən asılıdır. Lakin nəzərə almaq vacibdir ki, ölkənin xarici ticarətdən əldə etdiyi gəlir yalnız qiymətlərdən deyil, həm də idxal və ixracın fiziki həcmlərindən asılıdır. Ona görə də ölkənin rifahının dəyişməsi haqqında yalnız ticarət şəraitinin indeksinə görə fikir söyləmək düzgün olmaz. Məsələn, əgər

məhsulunun qiymətinin aşağı düşməsi, onun istehsalının səmərəliyi ilə bağlıdırsa, onda, ixracçı ölkə və ya firma, dünya bazarında həmin məhsula olan kifayət qədər yüksək elastiklik sayəsində öz ixracının fiziki həcmini artıraraq daha çox qazanc əldə edə bilər. Baxmayaraq ki, faktiki olaraq ölkənin ticarət şəraiti pisləşmişdir.

Eyni zamanda "müflisləşdirici inkişaf" adlanan xüsusi halı da nəzərə almaq vacibdir. Bu hal ixracın genişləndirilməsinin ticarət şəraitin pisləşdirilməsi, yəni rifahın aşağı salınması ilə xarakterizə olunur. Bu problem 1958-ci ildə amerikalı iqtisadçı U.Bxaqavati tərəfindən müəyyən edilmişdir və əsas inkişaf amili xammal hasilatı və onun ixracı olan bir çox ölkələr, hətta inkişaf etmiş ölkələr üçün aktualdır. Çünki, xammala olan tələb, əsasən elastikliyə malik olur, onun ixracının surətli artımı isə dünya bazarında xammalın qiymətini o dərəcədə salır ki, bu iqtisadi artımın yaratdığı effekti mənfi təsirə çevirir. Belə olduqda ixracı genişləndirən inkişaf əlverişsiz olur. Bütövlükdə, xarici ticarətin istehsal və iqtisadi inkişafa təsiri çox istiqamətli olmaqla bərabər, müxtəlif mahiyyətli nəticələrə səbəb ola bilir.

Yuxarıda şərh olunanlar göstərir ki, beynəlxalq ticarətin inkişafı, bazarda tələb və təklifin həcminin, qiymətlərin, dəyişilməsini doğurur və ixtisaslaşmanı dəyişir, yəni ixrac sahələrində istehsalın artırılmasına və əksinə idxalla rəqabət aparan sahələrdə istehsalın azalmasına təkan verir. Nəticədə beynəlxalq ticarət cəmiyyətdə ikitirəlik yaradır: - həmin ticarətdən qazananlar və itirənlər. İndiyə qədər bu məsələnin şərhini biz istehsalçı və istehlakçıların mənafeyi prizmasından təhlil etmişik. Məşhur Xekşer-Olin teoremi xarici ticarətin ayrı-ayrı istehsal faktorları sahiblərinə necə təsir etdiyini qiymətləndirməyə imkan verir. Belə ki, məhsulların qiymətlərinin nisbi dəyişməsi, bəzi faktorların qazanclarının digərləri hesabına artmasına səbəb olur. Xekşer-Olin teoreminə görə ölkə, istehsalında nisbi bolluğa malik olduğu faktorların daha çox istifadə olunduğu məhsulları, istehsalında aztapılan faktorların daha çox istifadə olunduğu məhsullara nisbətən daha böyük həcmdə ixrac edir.

Ona görə də beynəlxalq ticarət ölkədə istehsalın strukturu dəyişə bilir. Daha sürətlə inkişaf edən sahələrdə əlavə istehsal faktorlarına ehtiyac artır və onların cəlbi iqtisadi cəhətdən stimullaşdırılır. Digər sahələrdə isə faktorların bir qismi sərbəstləşir. Beləliklə qısa müddətli dövrdə, xarici ticarət, istehsal faktorlarının hansı sahədə istifadə olunmasından asılı olaraq, gəlirlərin yenidən bölüşdürülməsini yaradır: ixrac yönlü sahələrdə faktorların gəlirliliyi artır, idxalla rəqabət aparan sahələrdə isə azalır.

İstehsal faktorlarının gəlirliyinin dəyişməsi və onların sahələrarası axınları, uzunmüddətli dövrdə daha ciddi nəticələr verir. Faktor sahibləri, tələbin strukturu dəyməyən şəraitində, daha sürətli inkişaf edən sahələrdə, özlərinə mövqe tutmağa cəhd edirlər. Uzun müddətli dövrdə faktorların sahələrarası axınları, tələb və təklif arasında, pozulmuş nisbi tarazlığın, yenidən bərpa olunmasına gətirir. Lakin bu o demək deyil ki, uzunmüddətli dövrdə faktorların gəlirliliyində əvvəlki "status - kvo" bərpa olunur. Çünki ayrı-ayrı məhsulların istehsalında, faktorlar əvvəlcədən müxtəlif nisbətlərdə cəlb olunduğundan, istehsalın həcminin dəyişməsi, faktorlara tələbin strukturunun, qeyri-bərabər dəyişməsinə səbəb olur.

Beləliklə xarici ticarətin uzunmüddətli inkişafı şəraitində ixrac yönlü sahələrdə daha aktiv istifadə olunan faktor sahiblərinin gəlirləri daha çox artır və əksinə idxalla rəqabət aparan sahələrdə müvafiq gəlirlər daha sürətlə azalır. Bu mülahizəni, 1941-ci ildə amerikan alimləri V.Stolper və P.Samuelson sübut etmişdir. Ona görə də bu nəticə Stolper-Samuelson teoremi kimi iqtisadi fikir tarixində yer almışdır. Doğrudur, Stolper-Samuelson teoremi, müəyyən ilkin fərziyyələr şəraitində doğrudur. Belə fərziyyələrə müəlliflər, təkmil rəqabətin mövcudluğu, istehsal faktorlarının sahələrarası axınlarının sərbəstliyi, istehsal faktorlarını ümumi təklifinin dəyişməzliyi və s. aid etmişlər. Bütövlükdə isə Stolper-Samuelson teoremi, neoklassik iqtisadiyyatın əsas nəzəriyyələrindən sayılan Xekşer-Olin nəzəriyyəsinin uğurlu davamı, onun dərinləşməsi hesab olunur. Xekşer-Olin nəzəriyyəsi və Stolper-Samuelson teoreminə görə belə nəticə çıxarmaq olar ki, ixrac

məhsulunun istehsalında, daha çox ixtisaslaşan istehsal faktoru, **xarici ticarətin** inkişafından daha çox faydalanır. Əksinə, idxal **əvəzedici** sahədə ixtisaslaşan faktor xarici ticarətin inkişafından **daha çox** uduzur.

Təcrübədə, istehsal faktorlarının ixrac və ya idxal üzrə ixtisaslaşması dərəcəsini ölçmək üçün adətən həmin faktorların gəlirlərinin ixrac və ya idxal istehsalının yaratdığı əlavə dəyərdəki və ya bütövlükdə milli gəlirdəki payı göstəricilərindən istifadə olunur:

$$Si, x/m = \frac{\Theta ix - \Theta im}{\Theta iy}$$

burada

$S_{i,\,x/m}$ – **i** faktorunun ixrac / idxal üzrə ixtisaslaşması dərəcəsi göstəricisi;

Θ_{ix} - **i** faktorunun gəlirinin ixracın dəyərindəki payı;

Θ_{im} - **i** faktorunun gəlirinin idxalla rəqabət aparan və idxal həcmində olan məhsulun dəyərindəki payı;

Θ_{iy} – **i** faktorunun milli gəlirdəki payıdır.

Xarici ticarətin, istehsal faktorlarının gəlirliliyinə təsirini qiymətləndirərkən, istehsal faktorlarının təklifinin sabitliyi, mülahizəsini qəbul etmişik. Çünki bu halda idarəedici təsir vasitəsi kimi, biz məhz xarici ticarəti qəbul edirik. Lakin aydındır ki, istehsal faktorlarının təklifi həmişə stabil qala bilməz. Xüsusi ilə uzun müddətli dövrdə, faktorların təklifi, daha çox dəyişə bilər: kapital ehtiyatı toplanaraq artır; əhali artımı əmək ehtiyatlarının təklifini artırır, yeni faydalı qazıntı yataqları kəsf olunur və təsərrüfat dövriyyəsinə yeni torpaqlar cəlb olunur. Aydındır ki, ayrı-ayrı istehsal faktorlarının təklifləri, fərqli dərəcədə artırlar, ona görə də müxtəlif sahələrdə istehsalın dinamikası qeyri-bərabərdir. Məsələn, tutaq ki, ölkə əmək tutumlu məhsulu ixrac edir və kapital tutumlu məhsulu idxal edir. Əgər əmək təklifi üstün sürətlə artırsa, onda ölkədə istehsal artacaq və təbii olaraq ixrac sahələrində gəlir çoxalacaq. Ancaq bu zaman mümkündür ki, eyni

zamanda idxalla rəqabət aparan, kapital tutumlu sahədə, istehsalın və gəlirlərin azalması baş versin. Çünki genişlənən ixrac həmin sahədəki kapitalın bir hissəsini də öz tərəfinə cəlb edəcək. 1955-ci ildə ingilis iqtisadçısı T.Rıbçinski "faktor təklifinin artımı və istehsalın artımının nisbətləri" haqqında teorem irəli sürdü. Sonralar iqtisad elmində yeni bir "qiymətləndirmə metodikasına" çevrilmiş bu teoremə görə: **hər hansı bir istehsal faktorunun** artan təklifi bu faktorun daha çox **istifadə olunduğu sahədə** istehsal və gəlirlinin azalmasına səbəb olur.

Rıbçinski teoreminin konkret təzahür formalarından biri məşhur "holland xəstəliyidir". XIX əsrin 70-ci illərində Hollandiyada, Şimal dənizində təbii qaz ehtiyatlarının intensiv istismarı, ölkənin iqtisadi resurslarının bu sahəyə axması ilə nəticələndi və emal sənayesində istehsal həcmi və məhsul ixracı azaldı. Nəticə etibarilə bu iqtisadiyyatın formalaşmış strukturunun, qısa müddət ərzində dəyişməsi ilə, onun müxtəlif xarakterli nisbətlərinin pozulmasına gətirdi. Aydındır ki, belə nəticələr iqtisadi inkişafa ciddi maneələr yaratmaqla bərabər intensiv istifadə olunan ehtiyatın yaratdığı faydanı da yoxa çıxardı. Sonralar belə təhlükəli meyillər bütövlükdə, təbii ehtiyatların istehsalı intensiv olan ölkələrdə, çox müxtəlif formalarda tez-tez təkrar olundu (Böyük Britaniya, Norveç, Nigeriya, Venesuela və s.).

4.4. Xarici ticarət və iqtisadi inkişafın qarşılıqlı təsir xüsusiyyətləri

Xarici ticarətin tələbin xarakterini dəyişilməsi xüsusiyyəti. Dünya təsərrüfatının inkişafı beynəlxalq ticarətin qanunauyğunluqlarını da dəyişir. Ona görə də müasir dövrdə xarici ticarətin ilkin modelinin tələb və təklifin dəyişməsinin xarakterini və bu dəyişmənin ticarətin inkişafına və onun iştirakçılarının maraqlarına təsiri nəzərə alınmaqla öyrənilməsini mühüm zərurətə çevrilmişdir. Ona görə də xarici ticarətin və müvafiq siyasətin qiymətləndirilməsi üçün iqtisadi dinamika nəzəriyyələrinin bəzi məqamlarını nəzərdən keçirmək məqsədəuyğundur.

İqtisadi nəzəriyyədən məlumdur ki, adambaşına düşən gəlirlərin artımı, iqtisadi proses kimi əhalinin şəxsi istehlakının strukturunu dəyişir. İstehlakın strukturunun xarakterinin dəyişilməsinin iki mühüm meyilini ayırmaq olar. ***Birinci belə meyil,*** fərdi gəlirin artımının əhalinin tələbinin strukturunda qeyri-bərabər əks olunmasıdır, yəni müxtəlif mal və xidmətlərə tələbin artımı mütənasib olmur. İstehlakçıların belə davranışını "tələbin gəlirə görə elastikliyi" ilə izah etmək olar. Qiymət və digər faktorlar sabit qaldığı halda hər bir *i* məhsulu üçün "tələbin gəlirə görə elastikliyi"

$$\mu_i = \frac{\text{i məhsuluna olan tələbin artımı, \%}}{\text{tələbin artımının təmin etmiş gəlirin artımı, \%}}$$

kimi hesablanır. Yəni, gəlirin 1 vahid artımının tələbi nə qədər artırdığı – tələbin gəlirə görə elastikliyi hesab olunur. Əgər istənilən gəlir səviyyəsində əhali bütün mal və xidmətləri eyni nisbətlərdə istehlak edirsə, onda deməli gəlirə görə təbəbin elastikliyi vahidə bərabərdir. Təcrübədə bu mümkün deyildir. Gəlir artdıqca tələbin ümumi həcmində bəzi məhsulların payı azalır (belə məhsullar üçün $\mu < 0$, və ya daha doğrusu $\mu_i < 1$). Belə məhsulları "zəruri tələbat məhsulları" adlandırırlar (staples). Gəlir artdıqca istehlakda payı artan məhsulları "dəbdəbə məhsulları" (luxuries) adlandırırlar. Belə məhsullar üçün $\mu_i > 1$ olur.

İqtisadçılar çox uzun müddət ərzində istehlakda hansı məhsulların "zəruri tələb" və "dəbdəbə" məhsulu olduğunu müəyyənləşdirməyə çalışmışlar. Ailə büdcələrini öyrənməklə məşğul olmuş alman alimi Ernest Enqel ilk dəfə olaraq XIX əsrdə müvafiq qanunauyğunluqları təklif etmişdir. Məcmu tələbin strukturunda ayrı-ayrı məhsulların xüsusi çəkisinin mütləq dəyişməsi ($\mu_i - 1$) kimi müəyyənləşdirilir və bu Engel effekti adlanır. Bir çox uzunmüddətli istifadə malları üçün Engel effekti, müsbət qiymət alır ($\mu_i > 0$). Belə malları "dəbdəbə" malları adlandırırlar, gəlir artdıqca onlara tələb artır. Zəruri tələb mallarının ən yaxşı nümunəsi, ərzaq məhsullarıdır: Gəlir artdıqca onların tələbdə xüsusi çəkisi azalır ($\mu_{ərzaq} < 1$). Engel qanununa görə: stabil qiymətlər və dayanıqlı demoqrafik şəraitdə (ailənin ölçüləri və tərkibinin stabilliyi) gəlirin artımı istehlakda ərzağın payını azaldır. Bu o deməkdir ki, iqtisadi inkişafın təzahürü kimi adambaşına düşən gəlirin artımı, gəlirə görə aşağı elastiklikli tələbə malik olan bir sıra ərzaq məhsullarına olan tələbi dəyişəcək, daha dəqiqi, azaldacaqdır. Lakin nəzərə almaq vacibdir ki, Engel qanunu "dəyərlər üzrə üstünlüklər (prioritetlər) sisteminin dəyişmədiyi şəraiti izah edir. Yəni bu o demək deyil ki, gəlir artdıqca bu seqmentdə "dəyərlər dəyişir".

Engel qanunu və onun effekti "zəruri tələb" və ya "dəbdəbə" məhsulların istehsalçıları üçün, qiymət dinamikasını proqnozlaşdırmaq imkanını yaradır. Gəlirin artımı tələbi "dəbdəbə" məhsullarına istiqamətləndirilir. Təklifin istənilən artımında (istehsal faktorlarının və məhsuldarlığın təklifinin artımı) gəlirin artımı, "dəbdəbə" məhsullarının nisbi qiymət artımını doğurur. Bu həmin məhsullar istehsalı üzrə ixtisaslaşan ölkələrin qazancını artırır. Ərzaq məhsulu istehsal edən torpaq mülkiyyətçiləri isə Engel qanununa görə itirirlər. Çünki əgər iqtisadiyyatın bütün sektorlarında məhsuldarlıq eyni templə artırsa, bunun nəticəsi olaraq gəlirlərin artımı, ərzağa tələbin mənfi istiqamətdə dəyişməsinə səbəb olacaqdır, yəni dünya bazarında ərzağın qiyməti aşağı düşəcəkdir.

İstehlakın strukturunun xarakterinin dəyişməsinin ikinci meyili "***üstün tələb***" fərziyyəsi təşkil edir. İsveç alimi S.B. Linderin "üstün tələb" (reprisentative demand) fərziyyəsinə görə, gəlirin dəyişməsi, tələb və xarici ticarətdə, "gəlir – üstünlük – texnologiya – xarici ticarət" kimi zəncirvarı "səbəb-nəticə" dəyişikləri yaradır. Adambaşına gəlirin artması tələbin strukturunda "dəbdəbə" məhsuluna tələbi artırır (Engel qanunu). Yeni tələb isə texnologiyanın təkmilləşdirilməsinə zərurəti doğurur. Yeni texnologiya məhsuldarlığı artırır, məhsulun qiyməti düşür və onun ixracı artır. Başqa sözlə gözləmək olar ki, ölkə öz istehlakında xüsusi çəkisi böyük olan məhsulları ixrac edəcək. Doğrudur, Linderin bu

mülahizələri hər hansı təkzibolunmaz arqumentlərə əsaslanmır. Onun arqumentləri o vaxt mübahisəsiz ola bilər ki, "dəbdəbə" istehsalında ya istehsalın miqyasının genişlənməsi və ya təcrübə hesabına "qənaət effekti" yaransın. Linderin mülahizələri yalnız bəzi sənaye məhsulları, məsələn avtomobillər üçün doğrudur. Bütövlükdə bu mülahizələr onu göstərir ki, gəlirin artması ilə onlara tələbin artmasına baxmayaraq dəbdəbəli sənaye məhsullarının qiyməti azala bilər.

Xarici ticarət və istehsal faktorlarının artımının qarşılıqlı təsir xüsusiyyətləri. Zaman etibarilə bütün istehsal faktorlarının təklifi artır. Kapital, ixtisaslaşma səviyyəsi, əmək resurslarının həcmi, hətta, əkinçiliyə yararlı torpaq fondu və faydalı qazıntı yataqlarının həcmi artmağa meyllidir. Bu artımlar sonsuz olmasa da, istehsal imkanları əyrilərinin başlanğıc şərtlərini dəyişir. Yəni, beynəlxalq ticarət üçün yeni şərait və struktura yaranır. Bu baxımdan istehsalın arıtmının müxtəlif səbəbləri və formalarını, fərqləndirmək mümükündür və məqsədəuyğundur.

1. Tam neytral artım. Ayrı-ayrı faktorların artım sürətinin müxtəlifliyinin təsir gücünü dəyərləndirmək üçün, faktiki mümkün olmayan spesifik şəraitdə, yəni, bütün istehsal faktorlarının, bütün ölkələrdə eyni sürətlə artığı şəraitdə, xarici ticarətin dəyişməsi xüsusiyyətlərini qiymətləndirək. Belə olduqda, bütün istehsal və təklif əyriləri, öz formalarını dəyişməyəcək, sadəcə genişlənəcəkdir. Bu zaman, adambaşına düşən gəlir, dəyişmədiyinə görə Engel effekti müşahidə olunmur. Başqa sözlə, belə halda beynəlxalq ticarət axınlarının da strukturu, nisbətləri və dünya qiymətləri dəyişməyəcəkdir. Dəyişən ancaq həcmlər ola bilər. Beləliklə, belə nəticə çıxarmaq olar ki, iqtisadi artım prosesində xarici ticarətə və onun iştirakçılarının maraqlarına təsir edən ən mühüm amil, faktorların öz aralarında və ölkələr arasında artım sürətinin müxtəlifliyidir.

2. Hər hansı ölkədə faktorların tarazlaşdırılmamış artımı, yəni, qeyri-bərabər artımının xarici ticarətə təsiri, həm tələb, həm də təklif baxımından ola bilər. Faktorların təklifinin artımının xarici ticarətə təsiri, ilk növbədə hansı istiqamətdə - idxalla

rəqabət aparan və ya ixracyönlü sahələrdə olan faktorların artmasından asılıdır. Məsələn, idxalla rəqabət aparan sahələrdə faktor təklifi artırsa bu, idxal mallarına olan tələbi və ola bilər ki, onların qiymətini azaldır və nəticədə dünya ticarətinin həcmini azaldar. Belə halı "idxal əvəzedici artım" halı adlandırmaq mümkündür.

Əks şəraitdə "ixrac genişləndirilən artım" halı müşahidə olunur. İstehsal faktorlarının artımı təklifi, həm də ixrac təklifini artırır. Bu dünya ticarətini həcmini artırır və eyni zamanda müvafiq dünya qiymətlərini aşağı sala bilər.

İqtisadi siyasət üçün nəticələr: idxal əvəz edən və ixracyönlü inkişaf artım tipləri arasındakı ziddiyyət, hökumətin iqtisadiyyatın hansı sektorlarını və ya hansı istehsal faktorlarını, stimullaşdırılması siyasətini seçməsini, şərtləndirə biləcək mühüm məqamlardır. Aydındır ki, hökumət belə siyasəti, vergi yüklərinin yenidən bölüşdürülməsi və ya kapital qoyuluşunu artırmaq vasitəsilə edə bilər. Yəni bu vasitələr, xərcləri və qiymətlər dinamikasını dəyişdirə biləcək ehtimal kimi dəyərləndirilir. Doğrudur, burada "kiçik dövlət" fərziyyəsi də var, yəni ölkənin kiçik olması onun dünya bazarına hər hansı formada təsirini heçə çıxara bilər. Ona görə də fərz edək ki, istehsal faktorlarının artımı, böyük ölkələrdə olduğu kimi, dünya qiymətləri nisbətlərinə təsir edə bilər. Onda idxal əvəzedici artım, ölkənin "ticarət şəraitinin" yaxşılaşmasını (idxal etdiyi malların qiymətlərinin aşağı düşməsi hesabına), ixrac genişləndirən artım isə ticarət şəraitinin pisləşməsini (ixracın nisbi qiymətlərinin olmağı düşməsi hesabına) doğura bilər. Belə olduqda isə hökumət "idxal əvəzedici artım" siyasəti üçün, sanki əlavə stimul qazanır: onun müvafiq investisiya siyasəti beynəlxalq ticarət şəraitini yaxşılaşdırır. Beləliklə əslində dünya qiymətlərinə təsir edə biləcək qüvvəyə malik olan və digər ölkələrin mənafelərini nəzərə almayan ölkə üçün, xarici ticarətin inkişafına xidmət etməyən "iqtisadi inkişaf tipini" müdafiə edən yeni arqumentləri formalaşdırdıq.

Lakin nəzərə almaq lazımdır ki, istehsal faktorlarının qeyri rəvan artımının, iqtisadi inkişafa təsiri, yuxarıda izah edilənlərlə bitmir. Hər hansı faktorun üstün artımı, onun aktiv istifadə olun-

duğu sektorun xüsusi çəkisini qaldırmaqla yanaşı, iqtisadiyyatın digər sektorlarında məhsul buraxılışını azalda bilir. Burada yuxarıda qeyd olunmuş, məhşur **Rıbçinski teoreminin** müddəaları özünü doğruldur: sabit qiymətlər şəraitində və iqtisadiyyatda yalnız iki sektor olduğu halda istehsal faktorlarının birinin artımı məhsulların birisini azalmasına gətirir. T.M.Rıbçinskinin 1955-ci ildə təklif etdiyi bu teorem özünü ilk növbədə ABŞ-da göstərmişdir. 50-ci illərin sonunda ABŞ digər ölkələrə nisbətdə daha sürətli inkişaf sayəsində mineral xammalın ixracçısından idxalçısına çevrildi və bunun əsas səbəbi kapital yığımının artması və işçi qüvvəsinin ixtisaslaşmasının güclənməsi olmuşdur.

XX əsrin son rübündə isə Rıbçinski teoremi faktiki olaraq yuxarıda qeyd olunan "müflisləşdirici artım" şəraitinin nəzəriyyəsinə çevrilmişdir. Müasir iqtisad elmində məşhur "holland xəstəliyi" və ixracın birtərəfli artımının "sənayesizləşdirici" effekti yaratması məhz bu teoremin müddəaları ilə əsaslandırılır. İstehsal faktorlarının artımının "müflisləşdirici" xüsusiyyətlərini araşdıran A.Yaqidin və H.Bxaqvati bu prosesin "iqtisadi artımın ekoloji limiti" adlanan yeni maltusçuluqla əlaqəli olmadığını sübut etmişdir. Faktor artımının "müflisləşdirici" səviyyəyə çıxması, bir çox hallarda ölkə daxilində rəqabət aparan firmaların özləri üçün "rasional" hesab etdikləri strategiyaların,yekunda "irrasional" nəticə verməsini ifadə edir. Artım və vaxt "müflisləşdirici" ola bilər? Bu üç halda mümkündür:

1. İqtisadi artım yalnız ixrac sahələrinin artımı hesabına baş verir;

2. Ölkənin ixracına olan kənar tələb, qiymətə görə elastik olmamalıdır, yəni təklifin artımı, qiymətlərin əhəmiyyətli düşməsinə gətirməlidir.

3. Ölkənin xarici ticarətinin həcmi kifayət qədər böyük olmalıdır ki, ticarət şəraitinin pisləşməsinin mənfi nəticələri, ixracın artımının çox olsun.

"Müflisləşdirici" artım tezisi, müqayisəli üstünlüklərin olduğunu iddia edən ortodoksal iqtisadçıların mülahizələrinə şübhə yaradır. Belə iqtisadçılar (R.Prebiş), xammal ixracçılarının, bu halda heç nə qazanmadığı tezisini müdafiə edirlər. Onların mülahizələri aşağıdakı 4 arqumentə əsaslanır:

1. İlkin ticarət münasibətlərin yaranması, nisbətən yeni xammal əldə edən ölkə üçün daha əlverişlidir. Yəni burada alıcı – satıcıdan daha çox qazanır. Adətən burada inkişaf etmiş ölkələr qazanır.

2. Xammal ixracçılarının, ticarət şəraiti pisləşir və bu davamlı olur. Hökumət bunu görürsə, o sahəyə investisiya axımına mane olmalı və sənayeyə investisiya şəraiti stimullaşdırmalıdır.

3. Xammal istehsalında güclərin artırılması, ticarət şəraitini pisləşdirir və bu "müflisləşdirici" artıma gətirə bilər. İqtisadi siyasət, burada da xammal istehsalına yeni investisiyaların yönəldilməsinə mane olmalı və sənayeni stimullaşdırılmalıdır.

4. Sənayenin inkişafı həm də ona görə vacibdir və stimullaşdırılmalıdır ki, o müasir texniki bilikləri yaymaqla, əlavə dolayı xeyir gətirir.

Dünya təcrübəsində bu mülahizələrin özünün doğrultması haqda nümunələr olsa belə, bu nəticələrin yoxlanılmağa, hər bir konkret şəraitdə, ehtiyac vardır.

Xarici ticarət və elmi texniki tərəqqi. Dünyanın müasir inkişaf mərhələsində xarici ticarətin xarakteri və dünya bazarının konyukturasına ən ciddi təsir göstərən məqamlardan biri də elmi-texniki tərəqqidir. Sənaye məhsulunun mürəkkəbləşməsi, bütövlükdə dünya iqtisadiyyatının vahidləşməsi fonunda, istehsalın beynəlmiləlləşməsi, materialsızlaşması və virtuallaşması, texniki tərəqqini xarici ticarətin aparıcı dominantlarından birinə çevirmişdir. İndi xarici ticarətin "istehsal faktorlarına malik olmaq dərəcəsi ilə müəyyənləşməsi" tezisi, özünün primitiv mahiyyəti ilə, tamamilə müzakirə dövriyyəsindən çıxmışdır.

Elmi-texniki tərəqqini xarici ticarətə təsirini bir neçə cəhətdən öyrənmək olar:

a) Texnologiya istehsal faktoru kimi qəbul edilməlidir. Ənənəvi olaraq iqtisadçılar ETT-ni istehsal faktorlarına aid etmirdilər. Hesab olunurdu ki, ETT istehsal funksiyasındakı bütün dəyişmələri əks etdirir. Lakin, əslində ETT-ə özlüyündə, istehsal faktorlarına malik olmaqdakı dəyişiklər kimi, baxmaq olar. Yeni

texnologiya, istehsal faktorlarını dəfələrlə gücləndirə bildiyi üçün əslində, yeni faktora çevrilir. Bu, faktorların beynəlxalq hərəkəti üçündə xasdır. Beləliklə texnologiya, müasir dövrdə faktor gəliri yaradan resurs növünə çevrilmişdir. Məşhur Leontyev paradoksu və onun müxtəlif şərtləri bu baxımdan son dərəcə maraqlıdır.

b) texnologiyanın istehsal faktoru kimi qəbul edilməsi, beynəlxalq ticarətin strukturunun dəyişməsi qanunauyğunluqlarında, ənənəvi "müqayisəli üstünlüklər" nəzəriyyəsində olduğuna nisbətən, yeni xüsusiyyətləri aşkar etməyə imkan verir. Belə xüsusiyyətlərə Raymon Vernon və başqaları, ilk növbədə ayrı-ayrı məhsulların keçdikləri "həyat dövrü" ideyasını aid edirlər. Bu ideyaya görə müasir dövrdə hər hansı ölkədə elmi tədqiqatlar və kəşflər, müqayisəli üstünlüyün həlledici amili olmaqdan kənarlaşdırılırsa, onda istehsal, xərclərin başqa elementi üzrə, müqayisəli üstünlüyə malik olan ölkəyə köçəcəkdir (məsələn hətta qeyri-ixtisaslı əmək resursu üzrə belə). Bu məntiqə görə, nə vaxtsa, üçüncü dünya ölkələri də, aparıcı sənaye məhsullarının ixraclarına çevrilə bilərlər, eyni zamanda onlar daha geridə qala bilərlər. Bu o halda ola bilər ki, sahədə texnoloji sıçrayışlar baş versin. Ümumiyyətlə təbii olaraq belə alına bilər ki, sahələr "qocaldıqca" bir-bir ölkəni tərk edirlər. Belə olduqda "ikinci eşalon" ölkələri, nəticədə bütün sahələrdə liderlərə çataraq, onları üstələyə bilərlər. Çünki bu ölkələrdə ucuz işçi qüvvəsi var və onlar yeni texnologiyanı itkisiz tətbiq edə bilirlər və s. Dünya təcrübəsində buna gözəl nümunələr var: Məsələn yeni tarixin əvvəlində Hollandiya, sonralar "dünya emalatxanası" olan viktorian Britaniyası, ən yeni tarixdə yapon "müdaxiləsi" hesabına ABŞ sənayesinin öz daxili bazarındakı gerilələri və s. Bəzi mütəxəssislər, beləliklə liderliyin "gələcəkdə geridə qalma" üçün, mühüm və qaçılmaz şərt hesab edirdilər. Lakin bu, heç də belə deyildir. Amerikan alimi P.Lindertin fikrincə aşağıdakı üç səbəbdən bu düzgün nəticə hesab oluna bilməz:

1.Liderlik özlüyündə heç kimi obyektiv və qaçılmaz olaraq əlverişsiz şəraitə salmır.

2. Liderlik iqtisadiyyatı qaçılması mümkün olan tələlərə cəlb edir: sahibkarların özünə arxayınçılığı, həddsiz konservativizm və fovgəl dövlətlərin bədxərc silahlanma yarışı.

Belə tələlərə düşən ölkə əlbəttə geridə qalmağa məhkumdur.

3. Tarixən bütün liderlər sonralar geridə qalanlar cərgəsinə düşmüşlər.

Ümumiyyətlə problemə obyektiv qiymət vermək üçün ilk növbədə müəyyənləşdirmək vacibdir ki, "iqtisadi və ya texnoloji lider" kimi adlandırmaq olar. "İqtisadi lider", bu sadəcə olaraq, nisbətən yüksək orta gəlirliliyə malik olan individlərdir. Daha yüksək gəlir, hər hansı iqtisadi üstünlüyün nəticəsidir. "Texnoloji lider" əslində "iqtisadi lider" ifadəsinin sinonimidir. Bu terminlər heç biri özlüyündə geridə qalmağ şərtləndirən arqumentlər daşımır.

Beləliklə, ETT-nin xarici ticarətin inkişafına, təsiri xüsusiyyətlərini ümumiləşdirərək aşağıdakıları qeyd etmək olar. Sənaye məhsullarının ticarəti iqtisadi artımla birgə artır və onun inkişaf qanunauyğunluqları, Xekşer-Olin teoreminin modifikasiya olunmuş variantı ilə şərh oluna bilər. Sənaye məhsulları ilə beynəlxalq ticarətin təkmilləşdirilməsi nəzəriyyəsi, ETT və yeni texnikanın beynəlxalq yayınmını nəzərə olmalıdır. Ayrı-ayrı sənaye məhsulları üzrə xarici ticarətin qanunauyğunluqları, R.Vernonun "məhsulun həyat dövrü" nəzəriyyəsi ilə izah oluna bilər. Bu nəzəriyyəyə görə, istehsal texnologiyalarının standartlaşması gücləndikcə, onun istehsalı, daha yüksək gəlirlilik səviyyəsində olan ölkələrə köçür. Bu ölkələrdə əsas müqayisəli üstünlük, elmi-layihə xərcləri yox aşağı əməkhaqqı hesab olunur. Xarici ticarətlə, ETT arasında bu əlaqə, hər bir texniki üstünlüyə, bilik və ustalıqla daha yaxşı təmin olunma, kimi baxmaqla, istehsal faktorlarını rolunun qiymətləndirilməsi vasitəsilə məşhur Xekşer-Olin nəzəriyyəsi çərçivəsində izah oluna bilər.

Elmi-texniki tərəqqidə lider, daimi yeniliklər vasitəsilə, həmişə məhsulun həyat dövrünü qabaqlaya bilir. Liderin xarici rəqabətə uduzmasının obyektivliyi, iqtisadi cəhətdən izah olunmur. Liderin öz mövqeyini itirməsi, ETT ilə yox, institusional səbəblər və davranışda olan səhvlər, həm də hətta əvvəlki mərhələlərdə buraxılmış səhvlərlə izah olunmalıdır.

FƏSİL 5. MALİYYƏ SİYASƏTİ VƏ ONUN ƏSAS İSTİQAMƏTLƏRİ

5.1. İqtisadi siyasətdə maliyyə mexanizmi və valyuta siyasəti

Termin və iqtisadi kateqoriya kimi maliyyənin yaranması tarixi iqtisadi ədəbiyyatda müxtəlif şərhlərə malikdir. Bəziləri hesab edir ki, bu termin XIII-XV əsrlərdə İtaliyanın ticarət şəhərlərində dövlət və əhali arasında pul-əmtəə münasibətlərinin ifadəsi kimi yaranmış və latınca "finiş" – son başaçatma mənalarında istifadə edilmişdir. Bəziləri isə hesab edir ki, bu termin ilk dəfə J.Bodenin 1755-ci ildə nəşr etdirdiyi "Respublika haqqında 6 kitab" əsərində danışılmışdır.

Pul və maliyyə iqtisadi kateqoriyaları bir-birinə oxşar olsalar da, onlar müxtəlif təbiətə, ictimai və iqtisadi funksiyalara malik anlayışlardır. Maliyyə münasibətləri, ancaq dövlət tərəfindən məcmu ictimai məhsulun və milli sərvətin bir hissəsinin dəyərinin bölgüsü və yenidən bölgüsü şəraitində yaranan pul münasibətləridir. İqtisadi mahiyyətinə görə maliyyə, geniş təkrar istehsalın təmin edilməsi, sosial və digər ehtiyacların ödənilməsi və işləyənlərin stimullaşdırılmasını imperativ formada təmin edən pul münasibətləri sistemidir.

Maliyyənin funksiyalarının müəyyənləşdirilməsi məsələsinə də baxışlar birmənalı deyil. Ən çox yayılmış mülahizələrə görə maliyyəyə iki funksiya - bölgü və nəzarət funksiyaları xasdır. Lakin belə təyinat eyni zamanda bir sıra digər iqtisadi, o cümlədən dəyər kateqoriyalarına xas olduğundan, bəziləri hesab edir ki, maliyyənin funksiyaları, mahiyyətcə bölgü və nəzarəti özündə ehtiva edən və daha dəqiq xarakterə malik, dövlətin maliyyə fondlarının formalaşdırılması və istifadə edilməsindən ibarətdir. Hesab edirik ki, sonuncu yanaşma maliyyənin həm elmi, həm də təcrübi baxımdan mahiyyətini daha dolğun ifadə edir. Çünki bu iki funksiya maliyyə münasibətlərinin yaradıcısı olan dövlətin iqtisadi fəaliyyətdə ən vacib funksiyası hesab edilən – tənzimləyici funksiyasının dominantlarıdır. Başqa sözlə, maliyyə, ənənəvi bölgü və nəzarət vasitəsi olmaqla, iqtisadi siyasətin tərkib hissəsi kimi, dövlətin tənzimləyici funksiyasının həyata keçirilməsində iştirak edir.

Məlum olduğu kimi iqtisadi siyasətin həyata keçirilməsi dövlətin iqtisadiyyata təsirinin kompleks mexanizmi vasitəsilə mümkündür. Təsir mexanizminin alətləri üç qrupa ayrılır: - inzibati (əsasən, hüquqi infrastrukturun yaranması), iqtisadi (bazar proseslərini tənzimləyən vasitələr, tələb-təklif, kapitalın cəmlənməsi, sosial struktur, maliyyə, pul, kredit və s.) və institusional (bu nisbət yeni istiqamətdir və buraya ayrı-ayrı sosial qruplar üçün daimi və üstünlüyə malik dərketmə, qavrama və ya fəaliyyət hərəkətləri vasitələri aiddir. Məsələn, «hüquq institutu», «mülkiyyət institutu». Sonuncunun ifadə forması (hökumətin məqsədlərinin reallaşdırılması üçün) – dövlət hakimiyyətinin icra strukturunun yaradılması; iqtisadi proqramlar və proqnozların yaradılması, sahibkarların informasiya sisteminin yaranması, beynəlxalq iqtisadi inteqrasiya və s. kimi müəyyənləşdirilir).

Maliyyə siyasəti dedikdə, adətən dövlətin iqtisadi funksiyalarını yerinə yetirmək üçün, dövlət orqanlarının maliyyə münasibətlərindən müəyyən qaydada istifadə etməsi başa düşülür. Lakin belə yanaşma dolğun hesab edilə bilməz. Çünki əvvəla, dövlətin iqtisadi funksiyaları və vəzifələri ictimai siyasi şəraitdən asılı olaraq dəyişə bilir, ikincisi, maliyyə siyasətini dövlətin iqtisadi funksiyalarının yerinə yetirilməsi vasitəsi kimi istifadə edilməsi, mütləq qaydada maliyyə sisteminin müxtəlif həlqələri arasında maraqların konfliktini yaradır. Ona görə də dövlətin maliyyə siyasəti, ölkənin maliyyə sisteminin bütün həlqələrində maliyyə resurslarının tarazlı artmasını təmin edə biləcək dövlət sosial-iqtisadi siyasətinin tərkib hissəsi olmalıdır. Beləliklə, maliyyə siyasətində ölkə iqtisadiyyatının əsas inkişaf istiqamətləri konkretləşdirilir, maliyyə resurslarının ümumi həcmi, mənbələri və istifadə istiqamətləri müəyyənləşdirilir, sosial-iqtisadi proseslərin maliyyə metodları vasitəsilə tənzimlənməsi və stimullaşdırılması mexanizmi formalaşdırılır. Eyni zamanda nəzərə almaq vacibdir

ki, maliyyə siyasəti ictimai fəaliyyətin istənilən sahəsində dövlət siyasətinin reallaşdırılmasının mühüm aləti olduğu üçün, dövlətin nisbi müstəqilliyə malik olan fəaliyyət sferasıdır.

Maliyyə dedikdə pul ehtiyatlarının bölgüsü və istifadəsi ilə bağlı dəyər axınları başa düşülür. Əsasən bu, dövlət – idarə və müəssisələr – əhali arasında baş verir. İqtisadi təcrübədə bütövlükdə, maliyyə – maliyyə təsərrüfatı və maliyyə sistemi kimi iki oxşar terminlə ifadə olunur.

Maliyyə təsərrüfatı – ictimai hüquqi xarakterli subyektlər arasında dəyər axınlarını əhatə edir. Qeyd etməyi məqsədə müvafiq hesab edirik ki, milli iqtisadi ədəbiyyatda bu termin geniş istifadə edilmir. Lakin hesab edirik ki, maliyyə təsərrüfatı mühüm makroiqtisadi mahiyyətə malikdir. Bu terminin iqtisadi mahiyyəti və ya onun əsas strategiyasını A.Vaqnerin «Dövlət fəaliyyətinin genişlənməsi qanunu» və ya «Dövlət tələbinin artması qanunu» təşkil edir.

Maliyyə təsərrüfatının əsas əlamətləri: a) pul vəsaitinin məcburi alınması vasitəsilə gəlir yaradılması; b) onun istehsala yox, istehlaka xidmət etməsidir. Bu baxımdan, maliyyə təsərrüfatının üç əsas funksiyası müəyyənləşdirilir: allokasiya, yenidən bölgü və stabilləşdirmə. *Allokasiya* – iqtisadi-maliyyə resurslarının yerləşdirilməsi hesabına, dövlət tərəfindən özəl bölmənin göstərə bilmədiyi ictimai xidmətlərin təşkili. *Yenidən bölgü* – iqtisadiyyatda alınan gəlirlərin cəmiyyət səviyyəsində daha yüksək nəticəliliyinə nail olmaq məqsədilə yenidən bölüşdürülməsidir. Yenidən bölgünün əsas prinsipi – sosial bərabərliyin təmin edilməsinin vacibliyi (ilkin vəziyyəti, təsadüfiliyi və s.) və yüksək gəlirli sosial qrupların verdikləri payın çox olması nəzərə alınmaqla resursların müəyyən qaydalar əsasında yenidən bölüşdürülməsidir. *Stabilləşdirmə* – iqtisadi siyasətin məqsədlərinə nail olunması (inflyasiya, işsizlik, iqtisadi artım və s.) tədbirlərini əhatə edir. Başqa sözlə, stabilləşdirmə bir tərəfdən iqtisadi siyasətin fiskal, büdcə-vergi məqsədlərinin təmin olunması tədbirləri toplusunu, digər tərəfdən isə iqtisadi siyasətin bütövlükdə təmin olunmasının maliyyə tədbirləri toplusunu nəzərdə tutur.

Maliyyə sistemi isə maliyyənin struktur elementləri toplusu kimi başa düşülür. Maliyyə sisteminin fəaliyyəti iki mərhələni əhatə edir: gəlirlərin alınması və xərclənməsi planlarının təşkili; maliyyə axınlarının özünün hərəkətinin təşkili.

Dövlətin maliyyə siyasətinin aşağıdakı əsas istiqamətləri fərqləndirilir: büdcə, vergi, pul-kredit, valyuta, investisiya, sosial və gömrük siyasəti.

Büdcə siyasəti – müxtəlif səviyyəli büdcələrin qarşılıqlı əlaqəsini təmin edən tədbirlər toplusudur. Büdcə siyasəti, əsasən, büdcə xərclərinin strukturunda, xərclərin müxtəlif səviyyəli büdcələrin arasında bölgüsündə, büdcə kəsirinin örtülməsi mənbələri və üsullarında, dövlət borclarının idarə edilməsinin forma və üsullarında ifadə olunur. Məhz belə xüsusiyyətlər və tədbirlər büdcənin sosial iqtisadi yönümünü və xarakterini müəyyənləşdirir.

Dövlət büdcəsi dövlətin öz funksiyalarını həyata keçirməsi məqsədi ilə, milli gəlirin yenidən bölgüsü vasitəsilə yaradılıb mərkəzləşdirilmiş pul fondudur. Dövlət büdcəsində bütün formaca müstəqil hesab olunan əsas maliyyə əməliyyatları – xərclər, gəlirlər və dövlət borclanmaları üzvü şəkildə birləşir və vahid dövlət siyasəti formasını alır. Dövlət büdcəsi ayrı - ayrı ölkələrdə seçilmiş iqtisadi inkişaf modellərindən, iqtisadi inkişafın səviyyəsi ilə müəyyənləşən cari inkişaf məqsədlərindən asılı olaraq fərqli strukturlara malik ola bilər. Müasir dövrdə inkişaf etmiş ölkələrin təcrübəsi əsasında beynəlxalq iqtisadi təşkilatlar büdcə mexanizmi və büdcə siyasətinin ölkənin iqtisadi inkişafında təsirini və nəticəliliyini yüksəltmək üçün zəruri hesab edilən aşağıdakı ümumiləşdirilmiş büdcə prinsiplərini formalaşdırmışdır:

- vahidlik prinsipi – dövlətin bütün xərcləri və gəlirlərinin büdcədə toplanması. Dövlətin vahid büdcə sistemi yaradılmalı, maliyyə sənədlərinin və büdcə təsnifatının eyni struktur-metodoloji formalılığı təmin edilməlidir;

- dolğunluq (tamlıq) prinsipi – büdcənin hər bir maddəsi üzrə bütün xərclər və gəlirlər nəzərə alınmalıdır;
- Reallılıq prinsipi – dövlətin xərcləri və gəlirləri faktiki maliyyə axınları və müvafiq potensiala nisbətdə düzgün əks etdirməlidir;
- Şəffaflıq prinsipi – əhali büdcənin əsas gəlirlərinin mənbələri, xərcləri haqqında vaxtında və dolğun məlumatlandırılmalıdır.

Büdcənin dövlətin iqtisadi inkişafa təsiri vasitəsi kimi istifadə olunması müxtəlif nəzəri konsepsiyalara əsaslanır. Uzun müddət ərzində inkişaf etmiş kapitalist ölkələrində "neytral büdcə" konsepsiyası hakim mövqeyə malik olmuşdur. Neytral büdcə konsepsiyası, dövlətin büdcə siyasətinin balanslaşdırılmış büdcənin formalaşdırılması və təkrar istehsal prosesinə neytrallığın təmin etməsinə istiqamətləndirilməsi ideyasına söykənir. Konsepsiyanın iqtisadi mahiyyətini, maliyyə sisteminin normal fəaliyyət göstərməsinin iqtisadiyyatın səmərəli fəaliyyətini "avtomatik" təmin etməsi ideyası təşkil edir. Başqa sözlə, büdcə bu halda yalnız pul vəsaitlərinin yığımı və bölgüsü kimi təmiz maliyyə məsələlərini həll etmək vəzifəsi daşıyırdı. Lakin büdcə xərcləri ilə gəlirlərin sərt əlaqələndirilməsi büdcənin çevikliyini aşağı salmaqla, dövlətin iqtisadi fəaliyyətə təsirini əhəmiyyətli dərəcədə məhdudlaşdırırdı və bu xüsusilə böhran şəraitində arzuolunmaz nəticələrə səbəb ola bilirdi. İqtisadi fikirdə Keyns ideyalarının yaranması ilə bir çox sahələrdə olduğu kimi, büdcə konsepsiyasında da yeni baxışların meydana gəlməsinə səbəb oldu. Keyns nəzəriyyəsinin əsas məntiqinə müvafiq olaraq, dövlət büdcəsinin maliyyə alətindən başqa, həm də mühüm iqtisadi stabilləşdirici olmasının mümkünlüyü və hətta vacibliyi ideyası yarandı. Yeni büdcə konsepsiyası "funksional maliyyə" ideyasına əsaslanır. Bu ideyaya görə, büdcə siyasəti ilk növbədə iqtisadiyyatın stabilləşdirilməsi məsələsini həll etməlidir, yəni dövlət iqtisadi idarəetməsində iqtisadi siyasətin xarakterinin müəyyənləşdirilməsi məsələsinin əsas həlli maliyyə yox, iqtisadi müstəvidə olmalıdır. Nəzərdə tutulur ki, makroiqtisadi stabilliyin təmin edilməsi

büdcənin müsbət saldosu halında olduğu kimi, həm də büdcə kəsiri şəraitində mümkündür. Hətta özlüyündə mənfi qiymətləndirilən büdcə kəsirini həll etməyə çalışarkən, xüsusilə böhran və tənəzzül mərhələlərində, iqtisadi inkişafa zərər vura biləcək maliyyə sağlamlaşdırılmasını aparmaq məqsədəuyğun hesab edilmir.

"Funksional maliyyə" konsepsiyasına görə uzunmüddətli perspektivdə büdcə kəsirini iqtisadi stabilliyi təmin etmədən həll etmək mümkün deyildir. Büdcə siyasətinə iqtisadi yanaşma məntiqi məhz bu ideyaya əsaslanır. Dünya təcrübəsinin son illərdəki dərsləri göstərir ki, Keyns nəzəriyyəsinin müxtəlif modifikasiyaları və ya müxtəlif prizmalı nəticələri, o cümlədən keçən əsrin 80-90-cı illərində yayılan iqtisadi təklif nəzəriyyəsi inkişaf etmiş ölkələrdə "funksional maliyyə" konsepsiyasını iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas modelinə çevirmişdir.

Büdcə siyasətinin səmərəliliyi onun həll etməli olduğu məsələlər kontekstində müəyyənləşdirilməlidir. Məsələn, əgər büdcə maliyyə məsələlərini həll edirsə, onda səmərəlilik göstəriciləri, dövlət maliyyəsinin vəziyyətini əks etdirən, büdcənin kəsiri və dövlət borcu göstəriciləri hesab edilir. Əksinə, əgər büdcə siyasəti iqtisadi problemlərin həllinə yönəldilirsə, onda əsas səmərəlilik göstəriciləri ÜDM-in artımı və məcmu investisiyaların həcmi, investisiyaların və işsizliyin səviyyəsi göstəriciləri olacaqdır. Bu halda maliyyə göstəriciləri iqtisadi səmərəlilik göstəricilərinin tamamlayıcısına çevrilir.

Vergi siyasəti – dövlət və yerli idarəetmə orqanlarının müvafiq büdcələrin gəlirlərini təmin etmək məqsədilə, əhali və iqtisadi fəaliyyət subyektlərinin qazandıqları gəlirin müəyyən hissəsinin məcburi qaydada yığmasının nəzərdə tutan fəaliyyətidir. Vergi siyasəti bu və ya başqa vergi sisteminin qurulmasını tələb edir. Vergilər iki əsas funksiya daşıyır: – fiskal və iqtisadi. Fiskal funksiya, dövlətin fəaliyyətinin bütövlükdə təmin edilməsi üçün zəruri olan pul fondlarının yaradılmasını, iqtisadi funksiya isə həmin fondların milli gəlirin yenidən bölüşdürülməsi üçün istifadə olunmasını nəzərdə tutur. Fiskal funksiya vergi ödəyicilə-

rinin dövlət qarşısında, iqtisadi funksiya isə dövlətin vergi ödəyiciləri qarşısında öhdəliklərini ifadə edir.

Vergi qoymanın idarə olunmasının hüquqi-təşkilatı norma və qaydaları toplusu ölkənin milli vergi mexanizmini təşkil edir. Vergi mexanizminin fəaliyyəti vergi qanunvericiliyi əsasında təmin edilir. Vergi siyasətinin aşağıda ifadə olunan əsas prinsipləri hələ iqtisad elminin klassiklərindən olan A.Smitin "Xalqların varlı olmasının səbəbləri və təbiətinin təhlili" (1776-cı il) əsərində verilmişdir:

- Dövlətin vətəndaşları dövlətin himayəsi və müdafiəsi altında qazandıqları gəlirlərə müvafiq olaraq dövləti maddi cəhətdən təmin etməlidirlər (yəni vergi ödəməlidirlər);
- Ödənilən vergilər ixtiyari olmamalı, onun müddəti ,həcmi və ödənilməsi qaydası dəqiq müəyyənləşdirilməlidir;
- Hər bir verginin ödəyiciyə ən münasib vaxtda və formada ödənilməsi təmin edilməlidir;
- Vergi siyasətinin formalaşdırılması dövlətin xərclərinin (büdcə xərcləri), sonra isə həmin xərcləri ödəyə biləcək gəlirlərin (büdcə gəlirləri) müəyyənləşdirilməsindən başlamalıdır. Büdcə xərcləri cəmiyyətin maraqlarını əks etdirməlidir, bu dövlətin "ucuzlaşmasına" səbəb olar və vergilərin "quldarlıq" yox, azadlıq əlaməti olmasını təmin edər.

Vergi sisteminin iqtisadiyyata təsirinin əsas aləti vergi güzəştləridir, belə güzəştlər ayrı-ayrı ölkələrdə 100-dən artıqdır. İkinci, ən mühüm təsir vasitəsi vergi dərəcələri ilə manipulyasiya hesab edilir. Veri güzəştləri və vergi dərəcələrinin dəyişdirilməsi bir tərəfdən iqtisadiyyatda elmi-texniki tərəqqinin inkişafına, struktur dəyişiklərinə və iqtisadi artıma təsir edirsə, digər tərəfdən dövlət büdcəsinə ciddi mənfi təsir göstərir. Müxtəlif iqtisadi inkişaf səviyyələrində olan ölkələrdə vergi alətlərinin istifadə olunmasının səmərəliliyini şərtləndirən amillər müxtəlif ola bilir. Müasir dövrdə dünyada qəbul edilən ən ümumi qiymətləndirmələrə görə vergi sisteminə olan əsas tələbləri – onun dayanıqlığı, bazar mexanizminə nəzərən neytrallığı və bazar təsərrüfatının

bütün subyektlərinə münasibətdə bərabər şəraitin təmin olunması kimi ifadə etmək olar.

Pul-kredit siyasəti – dövlətin iqtisadiyyata dolayı təsir vasitələrindən biri olmaqla pulun iqtisadiyyatda rolu və makroiqtisadi parametrlərə: iqtisadi artım, məşğulluq, qiymətlər və tədiyyə balansına təsiri haqqındakı nəzəri konsepsiyalara əsaslanır. Pul-kredit siyasətinin əsas mahiyyəti –Mərkəzi Bankın müəyyən siyasət aparmaqla ölkədəki pul təklifini dəyişdirə bilməsindədir. Mərkəzi Bankın iqtisadiyyatdakı pul bazasına təsiri ölkənin bank-kredit sisteminin fəaliyyəti, o cümlədən kommersiya banklarının kredit emissiyası vasitəsilə pul kütləsini artırıb-azalda bilmə qabiliyyəti ilə müəyyənləşir. Müasir dövrdə inkişaf etmiş iqtisadiyyata malik olan ölkələrdə Mərkəzi Bankda pul-kredit sferasını tənzimləməsinin üç əsas aləti istifadə edilir: açıq bazar əməliyyatları, uçot dərəcəsi və ehtiyat normaları. Birinci, iki alət vasitəsilə Mərkəzi Bank bilavasitə pul bazasına təsir edir, ehtiyat normaları vasitəsilə isə kommersiya bankları sonuncu pul vahidinədək kreditləşdirmə aparmaqla multiplikativ effekt yarada bilir.

Pul-kredit siyasətinin son məqsədinin makroiqtisadi parametrləri tənzimləməkdən ibarət olması onun qlobal məqsədlər sırasını müəyyənləşdirir. Belə məqsədlərə qiymətlərin stabilliyinin təmin olunması, tam məşğulluq, istehsalın real həcminin artımı və tədiyyə balansının dayanıqlığının təmin edilməsi aid edilir. Cari pul-kredit siyasəti isə daha konkret məqsədlərə hədəflənməklə siyasətin xarakterini müəyyənləşdirir. Bu məqsədlə pul kredit siyasətinin aralıq hədəfləri – pul sisteminin əsas parametrlərinin – pul kütləsi, faiz dərəcəsi və mübadilə kursunun uzunmüddətli (adətən, bir il və daha çox) tənzimlənməsi göstəriciləri müəyyənləşdirilir. Mərkəzi Bankın cari fəaliyyəti isə pul-kredit siyasətinin taktiki məqsədlərinə istiqamətlənən tədbirləri əhatə edir. Pul kredit siyasətinin xarakteri məhz sonunculardа əks olunur. Məsələn, sərt monetar pul-kredit siyasəti pul kütləsinin müəyyən səviyyədə saxlanılmasını nəzərdə tutduğu halda, çevik

pul-kredit siyasətinin məqsədi faiz dərəcəsinin qeyd olunması hesab edilir.

Valyuta siyasəti – İqtisadi siyasətin formalaşmasında və onun müvəffəqiyyətliliyinin təmin olunmasında maliyyə siyasətinin mühüm bir xüsusi bölməsini valyuta siyasəti təşkil edir. Valyuta siyasəti əslində ölkənin öz milli valyutası kursunun və onun vasitəsilə xarici sövdələşmələrin idarə olunmasından ibarətdir. Valyuta kursunun devalvasiya və revalvasiya nəticəsində dəyişməsi milli gəlirin dinamikasına əhəmiyyətli təsir edir. İdarəetmə baxımından təcrübədə daha çox istifadə olunan metod valyutanın devalvasiyası yoludur.

Devalvasiya mahiyyət etibarilə, milli valyutanın dəyərinin, pul metalı və ya digər xarici valyutaya münasibətdə hökumət tərəfindən planlaşdırılmış və həyata keçirilmiş azaldılması prosesidir. Birdəfəlik inzibati xarakter daşıyır və dövlət orqanları tərəfindən qəbul olunmuş qərar formasında reallaşdırılır. Keçmişdə devalvasiya valyuta vahidinin qızıl tərkibinin azaldılmasında və qaçılmaz dərəcədə bununla bağlı olan, digər valyutalarla mübadilə məzənnəsinin dəyişməsində özünü göstərirdi. İqtisadi siyasət formasında o, XX əsrdə Fransanın 1926-cı ildə və Böyük Britaniyanın 1931-ci ildə həyata keçirdikləri analoji əməliyyatlar nəticəsində yaranmışdır. İqtisadi mahiyyət baxımından həyata keçirildiyi şəraitdən asılı olaraq, onun bir sıra növlərini və hökumətləri ondan istifadəyə sövq edən motivləri fərqləndirmək və müqayisə etmək olar.

Devalvasiya - konstatasiya – daxili inflyasiya və ya tədiyyə balansının kəsiri səbəbindən (çox vaxt hər ikisi eyni zamanda) ortaya çıxan, mövcud qiymətdəndüşməni qanuniləşdirmək və sabitləşdirmə əməliyyatını həyata keçirmək üçün nəzərdə tutulmuş siyasəti;

Müdafiə devalvasiyası – ticarət əlaqələri və iqtisadiyyatın inkişafını müdafiə etmək məqsədilə, tərəfdaş ölkələrdə artıq həyata keçirmiş devalvasiyanı nəzərə alaraq həyata keçirilən siyasət;

Hücum devalvasiyası – ixracın stimullaşdırılması və bu əsasda fəal xarici ticarət müdaxiləsinin (məsələn, dolların 1933-cü ildəki devalvasiyası) bərpası və ya onun davamı üçün vasitə kimi nəzərdən keçirilən siyasət.

Əlbəttə, praktikada bu fərqlər özlərini o qədər də aydın büruzə vermir (Cənubi Amerika ölkələrindəki devalvasiyalar buna misal ola bilər). Bundan başqa, əməliyyat xüsusiyyətlərinin necə olmasına baxmayaraq, onu həyata keçirən hökumətlər üçün fundamental problem uğur qazanmaqdır, yəni, həmişə əsas məqsəd, daha sağlam əsasda iqtisadi inkişaf üçün şəraitlərin yaradılması və ya bərpasıdır.

Təcrübədə devalvasiyanın effekti, onun ölçülərindən, onu doğuran vəziyyətdən və idxal olunan malların dəyərinin qısa müddətdə bilavasitə artması səbəbindən itirilmiş mövqedən asılıdır. Buradan belə nəticə çıxır ki, əməliyyatın uğurlu gedişatı üçün, artımın daxili amillərinin xarici amillərlə yaxınlaşmasına əlverişli şərait yaradan və iqtisadiyyatı "inflyasiyaya doğru qaçışdan" qoruyan (gəlirlər, kredit və hətta qiymətlər, o cümlədən, mübadilə məzənnələrinin reqlamentasiyası baxımından uzlaşdırılmış addımların köməyilə) dəstək siyasəti tələb olunur. Bu nöqteyi-nəzərdən, əməliyyatın həyata keçirilmə anının seçilməsi də vacibdir; uğur üçün əlverişli olan şərait, ölkə daxilindəki konyunkturanın artıq başlamış sabitləşməsi və davam edən xarici ekspansiyanın uzlaşdırılmasıdır.

Çünki devalvasiya ixracın real həcminin artmasına və idxalın azalmasına gətirib çıxarır, ona görə də ixracyönlü və idxala rəqabətli sahələrdə yeni iş yerləri açılır və gəlir artır.

Lakin ilk baxışdan yuxarıdakı məntiq doğru olsa da, əvvəlki bölmələrdə qeyd olunduğu kimi, bu həmişə müsbət nəticə vermir. Beləki,

a) devalvasiya beynəlxalq ticarət şəraitini pisləşdirərək, ölkəni hər idxal vahidi üçün daha çox ixraca məcbur edə bilər. Çünki ticarət şəraiti (R/Rm) pisləşirsə ölkənin real alıcılıq qabiliyyəti aşağı düşür. Digər tərəfdən əhali bunu dərk edərək öz xərclərini azalda bilər, bu isə neqativ prosesləri daha da gücləndirir. Ona

görə də, devalvasiya ancaq ticarət şəraitini yaxşılaşdırdığı və ya ən azı ona təsir etmədiyi halda milli gəliri artıra bilər.

b) devalvasiya tədiyyə balansını tənzimləməyə xidmət etdikdə müsbət nəticəyə gətirir. Çünki devalvasiya yaranmış kəsiri aradan qaldırmaqla Milli Bankı valyutanın kursunu süni surətdə stabil saxlamaq üçün daha çox valyuta ehtiyatı xərcləməkdən xilas edir.

c) devalvasiya ticarət balansını yaxşılaşdırmaya bilər, çünki real kurs alıcılıq qabiliyyəti pariteti səviyyəsinədək artdıqda ixrac artır. Bu səviyyədən sonra ixracın artımı baş vermir. Əksinə daxili xərclər artdığı üçün ticarət balansı pisləşir.

Beləliklə, aydın olur ki, valyuta siyasətini ancaq onun kursunun idarə olunması kimi qəbul etmək düz deyil. Valyuta siyasətinin ölkədə makroiqtisadi stabilliyin təmin olunmasına istiqamətləndirilməsinin beş üsulu vardır. Bu üsullar haqqında 3-cü fəsildə daha ətraflı məlumat verilir.

İnvestisiya siyasəti – ilk növbədə iqtisadiyyatın real sektoruna yerli və xarici investisiyaların cəlb olunması üçün şərait yaradılması məqsədi daşıyan tədbirlər kompleksidir. Maliyyə siyasətinin tərkib hissəsi kimi formalaşdırılan investisiya siyasətinin əsas vəzifəsi, real sektora investisiya yatırılması üçün potensial investorlara əlverişli şəraitin yaradılması və ölkədən kapital axının azaldılmasıdır.

İnvestisiya istənilən ölkənin iqtisadi inkişafında mühüm rol oynayır. Adətə investisiya dedikdə gələcəkdə qazanc götürmək üçün (müasir dövrdə həm də müsbət sosial effektə nail olmada belə qazancın bir növü hesab edilir) pul vəsaitlərinin avans şəklində istifadə edilməsi başa düşülür. Bazar iqtisadi münasibətləri sistemində investisiya probleminə əsasən xüsusi kapitalın yığımı problemi kimi baxılır, İqtisad elmində və təcrübədə yığım problemi ilə bağlı A.Smit, D.Rikardo, K.Marks və b. kimi klassik nəzəriyyəçilərin indiyədək bir çox hallarda istifadə edilən mühüm nəzəri ideya və qiymətləndirmələri vardır. Lakin XX əsrin 20-30 illərində C.Keynsin investisiya və yığım problemi ilə bağlı əsərləri və ideyaları xüsusilə daha çox məşhurdur. Keyns, milli

gəlir və onun istehlak və yığıma istifadəsi, pul kütləsi, əməkhaqqı və gəlir, kapitala görə faizlər, aktiv və öhdəliklərin ümumi həcmi kimi əsas makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqəsini öyrənərək yığımın yaranması, istifadə olunması və onun investisiya proseslərinə təsiri mexanizmini təklif etmişdir. İqtisadiyyatın Keyns modelində yığım və onunla birbaşa bağlı olan multiplikator və akselerator əsas göstəricilər hesab edilir.

Dövlətin investisiya proseslərini tənzimləməsi və ya investisiya siyasəti, sosial iqtisadi inkişafın qlobal hədəflərinə xidmət edən məqsədlər, subyektlər, obyektlər və vasitələr toplusunu əhatə edir. İnvestisiya prosesinin bütün iştirakçılarının müvafiq fəaliyyətinin ölkənin sosial-iqtisadi istiqamətliliyini ifadə edən qlobal məqsədlərə yönəldilməsi, onların iqtisadi maraqlarının uzlaşdırılması və investisiya aktivliyinin yüksəldilməsi vasitəsi hesab edilir. Dövlət investisiya siyasətinin ümumi məqsədləri, sistem yaradıcı faktor kimi strateji və taktiki səviyyələrə ayrılır. İnvestisiya siyasətinin səmərəliliyinin təmin edilməsində mühüm məqamlar, investisiya siyasətinin məqsədləri ilə onun vasitələrinin və dövlətlə biznesin münasibətlərinin düzgün müəyyənləşdirilməsindən ibarətdir. İnvestisiya prosesində dövlətin iştirakını xarakterizə edən əsas göstəricilər iqtisadiyyatın dövlət sektoruna qoyulan və dövlət büdcəsindən ayrılan investisiyanın həcmi təşkil edir. Lakin bununla bərabər dövlət iqtisadi qanunvericiliyi tənzimləmək vasitəsilə də bu proseslərdə iştirak edir. Ona görə də, indi investisiyalar makroiqtisadi tənzimləmənin mühüm tərkib hissəsi hesab edilir. Müasir dünya təcrübəsi göstərir ki, tranzitiv iqtisadiyyatlı ölkələrdə investisiya siyasəti milli iqtisadiyyatda daimi fəaliyyət göstərən mexanizmə çevrilməlidir. Belə ki, azad bazar və direktiv idarəetmə metodlarının ayrı-ayrılıqda tətbiqi indi səmərəli ola bilmir. Buna görə də liberal təsərrüfatçılıqla inzibati idarəetmənin düzgün kombinasiyasının istifadəsi vacibdir. Bir sıra ölkələrdə bu məqsədlə istifadə olunan mühüm vasitə "inkişaf büdcəsi" adlanan xüsusi investisiyaların maliyyələşdirilməsi mexanizmi istifadə olunur. Bu mexanizmin iqtisadi-təşkilati mahiyyəti ondan ibarətdir ki, bu büdcə, dövlətin investisiya

proqramlarının maliyyələşdirilməsi məqsədi ilə daxili və xarici resursların cəlb etdiyi dövlət maliyyə sistemidir. Bu mexanizm kredit resurslarının sistematik bərpasına, yenilənməsinə əsaslanan və daimi fəaliyyətdə olan iqtisadi sistemdir. İnkişaf büdcəsi ölkənin faktiki imkanlarını üstələyən borc öhdəliklərini artırmadan dövlət büdcəsinin formalaşmasını və xərclənməsini təmin edən investisiya həcmlərini və istiqamətlərini əhatə edir.

Sosial maliyyə siyasəti – ölkə vətəndaşlarının Konstitusiya ilə müəyyənləşdirilmiş hüquqlarının maliyyə təminatının həllinə xidmət edən tədbirlər kompleksidir. Sosial maliyyə siyasəti bir sıra ölkələrdə fərqli xüsusiyyətlərə və funksiyalara malik ola bilir. Azərbaycanda sosial maliyyə siyasəti pensiya siyasəti, miqrasiya siyasəti, demoqrafiya siyasəti, sosial təminat siyasəti, qaçqın və məcburi köçkünlərə yardım siyasəti və s. kimi tərkib hissələrindən ibarətdir.

Məlum olduğu kimi, sosial siyasətin əsas məqsədi əhalinin əsas həyati tələbatının ödənilməsini təmin etmək üçün, cəmiyyətdə əlverişli sosial mühit və sosial dayanıqlığın yaradılmasıdır. Dövlətin sosial siyasəti, bu baxımdan, özünəməxsusluğa malik olmaqla çox istiqamətli və çox subyektlidir. Sosial siyasətin mühüm xüsusiyyəti ölkənin sosial fəzasının bir və ya bir neçə səviyyəyə ayrıla bilməsidir. Bir sıra ölkələrdə, xüsusilə federal strukturlu ölkələrdə sosial siyasət ərazi meyarı üzrə fərqli icra mexanizmlərinə malik ola bilir. Lakin dünya təcrübəsində, ərazi baxımından Azərbaycanda olduğu kimi, ölkənin vahid sosial fəzaya malik olması daha çox yayılıbdır. Digər tərəfdən sosial siyasətdə normativ və real sosial fəzalar fərqləndirilir. Normativ sosial fəza qanunvericilik səviyyəsində, real sosial fəza isə dövlətin öz üzərinə götürdüyü öhdəliklərin realizasiyası imkanlarının müəyyənləşdirdiyi səviyyəni göstərir. Məsələn, Azərbaycan kimi ölkələrdə bu iki səviyyə eynidir, başqa sözlə, ölkəmizdə tam mənada vahid sosial fəza mövcuddur.

Sosial siyasətin maliyyələşdirilməsi, mahiyyət etibarilə, iqtisadi səmərəliliyin artırılmasına xidmət etməlidir. Sosial siyasətin iqtisadi səmərəliliyini üç aspektdə qiymətləndirmək mümkündür.

Sosial siyasətin makroiqtisadi səmərəliliyi dedikdə, nəzərdə tutulur ki, cəmiyyət sosial siyasətin maliyyələşdirilməsinə mümkün qədər, lakin iqtisadi fəaliyyətin digər sahələrinə zərər vurmayacaq qədər vəsait ayırır. Əsas məsələ insan inkişafı ilə iqtisadiyyatın digər sahələrinin inkişafı arasında optimal balansın tapılmasındadır.

Mikroiqtisadi səmərə dedikdə, mövcud maliyyə resurslarının ayrı-ayrı sosial proqramların – pul yardımları, tibbi xidmət, təhsil, kadr hazırlığı və yenidən hazırlıq, məşğulluğun təmin olunması və s. arasında bölüşdürülməsi məsələləri nəzərdə tutur.

Sosial siyasətin səmərəliliyinin üçüncü aspekti – sosial proqramların stimullar sisteminə təsiri nəzərdə tutulur. Digər tərəfdən isə sosial ödənişlər və güzəştlər sistemi elə maliyyələşdirilməlidir ki, əmək fəallığına mənfi təsir etməsin.

Gömrük siyasəti – qiymət və vergi siyasətinin simbiozu olaraq ölkə bazarına xarici məhsulların daxil olmasını artırmaq və ya azaltmaq, yaxud ölkədən ixracı artırmaq və ya azaltmaq məqsədləri güdür. Beləliklə, gömrük siyasəti, nəinki təsərrüfat subyektləri ilə dövlət arasında, həm də təsərrüfat subyektləri ilə sahələr və regionlar arasında bölgü münasibətlərini müəyyənləşdirən maliyyə alətidir.

Fəaliyyət müddəti, xarakteri və vəzifələri baxımından, maliyyə siyasəti maliyyə strategiyası və maliyyə taktikası kimi iki formaya malik ola bilir. Maliyyə strategiyası və taktikası qarşılıqlı əlaqəli olmaqla bərabər maliyyə siyasətinin üstqurum kimi, iqtisadi bazislə münasibətlərini konkretləşdirir. Bir tərəfdən maliyyə siyasəti iqtisadi münasibətlərlə yaranır: iqtisadiyyatdan kənar maliyyə siyasətini formalaşdırmaq və həyata keçirmək mümkün deyildir. Digər tərəfdən, qeyd olunduğu kimi, maliyyə siyasəti nisbi müstəqilliyə malikdir, onun inkişaf qanunauyğunluqları və məntiqi fərqlidir. Ona görə də, maliyyə siyasəti iqtisadi sistemə və maliyyənin vəziyyətinə əks təsir göstərə bilir. Maliyyə siyasətinin mühüm məqsədlərindən biri maliyyə resurslarının artırılması və onun istifadəsinin səmərəliliyinin yüksəldilməsi olması da, bu baxımdan, ciddi əhəmiyyətə malikdir. Maliyyə siyasətinin

realizasiyası üçün hər bir ölkədə müəyyən maliyyə mexanizmi formalaşdırılır. Maliyyə mexanizmi – maliyyə sisteminin subyektlərinin onun obyektlərinə təsiretmə vasitəsidir, maliyyənin funksiyalarının təcrübədə reallaşdırılması formasıdır. Maliyyə mexanizminin əsas elementlərinə, maliyyə resurslarının formaları, onların yaranma üsulları, dövlət gəlirləri və xərclərinin müəyyənləşdirilməsinin norma və normativləri, büdcə sisteminin, müəssisə maliyyəsinin və qiymətli kağızlar bazarının təşkili xüsusiyyətləri aiddir.

5.2. Büdcə mexanizminin hüquqi əsasları

Büdcə siyasəti ölkənin cari iqtisadi siyasətinin «sıxılmış» inikası olaraq hökumətin öz iqtisadi funksiyalarını yerinə yetirmək istəyi və imkanlarını əks etdirir.

Büdcə siyasəti təkcə büdcənin tərtib olunması mexanizmi və onun ayrı-ayrı hissələrinin məsuliyyət münasibətlərinin bölgüsü ilə xarakterizə olunmur. Fikrimizcə, hər bir ölkənin büdcə siyasətini qiymətləndirmək üçün bir neçə cəhətdən yanaşma vacibdir.

Büdcə siyasətinin ümumi istiqamətliliyini müəyyənləşdirən amil, onun institusional çərçivəsini formalaşdıran vahid büdcə təsnifatı sistemidir. Əksər ölkələrdə büdcə təsnifatı dayanıqlı və obyektiv forma daşıması üçün qanun statusuna malik olur. Əslində bununla büdcə təsnifatının və bütövlükdə büdcə siyasətinin şəffaflığı və onun ictimai nəzarət obyektində olması təmin edilir.

Dövlətin iqtisadi funksiyalarının həyata keçirilməsinin maddi təminatı rolunu oynayan dövlət büdcəsi, eyni zamanda, yaranan milli gəlirin və deməli, ümumi daxili məhsulun yenidən bölgüsü mexanizmini təşkil edir.

Ayrı-ayrı ölkələrdə dövlət büdcəsinin tərkibi və onun forması müxtəlif ola bilir. Lakin onların ən ümumi cəhəti dövlət büdcəsinin ali qanunverici orqan tərəfindən təsdiq olunaraq qanun statusu alması və büdcənin düzgün icrasına parlament tərəfindən nəzarət mexanizminin mövcudluğudur.

Azərbaycan respublikası büdcə qanunvericiliyi «Büdcə sistemi haqqında» qanundan, Vahid büdcə təsnifatı aktlarından və hər maliyyə ilinin dövlət büdcələri qanunlarından ibarətdir. Bilavasitə dövlət büdcəsinə xidmət edən digər qanunvericilik aktları «Vergi məcəlləsi», «Gömrük məcəlləsi» və bir sıra ayrı-ayrı dövlət idarəetmə orqanlarının təlimatları, o cümlədən, Ehtiyat Fondu haqda əsasnamə və s. Dövlət büdcəsinin tərkibi və icra olunmasının əsas vasitələri hesab edilir.

Qanunla müəyyən olunmuşdur ki, Azərbaycanda büdcə ili təqvim ili ilə üst-üstə düşür. Dövlət büdcəsi büdcə məlumatlarının bütün səviyyələrdə müqayisəliliyini təmin edilməsi üçün vahid büdcə təsnifatı əsasında formalaşdırılır.

Büdcə təsnifatı dedikdə – büdcənin gəlirlərinin və xərclərinin funksional, iqtisadi və digər prinsiplər əsasında qruplaşdırılması başa düşülür. Büdcə təsnifatına dövlət büdcəsinin gəlirlərinin təsnifatı, büdcə xərclərinin funksional təsnifatı, büdcə xərclərinin iqtisadi təsnifatı, dövlət büdcəsi kəsirinin daxili və xarici maliyyələşdirmə mənbələrinin təsnifatı, dövlətin daxili və xarici borcunun növlər üzrə təsnifatı, dövlət büdcəsi xərclərinin təşkilatlar üzrə təsnifatı daxildir.

Dövlət büdcəsinin gəlirləri qanunvericiliklə müəyyən olunmuş vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalarından ibarətdir. Büdcəyə tədiyyələr vasitəsilə daxilolmaların digər büdcələr və regionlar arasında bölgüsü hər il büdcə qəbul olunarkən formalaşır və təsdiq olunur. Dövlət büdcəsinin xərcləri isə müvafiq təsnifata uyğun olaraq cari xərclərin, investisiya xərclərinin və s. maliyyələşdirilməsinə yönəldilir.

Dövlət büdcəsi tərkibində məqsədli büdcə fondlarının yaradılması mümkündür. Bu fondlara daxil olan vəsaitlər dövlət büdcəsinin mədaxilində ayrıca göstərilir və yalnız fondun təyinatı üzrə xərclənir. Həmin fondların müstəqil mədaxil mənbəyi olmadıqda o dövlət büdcəsinin ümumi gəlirlərindən ayırmalar hesabına maliyyələşdirilir. Bu fondların istifadə olunmamış hissəsi büdcə kəsirinə silinə bilməz.

Dövlət büdcəsində nəzərdə tutulmayan hallar, o cümlədən, fövqəladə hallar üçün ehtiyat fondu yaradıla bilər. Bu fondun əsasnaməsinə görə o vəsaitdən ancaq ölkə prezidentinin sərəncamı ilə istifadə oluna bilər.

Dövlət büdcəsinin Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrlə əlaqəsi gəlir mənbələrinin bölüşdürülməsi vasitəsilə həyata keçirilir. Yerli büdcələrin vəsaitləri kifayət etmədikdə dövlət büdcəsindən dotasiya (yerli büdcələrin gəlir və xərclərini tənzimləmək üçün əvəzsiz verilən vəsait); subvensiya (məqsədli verilən, vaxtında istifadə edilmədikdə isə geri qaytarılan vəsait); və subsidiya (yerli büdcə və təşkilatlara əvəzsiz verilən vəsait) verilməsi və ya onlara büdcə borcu (ssuda) ayrılması imkanları qanunvericiliklə nəzərdə tutulmuşdur.

Dövlət büdcəsinin tərtibi xüsusi qrafiklə həyata keçirilir, müəyyən səviyyələrdə müzakirələr və razılaşmaların əldə olunmasını nəzərdə tutur. Əksər ölkələrdə yeni büdcə tərtibatı növbəti büdcə ilinə 11 ay qalmış başlayır.

Dövlət büdcəsinin tərtibi üçün əsas sənədlər ölkənin qarşıdakı ildə sosial iqtisadi inkişafının makroiqtisadi proqnozları və iqtisadi inkişafın nəzərdə tutulan məqsədli proqramları; iqtisadiyyatın sahələrinin, inzibati rayonların, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrin cari və növbəti iş üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi təşkil edir.

Büdcənin tərtibi üçün yuxarıda qeyd olunan sənədlərin hazırlanması üçün müvafiq icra hakimiyyəti qrafik tərtib edir. Adətən, Azərbaycanda bu Prezidentin fərmanı ilə müəyyənləşir. Bəzi hallarda isə məlumatlar təşkilatlardan tələb qaydasında alınır. İqtisadi və sosial inkişafın konsepsiya və proqnozlarının hazırlanmasına müxtəlif dövlət orqanları və təşkilatların mütəxəssisləri, alim və istehsal rəhbərləri cəlb oluna bilərlər. Bir sıra ölkələrdə, məsələn, ABŞ, Yaponiya, Rusiya, Fransa və s. ölkə başçıları qarşıdakı dövr üçün iqtisadi inkişafa öz baxışlarını elan edir və bu iqtisadi inkişaf platforması kimi proqnozların hazırlanmasına əsas olur.

Büdcə qanununa görə Azərbaycan respublikasında dövlət büdcəsinin layihəsi müzakirələrə təqdim edilərkən bir sıra digər zəruri sənədlər də təqdim olunmalıdır. Belə sənədlərə cari ilin büdcəsinin icrası vəziyyəti haqda arayış, növbəti büdcə ili üçün sosial-iqtisadi inkişaf konsepsiyası və proqnoz göstəriciləri, Dövlət büdcəsi hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli proqramlar, büdcə-vergi siyasətinin qarşı ildə əsas istiqamətləri; Azərbaycan Respublikasının ərazi toplu maliyyə balansı; dövlət büdcəsinə daxil olmayan məqsədli dövlət fondlarının büdcələrinin layihələri və müvafiq icra hakimiyyəti tərəfindən müəyyən olunan digər sənədlər aid olunur.

Büdcə qanunvericiliyinə görə müvafiq sənədlərin layihələri hər il oktyabr ayının 15-dən gec olmayaraq Milli Məclisə təqdim edilməlidir. Konstitusiyaya görə büdcə layihəsini Milli Məclisə Prezident təqdim edir və Milli Məclisdə qəbul edildikdən sonra büdcə qanununu imzalayır. Büdcə layihəsi Milli Məclisdə iki ay müddətində, dekabrın 20-dək müzakirə oluna bilər.

Əgər bu müddətdə Milli Məclisdə büdcə təsdiq edilməzsə, müvafiq icra hakimiyyəti orqanı (Prezident) dövlət büdcəsi təsdiq olunanadək büdcədən maliyyələşmənin müvəqqəti qaydalarını, hər aya müvafiq 1/12 nisbətdə olmaqla təsdiq edir.

Dövlət büdcəsində təsdiq olunan əsas göstəricilər aşağıdakılardır: gəlirlərin ümumi məbləği; mədaxil mənbələri üzrə gəlirlərin məbləği; ayrı-ayrı vergilərdən dövlət büdcəsinə ayırmaların normativləri; xərclərin ümumi məbləği; funksional büdcə təsnifatına uyğun olaraq xərclərin məbləği; büdcə kəsirinin yuxarı həddinin məbləği; daxili və xarici borclar üzrə yuxarı həddin məbləği.

Büdcə təsdiq edildikdən sonra müvafiq icra hakimiyyəti orqanı gəlirləri nvə xərclərin rüblük bölgülərini aparır və onu bir ay müddətində təşkilatlara çatdırır.

Dövlət büdcəsinin kassa icrası, yəni dövlət büdcəsinə daxil olmaların toplanması və onun büdcə təsnifatına müvafiq ünvanlı istifadəsinin təmin olunması Dövlət xəzinədarlığı vasitəsilə həyata keçirilir. Xəzinədarlıq malların dövlət büdcəsi hesabına alın-

masının qanunvericiliyə müvafiqliyinə nəzarət edir. Dövlət büdcəsinin öhdəlikləri üzrə əməliyyatlar büdcə ili qurtardıqdan sonrakı bir ay ərzində başa çatdırılmalı, istifadə olunmayan vəsait isə geri qaytarılmalıdır.

Dövlət büdcəsinin icrasının ən mühüm şərtlərindən biri gəlir və xərclər arasındakı tarazlığın qorunmasıdır. Büdcə ili ərzində əlavə gəlirlər yaranarsa, ilin sonunda büdcə kəsiri tam örtüldükdən sonra artıq vəsait gələn ilin büdcəsinin ehtiyat fonduna yönəldilir.

Büdcə ilinin ərzində onun gəlirləri təsdiq edilmiş məbləğdən 20% az yığılarsa və bu büdcə kəsirinin yuxarı həddini keçməsinə səbəb olarsa, onda dövlət büdcəsinin bir sıra maddələri (qanunda bu maddələr "müdafiə olunmuş xərclər" adlanır) istisna olunmaqla bütün xərclərin ilin qalan ayları üçün proporsional ixtisarı – sekvestri nəzərdə tutulur. "Müdafiə olunan xərclər" büdcə layihəsi təsdiq olunarkən müəyyənləşdirilir.

Dövlət büdcəsinin icrasına ümumi nəzarət Milli Məclis tərəfindən həyata keçirilir. Cari ilin büdcəsinin yekun dəqiqləşdirilmiş variantı (sekvestr varsa) oktyabr ayının 15-dən gec olmayaraq təsdiq olunmalıdır. Dövlət büdcəsinin kəsiri dövlət borcu, kredit ehtiyatlarından istifadə olunması və digər mənbələr hesabına örtülür.

Büdcənin tərtibi və icrası qaydaları Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

5.3. Büdcə siyasəti və onun əsas xüsusiyyətləri

Ölkənin maliyyə sistemi və müvafiq maliyyə siyasətində dövlət büdcəsi və onun iqtisadi siyasətdə istifadəsi mühüm yer tutur. Büdcə siyasəti vasitəsilə, əslində maliyyə sisteminin iqtisadi inkişafda yeri müəyyənləşir. Xüsusilə tranzitiv xarakterli iqtisad sistemə malik olan ölkələrdə dövlət büdcəsinin rolu daha böyükdür. "Kisə " mənasını verən büdcə termini maliyyə aləti kimi, XVI –XVII əsrlərdə İngiltərədə krala ayrılan subsidiyaların İcmalar palatasında təsdiqi zamanı formalaşmış təcrübə zamanından istifadə edilir. Milli iqtisadiyyatının inkişafında büdcənin rolu iki tarixi mərhələ yaşamışdır Klassik kapitalizmin ilk mərhələlərindən XX əsrin ortalarınadək büdcələr, dövlətin iqtisadi proseslərdə fəal iştirak etməməyi səbəbindən iqtisadi inkişafa əhəmiyyətli təsir göstərməmişdir. Həmin dövrlərdə müxtəlif ölkələrdə büdcə vasitəsilə yenidən bölüşdürülən milli məhsulun həcmi 9-19%-dən çox olmamışdır. Lakin XX əsrin ortalarından başlayan ikinci mərhələdə, dövlət büdcələrinin həcmi və iqtisadi inkişafda rolu kəskin artmağa başlamışdır. Məsələn, müasir dövrdə hətta inkişaf etmiş, liberal iqtisadiyyata malik olan klassik kapitalist ölkələrində, yeni yaranan milli məhsulun 1/3 –dən yarısınadək hissəsi büdcə vasitəsilə yenidən bölgüyə məruz qalmaqla, bütövlükdə iqtisadi fəaliyyətin mühüm resurs bazasına çevrilmişdir. İndi büdcə xərcləri və fiskal siyasət vasitəsilə dövlət büdcəsi, inkişaf etmiş bazara malik ölkələrdə, iqtisadi artım və məşğulluğun təmin edilməsinin vacib aləti hesab olunur. Mahiyyətinə görə dövlət büdcəsinin bir neçə prizmadan dəyərləndirilməsi mümkündür. Qeyd edildiyi kimi, iqtisadi mahiyyətinə görə dövlət büdcəsi ölkənin mərkəzləşdirilmiş pul fondunun yaranması və istifadə olunması zamanı yaranan pul münasibətlərini ifadə edir. Sosial mahiyyətinə görə isə, büdcə bir tərəfdən ayrı-ayrı iqtisadi fəaliyyət subyektləri və əhali qruplarının vergilərlə yüklənməsi səviyyəsinə görə, digər tərəfdən isə büdcə vəsaitlərinin istifadəsinin istiqamətliliyinə əsasən xarakterizə oluna bilər, Daha doğrusu büdcənin sosial mahiyyəti, onun gəlir mənbələri və xərclərinin hansı maraqlara xidmət etməsi ilə müəyyənləşir.

Hüquqi baxımdan, büdcə, dövlət funksiyalarının yerinə yetirilməsi məqsədilə mərkəzləşdirilmiş (dövlət və yerli idarəetmə səviyyələrində) pul fondlarının formalaşdırılması və onun məqsədəuyğun formada istifadə olunmasını tənzimləyən qanun və normativ sənədlər toplusudur. Büdcə, eyni zamanda, geniş təkrar istehsalı və iqtisadi artımı stimullaşdıran mühüm vasitədir. Dövlət xərclərini və vergi səviyyələrini artırıb azaltmaqla, hökumət məcmu tələbin həcmini (istehlak və investisiya xərcləri vasitəsilə) məqsədyönlü dəyişməklə iqtisadi konyunkturanı qısamüddətli

dövrdə tənzimləyə bilir. Bu baxımdan, ekspansiv (genişləndirici) və pestiriktiv (məhdudlaşdırıcı) büdcə siyasəti fərqləndirilir. Büdcə siyasəti ölkənin büdcə mexanizmi vasitəsilə reallaşdırılır. Büdcə mexanizmi iqtisadiyyatda iri struktur dəyişiklərinin həyata keçirilməsi, regional iqtisadi inkişafın tarazlaşdırılması kimi böyük vəsait tələb edən layihələrin maliyyələşdirilməsində təşəbbüskar, "yol göstərən" və ya zəmanətçi qismində çıxış edir. Büdcə mexanizmi, dövlətin sərəncamına daxil olan vəsaitlərlə manevr etməklə iqtisadiyyatı tənzimləyir. Belə ki, büdcə mexanizminin mühüm bir xüsusiyyəti daxil olan vəsaitlərin invariantlığıdır, yəni büdcəyə daxil olan vəsaitlərin hansı istiqamətə və nə vaxt xərclənməsi ilə bağlı heç bir ekzogen şərtlər olmur. Müasir dövrdə inkişaf etmiş ölkələrin büdcə gəlirlərinin əhəmiyyətli hissəsi vergilərin hesabına formalaşır (mərkəzləşdirilmiş fondlarda təxminən 90%, yerli səviyyələrdə isə 70%). Məsələn, milli məhsulun ABŞ və Yaponiyada 30%-i, Almaniya, Fransa və İsveçdə isə 40-50% -i büdcə vasitəsilə yenidən bölüşdürülür.

Azərbaycanda dövlət büdcəsinin formalaşması və istifadə olunması təcrübəsi, bütövlükdə dünya təcrübəsinə müvafiqdir. Lakin ölkəmizin tranzitiv iqtisadiyyata malik olması, özünü milli büdcə mexanizmi və siyasətinin bəzi xüsusiyyətlərində göstərir. Məsələn, məlum olduğu kimi, iqtisadiyyatın keçid xarakterinə malik olmasının yaratdığı xüsusiyyətlərdən biri iqtisadiyyatda təkrar istehsal strukturunun temp və proposiyalarının qeyri-stabilliyi, onların dinamik dəyişməsi təşkil edir. Lakin nəzərə almaq vacibdir ki, hətta xoşbəxtlikdən indi Azərbaycanda pozitiv xarakter daşıyan dəyişiklər belə, iqtisadi idarəetmədə, iqtisadi siyasətin səmərəliliyi və nəticəliliyi, həmçinin, onun dünya təcrübəsinə müvafiq şəffaflığı və hesabatlılığının təmin edilməsində ciddi çətinliklər yarada bilir. Belə ki, bütövlükdə uğurlu, neft strategiyasının multiplikativ effektinin iqtisadiyyatda yaratdığı müasir inkişaf şəraiti, bir tərəfdən ölkədə maliyyə axınlarının genişlənməsini təmin etməklə iqtisadiyyatın, geniş mənada, adekvat struktur dəyişmələrini şərtləndirir, digər tərəfdən isə iqtisadiyyatın makroiqtisadi tənzimlənməsində yeni vasitənin və metodların istifadəsini zəruri edir. Son

illərin təcrübəsində ölkəmizdə dövlət strukturları və təşkilatlarının bizim təsərrüfatçılıq mexanizmi üçün yeni olan bir sıra əməkdaşlıq formalarından və idarəetmə vasitələrindən, istifadə etməsi, bu baxımdan olduqca əlamətdardır.

Məsələn: – maliyyə vəsaitlərindən sıxıntı çəkməyən Azərbaycan Dövlət Neft Şirkətinin vəsait cəlb etmək üçün xarici banklarla sindikasiya sazişi bağlamaqla yanaşı, xarici ölkələrdə iri investisiya layihələrində iştirakı; – dövlət büdcəsinin sterilizator və qismən maliyyə fondu kimi funksiyalarla təmin edilməsi, – dolayı subsidiyalar kimi yeni "pul alətinin" tətbiqi; – "özünəməxsusluğu ilə" fərqlənən icmal büdcənin tərkibinin daha da "sərbəstləşdirilməsi "; – forma və mahiyyətcə inhisarçı kimi (bir çox hallarda isə əsassız olaraq təbii inhisarçı adlanan) təsərrüfat fəaliyyəti ilə məşğul olan, iri dövlət təşkilatları vasitəsilə dövlət xərclərinin büdcədənkənar istiqamətlərinin genişləndirilməsi və s. indiki şəraitdə iqtisadiyyatda temp və nisbətlərin qeyri-stabilliyinin əsas daşıyıcılarıdır. Sonuncu qeyd olunan subyektiv qiymətləndirmələr, əslində tranzitiv iqtisadiyyatın başqa bir qrup xüsusiyyətlərini əks etdirir. Bu xüsusiyyətlər, iqtisadi idarəetmədə dövlətin iştirakının özəlliklərini ifadə edir. Azərbaycanda isə bu özəlliklər bir sıra səbəblərdən xüsusilə mühüm əhəmiyyət daşıyır. Dünya təcrübəsində, keçid strukturlu iqtisadiyyata malik olan ölkələrdə idarəetmədə dövlət büdcəsinin, əsasən, fiskal və sosial funksiyalarının istifadə olunmasına rast gəlinir. Dövlət büdcəsinin tənzimləyici funksiyasına yetərincə diqqət verilmir. Təəssüf ki, bu baxımdan ölkəmiz istisna deyil. Son 5 ildə, Azərbaycanda dövlət büdcəsinin tənzimləyici rolunun genişləndirilməsinə baxmayaraq, mövcud potensiala və zərurətə rəğmən, bu rol hələ də faktiki olaraq aşağıdır. Bu ikili xarakterli xüsusiyyətdir. Bir tərəfdən, dövlət büdcəsinin formalaşdırılması prosesi, onun tərkibi, illik büdcə qanununun vəzifələri və strukturunun müəyyənləşdirilməsi, büdcə qanununun parlamentdə müzakirələri və qanunun icrasının reqlamentləşdirilməsi, o cümlədən, onun icrasına nəzarətin təşkili və xüsusilə hökumətin büdcənin icrası

ilə bağlı hesabatının qəbul edilməsi mərhələlərində, qanunvericilik səviyyəsində mövcud olan özəlliklər, digər tərəfdən isə dövlətin maliyyə sistemində dövlət büdcəsinin yeri və rolunun mövcud təcrübəsinin yaratdığı şəraitdən doğan xüsusiyyətlər, ölkəmizdə dövlət büdcəsinin tənzimləyici funksiyalarını yetərincə istifadə olunmadığını göstərir .

Əlverişli dünya neft konyunkturu və iqtisadi inkişafın sürətlənməsi sayəsində Dövlətin maliyyə axınları artdıqca, ölkəmizdə dövlət maliyyəsinin strukturunda dövlət büdcəsinin təsiri azalmağa meyillidir. Son illərdə büdcədən kənarda qalan və xüsusi fondlar və proqramlar əsasında istifadə olunan dövlət vəsaitlərinin, mütləq və nisbi həcmi artır. Bu prosesi, müəyyən şərtlər daxilində normal qəbul etməklə, faktiki dövlət xərclərinin büdcədən kənarda reallaşan hissəsinin artmasını, dövlət vəsaitlərinin istifadəsində səmərəlilik, məhsuldarlıq və nəticəlilik baxımından risklərin diversifikasiyası kimi normal qəbul etmək və dəyərləndirmək mümkündür.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycanda dövlət büdcəsinin dövlət idarəetmə sistemində formalaşmış mövqeyi qanunvericilik səviyyəsində təsbit olunmuşdur. Deyilənlərin sübutu baxımından, dövlətin sosial funksiyalarının icrası ilə bağlı qanunvericilik normaları və mexanizmlərinə diqqət yetirmək kifayətdir. Məsələn, mahiyyət və forma etibarilə, sosial ayırmaların toplanması, Dövlət Sosial Müdafiə Fondu (DSMF) vasitəsilə həyata keçirilir. Dövlətin sosial təminat və sosial müdafiə funksiyalarının maliyyələşdirilməsi isə Maliyyə Nazirliyi və DSMF vasitəsilə aparılır. Maraqlıdır ki, sosial funksiyaların icrasında da DSMF digər müvafiq dövlət orqanları ilə birlikdə iştirak edir. Yəni, faktiki olaraq DSMF maliyyə fondu olaraq müəyyən məqsədli dövlət vəsaitlərinin planlaşdırılması, toplanması, maliyyələşdirilməsi, icrası və hesabatlandırılması kimi mühüm funksiyaları özündə cəmləşdirən iqtisadi idarəetmə strukturuna çevrilmişdir.

Dünya təcrübəsində olduğu kimi Azərbaycanda da vahid büdcə təsnifatı mövcuddur. "Büdcə sistemi haqqında" qanuna

əsasən dövlət büdcəsi və bütün büdcədən kənar dövlət fondlarının, o cümlədən, DSMF-nin büdcəsi vahid təsnifata əsasən tərtib olunmalı, icra edilməli və hesabatlandırılmalıdır. Dövlət büdcəsi məhz bu təsnifat əsasında formalaşdırılır. Lakin DSMF büdcəsinin tərtibi, icrası və hesabatlandırılması Azərbaycan Respublikasının Nazirlər Kabinetinin təsdiq etdiyi və vahid təsnifatdan xeyli fərqlənən xüsusi əsasnamə ilə tənzimlənir.

Dövlət büdcəsinin strukturunun qanunvericilik səviyyəsində formalaşmasını səciyyələndirən məqamlardan biri də onun tərkibinə daxil olunan "məqsədli fondlar" və onların istifadə olunması qaydalarıdır. Qeyd etmək vacibdir ki , dövlət büdcələrinin formalaşdırılmasında, məqsədli – proqramlı yanaşmaya əsaslanan nisbi "avtonom" blokların istifadəsi dünya təcrübəsində geniş istifadə olunur və bu müsbət qiymətləndirilməlidir.

Qeyd etmək vacibdir ki, son 12-15 ildə Azərbaycanda dövlət idarəetməsinin digər sahələrində olduğu kimi, iqtisadi qanunvericilik sahəsində də dünya təcrübəsinə və liberal təsərrüfatçılıq prinsiplərinə müvafiq milli idarəetmə bazasının formalaşması sahəsində çox böyük işlər görülmüşdür. Tam əminliklə söyləmək olar ki, artıq ölkəmizdə sivil bazar münasibətlərinin fəaliyyəti üçün yetərincə əhatəli və təkmil baza mövcuddur. Büdcə qanunvericiliyi də əhəmiyyətli dərəcədə təkmilləşdirilmişdir. Geniş müzakirələrdən sonra, 2003-cü ildə qəbul edilmiş və hazırda qüvvədə olan "Büdcə sistemi haqqında" qanun ölkənin büdcə qanunvericiliyinin əsasını təşkil edir. Bu qanun özündən əvvəlki analoji qanunlara nisbətən xeyli proqressivdir, lakin bir çox səbəblərdən bəzi istiqamətlərdə, məsələn, o cümlədən, dünya təcrübəsinə müvafiq şəffaflıq və hesabatlılığın təmin edilməsi tələblərinə tam cavab vermir. Ümumiyyətlə, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası qanunu və onun icrasına xidmət edən digər qanunvericilik aktlarının mühüm özəlliyi, fikrimizcə ondan ibarətdir ki, bu qanunvericilik büdcə prosesində uzun dövr ərzində formalaşmış "qaydaları" köklü dəyişdirmədi. Onun tətbiqindən ötən 5-6 il ərzində bu qanunvericiliyə dəfələrlə müxtəlif dəyişikliklər edilməsi, onun büdcə vəsaitlərinin istifadəsində səmərəlilik

və nəticəliliyin səviyyəsi, büdcə prosesinin şəffaflığı və hesabatlılığı istiqamətlərində təkmilləşdirilməsi üçün ehtiyacı olduğunu göstərir.

Fikrimizcə, ilk növbədə onu qeyd etmək vacibdir ki, "Büdcə sistemi haqqında" qanun, ölkəmizdə büdcə prosesini, büdcə sisteminə daxil olan büdcələri hüquqi və metodoloji baxımdan tam əhatə etmir. Belə məntiqi nəticə, ən azı qanunun 2-ci maddəsində əks olunmuş mülahizələrdən doğur. Belə ki, həmin maddədə qeyd olunur ki, – "Büdcə sistemi haqqında AR qanunvericiliyi AR konstitusiyasından, bu qanundan, bu qanuna müvafiq olaraq hər büdcə ili üzrə qəbul edilən dövlət büdcəsi haqqında qanundan, ***digər qanunlardan, normativ və hüquqi aktlardan,*** habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir." Göründüyü kimi, qanun büdcə prosesinin məntiqi və metodoloji eyniliyə malik vahid qanunvericilik bazası üzrə qurulmasını təmin etmir. Bu problemin həlli yolu kimi müvafiq dünya təcrübəsinə əsaslanaraq Azərbaycan Respublikasının **Büdcə məcəlləsinin** yaradılması zəruridir və artıq bu fikir hətta hökumət orqanları səviyyəsində qəbul edilir. Mövcud qanunda dövlət vəsaitlərinin idarə olunmasında sistemliliyin yaradılmasına xidmət edəcək "İcmal büdcə" institutu təsbit olunmuşdur. Lakin qanunvericilikdə bununla bağlı bəzi normalar formal xarakter daşıdığından, onun formalaşdırılması, icrası və hesabatlılığını qiymətləndirmək faktiki olaraq mümkün deyildir.

Azərbaycanın büdcə qanunvericiliyinin və təcrübəsinin, fikrimizcə, mühüm bir xüsusiyyəti də ondan ibarətdir ki, ölkəmizdə dövlət maliyyəsinin idarə olunması sistemi ilə inzibati dövlət idarəetməsi sistemi bəzi hallarda fərqlənir. Bu özünü, ilk növbədə, onda göstərir ki, yuxarıda qeyd olunduğu kimi, dövlət təşkilatlarının bir qisminin maliyyə resursları büdcə dövriyyəsinə cəlb olunmur, dövlətin sosial-iqtisadi funksiyalarının icrasının təşkili və həmin funksiyaların maliyyələşdirilməsinə büdcədən ayrılan vəsaitlərin idarə olunması səlahiyyətləri və məsuliyyəti müxtəlif dövlət orqanlarına həvalə olunur. Təcrübədə geniş tətbiq olunan bu yanaşma prizmasından büdcə qanunvericiliyində

özünə yer almış bəzi anlayışlar və kateqoriyalar, iqtisadi nəzəriyyə və təcrübə baxımından mücərrəd xarakter daşıyır və ya mahiyyətinə görə istifadə olunmur. Məsələn, toplu maliyyə balansı, yerli gəlirlər və yerli büdcələrin gəlirləri, büdcədənkənar əməliyyatlar, yerli xərclər və s. kimi anlayışlar büdcə qanunvericiliyində müxtəlif anlamlarda istifadə olunmaqla büdcə prosesinin şəffaflığına əhəmiyyətli təsir edir.

Dövlət büdcəsi haqqında qanunvericiliyi xarakterizə edən mühüm məqamlardan biri də dövlət büdcəsi haqqında illik qanunun strukturu və onun hesabatlandırılması prosedurudur. Ən mühüm məsələ ondan ibarətdir ki, büdcə qanunu və onun icrası haqqında hesabat çox yüksək icmallaşdırma, aqreqasiya səviyyəsinə malikdir. Məsələn, ilin dövlət büdcəsi haqqında qanunun strukturunda büdcə prosesinin bütün iştirakçılarına ayrılacaq vəsaitlərin həcmi əks olunmur.

Büdcə proseslərinin son dövrlərdəki təkmilləşdirilməsi təcrübəsi daha çox bu prosesdə səlahiyyətlərin qanunverici orqandan icra orqanlarına ötürülməsi ilə səciyyələnir. Məsələn, Büdcə sistemi haqqında qanuna edilmiş son dəyişiklərə görə təsdiq olunmuş dövlət büdcəsinin xərc maddələri arasında yenidən bölgünün aparılması mexanizminin sadələşdirilməsi, büdcənin "sərbəst" vəsaitinin idarəetməyə verilməsi kimi qaydaların tətbiqini nümunə göstərmək olar. Büdcə vəsaitlərinin istifadəsində milli qanunvericiliyimizin mühüm bir xüsusiyyəti nəzərdə tutulmuş büdcə xərclərinin maliyyələşdirilməsinin, "vəsaitlərin daxil olması" ilə birbaşa bağlanması haqqında qanunvericilik normasıdır. Bu normaya görə, büdcənin qanunvericiliklə qorunan xərc maddələri istisna olmaqla, digər xərc maddələri nəzərdə tutulmuş gəlirlərin daxil olmasından asılı olaraq maliyyələşdirilir.

Fikrimizcə, dövlət büdcəsinin formalaşdırılmasında dünya təcrübəsində daha çox istifadə olunan **büdcə xərclərinin idarə olunmasından, alınmış nəticələrin idarə olunmasına keçilməsi** vacibdir. Belə yanaşma, büdcə alıcılarının büdcə vəsaitlərinin istifadəsi zamanı böyük sərbəstlik qazanmasına gətirib çıxarır. Düzgün qurulmuş dövlət maliyyə nəzarəti sayəsində isə bu halda

büdcə sərəncamçılarının dövlət vəsaitlərindən daha qənaətli və məhsuldar istifadəsinə nail olmaq mümkündür.

Büdcə qanunvericiliyində vəsaitlərin istifadəsinin səmərəliliyi, məhsuldarlığı, nəticəliliyi, şəffaflığı və hesabatlılığı baxımından zəif məqamlardan biri, fikrimizcə, büdcənin icrası və ona nəzarətlə bağlıdır. Qanunvericilikdə təsbit olunmuş normalara görə, büdcənin icrası ikimərhələli xarakter daşıyır. Hər iki mərhələ xəzinədarlıq vasitəsilə həyata keçirilir. İkin mərhələdə büdcə təşkilatı ona ayrılmış vəsaitin təşkilatın xəzinə hesabına köçürülməsi üçün, sonrakı "Kassa icrası" mərhələsində isə müvafiq hesabların ödənilməsi üçün müvafiq xəzinə orqanlarına müraciət etməlidir. Təcrübədə, ən azı, bürokratik maneələri azaltmaq üçün təşkilatlar həmişə birinci mərhələdə mümkün qədər çox vəsaiti öz xəzinə hesablarına köçürməyə çalışır və nəticədə təşkilatın hesabında istifadə olunmayan vəsaitlər yığılır. Beləliklə, vahid xəzinədarlığın əsas prinsipləri pozulur və nəticə etibarilə, il ərzində vəsaitlərin istifadəsi və ehtiyatları haqqında vahid xəzinə hesabının obyektiv informasiya potensialını aşağı salır.

Azərbaycanın büdcə qanunvericiliyinin dövlət vəsaitlərinin istifadəsinin səmərəliliyi, məhsuldarlığı, nəticəliliyi, büdcə prosesinin şəffaflığı və hesabatlılığı baxımından mühüm özəlliklərindən biri də büdcənin formalaşdırılması, icrası və hesabatlandırılmasına dövlət və ictimai nəzarətin təmin edilməsi normalarıdır. Ölkəmizdə, Büdcə Sistemi haqqında, Hesablama Palatası haqqında və digər qanunvericilik aktlarında dövlət maliyyə nəzarətinin təşkili üzrə müəyyənləşmiş normaların, müvafiq dünya təcrübəsi baxımından təkmilləşdirilməyə ehtiyacı vardır. Qanunda, dövlət büdcəsinin icrasına nəzarət mexanizmi verilmişdir. Belə nəzarət iki dövlət orqanına – Hesablama Palatasına və müvafiq icra hakimiyyəti orqanına (Maliyyə Nazirliyi) tapşırılmışdır. Eyni zamanda, Azərbaycanda mövcud dövlət idarəetmə təcrübəsində bir sıra digər dövlət orqanları da öz fəaliyyət sferaları üzrə nəzarət funksiyalarına malikdir. Lakin bütövlükdə və ya əksər hallarda, bu orqanların nəzarət səlahiyyətləri və məsuliyyət dairələri vahid qanunvericiliklə müəyyənləşdirilməmişdir.

Azərbaycanda dövlət iqtisadi idarəetmə sisteminin qanunvericiliyini şəffaflıq və hesabatlılıq baxımından xarakterizə edən mühüm xüsusiyyətlərindən biri dövlət maliyyə nəzarətinin təşkili, onun proqressiv dünya təcrübəsinə müvafiq qaydada, daxili və kənar səviyyələrinin qanunvericilik müstəvisində ayrılmaması, onların səlahiyyət və fəaliyyət dairələrinin dəqiq müəyyənləşdirilməməsidir. Məsələn, dünya təcrübəsində geniş tətbiq olunan və Lima bəyannaməsində əks olunmuş "kənar nəzarətin üstünlüyü" prinsipi bizim qanunvericilikdə tətbiq olunmur.

Dünya təcrübəsində, ali kənar nəzarət orqanlarına, hətta daxili nəzarət standartlarının hazırlanması həvalə olunur. Məsələn, ABŞ-da hələ 1950-ci ildə qəbul olunmuş "Büdcə proseduraları və mühasibat uçotu proseduraları" adlı qanun ABŞ-ın Baş nəzarət idarəsinə hökumət üçün mühasibat uçotu, maliyyənin idarə olunması və daxili nəzarət standartlarının hazırlanmasını tapşırmışdır.

Kənar nəzarət orqanı nəzarətin keyfiyyətinin yüksək səviyyəsini təmin etmək üçün aşağıdakı metodları istifadə etməklə xüsusi monitorinq sistemini formalaşdırmalıdır:

a) "Soyuq yoxlamalar" (cold reviews) – aparılmış nəzarət tədbirindən sonra auditorların fəaliyyətinin onlara münasibətdə müstəqil olan digər auditorlar tərəfindən kompleks yoxlanılmasıdır.

b) "Qaynar yoxlamalar" (hot reviews) – auditin keyfiyyətinə onun gedişi prosesində nəzarətin aparılmasıdır.

c) Əməkdaşların kompetentliyinin kompleks yoxlanılması (reviews of competence).

e) Özəl ixtisaslaşmış firmalar və ya digər ali audit orqanları tərəfindən kənar yoxlamaların aparılması.

Azərbaycanda dövlət büdcəsinin formalaşdırılması və icrası qanunvericiliyinin qısa xarakteristkası, milli iqtisadi qanunvericiliyin, iqtisadi inkişafın səviyyəsinə və iqtisadi strukturun formalaşmış xüsusiyyətlərinə çevik uyğunlaşması zərurətini bir daha göstərir. Ölkəmizdə iqtisadi inkişafın son 5 ildəki gedişinin,

dövlət büdcəsinin evolyusiyasında əksini ifadə edən, aşağıda verilən qiymətləndirmələr fikrimizin subutu hesab edilə bilər.

2004 ilin Dövlət büdcəsi. İlk dəfə olaraq "2004-cü ilin dövlət büdcəsi" layihəsi yeni "Büdcə sistemi haqqında" qanunun tələblərinə müvafiq hazırlandığından əvvəl illərlə müqayisədə daha çox informasiya daşımışdır. Parlamentə təqdim edilmiş büdcə zərfinə ənənəvi məlumatlardan başqa, ölkəmizdə ilk dəfə tərtib olunan büdcə ilindən sonrakı 3 il üçün makroiqtisadi proqnozları və dövlət büdcəsinin göstəriciləri proqnozu, tamamilə yeni olan icmal büdcə, ölkənin daxili və xarici borcları haqda məlumat, büdcə gəlirləri və xərclərinin paraqraf və xərc maddələri kəsimində strukturu və s. kimi məlumatlar daxil edilmişdir. Bu məlumatlar toplusu "2004-cü ilin dövlət büdcəsi haqqında"kı qanun layihəsinin dövlət vəsaitlərinin formalaşması və istifadəsində şəffaflığın artırılması yönümündə irəliyə doğru çox böyük addım olduğunu göstərir. Qanunvericiliyə müvafiq olaraq qanun layihəsinin Parlament tərəfindən kütləvi informasiya vasitələrində nəşri, əslində onun geniş xalq kütləsinin müzakirəsinə çıxarılması olmuşdur.

Büdcə gəlirlərinin vergi və qeyri-vergi gəlir növləri üzrə əhəmiyyətli artım müşahidə olunur. Büdcə xərclərinin artım sürəti gəlirlərinin artım sürətindən 2 bənd çox proqnozlaşdırılması müsbət faktor kimi dəyərləndirilir. Nəzərə almaq vacibdir ki, daxili bazarın potensial tələbinin aktiv iqtisadi dövriyyəyə cəlb edilməsinin stimullaşdırılması iqtisadi inkişafın dövlət tərəfindən tənzimlənməsinin ən mühüm vəzifələrindən biridir. Həmin dövrdə Azərbaycanda bu sahədə cəlb olunmamış potensialın xeyli böyük olduğunu nəzərə alaraq xərclərin üstün artımı məqsədəuyğun hesab edilməlidir. Xərc maddələri üzrə artım sürəti müxtəlif olmuşdur. Ən böyük artım "əməyin ödənişi" fondu üzrədir. Bu ölkədə aparılan büdcə siyasətinin "sosial yönümlüyünün" təzahürü və bilavasitə nəticəsidir. Xərclərin strukturunu xarakterizə edən daha başqa bir cəhət, onların cari tələbə istiqamətləndirilməsi narahatlığı və bu səbəbdən "gələcəyə xidmət" etməməsi hesab oluna bilər.

2004-cü ilin dövlət büdcəsi layihəsi üzrə bütövlükdə aşağıdakı qiymətləndirmələr mümkündür.

- dolayı subsidiyanın həcminin büdcə vəsaitinə aid edilməsi daha məqsədəuyğun hesab olunarsa, onda bu büdcənin gəlir və xərclərinə aid edilməlidir; icmal büdcənin tərtib olunması son dərəcə müsbət addım olsa da, büdcələrarası transferlərin təkmil mexanizminin formalaşmaması dövlət büdcəsinin şəffaflığına xələl gətirir;
- büdcənin bəzi qeyri-vergi gəlirlərinin cəlb olunması mexanizmi formalaşdırılmadığından belə gəlirlərin mənbəyini və ödəmə qrafikinin müəyyənləşdirilməsi subyektiv xarakter daşıyır. Ona görə də, onların büdcəyə cəlbinin məqsədəuyğunluğunun müəyyənləşdirilməsi çətinləşir;
- "dövlət müəssisələrinin büdcədənkənar vəsaitlərinin" cəlbi və istifadəsi mexanizmi qeyri-korrektdir. Belə vəsaitlərin potensialının proqnozlaşdırılması mexanizmi yoxdur. Onların təklif olunan qaydada istifadəsi isə mövcüd xərc normativlərinin pozulmasına gətirə bilər. Çünki, büdcədə müvafiq xərclər "sair xərclər" adı ilə verilir və gəlirdə olan qədər nəzərdə tutulur.

2004-cü ilin dövlət büdcəsi, qeyd edildiyi kimi "Büdcə sistemi haqqında" qanunun ilk tətbiqi təcrübəsidir. Ona görə də, artıq bü təcrübədən çıxış edərək qeyd etmək olar ki, bəzi çatışmazlıqların həlli üçün "Büdcə sistemi haqqında" Qanuna bir sıra zəruri düzəlişlərin aparılması, ilk növbədə isə "Büdcə sistemi haqqında" qanunla nəzərdə tutulmuş "Vahid büdcə təsnifatı" və "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın qəbul edilməsi zərurəti özünü bir daha göstərmişdir. Bütövlükdə, isə "Büdcə sistemi haqqında" Qanun büdcə qanunvericiliyində irəliyə doğru iri addım hesab olunsa da, o inkişaf prosesində "aralıq" mərhələdir. Bu qanunun dövlət vəsaitlərinin formalaşdırılması və istifadəsinin bütün mərhələlərini əhatə edən, onun effektliliyi və səmərəliliyinin təmin olunmasını həyata keçirən, vahid maliyyə nəzarəti sistemini formalaşdıran "Büdcə Məcəlləsi" səviyyəsinə çıxarılması, hələ bu dövrdən dövlətin iqtisadi idarəetmə sisteminin islahatlarını getdikcə daha da aktuallaşan vəzifəsidir.

2005-ci il hökumətin "Büdcə zərfi" daxilində parlamentə təqdim etdiyi "Azərbaycan Respublikasının 2005-ci il və sonrakı üç il üçün iqtisadi, sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri" əsasında 2005-ci ildə ölkədə gözlənilən makroiqtisadi şəraiti bütövlükdə aşağıdakı kimi xarakterizə etmək mümkündür:

- İqtisadiyyatın liberallaşdırılması və makroiqtisadi tarazlığın stabilliyi meyarlarına cavab verən iqtisadi islahat kursu yeni büdcə ilində qorunacaqdır; dövlətin iqtisadiyyata müdaxiləsinin forma və mahiyyəti dəyişməkdə davam edir. Dövlətin bilavasitə iqtisadi fəaliyyətdə xüsusi çəkisi 2005-ci ildə də azalmaqda davam edir; dünya neft bazarında güclənən əlverişli konyunktura ölkənin iqtisadi inkişafının sürətlənməsində kənar faktorların təsirini artırır.

- İqtisadi inkişafın sosial yönümlüyü ÜDM-in yenidən bölgüsü nisbətlərinin artması vasitəsilə daha da yüksəlir. Lakin iqtisadiyyatın cari vəziyyətinin qiymətləndirilməsi, statistik və mühasibat uçotu sisteminin yenidən qurulması, iqtisadi islahatların ümumi gedişindən geri qalır. Ona görə də, bir sıra struktur formalaşdırıcı göstəricilər, məsələn, inflyasiya səviyyəsi, deflyator siyasəti, gömrük və bank uçotu və s. kimi qarşılıqlı əlaqəyə malik parametrlər arasında sinxronlaşma zəif gedir və bu real şəraitin obyektiv qiymətləndirilməsinə mane olur.

Bütün bunlarla bərabər hökumətin proqnozları və bəyan etdiyi hədəflərə görə, ölkədə gözlənilən makroiqtisadi şərait dövlət büdcəsinin son illərdə formalaşmış xarakterinin 2005-ci ildə saxlanılmasına, onun tarazlığının və dayanıqlığının gücləndirilməsinə əlverişli imkan yaradır.

Büdcə sənədlərində büdcə gəlirlərinin bütün ənənəvi kanalları, o cümlədən, maliyyə təşkilatlarından büdcəyə daxil edilmiş vergi və qeyri-vergi gəlir növləri üzrə əhəmiyyətli artım müşahidə olunur. Bütövlükdə isə büdcə gəlirlərinin ayrı-ayrı növlər üzrə proqnozlarında makroiqtisadi inkişaf şəraiti və gəlir növlərinin qarşılıqlı əlaqəsi baxımından harmoniklik müşahidə olunmur. Hökumətin izahında belə məqamların şərhi verilmir. Büdcə

zərfinin materialları isə yetərli olmadığından müvafiq proqnozların etibarlılığını qiymətləndirmək mümkün olmur.

Həmin ildə büdcə xərclərinin artım sürəti gəlirlərinin artım sürətindən 8,3 faiz bəndi çox proqnozlaşdırılmışdır. Nəzərə almaq vacibdir ki, qeyd olunduğu kimi, daxili bazarın potensial tələbinin aktiv iqtisadi dövriyyəyə cəlb edilməsinin stimullaşdırılması iqtisadi inkişafın dövlət tərəfindən tənzimlənməsinin ən mühüm vəzifələrindən biridir. Eyni zamanda, Azərbaycanda bu sahədə cəlb olunmamış potensialın böyük olduğunu nəzərə alaraq xərclərin üstün artımı məqsədəuyğun qiymətləndirilir.

Xərc maddələri üzrə artım sürəti müxtəlif olmuşdur. Ən böyük artımın əsas vəsaitlərin alınması maddəsi üzrə olmasını isə ölkədə aparılan büdcə siyasətində vurğuların tədricən dəyişilməsinin təzahürü kimi dəyərləndirmək olar. Lakin xərclərin strukturunu xarakterizə edən daha başqa bir cəhət onların hələ də, əsasən, cari tələbə istiqamətləndirilməsi səbəbindən potensial inkişaf effektinin zəif olması hesab edilə bilər. Bu baxımdan, investisiyayönümlü xərclərin xüsusi çəkisinin, hələ də kiçik olması arzuolunmaz faktor hesab edilməlidir. Xərclərin istifadəsinin effektivliyi həm də əhəmiyyətli dərəcədə onların əsas sərəncamçılar arasında düzgün bölüşdürülməsindən asılıdır. Büdcə xərclərinin strukturuna bütövlükdə qiymət verərkən, onların "Büdcə zərfinə" daxil edilmiş sahə proqramları ilə əlaqəsinin olmaması xüsusi qeyd olunmalıdır. Ümumiyyətlə, dövlət büdcəsinin ölkədə fəaliyyətdə olan dövlət proqramlarının maliyyələşdirilməsində iştirakı "Büdcə zərfi" materiallarından görünmür. 2005-ci ilin dövlət büdcəsi layihəsi haqda bütövlükdə aşağıdakıları qeyd etmək mümkündür:

- Yeni vahid büdcə təsnifatı artıq qüvvəyə mindiyindən büdcə hesablamalarının ona uyğunlaşdırılması, büdcənin icrası və icraya nəzarət üçün son dərəcə vacibdir. Lakin qanun layihəsində bir sıra hallarda qüvvədə olan Büdcə təsnifatının pozulması faktları qalmışdır. Digər tərəfdən "Büdcə zərfi"ndə İcmal büdcənin tərkibinə daxil olan büdcələrarası transfertlərin reqlamenti və mexanizmi açıqlanmır.

2006-cı il "2006-cı ilin dövlət büdcəsi haqqında" qanun layihəsində əks etdirilmiş parametrlər hökumətin hazırladığı makroiqtisadi proqnozlara müvafiq olmuşdur. Bununla belə əvvəlki illərdə "formalaşmış" bəzi makroiqtisadi göstəricilərin və müvafiq gəlir göstəricilərinin proqnozlaşdırılmasında "ehtiyatlı qiymətləndirmə" meyli yenə hiss olunmuşdur.

Hökumətin qiymətləndirmələri əsasında 2006-cı ildə ölkədə gözlənilən makroiqtisadi şəraiti bütövlükdə aşağıdakı kimi xarakterizə etmək mümkündür:

- İqtisadiyyatın dövlətsizləşdirilməsi, liberallaşdırılması və makroiqtisadi tarazlığın stabilliyi meyarlarına cavab verən iqtisadi islahat kursu qarşıdakı ildə qorunacaqdır.
- Sosial - iqtisadi inkişaf konsepsiyası və makroiqtisadi proqnozlar yaranmış baza üzərində inkişaf meylinin ekstrapolyasiyası xarakteri daşıyır. Belə ki, büdcə vəsaitlərinin, xüsusilə investisiya xərclərinin "inkişafa xidmət" potensialının qiymətləndirilməsi mexanizmi yoxdur.

Bütün bunlarla bərabər ölkədə gözlənilən makroiqtisadi şərait dövlət büdcəsinin son illərdə formalaşmış xarakterinin 2006-cı ildə saxlanılmasına, onun tarazlığının və dayanıqlığının gücləndirilməsinə əlverişli imkan yaradır.

Büdcənin gəlirləri üzrə çox böyük artım baş vermişdir. Bu, ilk növbədə, ölkənin iqtisadi inkişaf səviyyəsinin yüksəlməsi, böyük "neft gəlirinin" daxil olmağa başlaması və ən mühümü iqtisadi siyasətdə son illərdə güclənən sosial inkişafa diqqətin daha da artması ilə izah oluna bilər. Dövlət büdcəsi gəlirlərinin artımının nisbi strukturu isə tarazlı deyildir. Normalaşmış yığım mexanizminə malik olan vergi gəlirləri əsas mövqedə olsa da, onların xüsusi çəkisinin azalması meyli sürətlənir. Məsələn, 2004-cü ildə Vergi gəlirlərinin payı 81,6% 2005-ci ildə 79,7% olduğu halda, 2006-cı ildə onun xüsusi çəkisinin 72,45%-ə qədər düşəcəyi proqnozlaşdırılır.

Bütövlükdə büdcə gəlirlərinin ayrı - ayrı növlər üzrə gələn il gözlənilən proqnozlarında makroiqtisadi inkişaf şəraiti və gəlir növlərinin qarşılıqlı əlaqəsi baxımından harmoniklik müşahidə

olunmur. Büdcə xərclərinin bütövlükdə sürəti böyükdür və maddələr üzrə artım sürəti müxtəlifdir. Ən böyük artım qeyri-maliyyə aktivləri və o cümlədən, əsas vəsaitlərin alınması maddəsi üzrədir. Bu meyli də ölkədə aparılan büdcə siyasətində vurğuların tədricən dəyişilməsinin təzahürü kimi dəyərləndirmək olar.

2006-cı ildə dövlət büdcəsinin qanunvericilik bazasının təkmilləşdirilməsi davam etdirilmişdir. Artan maliyyə axınlarının daha səmərəli idarə olunması, dövriyyədə inflyasiya təzyiqinin yumşaldılması və dövlət büdcəsinin tənzimləyici rolunun yüksəldilməsi istiqamətində büdcə prosesinə bir sıra çox mühüm yeniliklər daxil edilmişdir. Burada, ilk növbədə, dövlət büdcəsinin vahid xəzinə hesabında olan sərbəst qalığın idarəetməyə verilməsi; dövlət büdcəsi gəlirlərinin xarici valyutada daxil olan hissəsinin konvertasiya edilmədən büdcənin müvafiq valyutada xərclərində istifadə edilməsi; birdəfəlik təyinatlı xərclər üzrə yaranmış qənaətdən səmərəli istifadə olunması aid edilir. Son illərin büdcə təcrübəsindən yaranan bu yeniliklər dövlət büdcəsinin həm də güclü "sterilizator" potensialını əks etdirir.

2007-ci il. Son illərdə olduğu kimi "2007-ci ilin dövlət büdcəsi haqqında" qanun layihəsində əks etdirilmiş parametrlər də hökumətin hazırladığı makroiqtisadi proqnozlara uyğun olmuşdur. Bununla belə son illərdə "formalaşmış" bəzi makroiqtisadi göstəricilərin və müvafiq gəlir göstəricilərinin proqnozlaşdırılmasında "ehtiyatlı qiymətləndirmə" meyli hələ qalmışdır. Lakin 2004-cü, 2005-ci və 2006-cı ilin II yarısı üçün dövlət büdcəsinə düzəlişlər olunması sübut edir ki, hökumətin proqnozlaşdırmada "ehtiyatlılığı" üçün ciddi zərurət olmamışdır.

Son illərdə olduğu kimi 2007-ci ildə də ümumi iqtisadi inkişafa müvafiq olaraq büdcə gəlirlərinin artımının baş verəcəyi proqnozlaşdırılır. Büdcə gəlirlərinin artım sürətinin ÜDM-in artım sürətindən daha yüksək olması hökumətin büdcənin tənzimləyici rolunu yüksəltmək meyli kimi müsbət qiymətləndirilir.

Büdcə gəlirlərinin strukturunda da müsbət dəyişikliklər vardır. Bu baxımdan, ilk növbədə, ümumi gəlirlər sırasında "vergi

daxilolmaların" artması meylinin bərpa olunması qeyd edilməlidir.

Bunlarla yanaşı büdcə gəlirlərinin ayrı - ayrı növlər üzrə gələn il gözlənilən proqnozlarında makroiqtisadi inkişaf şəraiti və gəlir növlərinin qarşılıqlı əlaqəsi baxımından bir sıra hallarda yenə də harmoniklik müşahidə olunmamışdır.

2007-ci ildə büdcə xərclərinin artım səviyyəsi 44,9 % olmaqla ÜDM-in artım səviyyəsini üstələmişdir. Eyni zamanda xərclərin istiqamətləri üzrə təhlili göstərir ki, ən böyük artım qeyri-maliyyə aktivləri və o cümlədən, əsas vəsaitlərin alınması maddəsi üzrə olmuşdur. Bunu ölkədə aparılan büdcə siyasətində vurğuların 2006-cı ildən başlayan dəyişilməsinin davamı kimi dəyərləndirmək olar.

2007-ci ilin dövlət büdcəsi layihəsi haqda bütövlükdə aşağıdakılar qeyd etmək olar:

- İcmal büdcənin tərkibində dolayı subsidiyalar, xarici kreditlər, sair daxilolmalar kimi, yeni bölmələr verilmişdir. Bu mövcud "Büdcə sistemi" haqqında qanunda nəzərdə tutulmayıb. Lakin bu vəsaitlərin icmal büdcənin gəlir və xərclərinə aid edilməsi büdcə potensialını xeyli artırır;
- Büdcə təşkilatlarının büdcədənkənar vəsaitlərinin büdcəyə cəlbi və istifadəsi mexanizmi ötən illərdə olduğu kimi yenə də yaradılmamışdır. Belə vəsaitlərin potensialının proqnozlaşdırılması mexanizmi yoxdur.

2008-ci il "Azərbaycan Respublikasının 2008-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunun layihəsi və "Büdcə zərfinə" daxil edilmiş digər əsaslandırıcı sənədlərin analitik təhlili göstərir ki, 2008-ci ildə və sonrakı üç ildə ölkəmizdə böyük neft gəlirlərinin aktiv dövriyyəyə cəlbinin sürətlənməsi davam edəcəkdir. Dünya təsərrüfat sistemində yüksələn xətlə davam edən əlverişli neft konyunkturası Azərbaycan iqtisadiyyatının imkanlarını getdikcə artırır. "Büdcə zərfinin" tərkibinə 2008-ci il üçün yaşayış minimumu və ehtiyac meyarının müəyyənləşdirilməsi haqda qanun layihələrinin daxil edilməsi və ilk dəfə olaraq 2008-2011-ci illər üçün dövlət investisiya proqramının əsas istiqamətləri və layihələrin siyahısının əlavə edilməsi isə müzakirə olunan zərfin təkmilliyini təzahür edir.

Yeni maliyyə ilinin büdcə prosesini fərqləndirən mühüm cəhətlərdən biri, son illərdə ilk dəfə olaraq qarşıdakı ildə vergi qanunvericiliyinin təkmilləşdirilməsi haqda təkliflərin "Büdcə zərfinin" müzakirəsindən əvvəl nəzərdə tutulmasıdır.

2008-ci ildə dövlət büdcəsinin xərclərinin əvvəlki illərdən fərqli olaraq daha aşağı artım sürəti ilə planlaşdırılması, hökumətin sürətli inkişaf şəraitində iqtisadiyyatda inflyasiya təzyiqinin yumşaldılması və dayanıqlı inkişafın təmin edilməsi məqsədlərinə istiqamətlənməsi kimi qiymətləndirilə bilər.

Qarşıdakı ildə də büdcə gəlirlərinin artım sürətinin ÜDM-in artım sürətindən daha yüksək nəzərdə tutulması hökumətin büdcənin tənzimləyici rolunu yüksəltmək meyli kimi müsbət qiymətləndirilməlidir.

Büdcə gəlirlərinin strukturunda da əsaslı dəyişikliklər vardır. Bu baxımdan, ümumi gəlirlər sırasında qeyri-vergi dövlət gəlirlərinin payının artması meylinin bərpa olunması qeyd edilməlidir.

2008-ci ildə büdcə xərclərinin artımının ÜDM-in artım səviyyəsini üstələyəcəyi gözlənilir. Xərclərin istiqamətləri üzrə təhlili göstərir ki, ən böyük artım qeyri-maliyyə aktivləri, o cümlədən, əsas vəsaitlərin alınması maddəsi üzrədir. Eyni zamanda, büdcə xərclərinin strukturunun tarazlaşdırılması meyli hiss olunur. Bu isə ölkənin iqtisadi inkişafında dayanıqlığın gücləndirilməsinin təzahürü kimi qiymətləndirilə bilər.

Büdcə siyasətində son illərdə baş verən bir sıra mühüm dəyişikliklərin yuxarıdakı qısa şərhi göstərir ki, dövlət büdcəsi bir iqtisadi kateqoriya kimi çox mühüm siyasət vasitəsidir. Digər tərəfdən bu büdcə siyasəti ölkənin iqtisadi inkişaf səviyyəsini ən yaxşı təzahür etdirən mühüm vasitədir. Azərbaycanda isə bu siyasət alətinin əhəmiyyəti daha böyükdür. Çünki ölkəizdə iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas təsir vasitələri məhz dövlət büdcəsidir.

FƏSİL 6. SOSİAL SİYASƏTİN ƏSASLARI

6.1. Sosial siyasət: mahiyyəti, formaları, məqsədləri və modelləri

Əməli baxımdan sosial-siyasət dedikdə adətən əhalinin həyati təminatına yönəlmiş konkret fəaliyyət və tədbirlər sistemi (kompleksi) başa düşülür. Tədbirlərin təşəbbüsçüsü və icraçılarından asılı olaraq sosial siyasətin –dövlət, regional, korporativ və s. növləri fərqləndirilir. Lakin sosial siyasətə belə yanaşma bitkin hesab oluna bilməz. Çünki ən azı, belə yanaşmada qeyd olunan tədbirlər və ya fəaliyyətin olmaması sosial siyasətin olmaması kimi dəyərləndirilməlidir. Bu isə mümkün deyildir. Sosial siyasət səhv, zəif və ya qeyri-rəvan ola bilər. Məsələ ondadır ki, elmi prizmadan sosial siyasət, geniş mənada, sosial qruplar və cəmiyyətin sosial təbəqələri arasında qarşılıqlı münasibətlər və fəaliyyət münasibətlərini əhatə edir. Belə münasibətlərin mərkəzində isə insanın rifahı, onun sosial müdafiəsi və sosial inkişafını, bütövlükdə əhalinin sosial təhlükəsizliyi və həyati təminatını əhatə edən məqsədlər dayanır. Başqa sözlə, sosial siyasət çoxcəhətli və mürəkkəb strukturlu anlayışdır. Onun predmeti və obyekti çox səviyyəli və sistemli olmaqla bərabər qeyri-xətti xarakterlidir.

Sosial siyasətin obyekti və predmetini sosial əmək münasibətləri sferasının (SƏMS) qarşılıqlı əlaqəli elementləri təşkil edir.

Sosial əmək münasibətləri sferası (SƏMS) işçi qüvvəsinin geniş təkrar istehsalı prosesinin üç fazasını əhatə edir:

- sosial sfera, yəni sosial-mədəni kompleks sahələri;
- əmək bazarı, əhali məşğulluğu, kadr hazırlığı və yenidən hazırlıq;
- məhsuldar əməyin motivasiyası sferaları (əməyin ödənişinin təşkili, həyat səviyyəsi və s.).

Təcrübədə SƏMS-ə aşağıdakı elementlər aid edilir:

- sosial sfera sahələri (təhsil, səhiyyə, mədəniyyət, idman, turizm, mənzil-kommunal sektoru və s);
- əmək bazarı, məşğulluq, işsizlik;

- sosial əməkdaşlıq;
- əməkhaqqı və əməyin qorunması;
- sosial sığorta;
- pensiya sistemi və s.

Sosial siyasət və sosial əmək münasibətləri sferası passiv xarakterli deyildir. Özünü təminat və inkişaf üçün ciddi maliyyə resursları tələb edən hər iki proses, aktiv şəkildə iqtisadiyyata, iqtisadi artıma, ÜDM-in dinamikasına, bütövlükdə cəmiyyətin tərəqqiyə istiqamətlənmiş inkişaf trayektoriyasına təsir edir. Məşğulluğun səmərəli təşkili, əmək, təhsil sistemi, səhiyyə, mədəniyyət və s. sahələrin ciddi stimullaşdırılması sistemi yaradılmadan, istehsalı inkişaf etdirmək və digər sosial iqtisadi parametrləri zəruri səviyyəyə qaldırmaq mümkün deyildir. Məhz, bu baxımdan, dövlətin sosial siyasətdə iştirakı olduqca vacibdir. Başqa sözlə, sosial siyasət və sosial əmək münasibətləri sistemi cəmiyyətə, iqtisadiyyata, bütün səviyyəli büdcələrin gəlir hissələrinin formalaşmasına əks təsir edir. Dünya təcrübəsi göstərir ki, belə təsirin səmərəsi, ilkin sərf olunmuş resurslardan əhəmiyyətli dərəcədə çoxdur.

Sosial siyasətin realizasiyasının səmərəliliyi əhəmiyyətli dərəcədə iqtisadi inkişafdan, büdcə təminatından, dövlətin maliyyə ehtiyatlarından asılıdır. Eyni zamanda, sosial siyasət və onun əsasını təşkil edən sosial-əmək münasibətləri sferası iqtisadi artım, maliyyə axınları və büdcə siyasətinə fəal təsir edə bilər və etməlidir. Belə məntiqi nəticə müasir neoliberalizmin hər iki ən mühüm nəzəri istiqaməti – monetarizm və keynsçi inkişaf nəzəriyyələrinin mahiyyətindən doğur.

Beləliklə, aydın olur ki, iqtisadiyyat və sosial siyasət üzvi əlaqəli və qarşılıqlı asılıdır. Ona görə də bütün ölkələrdə, bu iki istiqamətin uzlaşdırılmasını təmin etmək üçün, müxtəlif səviyyələrdə sosial siyasətin prioritetlərinin düzgün və düşünülmüş seçiminə xüsusi diqqət verilir.

Sosial siyasət – əhalinin bütövlükdə və onun tərkibini təşkil edən sosial icmaların (ailə, xalq, şəhərin, kəndin, regionun əhalisi və s.), sosial demoqrafik, sosial həmkar qruplarının, sosial

təbəqələrin və siniflərin sosial vəziyyətinin qorunması, saxlanılması və dəyişdirilməsi prosesində yaranan qarşılıqlı münasibətlərdir.

Göründüyü kimi, sosial siyasətin əsas mövzusu xalqın bütövlükdə və ayrı-ayrı hissələri kəsimində sosial vəziyyəti məsələləridir. Sosial vəziyyət əhali və onun tərkib hissələrinin həyati fəaliyyətinin əsas kompleks xarakteristikasıdır. Sosial vəziyyət cəmiyyətin struktur hissələrinin yaranması və mövcudluğunun ictimai şərtlərini təşkil edən mühüm faktorlar sisteminin (səbəblər) təsiri ilə formalaşır.

Belə ictimai şərtlərə cəmiyyətin ictimai quruluşu, cəmiyyətdə mülkiyyət hakimiyyət münasibətləri, iqtisadi şərait, ekoloji təhlükəsizlik və sosial müdafiə şərtləri aid edilir. Sosial vəziyyətin parametrlərini – onun əsas ölçü meyarları, kəmiyyət və keyfiyyət xarakteristikaları təşkil edir.

Belə problemlər sistemi sosial vəziyyətin kompleks qiymətləndirilməsində, onun real proqnozlaşdırılan və proqramlaşdırılan vəziyyətinin dəyərləndirilməsində əsas götürülür. Bu parametrlər həm də rifah halının nisbi səviyyələrinin kəmiyyət qiymətləndirilməsi zamanı istifadə edilir (kasıblıq, varlılıq, yoxsulluq və s.).

Sosial siyasətin subyektləri – insanlar və sosial qruplar, həmçinin onları təmsil edən və onların maraqlarını müdafiə edən, sosial sferada real fəaliyyət göstərən institutlar, hakimiyyət orqanları və təşkilatlardır. Sosial siyasətin əsas subyekti sosial siyasəti həyata keçirən dövlətdir.

Dövlətin sosial siyasəti – dövlətin sosial sferada müəyyən mərhələli nəticələrə hədəflənən, zəruri maddi, təşkilati - təbliğat resurslarla təmin olunan və konkret tarixi-ictimai şəraitə müvafiq məqsədləri ehtiva edən fəaliyyətidir.

Müasir dünya təcrübəsində isə sosial siyasət demokratik dövlətlə vətəndaş cəmiyyətinin birgə funksiyası hesab olunur. Bununla bərabər cəmiyyətin bütövlükdə və tərkib hissələri kəsimində sosial vəziyyətinin dəyişməsində dövlət hakimiyyətinin tarixi məsuliyyəti qaçılmaz hesab olunur.

Sosial siyasətin mahiyyətinin dəyərləndirilməsində mühüm meyarlardan biri fəal sosial siyasət subyektlərinin öz qarşılarına qoyduqları məqsədlər sistemi, başqa sözlə, ictimai vəziyyətin gözlənilən, arzu olunan nəticələridir.

Totalitar cəmiyyətdə sosial siyasətin real subyekti yalnız dövlət və hakimiyyət olmaqla yeganədir. Cəmiyyətin bütün digər elementləri siyasətin obyektləridir. Demokratik cəmiyyətdə isə faktiki bir subyektlilik ola bilməz. Subyektlər çoxluğunun isə vahid məqsədi ola bilməz. Ona görə də, demokratik vətəndaş cəmiyyətində sosial məqsədlərin çoxluğu normal hal hesab olunur.

Sosial siyasətin əsas funksiyaları və ya ictimai vəzifələri aşağıdakılar hesab olunur:

1. Sosial siyasət cəmiyyətin sosial dayanıqlığının, sosial təhlükəsizliyinin təmin olunmasına istiqamətlənir. Müxtəlif cəmiyyətlərdə sosial struktura bir çox səbəblərdən fərqli ola bilər. Lakin bu struktura müəyyən dayanıqlığa və özünü bərpa xüsusiyyətlərinə malik olmalıdır, əks halda cəmiyyətin mövcudluğu təhlükə altına düşə bilər.

2. Sosial siyasət – hakimiyyətin siyasi dayanıqlığını təmin etməlidir. Müxtəlif cəmiyyətlərdə və tarixi inkişaf mərhələlərində, hakimiyyətin siyasi dayanıqlığı fərqli üsullarla təmin edilir. Lakin belə vəziyyətin təmin olunmasının mahiyyəti həmişə, hakim sosial qrupun siyasi qərarların qəbulunda həlledici iştirakının təmin edilməsidir. Əks halda, hakimiyyətin sinfi əsası dəyişir və cəmiyyətdə inqilabi dəyişikliklər şəraiti yaranır. Sonuncu dəyişikliklər isə yenə də hakimiyyətin, lakin artıq yeni hakimiyyətin dayanıqlığını təmin olunmasına xidmətə istiqamətləndirilir.

3. Sosial siyasət – təsərrüfatçılıqda (mülkiyyət münasibətlərində) hakimiyyətin elə bölgüsünü təmin etməlidir ki, bu bölgü əksəriyyət tərəfindən ədalətli bölgü kimi qəbul edilsin, yəni, yenidən bölgü tələb olunmasın.

4. Sosial siyasət – iqtisadi resursların və qazancın, cəmiyyətin əsas hissəsini bu və ya başqa dərəcədə təmin edəcək bölgüsü sistemini formalaşdırmalıdır. Cəmiyyət üzvlərinin maddi vəziyyəti və müxtəlif sosial qrupların problemlərinin həlli bir

çox hallarda məhz belə bölgüdən asılıdır. Məsələn, investisiya və onun strukturu, gəlirlərin səviyyəsi və onların diferensiasiyası, sosial xərclərin illik məcmu həcmi və strukturu, sosial yardım və köməklərin göstərilməsi şərtləri və miqdarı və s. kimi iqtisadi parametrlər mühüm sosial mahiyyətə və əhəmiyyətə malikdir.

5. Sosial siyasət – cəmiyyət və dövlət tərəfindən, ekoloji təhlükəsizliyin zəruri və qənaətbəxş səviyyəsinin təmin olunmasına istiqamətləndirilməlidir.

6. Sosial siyasət – əhalinin bütövlükdə və hər bir sosial qrup səviyyəsində zəruri və qənaətbəxş sosial müdafiəsinin cəmiyyət və dövlət tərəfindən təmin edilməsinə istiqamətlənməlidir.

Sosial siyasətin bir elm kimi predmeti –cəmiyyətdəki münasibətlərin mahiyyəti (davamlı olaraq yaranan və mahiyyəti ifadə edən), qanunauyğunluqlar; xüsusiyyətləri və həmçinin, sosial qrupların cəmiyyətdəki münasibətlərini ifadə edən qarşılıqlı fəaliyyətini əhatə edən proseslər və ictimai birgəyaşayış formalarıdır. Siyasi rəhbərlik cəmiyyətin sosial inkişafının məqsədlərini müəyyənləşdirir, onların realizasiyası isə sosial siyasətin vəzifələridir.

Dövlətin sosial siyasəti aşağıdakı əsas faktorlarla müəyyənləşən bütöv sistemi təşkil edir:

- Cəmiyyət tərəfindən sosial inkişafın strateji məqsədi və vəzifələrinin, sosial prioritetlərin müəyyənləşdirilməsi;
- Əhalinin bütün təbəqələrini əhatə edən və bütöv sosial fəza formalaşdıran vahid qanunvericilik;
- Sosial sferanın maliyyələşdirilməsinin təmin olunması baxımından dövlətin və sosial siyasətin digər subyektlərinin himayədarlığı;
- Vahid sosial infrastruktura, vahid kadr və informasiya təminatı.

Sosial siyasətin əhəmiyyətliliyini göstərən faktorlardan və bəşəri inkişafın müasir mərhələsini səciyyələndirən mühüm əlamətlərdən biri, iqtisadi yüksəliş dinamikasına olan tələblərin xarakterinin yeni keyfiyyət almasıdır. Klassik yüksəliş və ya

artım parametrləri son dövrlərdə əksər ölkələrdə və mühüm beynəlxalq təşkilatlarda qiymətləndirmə yox, sadəcə, ölçü göstəricilərinə çevrilmişdir. İnkişafın müasir göstəriciləri isə iqtisadi inkişafın ***davamlılığı, dayanıqlığı və tarazlığı*** ilə qiymətləndirilir. Bu yeni iqtisadi inkişaf paradiqmasında əsas dominantlardan biri məhz sosial inkişaf məsələləridir.

Müasir iqtisadi inkişaf konsepsiyası bütövlükdə iqtisadi inkişafı – əhalinin həyat səviyyəsinin davamlı yüksəlişi kimi dəyərləndirir. " Davamlı inkişaf " kateqoriyası və ya termini ilk dəfə 1987-ci ildə Ətraf mühüt və inkişafa dair Beynəlxaq Komissiyanın (Brutland komissiyası) hesabatında işlədilmişdir. Bu hesabata görə davamlı inkişaf, yalnız sosial hədəflərə istiqamətlənmiş uğurlu və rəqabət qabiliyyətli iqtisadiyyatda mümkündür. Dünyanın tanınmış iqtisadçıları iqtisadi inkişafın əsas vəzifələrini – böyüyən iqtisadiyyatda yoxsulluğun, ədalətsizliyin və işsizliyin aradan qaldırılması kimi ifadə edirlər. Davamlı inkişafın elementlərinin seçimində yanaşmaların fərqliliyinə baxmayaraq bütövlükdə davamlı inkişaf konsepsiyası (o cümlədən, BMT-nin Davamlı inkişaf komissiyasının müvafiq konsepsiyası), özündə dörd mühüm aspekti: **iqtisadi, ekoloji, sosial və institusional quruculuq** məsələlərini birləşdirir.

Lakin nəzərə almaq vacibdir ki, sosial siyasətin əhəmiyyəti onun bəyan edilməsi və ya hətta onun həyata keçirilməsinə ardıcıl səylər göstərilməsi ilə məhdudlaşdırıla bilməz. Beləki, sosial siyasət məsələləri inkişaf səviyyəsindən və seçilmiş iqtisadi inkişaf modelindən asılı olmayaraq, bütün ölkələrdə ənənəvi olaraq siyasi mübarizə vasitəsidir, həmişə ictimai fikrin diqqət mərkəzindədir və xarakterindən asılı olmayaraq, reallaşdırılan sosial siyasəti həmişə hansısa prizmalardan tənqid etmək mümkündür. Bununla belə, yuxarıda şərh olunan yanaşmadan da aydın olduğu kimi, hətta "ən yaxşı" sosial siyasət iqtisadi inkişafa adekvat olmalıdır, daha doğrusu, sosial siyasət inkişafdan doğmaqla yanaşı, inkişafın tamamlayıcısına çevrilməli və bununla da faktiki olaraq inkişafın mühüm təminedicisi olmalıdır. Belə olduqda isə,

sosial siyasətin səmərəliliyi və nəticəliliyi onun maliyyələşdirilməsindən ciddi şəkildə asılıdır. Dünya təcrübəsində sosial siyasətin maliyyələşdirilməsinə yanaşmalar olduqca müxtəlifdir və belə yanaşmalar bir çox faktorların təsiri ilə müəyyənləşir. Lakin, əvvəlki bölmələrdə qeyd olunduğu kimi, ilk sosial siyasət nümunəsi olan O.Bismarkın "nöqtəvi təsir strategiyasından" indiyədək mövcud olan bütün sosial siyasət modellərində aparıcı maliyyələşdirilmə prinsipləri, demək olar ki, dəyişməmişdir – xərclərin səmərəliliyi, qənaətcilliyi və nəticəliliyi. Faktiki olaraq bu prinsiplər iqtisadi fəaliyyətdə universal meyarlar olsa da sosial siyasət modellərində onların prioritetliyi daha mühüm əhəmiyyətə malikdir. Çünki digər iqtisadi fəaliyyət sahələrindən fərqli olaraq sosial sferada nəticələrin yaranması böyük zaman tələb edir (uzunmüddətli laqa malikdir) və yaranan nəticələrin dəyişdirilməsi daha böyük xərclər (maddi, mənəvi) və müddət tələb edə bilər. Ona görə də hər hansı sosial siyasəti xarakterizə etmək üçün ilk növbədə onun maliyyələşdirilməsi modelini qiymətləndirmək vacibdir.

6.2. Sosial siyasətin müxtəlif modellərinin maliyyə mexanizmi

Sosial sferanın maliyyələşdirilməsi mexanizminin strukturunun formalaşdıran və sosial siyasətə bütövlükdə əhəmiyyətli təsir göstərən əsas faktorlara, ilk növbədə, büdcə-vergi siyasəti aid edilir.

1. Poternalistik modelin maliyyə mexanizmi.

Sosial siyasətin paternalist modeli sosial sferanın müasir maliyyələşdirmə mexanizminin xüsusiyyətlərini və onun aşağıdakı problemlərini yaratmışdır:

- Sosial sferanın faktiki maliyyələşdirmə həcminin sosial siyasətin bəyan olunmuş prioritetlərinə adekvat olması;
- Bütün səviyyəli büdcələr arasında qazanc səlahiyyətləri və məsuliyyət sərhədlərinin qeyri-dəqiq müəyyənləşdirilməsi;

- Konkret vətəndaşa verilən sosial yardımın miqdarilə onun maddi-rifah halı arasında əlaqənin zəifliyi;
- Əhaliyə göstərilən xidmətlərin kəsişən subsidiyalaşdırılması.

2. Ünvanlı sosial siyasətin maliyyə mexanizmi.

Paternalist sosial siyasət modeli üçün xarakterik olan problemlərin və ünvanlı sosial siyasət modelinə olan tələblərin təhlili, sonuncu üçün maliyyələşdirmə mexanizminin elementlərini müəyyənləşdirməyə imkan verir. Bu mexanizmin əsas elementləri aşağıdakılardan ibarət olmalıdır:

- Qanunvericiliklə müəyyənləşdirilmiş sosial zəmanətlərinin həcmi ilə sosial məqsədlər üçün dövlətin ayırdığı maliyyə ehtiyatlarının balanslaşdırılması;
- Maliyyə resurslarının ünvanlı bölgüsü prinsipləri;
- Sosial zəmanətlərin maliyyələşdirilməsi sistemində hakimiyyətin müxtəlif səviyyələri arasında məsuliyyət və səlahiyyətlərin dəqiq bölgüsü;
- Milli sosial standartlarının müəyyənləşdirilməsi və qorunması;
- Sosial risklərin maliyyələşdirilməsində sığortalama prinsipi, sosial müavinətlərin səviyyəsi ilə ödəyicinin maliyyə sisteminə real ödəmələri arasında əlaqənin təmin edilməsi;
- Vahid hesablama sisteminin tətbiqi (xəzinədarlıq sistemi);
- Sosial siyasətin maliyyələşdirmə mexanizminin iqtisadi səmərəliliyi;
- Sosial sferada pullu xidmətlərin əhəmiyyətli həcmdə olması.

3. Keçid modelinin maliyyələşdirilməsi mexanizminin ümumi prinsiplərinin yaradılması.

Sosial siyasətin ünvanlı modelinə müvafiq effektiv maliyyələşdirmə mexanizmin yaradılması, ölkənin sosial iqtisadi inkişafının müxtəlif cəhətlərini əhatə edən kompleks dəyişikliklərin, ardıcıl islahatların aparılmasını tələb edir.

Belə islahatlar konsepsiyası, ilk növbədə, aşağıdakı vəzifə və məqsədləri əhatə etməlidir.

- Keçid dövrünün müxtəlif mərhələlərində sosial siyasətin maliyyələşdirmə mexanizminin əsas məqsədlərinin və onlara müvafiq vəzifələrin müəyyənləşdirilməsi;
- İslahatlara ciddi təsir edən faktorların təhlili əsasında, islahatların doğurduğu əsas təhlükə və məhdudiyyətlərin müəyyənləşdirilməsi;
- İslahatların alternativ variantlarının müəyyənləşdirilməsi;
- Sosial sferasının maliyyələşdirilməsinin əsas iştirakçıların vəziyyətini təhlil etməklə, sosial sferanın maliyyələşdirilməsi üçün razılaşdırılmış yanaşmanın hazırlanması.

Sosial siyasətin əsas modellərinin və müvafiq maliyyələşdirmə mexanizmlərinin təhlilinin nəticələrini, keçid dövrünün xüsusiyyətlərini nəzərə alaraq sosial islahatların əsas prinsiplərini formalaşdırmaq olar.

Sosial stabillik prinsipi. Sosial siyasətin maliyyələşdirilməsi sisteminin islahatlaşdırılmasının əsas şərti cəmiyyətdə sosial stabilliyin qorunub saxlanılmasıdır (pisləşdirilməməsi). Bu prinsip aşağıdakı şərtləri əhatə edir:

- Sosial ödəmələrin ödəyicilərinə eyni yanaşma, ödəmələrin real sosial risklərlə zəif əlaqəsi;
- Əhali və müəssisələrin sosial siyasətin məqsədləri üçün maliyyə ehtiyatlarının formalaşmasında zəif maraqlılığı;
- Sosial standartların real maliyyələşdirmə ehtiyatlarının regionlar üzrə fərqliliyi;
- Sosial siyasətin maliyyələşdirilməsinin qeyri-şəffaf sistemi;
- Sosial sferanın maliyyələşdirilməsi infrastrukturun kifayət qədər inkişaf etməməsi, məsələn, formalaşmış könüllü sosial sığortalanma sisteminin olmaması;
- Maliyyələşdirmə sisteminin islahatlaşdırılması sosial gərginliyin azaldılmasına gətirməlidir;
- Sosial siyasətin maliyyələşdirilməsi sisteminin islahatlaşdırılmasının əsas məqsədlərindən biri, əhalinin daha çox ehtiyacı olan təbəqələrinin həyat səviyyəsinin daimi yüksəldilməsi olmalıdır;
- Sosial siyasətin maliyyələşdirilməsi sisteminin islahatlaşdırılması əhalinin həyat səviyyəsinə görə diferensasiyasının azalmasına gətirməlidir.

Ünvanlılıq prinsipi. Bu prinsip sosial inkişafın yeni modelinin maliyyələşdirilməsi mexanizmi üçün həlledici hesab olunur. Bu prinsipin həyata keçirilməsi islahatlaşdırma sayəsində dövlətin sosial xərclərinin əhalinin daha çox ehtiyacı olan qrupların xeyrinə yenidən bölgüsünü təmin etməlidir. Yuxarıda qeyd olunduğu kimi, sosial siyasətin predmetini cəmiyyətdəki münasibətlərin mahiyyəti, qanunauyğunluqlar, xüsusiyyətlər və həmçinin, sosial qrupların cəmiyyətdəki münasibətlərini ifadə edən qarşılıqlı fəaliyyətini əhatə edən proseslər və ictimai birgə yaşayış formaları təşkil edir. Bu baxımdan, dövlət rəhbərliyi cəmiyyətin sosial inkişafının məqsədlərini, sosial siyasət isə realizasiyası vacib olan vəzifələri müəyyənləşdirir. Belə yanaşmada Azərbaycan Respublikasında dövlətin sosial iqtisadi siyasətinin formalaşması və həyata keçirilməsi önəmli nümunə hesab oluna bilər. Azərbaycan Respublikasında da dövlətin son illərdə apardığı iqtisadi siyasətin çox əhəmiyyətli hissəsini inkişafın sosial aspektləri və əhalinin sosial vəziyyətinin ardıcıl yaxşılaşdırılması məsələləri təşkil edir. Ölkəmizdə sistemli iqtisadi islahatların bütün gedişi prosesində sosial inkişaf hədəfləri, bu və ya başqa səkildə aparıcı mövqedə olmuşdur. *Ulu öndər Heydər Əliyev tərəfindən 1997-1998-ci illərdə faktiki iqtisadi səmərəsi olmayan bir sıra sosial güzəştlərin ləğv edilməsi haqda qərarları və ünvanlı sosial kömək konsepsiyasının formalaşdırılması belə nümunələrdəndir.*

Maliyyə mexanizminin islahatların məqsədlərinə müvafiqliyi prinsipi.

Bu prinsip sosial siyasətin maliyyələşdirilməsi sisteminin islahatlaşdırılmasının ümumi prinsiplərinin, məqsəd və vəzifələrinin daha yüksək sistemin, həmçinin, islahatlaşdırılan obyektlərdə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərən sistemlərin inkişaf

strategiyaları, məqsəd və vəzifələrinə uyğunluğunu nəzərdə tutur. Bu, o deməkdir ki, sosial siyasətin maliyyələşdirilməsi:

- ölkənin uzunmüddətli. strateji və qısamüddətli inkişaf vəzifələrinə müvafiq olmalıdır.
- ölkənin maliyyə-büdcə siyasətinin strateji və prioritet vəzifələrinə müvafiq olmalıdır.
- ünvanlı sosial modelin maliyyə mexanizminə olan ümumi tələblərə müvafiq olmalıdır.

İslahatların səmərəliliyi prinsipi. Sosial siyasətin maliyyələşdirilməsi sisteminin islahatlaşdırılmasının çox mühüm vəzifəsi həyata keçirilən islahatların səmərəliliyinin, yəni nəzərdə tutulmuş məqsədlərinə nail olunmasında zaman, istifadə olunmuş resurlar, təsir faktorları, məhdudiyyətlər və s. parametrlərin optimal istifadənin təmin olunması hesab olunur.

İslahatlaşdırma prosesinin səmərəliliyinin artırılmasına xidmət edən əsas qaydalar və ya tələblər aşağıdakılardan ibarətdir:

- islahatlaşdırma prosesinin əsas iştirakçılarının ümumi razılaşdılırmış məqsədlərə nail olunması baxımından səmərəli qarşılıqlı fəaliyyətinin təmin olunması;
- islahatlaşdırma prosesi üçün müəyyənləşdirilən operativ vəzifələrin uzunmüddətli məqsədə müvafiqliyi təmin olunmalıdır;
- səmərəliliyi təmin olunması üçün islahatlaşdırmanın səmərəliliyi meyarları, sosial siyasətin maliyyələşdirilməsi sisteminin islahatlaşdırılmasının səmərəliyinin qiymətləndirilməsi proqramının hazırlanması və realizasiyası;
- islahatlaşdırma prosesinin şəffaflığının təmin olunması, o cümlədən, sosial siyasətin realizasiyasına aid olan büdcələrin və büdcə prosedurlarının şəffaflığı;

Adaptivlik prinsipi. Bu prinsip sosial-iqtisadi inkişafın müasir mərhələsində sosial siyasət modelinin xarakteristikalarının tədrici, evolyusional dəyişməsinin nəzərdə tutur. Sosial siyasətin ünvanlı modelinə keçid prosesi sosial proseslərin idarə olunmasının antiböhran, sosial stabilliyin təmin olunması, sosial sferanın dayanıqlı inkişafı kimi mərhələlərini əhatə etməlidir.

Bu baxımdan, sosial siyasətin adaptivliyi mühüm prinsiplərdən hesab olunur.

FƏSİL 7. REGİONAL İQTİSADİ SİYASƏT VƏ REGİONAL İNKİŞAF MODELİ

Siyasi statusundan asılı olmayaraq hər bir ərazi vahidinin inkişaf modelinin formalaşdırılması bir neçə cəhətdən vacibdir:

a) Dünya təcrübəsi göstərir ki, ərazi vahidinin, xüsusilə sosial-iqtisadi inkişafının rəvanlığı və dayanıqlığı yerli imkan və xüsusiyyətlərə əsaslandıqda uzun ömürlü olur və cari kənar təsirləri asanlıqla kompensasiya edə bilir.

b) Sosial-iqtisadi inkişaf məqsədyönlü seçilmiş prioritetli lokal hədəflərə çatmağa istiqamətləndirildikdə, potensialın sürətli və səmərəli reallaşdırılması mümkün olur və regiondan kənar şəraitin xüsusiyyətlərindən daha yaxşı bəhrələnir.

c) Həmişə qapalı olmayan iqtisadi məkan şəraitində yerləşməsinə görə ərazi vahidinin sosial-iqtisadi inkişafı, daxili proseslərin məntiqi ilə uzun müddət ərzində rasional idarəolunma imkanlarına malik olmur.

ç) Sosial-iqtisadi inkişaf region müstəvisində iqtisadi idarəetmənin bütün rıçaqlarına malik olmur (məsələn, iqtisadi idarəetmənin valyuta vasitələri). Başqa sözlə, ərazi vahidinin iqtisadi sisteminin bütövlüyünü təmin etmək əməli cəhətdən mümkün deyildir və s.

Yuxarıda sadalananlardan aydın olur ki, siyasi və iqtisadi müstəqilliyə malik olmayan hər bir ərazi vahidinin özünəməxsus sosial-iqtisadi inkişaf modelinin formalaşdırılması ciddi elmi-nəzəri və əməli iqtisadi problemdir.

Bu problemin həllinə dünya təcrübəsində müxtəlif yanaşmalar mövcuddur. Yanaşmaların müxtəlifliyi ölkənin ümumi iqtisadi inkişaf ənənələri, təsərrüfatçılıq mexanizmi, iqtisadi strategiya və konkret iqtisadi siyasətin xarakteri, ərazilərin təbii-iqtisadi potensial müxtəlifliyi, ölkələrarası regional və dünyəvi inteqrasiya proseslərinin xüsusiyyətləri və s. ilə izah olunur.

Planlı sosialist idarəetmə üsulu şəraitində ölkədaxili regional iqtisadi inkişafda ən mühüm faktor, ölkənin inteqral iqtisadi maraqlarının təmin olunması qəbul edilir. İqtisadi məntiq baxımından bu heç də tamamilə mənfi hal hesab oluna bilməz. Çünki

inteqral effekt əksər hallarda lokal effektlərin cəmindən çox olur. Lakin bu halda ərazilərin öz potensiallarına müvafiq səviyyədə inkişafı, daha doğrusu, aldıqları iqtisadi səmərənin resurslarla təminolunma səviyyəsinə adekvatlığı mümkün olmur.

Keçmiş SSRİ-nin regional inkişaf siyasətində son dövrlərdə ərazilərin «inkişaf səviyyəsinin bərabərləşdirilməsi» meyarının qabardılması dediklərimizə sübut ola bilər.

Liberal prinsiplərə əsaslanan bazar iqtisadiyyatı şəraitində regional inkişafa bu tipli meyarlarla yanaşma məqbul hesab oluna bilməz. Çünki iqtisadi inkişafın iqtisadi resurslara, o cümlədən, geniş mənada təbii ehtiyatlara adekvatlığı «mülkiyyətçinin pay almada üstünlüyü» və ya «diferensial renta» prinsipləri ilə uzlaşmalıdır.

Başqa sözlə, ən klassik iqtisadi kanonlardan olan «dəyərin əmək nəzəriyyəsi» hər bir fərdi istehsal fəaliyyəti anı üçün nə qədər vacib baxış nöqtəsidirsə, ərazidə istehsal fəaliyyəti üçün iqtisadi ehtiyatlara «mülkiyyətçilik hüququ» o qədər mühümdür. Eyni zamanda, «regional mülkiyyətçilik» istənilən halda istifadə və faydalanmaq baxımından anklav xüsusiyyətinə malik ola bilməz. Yəni, hər bir regionun imkanları müəyyən mənada daha geniş maraqların ödənilməsinə xidmət etməlidir və bu xidmət yerli mənada mənfəətliliklə ölçülməməlidir.

Dünya təsərrüfat sisteminin aparıcı inkişaf meyilləri, beynəlxalq əmək bölgüsünün xarakterinin elmi-texniki tərəqqi ilə şərtlənən permanent evolyusiyası regional inkişaf siyasəti və sosial - iqtisadi inkişaf modelinin seçimini mürəkkəbləşdirir və diferensiallaşdırır.

Müasir dünya təcrübəsində regional iqtisadi siyasət dövlətlə regionlar və regionların öz aralarında münasibətlərini əks etdirməklə, bütövlükdə və regional baxımdan ölkənin iqtisadi inkişafının idarə olunması fəaliyyəti kimi qəbul edilir.

Başqa sözlə, sosial-iqtisadi regional siyasət müvafiq milli siyasətin tərkib hissəsidir. Ona görə də, bəzən regional siyasət aşkar, yarımaşkar və qeyri-aşkar ola bilir. Aydındır ki, istənilən halda dövlətin regional siyasətinin özəyini «ölkə mənafeyinin üstünlüyü» prinsipi təşkil edir. Şərti olaraq regional sosial-iqtisadi siyasət aşağıdakı struktur elementlərindən ibarətdir:

- İqtisadi siyasət; sosial siyasət; demoqrafik siyasət; məskunlaşma siyasəti; ekoloji siyasət, elmi-texniki siyasət.

Bir sıra mütəxəssislər regional siyasəti fərqli meyarlar üzrə strukturlaşdırır:

a) məqsədli – məsələn, regionların inkişaf səviyyəsinin bərabərləşdirilməsi; yerli ehtiyatlardan maksimum istifadə və s.

b) reallaşdırma mexanizmi – məsələn, normativ-mexaniki, yəni müəyyən qaydada bölgü; – problem ətrafında, yəni, xüsusi proqramlı; - məqsədyönlü, yəni konkret region üzrə.

c) vəsaitlər və alətlər – məsələn, maliyyə üzrə kömək, güzəşt cərimələr və s.; inzibati tədbirlər – məsələn, icazə və qadağalar; infrastruktura tədbirləri – məsələn, yol tikintisi və s.

ç) ünvanlılıq – regional hakimiyyət, firma və təşkilatlar, ayrı-ayrı vətəndaşlara istiqamətlər və s.

Dünya təcrübəsi göstərir ki, regional siyasətin metodoloji paradiqması öz inkişafında bir neçə mərhələ keçmişdir.

I mərhələ, əsasən, 1920-1940-cı illəri əhatə edir və bu mərhələdə regional siyasətin əsas qayəsini böhranlı bölgələrə təcili yardım göstərilməsi təşkil etmişdir.

II mərhələ iqtisadi artımın regionlar arasında yenidən bölgüsü vasitəsilə regional inkişafın tarazlığının təmin olunmasına, inkişaf qütblərin yaranmasına istiqamətlənmişdir. Bu mərhələ, əsasən, 1950-70-ci illərə təsadüf edir.

III mərhələdə isə əsas ideya hər bir regionun daxili potensialının maksimum istifadəsinə, kiçik və orta sahibkarlığın himayə olunmasına istiqamətlənərək, neoklassik və texnoloji nəzəriyyələrə əsaslanmaqla regionların restruktrizasiyasını həyata keçirilməsindən ibarət olmuşdur.

Regional siyasətin indiki mərhələdəki əsas metodoloji prinsipi – regionların maraqlarına cavab verən, özünü inkişaf potensialını reallaşdırmaqla regionların inkişafına məsuliyyəti yerli hakimiyyətə verilməsi təşkil edir. Başqa sözlə, yeni regional inkişaf paradiqmasını regional inkişafın «ictimai nəzəriyyələri» təşkil edir. Regional inkişafın «ictimai nəzəriyyələri» ümummilli və regional maraqların (bu maraqlar bəzən siyasi formada ifadə olunsa da, əslində həmişə iqtisadi xarakter daşıyır) qarşılıqlı mü-

barizəsini əsas hesab edir. Bu nəzəriyyə siyasi hakimiyyət və ehtiyatların regionlarla mərkəz arasında bölgüsü, sosial fərqlər və münaqişələr probleminə xüsusi diqqət verir.

Qeyd etmək vacibdir ki, hazırkı dövrdə regional siyasətə belə yaxınlaşma dünya təcrübəsində daha çox tətbiq olunur. Lakin müasir təcrübədə zəif regionlara investisiya axınını stimullaşdırmaqla regionlararası fərqləri dövlətin iştirakı ilə tənzimləməyi nəzərdə tutan Post Keyns nəzəriyyəsi, tənzimlənməyən bazarın regionlararası fərqləri silə biləcəyini qəbul edən neoklassik nəzəriyyə və s. kimi nəzəri baxışlarda istifadə olunur. Bir çox ölkələrdə regional siyasətdə diqqətin daha çox «problemli regionlara» yönəldilməsi baş verir. Yəni, regional siyasət postkeynisçi və tənzimlənməyən bazarın regional fərqləri dərinləşdirməsini qəbul edən qeyri-tarazlı inkişaf nəzəriyyəsi üzərində qurulur.

Dövlətin iqtisadi siyasəti ilə regional siyasət öz məntiqinə görə bir-birini qarşılıqlı tamamlamalıdır. İqtisadi siyasət inkişafın qarşıya qoyulmuş məqsədinə çatmaq yolunda yaranan problemlərin həllinə, ölkənin və (və ya) onun hər hansı hissəsinin rifahının təmin olunmasına istiqamətlənirsə, regional siyasət ərazi inkişafının məhz yuxarıda ifadə olunan məqsədlərə yönlü idarə olunmasına xidmət etməlidir.

Yuxarıda deyilənlərdən aydın olur ki, ərazi inkişafının qiymətləndirilməsi və istiqamətləndirilməsi ümumi iqtisadi inkişaf meyarlarından bir sıra məqamlarda fərqlənir. Ona görə də, regional inkişafın xüsusi diaqnostikası sisteminin formalaşdırılması vacibdir. Bu sistemə məqsəddən asılı olaraq aşağıdakı kimi fərqli indikatorlar toplusu daxil olur.

1. ***Təbii ehtiyatlar potensialının (TEP) qiymətləndirilməsi.*** Bu göstərici təbii ehtiyatların inteqral göstəricisi kimi regionun investisiya cəlbetmə imkanını, regionda yığımın həcmini və yerli iqtisadiyyatın inkişafının fundamentini xarakterizə edir. TEP-in hesablanması bal üsulu və dəyər üsulu vasitəsilə aparılır. Birinci halda vahid şkala tərtib olunur və hər bir ehtiyatın həcmindən asılı olaraq yekun potensial hesablanır. İkinci üsul, əsasən, bazar münasibətləri şəraitində hesablanır. Burada hər bir ərazidə mükəmməl texnikanın istifadəsi vasitəsilə xammalın (məhsulun) dəyəri tapılır,

sonra isə bu qruplarda və ümumi hesabda cəmlənir. İkinci üsulun hesabatı daha mürəkkəbdir, çünki dünya konyunktunun təsiri nəzərə alınmalıdır, təkrar hesablamalar mümkündür və s.

Regional tədqiqatlarda və planlaşdırmada göstəricilərin mütləq qiyməti ilə yanaşı, nisbi səviyyələri də, yəni, TEP-in ərazi həcmi əsas fondlar, əhali və s. ilə nisbəti nəzərə alınmalıdır.

2. ***Demoqrafik vəziyyətin və əmək bazarının diaqnostikası.*** Bu proseslərin diaqnostikasının unifikasiyaolunmuş vasitə və metodları vardır. Lakin demoqrafik inkişafın əsas meyillərinin səbəblərinin araşdırılması, onların hər birinin digərinə təsirinin dərəcəsini də müəyyənləşdirməlidir.

Əhalinin təbii və mexaniki hərəkətinin təhlili regionda keyfiyyət dəyişmələrini müəyyənləşdirməlidir. Təbii hərəkətdə bu müsbət artım, mənfi artım və sıfır artımı səviyyələrində, mexaniki hərəkətdə isə miqrasiyanın aktiv saldosu, passiv saldosu və sıfır saldosu kimi göstəricilərlə ifadə olunur.

Regional əmək bazarının diaqnostikası isə işsizlik, əmək ehtiyatlarının tarazlı və kəsirli vəziyyətləri ilə yanaşı gizli və mütləq işsizlik, struktur işsizlik və s. anomal vəziyyətləri də əhatə edir. Demoqrafik göstəricilərlə sosial-iqtisadi vəziyyətin nisbətini xarakterizə etmək üçün müvafiq korrelyasiya metodlarından (məsələn Stermen formulu $K_{pk}=1-(6\Sigma D^2/n(n^2-1))$, (burada, D – fərqi, n – kəmiyyət cütlərinin sayı) geniş istifadə olunur.

3. ***Əhali məskunluğunun diaqnostikası.*** Regional siyasətin sosial yönümlülüyünü müəyyənləşdirmək üçün, son dərəcə mühüm faktorlar məskunluğun xarakteri göstəriciləri hesab olunur. Bu sırada ən ilkin göstərici əhali sıxlığıdır. Onun daha dəqiq ifadəsi isə ərazinin mənimsənilməsi, kənd əhalisi, şəhər əhalisi, yerli əhali və s. kimi qruplar üzrə sıxlıq səviyyəsinin müəyyənləşməsindən asılıdır. Belə göstəricilərə bir sıra əmsallar aiddir:

Məsələn, əhalinin cəmlənməsi əmsalı – bu yaxın qonşuluğun təhlili əsasında tapılır; əhalinin regional cəmlənməsi indeksi və s.

İqtisadi ədəbiyyatda məskunluğun potensial sahəsinin hesablanması üçün də bir sıra formulalarda istifadə olunur.

Məskunluğun öyrənilməsində nisbətən mürəkkəb sahə yaşayış sisteminin öyrənilməsidir. Yaşayış sistemi dedikdə ümumi infrastruktura ilə birləşmiş yaşayış sahələri toplusu nəzərdə tutulur. Belə sistemin keyfiyyət göstəricilərini hesablamaq xüsusilə çətindir. Keyfiyyət göstəricisi kimi sosial infrastruktura obyektləri yaradılması üçün yaşayış sisteminin əlverişliliyi nəzərdə tutulur.

4. ***Regionun inkişafının iqtisadi səviyyəsinin müəyyənləşdirilməsi.*** Belə səviyyə regionun bütün istehsal ehtiyatlarının istifadə olunmasını və ya yaradılmış iqtisadi potensialın effektliyini xarakterizə etməklə, təsərrüfat fəaliyyətinin kəmiyyət və keyfiyyət tərəflərini özündə birləşdirir.

Nəzəri və praktiki tədqiqatlarda iqtisadi inkişaf səviyyəsini müəyyənləşdirmək üçün milli gəlirdə regionun payı (adambaşına və işçi qüvvəsinə görə); maddi istehsal sahəsində çalışanların əməkhaqqı fondlarında paylarının milli gəlirdəki payları ilə müqayisəsi və s. hesablanır.

Əhatə və keyfiyyət dərəcəsinə görə bu göstəricilərdən ən maraqlısı regionun iqtisadi inkişaf səviyyəsinin sintetik çəki indeksidir. Bu indeksin hesablanma formulu aşağıdakı kimidir:

$$S = \sum_{i=1}^{n} nq_n / \sum_{i=1}^{n} q \cdot 100 .$$

Burada n – ayrı-ayrı göstəricilərin orta regional qiymətlərə nisbətən faizlə qiyməti; q – hər bir göstəricinin iqtisadi inkişafa təsir imkanına görə ekspertlər tərəfindən verilmiş çəki əmsallarıdır.

5. ***Regionun sahə, funksional və ərazi strukturunun öyrənilməsi.*** Regionun sahə strukturu regiondaxili əmək bölgüsünü əks etdirir. Onun təhlili ixtisaslaşma (difersifikasiya), dayanıqlılıq dərəcəsi, komplekslilik səviyyəsi, istehsal proseslərinin təkrarlanması və s. kimi göstəricilərə əsaslanır. Bu proses sahələrarası balans vasitəsilə daha asan aparılır və nəticədə iqtisadi inkişaf səviyyəsinin həm fəaliyyət xarakterinə, həm də iqtisadi prosesin funksiyalarına nisbətdə müəyyənləşdirməyə imkan verir.

Regionun sahə strukturunun öyrənilməsi, eyni zamanda onun komplekslilik səviyyəsini qiymətləndirməyə imkan verəcəkdir. Regionun iqtisadi inkişafında komplekslilik dedikdə – mövcud ehtiyatlardan rasional istifadə və ərazi əmək bölgüsü baxımından iqtisadiyyatın optimal mütənasibliyinin formalaşmasına xidmət edən istehsal və sosial infrastruktura obyektlərinin qarşılıqlı əlaqəli və uzlaşdırılmış inkişafı başa düşülməlidir.

Regional inkişafın kompleksliliyi onun çoxsahəli istehsal komplekslərinə malik olması kimi dəyərləndirilə bilməz. Təcrübədə bunun üçün ən çox istifadə olunan regionun «özünü təminat» göstəricisi aşağıdakı kimi hesablanır.

$$N_s = P_r \cdot \sum C_r / P \sum C_s .$$

Burada N_s- komplekslilik səviyyəsi; R – regionun istehlak etdiyi məcmu məhsul; R_r – regionda istehsal olunmuş məhsul hesabına olan istehlak; ΣC_r - regionda istehsal olunmuş məhsul vahidinin maya dəyəri; ΣC_s – ölkə üzrə analoji maya dəyəri göstəricisidir. Bu formulanın tətbiqi $\Sigma C_r/\Sigma C_s \leq 1$ şərtilə müəyyənləşir.

Təcrübədə regional inkişafın kompleksliliyi göstəricisi üçün regional multiplikator; regionda istehsal olunan məhsulun hazırlıq səviyyəsi; əmək ehtiyatlarının istifadəsində mütənasiblik dərəcəsi kimi göstəricilərdə istifadə olunur.

Regional inkişafın diaqnostikası sisteminə çox vaxt yuxarıdakı bölmələrlə yanaşı ekoloji qiymətləndirmə, regionun inkişafının dinamikliyinin qiymətləndirilməsi və s. kimi bölmələr də daxil edilir. Əlbəttə, deyildiyi kimi, sistemin və hər bir bölmənin genişliyi və əhatəliliyi qoyulan məqsədlər və informasiya təminatı ilə sıx bağlıdır.

Yuxarıda deyilənləri ümumiləşdirərək Azərbaycan Respublikasının indiki inkişaf şəraitində regional sosial-iqtisadi siyasət paradiqmasını formalaşdırmaq olar.

1.Regional siyasət inkişafın sürət və xarakterinə məsuliyyəti yerli idarəetmə orqanlarının üzərinə qoymaqla, regionun təbii-iqtisadi, demoqrafik potensialının tam reallaşmasını təmin etməlidir. Başqa sözlə, müəyyən ümumdövlət iqtisadi siyasət çərçivəsində regionun iqtisadi fəaliyyətin potensiala tam adekvatlığı təmin olunmalıdır.

2.Regionun iqtisadi fəaliyyətdə məsuliyyəti onun müstəqil iqtisadi məkana çevirməməlidir. Başqa sözlə, ölkənin digər regionları arasında bütün istehsal faktorlarını qarşılıqlı hərəkətinin tam sərbəstliyi təmin olunmalıdır. Əlbəttə, xüsusi iqtisadi rejim qaydalarının tətbiqində müvafiq istisnalar mümkündür.

3.Azərbaycanın milli-tarixi xüsusiyyətlərini və etnik müxtəlifliyini nəzərə alaraq, hər hansı bir ərazinin təbii-iqtisadi potensialını orada məskunlaşmış əhali qrupunun mülkiyyəti hesab etmək olmaz. Başqa sözlə, respublikanın bütün ərazisində təbii-iqtisadi ehtiyatların ümumi mənafeyə xidməti təmin edilməlidir.

4.Ölkənin geosiyasi mövqeyi, milli-etnik tərkibini nəzərə alaraq iqtisadi rayonlaşma və ya xüsusi fəaliyyət zonalarının yaradılmasında milli-etnik tərkibin yekcinsliyi yol verilməzdir.

5.Regional siyasətin əsas vəzifələrindən biri, ölkə daxilində regionlararası əmək bölgüsünün beynəlxalq əmək bölgüsü prinsipləri, müqayisəli üstünlüklər və istehsal faktorlarının qarşılıqlı əvəzlənməsi prinsipləri üzərində qurulmasını təmin etməkdən ibarət olmalıdır.

6.Regional siyasət ölkənin iqtisadi fəzasının bütövlüyünə xidmət etməklə, anklav və ya problemli regionlarda xüsusi iqtisadi rejim yaradılmasını istisna etmir. Azərbaycan şəraitində iqtisadi federalizm yolverilməzdir.

7.Regionda iqtisadi fəaliyyətin idarə olunması şaquli və üfüqi modellərin tətbiqi ilə həyata keçirilir. Bu zaman şaquli sistemin aparıcılığı təmin olunmalıdır.

Təsərrüfat-maliyyə mexanizmi respublika səviyyəsindəki mexanizmin üzvü elementi olmaqla, xüsusi rejimlər istisna olmaqla bütün ərazilər üçün eyni olmalıdır.

FƏSİL 8. İQTİSADİ İSLAHATLAR İQTİSADİ SİYASƏTİN MÜHÜM VƏ UNİVERSAL VASİTƏSİ KİMİ

8.1. Postsosialist iqtisadiyyatın transformasiyasının nəzəri-metodoloji əsasları

XX əsrin sonları bəşəri inkişafda çoxcəhətli transformasiya prosesləri – əsaslı islahatlarla zəngin olmuşdur. Dünyanın böyük bir ərazisi, təbi-iqtisadi ehtiyatların və dünya əhalisinin əhəmiyyətli hissəsinin həyatında baş verən köklü dəyişiklər bir sıra elm sahələri, o cümlədən, iqtisad elmi qarşısında baş verənlərin nəzəri əsaslandırılması problemi yaratmışdır. İqtisadi siyasətin qəbul olunmuş nəzəri yanaşmaları və təcrübi üsullarının, transformasiyanın doğurduğu qeyri-standart şəraiti düzgün qiymətləndirə bilməməsi, iqtisad elminin klassik qaydalarına «kölgə» salmaqla yanaşı onların yenidən dərki zərurətini yaratmışdır.

Son 20-25 ilin təcrübəsi göstərir ki, bir-birilə rəqabət aparan iqtisadi islahat konsepsialarının müxtəlifliyi əsasən, iqtisadi reallıqların fərqli qəbul edilməsindən yaranır, bu baxımdan, artıq kifayət qədər müxtəlif xarakterli təcrübi nümunələrə malik olan postsosialist transformasiyanın tədqiqi bir sıra nəzəri metodoloji nəticələri ümumiləşdirməyə imkan verir.

İlk növbədə, islahatların öz metodoloji çərçivəsini müəyyənləşdirmək vacibdir. Formalaşmış və inkişaf etmiş elmi istiqamətlərdə metodoloji çərçivə şərtləri sınaqdan çıxmış qanun və fərziyyələrlə potensial razılaşma xarakteri daşıdığından xüsusi diqqətlə tədqiq olunur. Bu cür razılaşmanı elmi paradiqma (Kun, 1975), reallığın tədqiqi şərtləri (Stepin, 1981), tədqiqat proqramının nüvəsi (Lakotoş, 1978) və s. kimi adlandırırlar. Onların kökündə müvafiq elmi biliklərin xüsusi fərziyyələrə əsaslanması və bu fərziyyələrin xüsusilə böhran məqamlarında özünü doğrultması dayanır.

Direktiv planlaşdırmadan liberal iqtisadiyyata keçid konsepsiyalarının müxtəlifliyini doğuran əsas cəhətlərdən biri, məhz

yuxarıda qeyd olunan xarakterli ilkin elmi fərziyyələrin olmamasıdır.

Ayrı-ayrı ölkələrdə aparılan islahatların ilkin əsası kimi müxtəlif fərziyyələrin seçilməsi, islahatların start və finiş nöqtələrinin müxtəlifliyi, aparıcı faktorların seçimi, endogen faktorların (xüsusilə qeyri-iqtisadi xarakterli) müxtəlifliyi irəli sürülən nəzəri konsepsiyaların müxtəlifliyini şərtləndirmişdir. Bir sıra alimlərin fikrincə konsepsiyaların müxtəlifliyi və bəzən ziddiyyətliliyini doğuran digər mühüm bir səbəb müxtəlif elmi ideyalara və cərəyanlara məxsus ilkin fərziyyələrin bir konsepsiya çərçivəsində cəmləşdirilməsidir.

İslahatlaşdırmanın konsepsiya müxtəlifliyi, onların müəyyən prinsiplər üzərində qruplaşdırılmasına mane olmur. Postsosialist transformasiyasının bütün nümunələrini, əsasən üç qrupa ayırmaq olar: «Ağrılı müalicə» (Merrel, 1995), «Təmkinli (qradualist)» (Bxaduri, 1993) və «Qarışıq fəaliyyət (deterortodoksal)» (Ofer, 1993).

Birinci qrupa aid olunan konsepsiyalar üçün transformasiya prosesinin son nəticəsi əsas hesab olunur. Ona görə də konsepsiyanın aparıcı ideyasını «öz maraqlarını güdən iqtisadi fəaliyyət subyektləri üçün effektli nəticə əldə etməyə imkan verə biləcək şəraitin yaradılması» təşkil edir. Bu ideya əslində bazar iqtisadiyyatının «klassik» modelinin elementidir. Təcrübədə belə modelin ən yaxşı tətbiq nümunəsi Polşada aparılan islahatlardır. İdeya müəllifləri Balseroviç – Qelb olan Polşa islahatlarının iki əsas istiqamətini ayırmaq olar. Radikal islahatlar bir tərəfdən maliyyə stabilliyinin təmin olunması və mülkiyyətin dövlətsizləşdirilməsi (özəlləşdirmə vasitəsilə) məqsədlərinə istiqamətlənmişdir. Digər tərəfdən isə islahatlar təsərrüfat münasibətlərinin liberallaşdırılması vasitəsilə iqtisadi fəaliyyət subyektlərinin hüquqlarının radikal genihlənməsinə yönəlmişdir. Başqa sözlə, Balseroviç – Qelb, islahatlarının məğzini iqtisadiyyatda yeni makroiqtisadi və institusional hüquqi fəaliyyət çərçivələrinin yaradılması təşkil edir.

Mahiyyət baxımından etiraz doğurmayan bu məqsədlərin realizasiyası üçün müəyyənləşdirilən strategiyanın özəlliyi hər üç istiqamətdə islahatların eyni vaxtda və sürətlə aparılmasıdır.

Müəlliflərinin fikrincə «Ağrılı müalicə»nin doğurduğu xərclər, əks halda yarana biləcək xərclərdən və itkilərdən xeyli az olacaqdır.

İkinci qrupa aid olunan islahat konsepsiaları «təmkinli (qradualist)» hərəkət ideyasına əsaslanır. Bu ideyaya görə transformasiya uzunmüddətli xarakter daşıyır və son nəticəyə istiqamətlənən «ağrılı müalicə» ideyasından fərqli olaraq məcmu tələb və təklifin strukturunun dəyişməsinə xidmət edir. Ona görə də, bu transformasiya prosesləri uzunmüddətli və böyük resurs tutumlu olur. Belə strategiya istehsalın stabilləşdirilməsinə önəm verir, çünki hesab olunur ki, artan resurs tələbini ödəmək üçün məhsul istehsalı stabil olmalıdır. Bu, istehlakın və investisiyanın mövcud səviyyəsini saxlamaq və strukturunu yeniləşdirməklə əhalinin islahatlara uyğunlaşması üçün zəruri sosial şəraiti yaratmağa imkan verir.

İstehsalın həcminin aşağı düşməsi, «qradualistlərin» fikrincə, onun ilkin aşağı səmərəlilik səviyyəsini saxlanılmasından daha pis nəticədir. Çünki bu halda, transformasiyanın məqsədə çatmadan sürətdən düşməsi, iflasa uğraması mümkündür. İqtisadi transformasiyanın bu iki ideologiyası, əslində nəzəri baxımdan qarşılıqlı olaraq bir-birini tamamlayır (O.Ananı). Lakin iqtisadi siyasətin konkretləşdirilməsində onlar koklü fərqlənir. «Ağrılı müalicə» tərəfdarları cəmiyyətin mövcud tələblərini və içtimai fikri nəzərə almağı vacib hesab etməyərək, «təhlükəli islahat marşrutunda» dayanmamağı məqsədəuyğun sayırlar. «Qradualistlər» isə əksinə tələskənliyin əlehinə çıxaraq hər addımda ehtiyatlığı vacib sayırlar. Bu baxımdan, «ağrılı müalicə» tərəfdarları «qradualistlərə» nisbətən istiqamət seçimində konkretliyə və təklif olunan istiqamətlərin nəticəliliyinin ehtimallığı baxımından üstünlüyə malikdirlər.

İqtisadi sistemin transformasiyasına olan mövcud yanaşmaların nisbətən az əhəmiyyətli bir qrupu, yuxarıda şərh olunan standart xarakterli konsepsiyalarla ziddiyyət təşkil edən «qarışıq fəaliyyət» strategiyasıdır. Bu strategiya «heterotodoksal» nəzəriyyəyə əsaslanır. Yəni, burada «ortodoksal» «ağrılı müalicə» üsulunun əsas «tez maliyyə stabilləşdirilməsi» ideyasını, digər nə-

zəriyyəyə əsaslanan tezislə – qiymətlərin stabilliyi (və ya müvəqqəti dondurulması) ideyası ilə tamamlamaq təklif olunur (Ofer, 1993, Sapir, 1994). Əslində bu yanaşma praqmatik xarakter daşımaqla «ortodoksal» nəzəriyyənin təftişidir, çünki ilkin şərtə təklif olunan dəyişiliklə yanaşı, bu nəzəriyyə sürətli hərəkət və son nəticənin vacibliyi tezisini rədd etmir. Nəticədə «ağrılı müalicə» «ortodoksal» nəzəriyyəsinin əsas məğzi – azad bazar məntiqi və «qradualizmin» əsas məğzi – istehsal sisteminin inersiyalılığı rədd olunur. Əvəzində isə yeni nəzəri ideya yaranmır. Ona görə hesab olunur ki, qarışıq strategiyalar sosial təcrübə baxımından maraq doğura bilər, nəzəri baxımdan isə bu tipli ideyalar dayanıqlı ideya kimi qəbul edilə bilməz.

Qarışıq strategiyanın daha bir mənfi cəhəti onun institusional dəyişmələrə olan laqeyd munasibətidir. Doğrudur, bu nəzəriyyə sürətli özəlləşdirməni rədd etmir. Lakin institusional dəyişmənin sadələşdirərək, özəlləşdirmə ilə əvəzlənməsi və həm də özəlləşmənin ancaq hüquqi proses kimi qəbul olunması məqbul hesab edilə bilməz.

İqtisadi transformasiyanın mühüm obyekti sayılan institusional mühit daha geniş anlama və təsir dairəsinə malikdir. Nobel mükafatı laureatı D.Nortun dediyi kimi: «İqtitsadiyyatın necə işləməsi formal qaydalar və qeyri-formal norma və mexanizmlərin qarışığı ilə müəyyənləşir». Əgər qaydanı bir gecədə dəyişmək olarsa, qeyri-formal normaları ancaq tədricən dəyişmək mümkündür. Ancaq, məhz qeyri-formal normalar, qaydalar sisteminə «leqitimlik» verir. Əslində, məhz bu amilə görə inqilabi dəyişiliklər, onun tərəfdarlarının gözlədikləri kimi inqilabi xarakter daşımır.

Müasir institusionalizmin lideri sayılan D.Nortun bu fikri «köhnə institusionalizm» tərəfdarlarının analoji fikri ilə səsləşir. Məhşur «Bazar ağrısı» (Rınoçnıy şok) məruzəsində (1992-ci il Kreqer və b.) müəlliflər iddia edirdilər ki, «mərkəzləşdirilmiş planlı iqtisadiyyat şəraitində formalaşmış iqtisadiyyata, bazar mexanizminin uğurlu tətbiqi, ancaq sosial-iqtisadi mühitin bütünlüklə yenidən qurulması vasitəsilə mümkündür» (P.Merrel).

İqtisadi islahatların dünya təcrübəsinin əsas versiyalarının yuxarıda qeyd olunan cəhətləri göstərir ki, transformasiyanın doğurduğu hadisə və proseslərin özünü də iki qrupa ayarmaq olar: birinci qrupa iqtisadi nəzəriyyənin daim öyrəndiyi və iqtisadi siyasətdə geniş tətbiq olunan hadisə və proseslər, ikinci qrupa isə nəzəriyyədə və təcrübədə kifayət qədər diqqət yetirilməyən cəhətlər aiddir. Belə qruplaşmanın mövcudluğu iqtisadi nəzəriyyənin transformasiyanı yetərincə izah edə bilməməsi kimi də dəyərləndirilə bilər. Lakin burada iqtisadi nəzəriyyənin elm sahəsi kimi çatışmazlığından daha çox, hər bir transformasiya ideologiyasının, Y.Şumpeterin təbirincə, öz ilkin baxış bucağına malik olması faktoru əsas götrülməlidir. Məsələn, «ağrılı müalicə» doktrinası neoklassik mənşəyə malikdir. Yəni, burada iqtisadiyyat, təsərrüfat subyektlərinin fəaliyyəti və qarşılıqlı əlaqəsi baxımından öyrənilir. Başqa sözlə, təsərrüfat fəaliyyətinin, çərçivə şərtləri və ondan doğan predmetinin formalaşmış mühitdə (ilk növbədə, institusional və fiziki) müəyyənləşdiyi qəbul olunur. Digər tərəfdən, belə hesab olunur ki, mühitin xarakteri fəaliyyət və qarşılıqlı əlaqələrin keyfiyyətinə ciddi təsir edir. Fəaliyyət baxımından «təkmil» mühitdə iqtisadiyyat maksimum məhsuldarlığa malikdir və əksinə «qeyri-təkmil» mühitdə nəticələrin səmərəliliyi xeyli aşağıdır. Nəzəriyyə müəlliflərinin fikrincə «təkmil» mühit «azad bazar iqtisadiyyatıdır». Məsələn, Xoenin (1999) təbirincə «neoklassik nəzəriyyənin baza kateqoriyalarının əsasında ümumi tarazlıq şəraitində individlərin rasional davranışı dayanır».

Beləliklə, «ağrılı müalicə» idealogiyasının qlobal hədəfi «təkmil təsərrüfatçılıq mühitinin» yaradılması kimin identifikasiya oluna bilər.

«Qradualist» islahat idealogiyası isə klassik və «keynisçi» siyasi iqtisadın ənənələrinə əsaslanır. Məlum olduğu kimi burada iqtisadiyyat-sərvətlərin dövriyyəsi, ilk növbədə sərvətlərin istehsalı və cəmiyyətin təbəqələri arasında bölgüsü prosesi kimi başa düşülür. Hesab olunur ki, sərvətlərin dövriyyəsi formalaşmış institusional çərçivədə baş verir və təsərrüfatçılıq subyektlərinin öz sərvətlərini artırmağa yönəldilmiş davranışı ilə istiqamətlənir. Lakin

institusional çərçivə və davranış meyarları kənardan verilmiş, asılı olmayan parametrlər kimi qəbul olunur. Sərvətlərin yaranmasının həlledici faktoru istehsal hesab olunur. Sərvətlərin dövriyyəsi iqtisadi sistemin inersiyalılığını özündə daşıyan transformasiyanın dinamikasına ciddi təsir gücünə malikdir. Başqa sözlə, iqtisadi transformasiya prosesinin özünə, resurs axınlarının strukturunun tədricən dəyişdirilməsi kimi baxılır. Resurs axınının strukturunun dəyişməsi istehsal, istehlak və investisiyanın struktur parametrlərini formalaşdırır. Yəni, onları institusional mühitdə və adamların iqtisadi davranışında baş verən dəyişiliklərə uyğunlaşdırır. Beləliklə, «qradualist strategia» istehsal sisteminin inersiyalılığına əsaslanmaqla islahatların aparıcı quvvəsi kimi –resurs axınlarının stabilliyi və kəsilməzliyini təmin edəcək istehsal səviyyəsinin stabilləşdirilməsinə önəm verir.

İqtisadi transformasiya problemlərinə yanaşmada ayrıca bir istiqamətə çevrilmiş institusional baxışların yuxarıda şərh olunan nəzəriyyələrlə kəskin fərqləri çox deyil. İqtisadi reallıqları daha radikal institusional çərçivədə şərh edən «köhnə institusionalistlərdən» fərqli olaraq «neoklassik» iqtisadçılar iqtisadiyyatda «institusional» mühitin «təkmilləşdirilməsini» və hətta həmin mühitin evolyusiyalı və spontan formalaşma xarakterini qəbul edirlər. «Köhnə institusionalistlər» iqtisadiyyatı sosial-mədəni kontekstdə öyrənərək, hər bir iqtisadi transformasiyanı sosial dəyərlərin evolyusiasının ardınca istiqamətlənmiş və spontan olmayan proses kimi təsvir edirlər. «Yeni institusionalistlər» isə iqtisadi transformasiyanı yaxşı institusional formalardan spontan seçmə yolu ilə aparılan evolyusiyalı institusional dəyişikliklər kimi qəbul edirlər. Onlar belə hesab edirlər ki, son nəticədə bu prosesdə «təkmil» azad bazar iqtisadi modeli formalaşacaqdır.

Beləliklə, iqtisadi transformasiyanın nəzəri əsaslarının qısa icmalı göstərir ki, iqtisadi reallıqları əks etdirən ən azı üç baxışlar sistemi mövcuddur. İqtisadiyyatı təsərrüfatçılıq subyektlərinin davranışı (fəaliyyəti) toplusu kimi, sərvətlərin dövriyyəsi kimi və iqtisadi institutların toplusu kimi təsvir edən baxışların hər biri, özlüyündə iqtisadi reallığı tam və ya əsasən əks etdirdiyini iddia

edir. Lakin, fikrimizcə bu doğru deyil. Bu sistemlər əslində iqtisadi reallığın ayrı-ayrı müstəvilərdə təsvirini verir. Ona görə də daha dolğun əksetdirmə onların qarşılıqlı tamamlanması şəraitində mümkündür.

Postsosialist transformasiyanın nəticələri göstərir ki, hər bir islahat ideologiyasının konkret iqtisadi siyasətdə reallaşması, ancaq bu və ya digər istiqamətdə baş verən proseslərə hesablanmışdır. «Ağrılı müalicədə» – maliyyə stabilliyi və qiymətlərin liberallaşdırılması, sürətli özəlləşdirmə və daxili bazarın açılması; «qradualizmdə»-istehsal və məşğulluğun struktur adaptasiyası, kapitalın yaranması və sənaye siyasətinin formalaşdırılması; institusionalizmdə –mülkiyyət hüququnun təmin olunması, antiinhisar tənzimlənməsi, maliyyə bazarları infrastrukturunun inkişafı kimi konkret məqsədlər iqtisadi siyasətdə aparıcı mövqe tutur.

İqtisadi transformasiyanın mövcud təcrübəsinin yuxarıda sadalanan elmi-nəzəri və konkret siyasət aspektlərindən təhlilinin ümumiləşdirilməsi üçün bir-birindən əsaslı fərqlənən üç islahat təcrübəsi və müvafiq strategiyasının dərslərinə, nisbətən daha geniş baxılmasını məqsədəuyğun hesab edilər. Belə təcrübələr kimi ən radikal, sürətli və ardıcıl transformasiya hesab olunan Çexiya respublikasında aparılan islahatlar; nəticəliliyinə və xarakterinə görə fenomenal hadisə hesab olunan Çin iqtisadi islahatları çox böyük bir qrup postsosialist ölkəsi üçün islahatlar proqramının və islahatlar dövrü iqtisadi siyasətinin əsasını təşkil edən Beynəlxalq Valyuta Fondu və Dünya Bankı qrupunun birgə hazırladıqları «Vaşinqton» və «Post Vaşinqton» konsessusları adlı strategiyalar seçilmişdir.

Çexiya respublikasında həyata keçrilmiş islahatlar bir neçə cəhətdən əlamətdardır. İlk növbədə islahatların sürətliliyi və ardıcıllığı, onun sosial dəstəyinin kifayət qədər yüksək olması və nəhayət, nəticəliliyi qeyd olunmalıdır. İndi Mərkəzi Avropanın bu kiçik ölkəsi iqtisadi gücünə, inkişaf səviyyəsinə, demokratiyanın dayanıqlığına görə, özünün «stajlı» kapitalist ölkəsi olan, qonşularından geri qalmır. Çexiya indi NATO və Avropa birliyinin üzvüdür.

Çexiyada iqtisadi islahatların memarı hesab olunan sabiq baş nazir və hazırki prezident Vaslav Klaus hesab edir ki, onun apardığı islahatlar bütövlükdə postsosialist ölkələri üçün nümunəvi strategiya ola bilər. V.Klaus Çexiya islahatların ilk mərhələsinin mühüm dərslərini ümumiləşdirərək «XXI əsr iqtisadiyyatı üçün on önəmli vəzifə»ni aşağıdakı kimi müəyyənləşdirmişdir.

1. Cəmiyyətin həyatının fundamental dəyişməsini doğuran islahatlar üçün, əvvəlcədən planlaşdırılmış «təmiz» iqtisadi qərarların, strategiyaların hazırlanması mümkün deyil.

2. Yenidənqurma prosesində xarici köməyin rolu keçicidir. İslahatlar daxildə yaradılmalıdır və əsasən daxili faktorlarla təmin olunmalıdır.

3. İslahatlar prosesində qiymət subsidiyası, süni tələb, dövlət himayəsi və s. əsaslanan qeyri-təbii iqtisadi proseslərin qarşısını almaq olmaz. Heç bir makroiqtisadi idarəetmə, ÜDM-ın azalmasını, işsizliyin artmasını, qiymətlərin sıçrayışını və ya kəskin devolvasiyanı məhdudlaşdıra bilməz. Düşünülmüş makroiqtisadi siyasət yalnız hiperinflyasiyanı, təkrar devolvasiyanı təkrarlanan büdcə defisitinin və xarici borcun artmasının qarşısını ala bilər.

4. Real həyatda əvvəlcədən müəyyənləşmiş ardıcılıqla islahat tədbirlərini görmək mümkün olmasa da müəyyən makroiqtisadi qaydalara əməl olunması vacibdir. İlk növbədə müəyyən məhdudlaşdırıcı makroiqtisadi addımlar atmaqla qiymətlərin və xarici ticarətin liberallaşdırılması həyata keçirilməlidir. Bu vacib addım əmtəə və xidmətlərə real məzmun verməklə tələbin strukturunu dəyişir. İqtisadi tarazlığı yaradır və bazarı tənzimləyir. Bütün bu proseslərdə ən stabil parametr və istinad nöqtəsi mübadilə kursu olmalıdır. Hökumət islahatın bu mərhələsində bütün təsirlər və təzyiqlərə davam gətirdikdən sonra aşağıdaki istiqamətlərdə sürətli və dərinləşdirilmiş özəlləşdirmə aparmalıdır:

a) sonraki dəyişiklər üçün əlverişli şəraitin yaranması;

b) həqiqi və effektli mülkiyyətçilərin tapılması mexanizmin yaradılması;

c) dövlət bürokratiyasının iqtisadi idarəetməyə olan iddialarına son qoyulması.

Digər mexanizmlər isə (vergi islahatı, qanunçuluğun təsbiti, bazar iqtisadiyyatının yaranması və s.) hazır olduqları məqamda sistemə qoşula bilər.

5. Ən incə məqamlardan biri makroiqtisadi siyasətdə məhdudlaşdırıcı meyardan neytral və ya eksponsionist meyara keçid zamanının müəyyənləşdirilməsidir. Mərkəzi bankın müstəqilliyi və pul dinamikasının xarakterinin dəyişkənliyi, iqtisadiyyatı inflyasiyaya doğru yönəldən, populist təsirlərə qarşı dayanmağı çətinləşdirir. Çexiya təcrübəsi sübut edir ki, ilkin mərhələdə maliyyə-pul sistemində nəzarəti zəyiflədərək Keyns tipli tələbin stimullaşdırılması siyasətini aparmaq olmaz.

6. Qiymətlərin liberallaşdırılması nəticəsində yaranacaq qiymət şoku haqda əvvəlcədən izahat aparılmalıdır. Liberallaşmadan sonrakı ilk qiymət artımı ölkədə mövcud makroiqtisadi disbalansı xarakterizə edir. Sonrakı qiymət dinamikası isə cari pul-kredit siyasətinin məhdudiyyət dərəcəsini göstərir.

7. Mülkiyyət hüququnun strukturunu əhəmiyyətli dəyişmədən iqtisadiyyatda yenidənqurmanı həyata keçirmək olmaz. Özəlləşdirmə aparmadan iqtisadi quvvələrin davranışında ciddi dəyişiliklər gözləmək mümkün deyildir. Özəlləşdirmə isə effektli mülkiyyətçilərin tapılmasına istiqamətlənməli və dövlət səviyyəsində yox, mikrosəviyyədə aparılmalıdır. Özəlləşdirmə xidmətləri ancaq prosedur funksialarını yerinə yetirməlidir.

8. İslahat strategiyası yenidənqurmanın nəzərdə tutulmayan xərclərinin maksimal bölgüsünə əsaslanmalıdır. Bu sosial baxımdan gəlirlərin kəskin diferensiallaşmasının izahı və iqtisadi baxımından səmərəsiz istehsal, ümidsiz borclar, yarımçıq investisiya layihələri və s. dövlət büdcəsinə əlavə yük yaratmaması üçün vacibdir.

9. Xarici faktorun iştirakı yenidənqurmada vacibdir. Ancaq bu güzgü simmetriyası xarakteri daşımalıdır. Yəni, bu əlaqələr ticarət və mübadilə üzərində qurulmalıdır.

10. İslahatların müvəffəqiyyətinə onu aparanların inanması vacibdir. İslahat akademik problem yox, siyasi problem olduğundan geniş xalq kütləsinin dəstəyinə böyük ehtiyac vardır.

Mərkəzləşdirilmiş planlı iqtisadiyyatın ən sistemli, ardıcıl və uzunmüddətli transformasiya təcrübəsi Çin xalq respublikasına aiddir. XX əsrin 70-ci illərinin ortalarından başlayan islahatlar cəmiyyətin həyatının bütün istiqamətlərini əhatə etmişdir. Özünə məxsusluğa malik sosializm qurulması məqsədinə nail olması üçün – sosialist bazar iqtisadiyyatının dayanıqlı və stabil iqtisadi artımı təmin edən mexanizm yaradılması Çin Respublikasında iqtisadi islahatların əsas vəzifəsi elan olunmuşdur.

Uzun müddət ərzində iqtisadiyyatın islahatlaşdırılması və açılması yönümündə aparılan ardıcıl dövlət siyasəti sayəsində indi Çin xalq respublikasında fenomenal iqtisadi dirçəliş əldə olunmuşdur. Ən vacibi isə odur ki, bu iqtisadi dirçəliş həqiqətən dayanıqlı və stabil artımla davam edir. Hətta 1997-1999-cu illərdəki dünya maliyyə böhranları ölkənin iqtisadi inkişafına nəyinki mane olmamış, hətta ciddi təsir belə göstərə bilməmişdir.

Çinin iqtisadi islahatlarının xarakterik cəhətləri transformasiyanın əsas vəzifələri ilə müəyyənləşir: 1. İqtisadi sistemin planlı iqtisadiyyatdan sosialist bazar iqtisadiyyatına transformasiyası; 2. İqtisadi artımın formasının dəyişməsi-ekstensiv formadan intensiv formaya keçilməsi (Li Tein).

«Qradualsit» transformasiyanın ən yaxşı nümunəsi hesab olunan Çin islahatlarının ən ümumi prinsipini «Dövlət bazarı tənzimləyir, bazar isə müəssisələri istiqamətləndirir» kimi ifadə olunan tezis təşkil edir. Dövlətin iqtisadi funksiyalarının tədricən dəyişdirilərək, ciddi inzibati idarəetmədən dolayı tənzimləmə və nəzarətə istiqamətləndirilməsi Çində aparılan islahatlar təcrübəsinin həm də müvafiq metodoloji nümunə kimi qəbul edilməsini şərtləndirir.

Çin islahatları təcrübəsinin əsas ümumiləşdirici xüsusiyyətlərini və əslində metodoloji prinsipləri aşağıdakılar təşkil edir.

1. İslahatların strategiyası və istiqamətləri ölkənin konkret reallıqlarına əsaslanmalıdır.

2. İlkin vəzifə məhsuldar qüvvələrin inkişaf etdirilməsi olmalıdır. İslahatlar iqtisadiyyatın stabilliyi və inkişafı ilə paralel getməlidir. İslahat tədbirləri müəyyənləşdirilərkən onların üç istiqamətdə – içtimai məhsuldar qüvvələrin, ölkənin iqtisadi gücünün və əhalinin həyat səviyyəsinin «artımına təsiri» əsas götürülür.

3. İslahatlar elə üsüllarla aparılmalıdır ki, bütövlükdə və ayrı-ayrı mühüm istiqamətlər üzrə inkişaf təmin olunsun. Çin islahatları əhalinin geniş və hərtərəfli dəstəklənməsi şəraitində aparılır.

4. Bazar mexanizminin fəaliyyəti şəraitində, makrotənzimləmə və makronəzarət arasında münasibətlərin düzgün tənzimlənməsi vacibdir. Eyni zamanda, ehtiyatların yerləşdirilməsində bazarın aparıcı rolu gücləndirilməlidir.

Əldə olunmuş fövqəladə əhəmiyyətli nəticələrə baxmayaraq Çin iqtisadiyyatının bir sıra mühüm problemlərinin həlli hələ də tapılmamışdır. Belə problemlərə kənd təsərrüfatının inkişaf səviyyəsinin aşağı olması, dövlət müəssisələrinin aşağı səmərəliliyi, regionların inkişaf səviyyəsindəki kəskin fərqlərin qalması nümunə göstərilə bilər. Bütövlükdə, Çində aparılan islahatların düzgün istqamətliliyinə əmin olan transformasiya ideoloqları, 2010-cu ilədək olan dövrdə islahatların davam etdirilməsi və sosialist bazar iqtisadiyyatı sisteminin formalaşdırılmasını nəzərdə tuturlar.

Bu məqsədə nail olmaq üçün iqtisadi inkişafın ümumi səviyyəsini nəzərə alaraq, islahatların dərinləşdirilməsində vacib alət sayılan elmi makroiqtisadi tənzimləmə və nəzarətin əsas prinsipləri aşağıdakılar kimi müəyyənləşdirilmişdir.

- Müxtəlif iqtisadi sektorların birgə inkişaf etdirilməsində mərkəzi həlqə ictimai mülkiyyət olmalıdır;
- Dövlət müəssisələrini islahatlaşdırılmasının dərinləşdirilməsi və müasir müəssisələr, sisteminin yaradılması prioritetə malik olmalıdır;
- Dolayı idarəetmə formalarından istifadə etməklə, hökumət funksiyaları makrotənzimləmə və makronəzarətə istiqamətləndirilməlidir;
- İqtisadi alətlərin səmərəli istifadəsi və makroiqtisadi siyasəti koordinasiya etməyə imkan verən, plan, pul dövriyyəsi, maliyyə ehtiyatlarının qarşılıqlı fəaliyyəti və asılılığını təmin edən mexanizm yaradılmalıdır;

- Sosial təminat sisteminin islahatlaşdırılmasının sürətləndirilməsi, sosial fondun vəsaitləri və əhali yığımını istifadə etməklə qocaların sosial təminat sistemi və tibbi sığorta sistemi yaradılmalıdır;
- İqtisadiyyatın açıqlığını davam etdirməklə yerli və xarici müəssisələr üçün start vəziyyətinin bərabərləşdirilməsi təmin olunmalıdır;
- İqtisadi qanunvericilik tədricən yeni iqtisadi modelə uyğunlaşdırılmalıdır.

Qeyd etmək lazımdır ki, Çin təcrübəsinin yüksək iqtisadi nəticələri və elmi-nəzəri əsaslandırılmasının praqmatikliyinə baxmayaraq, postsosialist ölkələr arasında bu təcrübətən yararlananlar yox dərəcəsindədir. Ölkələrin böyük əksəriyyəti, ilk baxışdan daha məntiqli və ardıcıl görünən, monetarist liberallaşdırma xarakterili islahatlar yolunu seçmişdir. Fikrimizcə bunun vacib bir səbəbi, keçid ölkələrinin islahat-xərclərinin maliyyələşdirilməsində rastlaşdıqları problemlərdir. Yəni, monetarist liberallaşdırma ideologiyasını qəbul edən ölkələr üçün sərfəli xarici maliyyə mənbəyinin təklif olunması, seçimdə həlledici rol oynamışdır.

Dünyanın təxminən üçdə birini təşkil edən sosialist sisteminin dağılması dünya iqtisadiyyatı üçün kifayət qədər təhlükəli vəziyyət yaratmışdır. İqtisadi inteqrasiyanın güclənməsi şəraitinə ideoloji maneələrin itməsi postsosialist məkanının digər ölkələrə iqtisadi problemləri «ixrac» etməsinə əlverişli şərait yaratmışdır.

Qlobal problemlərə qarşı birgə hərəkət edən inkişaf etmiş ölkələr və onların nəzarət etdikləri beynəlxalq təşkilatlar, ilk növbədə, arzuolunmaz «ixracın» qarşısını almaq, geniş bazarlara malik iqtisadi fəzanı öz mənafelərinə uyğun istiqamətləndirmək üçün təcili əməli tədbirlər kompleksi hazırladılar.

Əslində bu tip məsələlərin həlli üçün gözəl tarixi nümunə – Marşall planı var idi. Lakin dünyanın dəyişmiş inkişaf şəraitini nəzərə alaraq yeni plan fərqli formal meyarlara və məqsədlərə istiqamətləndirmişdir.

Bütün «inkişaf etməkdə olan» ölkələr üçün universal iqtisadi model roluna iddia edən bu model Beynəlxalq Valyuta

fondu və Dünya bankı qrupunun razılaşdırılmış təkliflər paketindən ibarətdir. İlk dəfə 1990-cı ildə J.Vilyamson tərəfindən elan olunan və «Vaşinqton konsessusu» adlanan bu paket 10 dəqiq ifadə olunmuş prinsip və ya təklifdən ibarət idi. Bazar prinsiplərinə əsaslanan iqtisadiyyat qurmaq istəyən ölkələr üçün «Liberal göstərişlər» rolunu oynayan bu toplunun, fəaliyyət üçün əsas qəbul edilməsi, BVF və DB tərəfindən güzəştli kreditlər üçün yol açırdı.

Bu prinsiplər aşağıdakı kimi ifadə olunmuşdur.

1. Büdcə kəsiri o qədər kiçik olmalıdır ki, onun maliyyələşdirilməsi inflyasiya doğurmasın.
2. Sosial xərcləri siyasi həssas sahələrdən daha çox, iqtisadi xeyir gətirən və gəlirlərin bölgüsünü potensial yaxşılaşdıran sahələrə istiqamətləndirmək lazımdır.
3. Vergi islahatları vergi bazasını genişləndirməli və vergi tutmanın limit dərəcəsini aşağı salmalıdır.
4. Son məqsədi – faiz dərəcələrini bazarın müəyyənləşdirməsi olan maliyyə liberallaşdırılması həyata keçirilməlidir.
5. İxracın uzunmüddətli stimullaşdırılması üçün milli valyutanın məqbul səviyyədə unifikasiyaolunmuş mübadilə kursu müəyyənləşdirilməlidir;
6. Ticarətin qeyri-tarif məhdudiyyətləri dərhal 10-20%-ə qədər aşağı salınaraq tarif məhdudiyyətləri ilə əvəzlənməlidir;
7. Birbaşa xarici investisiyanın cəlbini stimullaşdırmaq üçün, daxili və xarici kompaniyalara bərabər rəqabət şəraiti yaradılmalıdır;
8. Dövlət müəssisələrinin özəlləşdirilməsi həyata keçirilməlidir;
9. İqtisadi təhlükəsizliyin təmin olunması, ətraf mühitin mühafizəsi və maliyyə institutları üzərində zəruri hallarda tənzimlənmə tədbirləri istisna olmaqla, iqtisadiyyatın tənzimlənməsi ləğv edilməlidir.
10. Qanunvericilik və mülkiyyət hüququ təsbit edilməlidir.

«Vaşinqton konsessusunun» prinsipləri öz mahiyyətinə görə «texnokrat hökumət» üçün konkret siyasətdə aktiv istifadə oluna bilər. Təcrübə göstərdi ki, bu həqiqətən belədir. Yenidən qurmanın ilk dövründə «islahatlar naminə konsessus» tezisindən istifadə edən hökumətlər ancaq müəyyən dövrlərdə müvafiq islahatları apara bildi. Qısa dövrdən sonra müəyyən sosial qrupların təsiri ilə siyasətdə məcburi ciddi dəyişiklər baş verdi. Çünki «Vaşinqton konsessusu» islahatların cari sosial xərclərinin əhəmiyyətini qətiyyən nəzərə almır. Bir çox ölkələrdə bu prinsiplərin qorunmasının qeyri-mümkünlüyü, ideoloqları «Vaşinqton konsessusunu» dəyişdirməyə məcbur etdi. 1990-cı illərin birinci yarsında Latın Amerikasında, Şərqi Avropada və keçmiş SSRİ respublikalarında yaranmış təcrübənin dərslərindən nəticə çıxararaq, 1997-ci ildə «Post Vaşinqton konsessusu» ideyası irəli sürüldü. Yeni konsessusun prinsipləri əvvəlkilərdən ciddi fərqlənirdi.

1. Yığımın artırılması, o cümlədən vergi intizamının yüksəldilməsi;
2. Büdcə vəsaitinin xərclənməsi istiqamətlərinin dəyişdirilməsi, o cümlədən, sosial xərclərin ünvanlılığının təmin olunması;
3. Vergi sisteminin islahatlaşdırılması, o cümlədən yüksək həssaslığa malik torpaq vergisinin tətbiqi;
4. Banklar üzərində nəzarətin gücləndirilməsi;
5. Effektli valyuta kursunun qorunması;
6. Regionlararası ticarətin liberallaşdrılması siyasətinin aparılması;
7. Rəqabətli bazar iqtisadiyyatının yaradılması;
8. Mülkiyyət hüququnun dəqiq təsbit olunması və hamı üçün qorunması;
9. Həlledici institutların yaradılması (müstəqil mərkəzi bank, güclü fiskal orqanlar, müstəqil və korrupsiyalaşmamış məhkəmə hakimiyyəti).
10. İbtidai və orta təhsil xərclərinin artırılması.

İqtisadi islahtlar təcrübəsinin və strategiyasının bir neçə nümunəsinin təhlili onların iqtisad elmi kateqoriyaları baxımından identifikasiya olunmasını imkan verir. İqtisadi nəzəriyyənin pozitiv və normativ istiqamətləri üzrə mövcud təcrübələri liberal və etatist qruplar kimi qiymətləndirmək məqsədəuyğun hesab olunur.

8.2. Çağdaş Azərbaycanın iqtisadi islahatlar modelinin formalaşması xüsusiyyətləri

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından ötən dövrdə, ölkə iqtisadiyyatının ümumi inkişafının qiymətləndirilməsi üçün **transformasiya faktorunun** rolu istinad nöqtəsi hesab oluna bilər. Çünki dövlətçiliyin möhkəmləndirilməsi və müstəqilliyin uzun ömürlülüyünü təmin edə biləcək iqtisadi fundamentin gücləndirilməsi meyarı baxımından transformasiya proseslərinin səmərəliliyi və nəticəliliyi cox muhumdür.

Son iyirmi ildə ölkədə aparılan iqtisadi siyasətə və o cümlədən, onun tərkib hissəsi olan radikal islahatlara arqumentli qiymət verilməsi iqtisadi inkişafımızm perspektiv paradiqmasının formalaşdırılması üçün mühünı əhəmiyyət kəsb edir.

Çünki ötən dövrdə Azərbaycanda aparılan iqtisadi siyasətin ən mühüm xüsusiyyəti inkişafın əsaslı islahatlar şəraitində təmin olunmasıdır. Belə ki, dövlət müstəqilliyinin bərpa edilməsi Azərbaycanda yeni, bütöv iqtisadi sistemin qurulmasını radikal islahatların vacib vəzifəsinə çevirmişdir. Eyni zamanda yeni sistemin müstəqil fəaliyyət qabiliyyətinin təmin olunması, dünya təcrübəsinin müsbət dərslərinin nəzərə alınmasını tələb etdiyindən, islahatların ikinci əsas vəzifəsi kimi təsərrüfat mexanizminin bazar prinsiplərinə uyğunlaşdırılması zərurəti yaranmışdır.

Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonrakı ilk illərdə (1991-1993) iqtisadi idarəetmədə bir sıra islahat xarakterli tədbirlər aparılsa da, sistemli və ardıcıl siyasətdən əsərəlamət yox idi. Əslində dövlətin məqsəd və strateji hədəflərini ifadə edən konseptual, ideoloji baxışlar mövcud deyildi.

Müstəqil Azərbaycan dövlətinin inkişaf və transformasiya hədəfləri ilk dəfə 1993-cü ilin iyun ayının 15-də, xalqın təkidi ilə

Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmiş Heydər Əliyevin parlamentin tribunasındakı ilk çıxışında bəyan olunmuşdur: **"Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır".**

Ulu Öndərin bu bəyanatı, müasir Azərbaycanın çağdaş iqtisadi inkişaf strategiyasında sistemli transformasiyanın başlanğıcı hesab edilməlidir. Dövlət rəhbəri kimi özünün ilk çıxışında "İstədiyimiz məqsədlərə çatmaq üçün vəzifə, iqtisadiyyatın bütün sahələrində islahatlar aparmaqdan və bu islahatlar vasitəsilə Azərbaycanın mövcud iqtisadiyyatını sərbəst iqtisadiyyat prinsipləri əsasında irəlilətməkdən ibarətdir" deməklə Heydər Əliyev islahatların istiqamətini göstərirdi. Eyni zamanda o, xüsusi qeyd edirdi: "Bazar iqtisadiyyatı prinsiplərini tətbiq edərək, sərbəst iqtisadiyyata geniş yol verərək və onu əsas yol hesab edərək, bunların hamısını əhalinin bütün təbəqələrinin rifah halının sosial vəziyyətinin yaxşılaşmasına yönəltməliyik".

Heydər Əliyevin inkişaf strategiyası dərin elmi məntiq üzərində qurulsa da, O dahiyanə tərzdə dünya təcrübəsinin dərclərindən müdrik nəticələr çıxararaq, eyni zamanda, qeyd edirdi ki, "Azərbaycanda iqtisadi islahatlar ideologiya əsasən deyil real həyat həqiqətlərinə uyğun aparılacaq".

Dahi Heydər Əliyevin əsasını qoyduğu iqtisadi inkişaf strategiyasının evolyusiyasını və onun əməli nəticələrini daha düzgün qiymətləndirmək üçün dövlət müstəqilliyimizin start şəraitini nəzərə almaq vacibdir. Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatı keçmiş SSRİ tərkibində kifayət qədər yüksək, lakin birqiymətli müsbət qiymətləndirilməyən inkişaf səviyyəsinə malik olmuşdur. Müstəqillik ərəfəsinin son iyirmi illik dövründə Azərbaycan iqtisadiyyatının inkişafı rəvan getməmişdir. Məsələn, 1970-1980-cı illərdə respublikada iqtisadi artımın orta illik sürəti 1960-1970-cı illərdəki 5,2%-dən 7,4%-ə yüksəldiyi halda, 1980-1990-cı illərdə kəskin azalmışdır. 1981-1985-ci illərdə orta artım sürəti 4,9% olmuş, 1986-1990-cı illərdə isə artım sürəti orta hesabla ildə 5-6% azalmağa başlamışdır. 1989-cu ildə isə istehsal

həcminin mütləq azalması baş vermiş və 1990-cı ildə ölkədə milli gəlir əvvəlki ilə nisbətən 7% azalmışdır.

Tədqiqatlar göstərir ki, SSRİ-nin dağılması və Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması ilə başa çatan planlı idarəetmə dövrünün iqtisadiyyatımızda miras qoyduğu əsas problemlər aşağıdakılardan ibarət olmuşdur:

- Xalq təsərrüfatının strukturunun qeyri-təkmil formalaşması. Respublikada mövcud sənaye-istehsal fondlarının 60%-i xammal və aralıq məhsullar istehsal edən sahə komplekslərində cəmlənmiş, istehsalın səmərəliliyi və texniki tərəqqini təmin edən sahələrin payı isə cəmi 30,4% təşkil etmişdir.
- İqtisadiyyatda komplekslilik səviyyəsinin aşağı olması, xammal və materialların istehsalı, ilkin və son emalı sahələri arasında əlaqənin zəif inkişaf etməsi nəticəsində ölkədən aparılan məhsulun 45-55%-i son istehlak təyinatlı olmurdur.
- Məhsuldar qüvvələrin qeyri-bərabər yerləşməsi sayəsində iqtisadiyyatın sahə və ərazilər üzrə qeyri-mütənasib cəmlənməsi baş vermişdir. 90-cı illərin sonunda sənaye məhsulunun 35%, sənaye-istehsal fondlarının 70%-i və işçi heyətinin 41%-i neft-qazçıxarma və onunla sıx bağlı sənaye sahələrinin payına düşmüşdür.

1981-1990-cı illərdə maşınqayırma sənayesinin yeni başlayan tikintilərinin 60%-i Bakıda, 40%-i isə Gəncədə yerləşdirilmişdir.

- Xalq təsərrüfatmm vacib səmərəlilik göstəricisi hesab olunan fond verimi uzun illər ərzində azalma meyli olmaqla 1985-1990-cı illərdə 10%-dək aşağı düşmüşdür.
- İstehsal olunan məhsulun, xüsusi ilə xalq istehlak mallarının keyfiyyəti aşağı olmaqla bərabər, əhalinin hər nəfərinə düşən miqdar üzrə keçmiş İttifaqda 2 dəfə az olmuşdur.
- İqtisadiyyatın qeyri-təkmil quruluşu nəticəsində Azərbaycan aparılan və gətirilən malların həcmi 80-ci illərin sonların-

da stabil müsbət saldoya malik olmuşdur. Bu dövrdə ixrac idxalı 30-40% üstələmişdir.

İqtisadi inkişafda yol verilmiş nöqsanlar ümumi iqtisadi yüksəlişə mane olduğu kimi, əhalinin sosial vəziyyətinə də öz mənfi təsirini göstərmişdir. Belə ki, 90-cı illərin əvvəlində Azərbaycan həyat səviyyəsini səciyələndirən əksər göstəricilər üzrə keçmiş İttifaqda ən axınncı yerləri tuturdu.

Keçmiş SSRİ-nin dağılması ərəfəsində Azərbaycan iqtisadiyyatınm düşdüyü şəraitin qısa xarakteristikası sübut edir ki, Dövlət müstəqilliyinin bərpası, iqtisadi böhranın dərinləşməsi kimi arzuolunmaz faktla eyni vaxta təsadüf etmişdir.

Təbii ki, belə şəraitdə iqtisadi transformasiya müəyyən faktorların ciddi təsirinə məruz qalmışdır. Bunların ən vacibləri və obyektiv hesab olunanları müstəqil ölkənin bütöv iqtisadi sisteminin yaradılmasının, təsərrüfat münasibətləri və mexanizminin əsaslı dəyişdirilməsi və hərbi-siyasi çaxnaşmalar şəraitində aparılmasınm məcburiliyi olmuşdur.

Əsasən təbii xammalın, ucuz və bol işçi qüvvəsinin intensiv istifadəsinə əsaslanan material və enerji tutumlu sahələrin inkişaf etdirilməsi, iqtisadiyyatın struktur böhranları üçün "münbit" quruluşunun formalaşmasına şərait yaratmışdır.

Məhsuldar qüvvələrin inkişafının "Ümumittifaq" mənafelərinə tabe etdirilməsi direktiv idarəetmədən, "effektli tələb" idarəçiliyinə keçiddə multiplikativ reqressiya doğurmuşdur.

İqtisadi inkişafda yol verilmiş nöqsanlar ümumi iqtisadi yüksəlişə mane olduğu kimi, əhalinin sosial vəziyyətinə də öz mənfi təsirini göstərmişdir. Belə ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın həyat səviyyəsini səciyyələndirən əksər göstəricilər üzrə keçmiş İttifaqda ən axırıncı yerləri tuturdu.

Keçmiş SSRİ-nin dağılması ərəfəsində Azərbaycan iqtisadiyyatının düşdüyü şəraitin qısa xarakteristikası sübut edir ki, dövlət müstəqilliyinin bərpası, iqtisadi böhranın dərinləşməsi kimi arzuolunmaz faktla eyni vaxta təsadüf etmişdir.

Təbii ki, belə şəraitdə iqtisadi transformasiya müəyyən faktorların ciddi təsirinə məruz qalmalı olmuşdur. Bunların ən vacibləri və

obyektiv hesab olunanları müstəqil ölkənin bütöv iqtisadi sisteminin yaradılmasının təsərrüfat münasibətləri və mexanizminin əsaslı dəyişdirilməsi və hərbi-siyasi çaxnaşmalar şəraitində aparılmasının məcburiliyi olmuşdur.

Ötən dövrdə aparılmış iqtisadi islahatların xarakterini qiymətləndirmək üçün onun çərçivə şərtlərini və iqtisadi sistemin ümumi dinamikasına, inkişaf mərhələlərinə adekvat aktual vəzifələrini müəyyənləşdirmək zəruridir. Azərbaycanda iqtisadi sisteminin transformasiyası ötən dövrdə iki ən mühüm məqsədə istiqamətləndirilmişdir:

- müstəqil ölkəyə məxsus bütöv iqtisadi sistemin yaradılması;
- təsərrüfat mexanizminin bazar prinsipləri üzrə transformasiya olunması.

Bütün digər vəzifə və məqsədləri özündə birləşdirən bu iki qlobal hədəfin realizasiyasının iki sistemdənkənar istiqamətləndiricisi olmuşdur. Bunların birincisi, mahiyyət etibarilə heç də obyektiv xarakterli olmayan cəlb olduğumuz müharibə, ikincisi isə əsasən obyektiv mahiyyətli dünya təsərrüfat sisteminin inkişaf tendensiyasıdır.

İslahatların ölkədə bütöv iqtisadi sistem yaratmaq məqsədi mahiyyət və ardıcıllıq baxımından ilkin hesab olunur. Həm də bu daha çox institusional struktur xarakterli məsələdir. Onun əsas vəzifələri sırasına milli valyutanın, milli bank-kredit sisteminin və vergi-gömrük sisteminin yaradılması; ölkədə fəaliyyət göstərən bütün iqtisadi agentlər üçün hüquqi və idarəetmə baxımından vahid məkanın formalaşdırılması; özünü inkişaf və dayanıqlığın təminedici potensialının bərpası üçün iqtisadiyyatm strukturunun təkmilləşdirilməsi; zəruri proporsiyaların yaradılması və s. aiddir.

Heydər Əliyev strategiyasına əsaslanan iqtisadi sistemin tnasformasiyası yönümündə görülmüş işlər Azərbaycanın iqtisadi islahatlar modelini və onun analitik xüsusiyyətlərini formalaşdırmağa imkan verir.

Dinamik inkişaf məntiqinə malik olan iqtisadi transformasiya modelinin ötən dövrdəki realizasiyasının ən mühüm xüsusiyyəti

kimi onun inkişafının aşağıdakı istiqamətlərdə cəmlənməsi hesab oluna bilər.

1.Ölkənin əsas təbii-iqtisadi ehtiyatlarının aktiv təsərrüfat dövriyyəsinə cəlb olunması: – belə ehtiyatlara Xəzərin karbohidrogen yataqları; geosiyasi mövqeyin yaratdığı tranzit potensialı; şəxsi mülkiyyətə verilmiş torpaq və nəhayət, yüksək əməksevərliyə malik əhali potensialı aid olunur.

2.Liberal-demokratik yönümlü bazar prinsiplərinə əsaslanan təsərrüfat mexanizminin yaradılması.

Bu istiqamətdə ən vacib vəzifələrə xüsusi mülkiyyətə əsaslanan sahibkarlıq mühitinin yaradılması; ölkənin maliyyə-bank sisteminin liberallaşdırma yönümündə islahatı; dövlət iqtisadi idarəetmə sisteminin istehsalın idarəedicisindən əsas ictimai xidmətlərin təminatçısına çevrilməsi; iqtisadiyyatın dövlətsizləşdirilməsi, o cümlədən, torpaq islahatı və özələşdirmənin həyata keçirilməsi aiddir.

3.Ölkə iqtisadiyyatının ardıcıl tədbirlər vasitəsilə açılması, onun dünya təsərrüfat sisteminə rasional inteqrasiyanın təmin olunması. Bu istiqamətdə fəaliyyət qlobal və regional, funksional və sahə iqtisadi birliklərində fəalı siyasətin təmin olunmasını nəzərdə tutur.

Ümumiyyətlə, Heydər Əliyevin iqtisadi islahatların həyata keçirilməsinə baxışlarını səciyyələndirən ən mühüm cəhətlərdən biri – islahatların həyata keçirilməsinin öncül istiqamətlərinin düzgün və məntiqli ardıcıllıqla seçilməsindən ibarət olmuşdur.

Təcrübəli dövlət xadimi kimi Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdığı 1993-cü ilin yayında, çox ağır sosial-siyasi və hərbi şəraitdə belə iqtisadiyyatda ciddi addımlar atılmasının zərurətini aydın görürdü. Məhz bu baxımdan, çağdaş Azərbaycanın iqtisadi sisteminin yenidən qurulması baxımından islahatların ilk vacib addımı milli valyutanın ölkə ərazisində yeganə ödəniş vasitəsi elan olunması hesab edilir. Heydər Əliyevin bu qərarı ilə, əslində ilk dəfə ölkənin bütöv iqtisadi fəzasının yaradılması başlandı.

1993-cü ilin payızından başlayaraq Heydər Əliyev Azərbaycan Prezidenti kimi iqtisadi tənəzzülün qarşısının alınması və dirçəlişin təmin olunması üçün ciddi səylər göstərirdi. Ona görə də

dünyanın iqtisadi inkişaf tarixinin dərslərini və ölkəmizin həmin dövrlərdəki ağır vəziyyəti, nəzərə alınaraq, iqtisadi dirçəlişin təmin edilməsi üçün xarici investisiyaların cəlbi prioritet vəzifə kimi qarşıya qoyuldu. Xəzərin dərin qatlarında yerləşən yataqlardakı neft ehtiyatlarının çıxarılması üçün dünyanın qabaqcıl transmilli korporasiyalarının bu layihəyə cəlb edilməsi üçün uzunmüddətli, gərgin danışıqlar aparıldı.

Əslində dünya təcrübəsi göstərir ki, qeyri-stabil sosial-siyasi şəraitə malik, faktiki müharibə şəraitində olan ölkə kimi Azərbaycana investisiya yatırımının təmin edilməsi olduqca qeyri-realdır. Lakin müdrik rəhbərin ardıcıl səyləri və qətiyyəti sayəsində fövqəladə hadisə baş verdi. Azərbaycana böyük həcmdə investisiya qoyulması barədə çoxtərəfli saziş imzalandı. Beləliklə, həm də Azərbaycan daxili siyasi sabitliyin təsdiqi kimi 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkənin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində sıçrayış baş verdi.

Həmin dövrün üçüncü ən mühüm hadisəsi ictimai-siyasi həyatımızda, o cümlədən iqtisadi sistemdə yeni eranın başlanğıcını qoyan müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu oldu. Məhz yeni Konstitusiya demokratik dəyərlərə əsaslanan liberal bazar iqtisadiyyatının qurulmasının legitimliyini təsdiq etdi.

Xüsusi mülkiyyətin, azad sahibkarlığın, yeni torpaq münasibətlərinin, dünya iqtisadiyyatına inteqrasiyanın hüquqi əsasları təsbit edildi və dövlətin idarə olunmasında müstəsna əhəmiyyəti olan hakimiyyətin bölgüsü baş verdi.

Bu səbəblərdən Azərbaycanda genişmiqyaslı iqtisadi islahatların 1995-ci ildən başlandığını söyləmək olar.

Məhz bu dövrdən bütövlükdə iqtisadi islahatlarda hüquqi bazanın yaradılması; prioritetlərin seçilməsi; taktiki forma və üsulların müəyyənləşdirilməsi sahəsində sistemlilik və məntiqi ardıcıllıq; icra məsuliyyəti və tələbkarlıq; yaranmış vəziyyətin operativ qiymətləndirilməsi və perspektivin proqnozlaşdırılması imkanları özünü göstərmişdir.

Bütün bunlar bərabər qeyd edilməlidir ki, bazar iqtisadiyyatına, liberal və demokratik dəyərlərə əsaslanan iqtisadiyyata

keçid dövrünü yaşayan ölkəmizin ötən dövrdəki sosial-iqtisadi inkişaf yolu da kifayət qədər hamar olmamışdır.

Yəni, ölkənin iqtisadi uğurları dövlətin və xalqın gərgin əməyi sayəsində mümkün olmuşdur. Akademik R.Mehdiyevin doğru olaraq qeyd etdiyi kimi, "Son illərdə həyata keçirilən "yenilikçi" qərarlar Azərbaycanı zəif və tənəzzülə uğramış iqtisadi sistem, geridə qalmış siyasi instutsional quruluş və marqinal içtimai şüurla xarakterizə olunan cəmiyyətdən, dayanıqlı siyasi sistem, bazar xarakterli iqtisadi struktur və mərhələlərlə formalaşan demokratik institutlarla səciyyələnən ölkəyə çevrmişdir".

İqtisadi islahatların son illərdəki fərqləndirici cəhətləri onların, eyni zamanda, müxtəlif istiqamətlər üzrə aparılması, strateji əhəmiyyətli, real və bir sıra cəhətlərdən qeyri-populyar, lakin iqtisadi effektli qərarların qəbulu, onun sosial yönümlüyü və qabaqcıl dünya təcrübəsinə və köməyinə arxalanmasından ibarətdir.

İstehsal və təsərrüfat mexanizminin mahiyyəti baxımından isə Azərbaycanda islahatların özünəməxsus cəhəti iqtisadi sistemin yenidən qurulmasında yanacaq-enerji ehtiyatlarından səmərəli istifadənin strateji meyar olmasıdır.

Bu iqtisadi siyasətin doğruluğunun ən yaxşı sübutu əldə olunmuş nəticələrdir.

Əsas makroiqtisadi parametrlərin son dövrlərdəki dinamikası Azərbaycan iqtisadiyyatının inkişaf yolunu adekvat əks etdirir. Statistik rəqəmlər sübut edir ki, 1996-cı ildən başlayan yüksəliş son 5 ildə daha böyük sürət almışdır. Ümumi daxili məhsul (ÜDM) istehsalı 1995-ci ildəki 2133,8 mln. manatdan 2000-ci ildə 4718,2 mln. manata qədər yüksəlmişsə 2005-ci ildə bu göstərici 12522 mln. manata, 2008-ci ildə isə 25288,1 mln. manata çatmışdır.

Fərəhləndirici cəhət kimi qeyd etməyi vacib sayırıq ki, son dövrlərdə ÜDM istehsalında qeyri-neft sektorunun payı da durmadan artır. Məsələn, 2000-ci ildə bu sektorda istehsal olunmuş ÜDM-in həcmi 3055,8 mln manat olmuşdursa, 2008-ci ildə bu 9290,5 mln manata çatmışdır.

Əsas kapitala yönəldilmiş investisiyanın həcmi 1995-ci ildəki 228 mln manatdan, 2000-ci ildə 967,8 mln manata, 2008-ci ildə isə

6774,8 mln manat yüksəlmişdir. Əhalinin nominal pul gəliri və orta aylıq əməkhaqqı isə daha yüksək sürətlə artmışdır. 1995-ci ildə bu göstəricilər müvafiq olaraq 1314,0 mln manat və 13,4 manat olmuşsa, 2000-ci ildə 3511,4 mln manat və 44,3 manat, 2008-ci ildə isə 14305,6 mln manat və 214,0 manata çatmışdır.

Son 5-6 ildə Azərbaycan iqtisadiyyatı özünün inkişaf xüsusiyyətlərinə görə dünyanın lider ölkəsinə çevrilməklə bərabər, tamamilə yeni istiqamət almışdır.

Bu özünü ilk növbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının bəyan etdiyi ölkəmizin "stabillikdən inkişafa doğru" tərəqqi strategiyasının məntiq nəticəsi hesab olunmalıdır.

Bu baxımdan hökumətin son üç ildəki iqtisadi siyasəti çox önəmlidir. Böyük neft gəliri erasının başlaması ilə iqtisadi siyasətdə ciddi dəyişiklər baş verir. Bu dəyişikliklər iqtisadi inkişafın meyarları kimi ənənəvi kəmiyyət göstəricilərindən yaxın gələcəkdə imtina olunacağını əks etdirir. Məsələn, əhalinin yoxsulluq səviyyəsinin aşağı salınması, həyat səviyyəsinin yüksəldilməsi məqsədləri və onların proqramlı realizasiyası; yeni iş yerlərinin açılması üzrə 2003-cü ildə elan olunan beşillik hədəflər; ölkə regionlarının sosial iqtisadi inkişafında tarazlığın təmin olunması məqsədləri; iqtisadi konyunkturanın stabilliyinə istiqamətlənən antiinflyasiya siyasəti; dövlət büdcəsinin inkişafın tənzimləyicisi və sterilizatoru funksiyalarının genişləndirilməsi və s. dayanıqlı və stabil dinamikalı inkişaf siyasətini şərtləndirən mühüm faktorlar hesab olunmalıdır.

Böyük **"neft gəliri dövrünün"** astanasında iqtisadi siyasətdə baş verən bu proqressiv dəyişikliklər sevindirici olmaqla yanaşı iqtisadi transformasiyanın müasir vəzifələrinə də yenidən baxmağı tələb edir.

Hesab edirik ki, yaxın beş ildə **iqtisadi inkişaf strategiyasının əsas məqsədi** aparılan iqtisadi islahatları dərinləşdirmək yolu ilə, müasir bazar münasibətləri və dünya təsərrüfat sisteminin inkişaf meyilləri əsasında ölkənin iqtisadi sisteminin aşağıdakı xarakteristikalara malik yeni inkişaf səviyyəsinə keçməsinin təmin olunması kimi qəbul edilə bilər.

- Dinamik inkişaf edən və bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın formalaşdırılmasının əsasən başa çatdırılması;
- Sənayenin aparıcı sahələrinin, o cümlədən yerli xammalla işləyən və dünya bazarında likvidli tələbə malik məhsullar istehsal edən qeyri-neft baza sahələrinin müasir texnoloji əsasda dinamik inkişafının təmin olunması;
- Ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyasının dərinləşdirilməsi və genişləndirilməsi;
- Müasir və çevik iqtisadi idarəetmə sistemi və tənzimləmə vasitələri ilə dövlətin bilavasitə iqtisadi fəaliyyətdəki rolunun azaldılması və onun ictimai xidmətlərin təminatçısına çevrilməsinin sürətləndirilməsi, iqtisadi inkişafda istiqamətləndirici rolunun yüksəldilməsi;
- Ölkənin ayn-ayrı bölgələrinin dinamik inkişafını təmin edəcək məqsədyönlü regional siyasətin davam etdirilməsi;
- Əhalinin etibarlı sosial müdafiə və sosial təminat sisteminin müasir tələblərə uyğun təkmilləşdirilməsi və iqtisadi yüksəlişin hesabına əhalinin həyat səviyyəsinin daha yüksək pilləyə qaldırılmasının təmin olunması.
- ÜDM-in büdcə vasitəsilə yenidən bölüşdürülən hissəsinin həcmini 35-40 faizə çatdırmaqla dövlətin iqtisadi funksiyaları üçün dayanıqlı bazanın yaradılması.

Azərbaycan Respublikasında iqtisadi quruculuğun dövlət rəhbərliyi tərəfindən elan edilmiş strateji məqsədini, mövcud təcrübə və reallıqları nəzərə alaraq hesab edirik ki, indiki mərhələdə ölkənin keçid dövrünün iqtisadi siyasət modelinin formalaşdırılması vacibdir. Fikrimizcə, həmin modelin **məntiqi paradiqması** aşağıdakı prinsipləri özündə etiva etməlidir.

1. İqtisadi siyasətin vahidliyi, bölünməzliyinin və varisliliyinin təmin olunması;
2. İqtisadi siyasətin sistemliyinin, məqsəd və hədəflər ardıcıllığının təmin olunması, ancaq bu halda ayrı-ayrı tədbirlərin qarşılıqlı gücləndirici multiplikativ effektinə nail olmaq mümkündür;
3. İqtisadi siyasət sosial - strukturlaşdırılmış iqtisadi sistemin yaradılmasına istiqamətlənməklə, struktur siyasəti və strategiyası əsasında yaradılmış proqramlarla reallaşdırılmalıdır;
4. Sosial-iqtisadi inkişafın cari vəziyyətinin obyektiv qiymətləndirilməsi – bu monitorinq vasitəsilə aparılmalı, tədbirlərin qabaqlama və gecikmə effektləri nəzərə alınmalıdır;
5. İqtisadi siyasət keçid dövründə dövlətin əlahiddə tənzimləmə rolu nəzərə almalıdır.

Strateji baxımdan ölkədə aparılan iqtisadi islahatların və bütövlükdə iqtisadi siyasətin paradiqmasını şərtləndirən son dərəcə mühüm digər bir amil, iqtisadi sistemimizin dünya təsərrüfat sisteminə qovuşmasının zəruriliyi və məqsədəuyğunluğudur. Ona görə də yuxarıda qeyd edildiyi kimi islahatların çərçivə şərtləri sırasında dünya iqtisadiyyatında baş verən qlobal proseslər və yaranmış meyllər mühüm yer tutur. Fikrimizcə, yuxarıda sadalanan hədəflərə nail olunması Azərbaycanda əsaslı iqtisadi transformasiya dövrünün başa çatması ilə nəticələnəcəkdir. Başqa sözlə, ölkənin iqtisadi siyasətində mühüm istiqamətləndirici, əslində isə, həm də məhdudlaşdırıcı rol oynayan transformasiya faktorunun əhəmiyyəti azalacaqdır.

Beləliklə, Azərbayçanda yüksək demokratik dəyərlərə əsaslanan çəmiyyətin formalaşması, ölkəmizin dünya miqyasında özünəməxsus söz sahibi olan, dinamik, tarazlı və dayanıqlı yüksək inkişaf səviyyəsinə malik ölkəyə cevrilməsinə nail olunaçaqdır.

8.3. Azərbaycanın iqtisadi islahatlar strategiyasının realizasiyası istiqamətləri

1. Struktur islahatları və təsərrüfat mexanizminin transformasiyasının əsas istiqamətləri. Azərbaycanda aparılan iqtisadi islahatlar dövründə sosial-iqtisadi inkişafın gedişinin tədqiqi göstərir ki, mürəkkəb daxili və xarici faktorların təsiri altında iqtisadi islahatların davam etdirilməsi və dərinləşdirilməsi transformasiya strategiyasına müntəzəm olaraq korreksiyalar verilməsini zəruri etmişdir.

Azərbaycan xalqının ulu öndəri və müasir mərhələdə dövlətçiliyimizin faktiki yaradıcısı olmuş Heydər Əliyevin prezi-

dentliyi dövründə, bir çox sahələrdə olduğu kimi, iqtisadi islahatlar sahəsində də sistemlilik və ardıcıllıq təmin olunmuş və indiki yüksək inkişafın əsası qoyulmuşdur.İqtisadi islahatların 1989-1991 və 1992-1995 illərdəki xaotik mərhələsində, əsasən, "Sınaq-səhv" üsulu ilə aparılan islahatların bir neçə önəmli "dərsindən" nəticə çıxarmaqla və dünya təcrübəsindən bəhrələnməklə hökumət, əslində tamamilə fərqli bir islahatlar və siyasət modeli formalaşdırmalıdır.

Ən mühüm "dərs" tarazlaşdırılmış və əsaslandırılmış iqtisadi transformasiya ideologiyasına söykənməyən islahatların verdiyi nəticələrin çəkilən maddi-mə'nəvi xərclərə adekvat olmamasının, təəssüf ki, bir daha öz təcrübəmizdə sübut olunmasıdır. Bir daha sübut olunmuşdur ki, ayrı-ayrı müxtəlif funksional məqsədlərə xidmət edən nəzəri əsaslar və təcrübələrin qeyri-sistemli tətbiqi ilə qarşılıqlı-əlaqəli sistemin tarazlı inkişafına nail olmaq mümkün deyil.

İkinci "dərs" radikal iqtisadi transformasiyanın xalq tərəfindən dəstəklənməsidir. Azərbaycanda bu faktorun xüsusi xarakterini, xalqın mentalitetini nəzərə alsaq belə, ayrılmış limitin sona çatması təhlükəsini görərək hökumət islahatların şəfaflığı və sosial yönümlüyünə diqqəti artırmışdır.

Üçüncü "dərs" bilavasitə islahatların aparılmasının hansı "qabiliyyət" səviyyəsində təmin olunmasıdır. Çünki ən yaxşı əsaslandırılmış ideya belə yetərincə bacarıqla həyata keçirilmədikdə arzu olunan nəticəni verməyəcəkdir.

Dördüncü "dərs" ölkənin iqtisadi inkişafının daxili potensial və imkanlara əsaslanmasının vacibliyidir. Çünki bazar iqtisadi münasibətlərinin fundamental prinsipi olan "öz maraqlarının təmin olunması" istənilən xarici yardımın daxili imkanlarla rəqabətini gücsüz edir. Daxili imkanlara əsaslanmaq həm də korrupsiya və qanun pozğunluğu sayəsində cəmiyyətin qeyri-adi sürətlə diferensiallaşmasının və beləliklə, iqtisadi islahatlar ideyasının deqredasiyasının qarşısını almaq üçün əhəmiyyətlidir.

Beşinci "dərs" nəticə etibarilə iqtisadiyyatın sağlamlaşdırılması məqsədi daşıyan islahatların "səbəb-nəticə" ardıcıllığının düzgün qiymətləndirilməməsi hesab edilə bilər. Yaxın və "uzaq" təcrübəmizin radikal tədbirləri qiymətlərin hazırlıqsız liberallaşdırılması, milli valyutanın tələsik dövriyyəyə buraxılması, sərt pul-kredit siyasəti, özəlləşdirmənin gedişi, xarici əlaqələrin sürətli liberallaşdırılması sayəsində ölkənin "açıqlığının" qeyri-normal dərəcəyə yüksəlməsi və s. kimi faktorlar dediklərimizə sübut ola bilər.

İslahatların həmin dövrdəki təcrübəsi haqqında çıxarılması mümkün olan nəticələri çoxaltmaq mümkündür. Lakin problemləri "fiksə" etməkdən daha çox onların mümkün həlli yollarını göstərməyin vacibliyini nəzərə alaraq, sonrakı mərhələdə islahatların dərinləşdirilməsi strategiyasının bir sıra əsas məqamlarını şərh etməyi məqsədə müvafiq hesab edirik.

Dünya dövlətlərinin təcrübəsi müvafiq vəziyyətdən mümkün olan iki yolu göstərirdi. Birincisi, radikal yol. Burada əsas vəzifələrə dövlətin iqtisadiyyata müdaxiləsinin minimuma endirilməsi, qiymətqoyma və xarici iqtisadi fəaliyyətin tam liberallaşdırılması, maliyyə-kredit siyasəti sahəsində sərt xəttin götürülməsi (kəsirsiz büdcə, dövlət xərclərinin mümkün qədər azaldılması, subsidiyalar və güzəştli kreditlərin verilməsinin dayandırılması, yüksək kredit faizi və vergi şkalasının tətbiqi) və s. aid olunur.

İkinci yol, təkamül və ya tədrici, evolyusiyalı inkişaf yoludur. İqtisadi siyasət, o cümlədən iqtisadi islahatların aparılmasında bu yolun başlıca məqsədi istehsalın həcminin və əhalinin həyat səviyyəsinin aşağı düşməsinin qarşısının alınması və onun yüksəldilməsinə nail olunması, inflyasiya prosesinin nəzarətdə saxlanılması və nəhayət, islahatların həyata keçirilməsində tədricilik prinsipinin ön plana çəkilməsindən ibarətdir.

Bu yolların hər birinin ayrı-ayrılıqda müsbət və mənfi cəhətlərini araşdıraraq hökumət tərəfindən, ölkə iqtisadiyyatının cari gerçəkliyi baxımından bu yolların hər hansının deyil,

onların hər birində iqtisadiyyatın düşdüyü böhrandan çıxara biləcək, islahatlaşma yolu ilə onu tərəqiyyə çatdıra biləcək elementlərin, şaxələrin seçilməsi üçün ciddi cəhdlər göstərildi. İlk növbədə, dünya dövlətlərinin təcrübəsinə əsasən iqtisadiyyatında kəskin böhranın, qeyri-sabitliyin, bürokratizmin, korrupsiyanın və digər bu kimi neqativ halların hökm sürdüyü hər bir ölkədə iqtisadiyyatın dövlət tənzimlənməsinin gücləndirilməsi vəzifəsi ön plana çəkildi. Bizim şəraitdə bu qoyuluşun vacibliyi ölkənin dağıdıcı müharibəyə cəlb olunması ilə yanaşı köhnə təsərrüfatçılıq metodları, onların ətalət qüvvəsinin çox yüksək olması ilə şərtlənirdi. Ona görə də Azərbaycan Respublikasında bütövlükdə iqtisadi siyasət, o cümlədən də islahat strategiyası müəyyənləşdirilərkən keçid dövrü üçün ikinci yola üstünlük verildi. Bütövlükdə isə iqtisadi sistemin transformasiyası, azad bazar münasibətlərinə keçidin Azərbaycan yolunun strategiyasının əsasında açıq, sərbəst bazar münasibətlərinə keçidin ləngidilmədən həyata keçirilən tədriciliyi və mərhələliyi prinsipi qoyuldu.

Bu prinsip və irəlidə qeyd olunmuş şərtlər nəzərə alınmaqla keçid dövrü üçün Azərbaycan Respublikası iqtisadiyyatının sabitləşdirilməsi və radikal iqtisadi islahatların dərinləşdirilməsi, aşağıdakı mühüm istiqamətlər üzrə aparılması məqsədəuyğun hesab olunmuşdur:

- Struktur islahatları və restruktrizasiya.
- İnvestisiya fəallığının təmin olunması.
- Vergi sisteminin təkmilləşdirilməsi.
- Maliyyə, pul-kredit və bank sisteminin təkmilləşdirilməsi.

2. İqtisadiyyatın dövlətsizləşdirilməsi və özəlləşdirilmə strategiyasının dərinləşdirilməsi. Bəşəriyyətin inkişafının bütün mərhələlərində, iqtisadi sistemin transformasiyasının ən əsas, mərkəzi məsələsi mülkiyyətə münasibət, onun təkmilləşdirilməsi məsələsi olmuşdur. Mərkəzləşdirilmiş planlaşdırma və idarəetmə sistemindən azad bazar münasibətlərinə keçidi nəzərdə tutan transformasiya prosesinin ağırlıq mərkəzi də bilavasitə mülkiyyət çoxnövlülüyünü nəzərdə tutan mülkiyyət münasibətlərinin təkmilləşdirilməsi üzərinə düşmüşdür.

Dünya praktikasında mülkiyyət çoxnövlülüyünün təmin olunmasının iki əsas yolu vardır: birincisi, dövlət mülkiyyətində olan müəssisələrin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi; ikincisi, digər mülkiyyət növlərinin, ilk növbədə, xüsusi mülkiyyəti təmsil edən yeni özəl qurumlar şəbəkəsinin yaradılması.

İqtisadi sistemin təkmilləşdirilməsi, trasformasiyası məqsədindən asılı olaraq ayrı-ayrı ölkələr şəraitində mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi müxtəlif məqsədlər güdür.

Mərkəzləşdirilmiş idarəetmə və planlaşdırmanın hökm sürdüyü, dövlətin mütləq hakim mülkiyyətçi olduğu keçmiş sosialist ölkələrində mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi qarşısında duran başlıca vəzifə iqtisadiyyatda azad rəqabət mühitinin yaradılmasının təbii zəmini kimi mülkiyyət çoxnövlülüyünün təmin olunması və dövlətin monomülkiyyətçi sferasının genişləndirilməsi, yüksək məhsuldar əməyə həvəsin oyadılması və s.-dən ibarətdir.

Təbii ki, məqsəd müxtəlifliliyi, neçə onilliklər boyu formalaşmış iqtisadiyyatın özünəməxsus xüsusiyyətləri (istehsalın yüksək səviyyədə inhisarlığı, təmərküzləşməsi, ixtisaslaşması və i. a.) və habelə əhalinin bu prosesdə həm maddi və həm də sırf psixoloji cəhətdən iştirak imkanlarından asılı olaraq dövlət mülkiyyətinin dövlətsizləşdirilməsi və özəlləşdirilməsinin forma, metod və istiqamətləri, bu prosesin əhatə dairəsi və həyata keçirilmə sürəti müxtəlif olacaqdır.

Dövlət müstəqilliyinin bərpasının ilk illərində Azərbaycan Respublikasında iqtisadiyyatın formalaşmış strukturunun həddən artıq ağırlığını (məsələn, sənayedə əsas istehsal fondlarının 87%-ə qədəri onun baza sahələrində cəmlənmişdir), yüksək inhisarlığı (müəssisələrin 90%-dən artığı öz sahəsində inhisarçıdırlar) və təmərküzləşmə səviyyəsini (indi Azərbaycan sərbəst balansda olan sənaye müəssisələri işçilə-

rinin sayı baxımından inkişaf etmiş kapitalist ölkələrində müəssisələrin müvafiq orta göstəricilərini 10-15 dəfə aşır) əsas istehsal fondlarının 80%-ə qədərinin fiziki və mənəvi cəhətdən aşınmaya məruz qaldığını və nəhayət, əhalinin böyük əksəriyyətinin maddi həyat səviyyəsinin aşağı olmasını nəzərə alaraq 1-ci Dövlət Özəlləşdirmə Proqramının qəbulu mərhələsində mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsinin müxtəlif formalarda həyata keçirilməsi məqbul hesab edilmişdi.

Məsələn, iqtisadiyyatında aqrar sektorun mühüm rol oynadığı Azərbaycan Respublikasında aparılan iqtisadi islahatların ən intensiv istiqamətlərindən biri aqrar və torpaq islahatları olmuşdur. Xalq təsərrüfatının mühüm struktur bölməsi kimi kənd təsərrüfatında mülkiyyət münasibətlərinin yeniləşdirilməsi bütövlükdə iqtisadiyyat üçün müəyyən olunmuş əsaslar üzrə aparılmışdır. Aqrar islahatının mühüm şərti kimi istehsalın təşkilinin səmərəli sisteminin formalaşmasına, aqrar bölmənin dirçəldilməsi üçün əlverişli maddi zəminlərin yaradılmasına və aqrar-sənaye sferasında bazar strukturunun təkmilləşdirilməsinə nail olunması mülkiyyət çoxnövlülüyünə keçid aşağıdakı cəhətlərin nəzərə alınması zəruriliyini şərtləndirmişdir.

Birinci, torpaq münasibətlərinin yeniləşdirilməsi, torpaqların başdan-başa özəlləşdirilməsi deyil, torpaq üzərində dövlət mülkiyyəti inhisarının ləğv edilməsi əsasında aqrar islahatın məqsədinin reallaşdırılmasına təminat yaradan torpaq sahibinin və torpaqdan istifadə sisteminin formalaşdırılması hesab edilmişdir. Belə bir sistemin yaradılması - kənd təsərrüfatı ilə məşğul olmaq üçün mülkiyyətə verilən torpağın məqsədli təyinatının dəyişdirilməsinin qadağan olunması;

- mülkiyyətinə kənd təsərrüfatı təyinatlı torpaq sahəsi verilənlərə münasibətdə zəruri tələblərin müəyyən edilməsi;

- hüquqi şəxslərə və xarici ölkə vətəndaşlarına kənd təsərrüfatı təyinatlı torpaqların xüsusi mülkiyyətə verilməsi;

- torpaqların mülkiyyətə verilmədiyi ərazilərin meyarlarının müəyyən edilməsi.

İkinci, aqrar sferada mülkiyyət çoxnövlülüyünün təşəkkülü probleminin həlli, sadəcə olaraq, kənd təsərrüfatının çoxukladlılıq şəraitində inkişafına keçidlə məhdudlaşdırılmamalıdır.

Üçüncü istehsalçının torpaqla müstəqil qaydada birləşdirilməsini təmin etməklə yüksək məhsuldarlıqda aqrar sistemin formalaşdırılması, strateji baxımdan müasir tipli fermer təsərrüfatlarının yaradılması ilə bağlıdır.

Digər sabiq sosialist ölkələri və müttəfiq respublikalarda olduğu kimi, Azərbaycan Respublikasında da mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi kimi mürəkkəb, cəmiyyət üzvlərinin demək olar ki, bütün təbəqələrinin mənafeyi ilə bağlı prosesin müvəffəqiyyətlə həyata keçirilməsi müvafiq təşkilati-idarəetmə tədbirlərinin vaxtında görülməsindən bilavasitə asılı olmuşdur.

Məlum olduğu kimi, mülkiyyətin dövlətsizləşdirilməsi həyata keçirilən radikal iqtisadi islahatlar kompleksində cəmiyyət üzvlərinin hər birinin mənafeyinə birbaşa və dolayı yolla daha çox toxunan vəsilədir. Məhz buna görə də mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi gedişində, ondan sonrakı dövrdə işçilərin və bütövlükdə əhalinin hüquqlarının qorunması probleminin ön plana çəkilməsi mühüm əhəmiyyət kəsb edirdi. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 8 fevral 1997-ci il tarixli fərmanına uyğun olaraq, 1997-ci il martın 1-dən avqust ayının 15-nə qədər Azərbaycan vətəndaşlarına 7 milyon 183 min 803 ədəd dövlət özəlləşdirmə payı verilmişdir.

Özəlləşdirmə prosesində xaricilərin iştirakı üçün də əlverişli şərait yaradılmışdır. Xarici sərmayəçilərə 18-19 milyon ədəd özəlləşdirmə opsionu satılmış və həmin dövrdəki Dövlət Əmlak Nazirliyinin məlumatına görə büdcəyə 50 milyard manatdan(AZM) çox vəsait daxil olmuşdur.

3. **İqtisadiyyatın sosial yönümlülüyünün gücləndirilməsi istiqamətləri.** Bütün inkişaf tarixi ərzində insanların əsas qay-

ğısı öz yaşayışları üçün lazım olan şəraitin yaradılması olmuşdur. İnkişafın əsas səbəbi isə insan cəmiyyətinin müxtəlif tələbatlarının tam ödənilməsinə imkan verən maddi sərvətlər istehsalı üçün şərait yaratmaqdan ibarət olmuşdur.

İnsan kapitalı – cəmiyyətə məxsus olan çoxcəhətli keyfiyyətlərin insana təsirinin məhsulu kimi təsvir edilir. Belə təsirin səviyyəsi onu xarakterizə edən dəyərlər toplusu ilə müəyyənləşdirilir. Cəmiyyətin sivillik meyarları nə qədər yüksək olsa, onun insanlara təsiri daha məhsuldar və insan kapitalı daha dəyərli olar. İnsan kapitalı – maddi rifahın, peşəkar biliklərin səviyyəsi və insanların öz istehsal vəzifələrini yerinə yetirmək bacarığı, mədəni inkişafı, həmçinin, səhhəti ilə qiymətləndirilir. İnsan kapitalının məqsədyönlü istifadəsinə sosial infrastrukturun vəziyyəti, ən əvvəl mənzil-kommunal təsərrüfatının səviyyəsi, dövlətin və onun yerli orqanlarının diqqət mərkəzində olan mənzillə, sərnişin nəqliyyatı ilə təminat kimi elementlər təsir göstərir.

Bu baxımdan Azərbaycanda aparılan iqtisadi islahatların bütün funksional istiqamətində sosial faktor əsas dominantlardan biri kimi istifadə olunmuşdur.

4. **İqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyası istiqamətləri.** Dünya təcrübəsi göstərir ki, müasir dövrdə milli iqtisadiyyatın təşəkkülü və inkişafı prosesində qarşıya çıxan problemlərin uğurlu həlli əhəmiyyətli dərəcədə xarici iqtisadi əlaqələrin məqbul vasitələrlə genişləndirilməsi və inkişafı hesabına ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin edilməsindən asılıdır.

İqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyasının Azərbaycan üçün əhəmiyyəti isə daha da böyükdür. Belə ki, Azərbaycanda dövlət müstəqilliyinin iqtisadi əsaslarının möhkəmləndirilməsi və sosial-iqtisadi inkişafın təmin olunması problemlərinin həllini bir sıra digər amillər: məcburi cəlb olunduğumuz müharibə və onun doğurduğu nəticələr (ölkənin ərazisinin 20 faizinin zəbt olunması, iqtisadi potensialın 15 faizdən çoxunun itirilməsi, 1 milyondan artıq didərgin və

qaçqının sosial-iqtisadi problemləri və s.), on illərlə formalaşmış iqtisadi əlaqələrin, o cümlədən istehsal-kooperasiya əlaqələrinin pozulması, dünya bazarlarına, o cümlədən ənənəvi bazarlara çıxış yollarında yaranmış maneələr və s. daha da çətinləşdirmişdir. Ona görə də, bir-biri ilə kəsişən belə çoxsaylı sosial-iqtisadi problemləri Azərbaycan iqtisadiyyatının ağır vəziyyətində, xüsusilə investisiya qıtlığı şəraitində təkcə daxili imkanlar hesabına həll etmək mümkün deyildir.

Buradan aydın olur ki, xarici iqtisadi əlaqələrin məqbul vasitələrlə genişləndirilməsi və inkişafı yolu ilə ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası haqlı olaraq islahatlar dövründə Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın təmin edilməsinin zəruri şərti hesab edilmişdir.

Məlumdur ki, dünya təsərrüfat sisteminə səmərəli daxil olmaq üçün, ilk növbədə, yaranmış şəraitə adekvat, elmi cəhətdən əsaslandırılmış xarici iqtisadi fəaliyyət siyasətinin formalaşdırılması vacibdir.

Metodoloji baxımdan göstərilən problemin həlli müasir dövrdə milli iqtisadiyyatın dünya təəsərrüfat sisteminə inteqrasiyasının əsas prinsiplərinin, ölkənin beynəlxalq əmək bölgüsündə üstünlüklərinin müəyyənləşdirilməsini, xarici iqtisadi əlaqələr sistemində mövcud problemlərin aşkarlanmasını, onların yeni şəraitə uyğun həlli yollarının tapılmasını və bunlar əsasında əməli təkliflər sisteminin hazırlanmasını nəzərdə tutur.

Dünya təsərrüfat sistemində gedən prosesləri və İkinci Dünya müharibəsindən sonrakı dövrdə inkişaf edərək, dünyada öncül yer tutan ixracatçılar sırasına çıxmış ölkələrin təcrübəsini tədqiq edərək bu nəticəyə gəlmək olar ki, müasir dövrdə hər hansı bir ölkənin xarici iqtisadi fəaliyyəti, daxili potensialı və mövcud şəraiti nəzərə alınmaqla formalaşdırılmalı və həyata keçirilməlidir. Təhlil göstərir ki, iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası üçün Azərbaycanda real imkanlar vardır və bu imkanlardan bacarıqla

istifadə olunması ölkə qarşısında duran bir çox aktual sosial-iqtisadi problemlərin həllində mühüm rol oynamaqla yanaşı perspektivdə Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasına çıxmasını təmin edə bilər və ötən dörün nəticələri artıq bu fikri təsdiq etmişdir.

Ölkəmizin Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı, Dünya Ticarət Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla sıx əlaqələr yaratması, bir sıra beynəlxalq saziş və müqavilələrə qoşulması, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara dəniz Sahili Ölkələri Birliyi kimi birliklərə daxil olması və onun yeni iqtisadi birliklərin (GUAM) yaradılmasının təşəbbüskarı kimi çıxış etməsi təqdirəlayiq hal olmaqla yuxarıda qeyd olunanların əyani təsdiqidir.

İslahatların mühüm nəticəsi kimi, iqtisadiyyatın liberallaşdırılması, Azərbaycana xarici investisiya qoyuluşlarının getdikcə artmasına səbəb olmuşdur. Bununla belə, xarici iqtisadi əlaqələrin yaratdığı imkanlardan mövcud iqtisadi potensiala və ölkənin beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlüklərə müvafiq şəkildə tam və səmərəli istifadə olunması üçün elmi cəhətdən əsaslandırılmış xarici iqtisadi fəaliyyət siyasəti aşağıdakı vəzifələrin həllini təmin etməyə yönəldilmişdir:

- Dünya təsərrüfat sisteminin dinamik dəyişən şəraitinə uyğun çevik ixtisaslaşma və investisiya əməkdaşlığı strategiyasının müəyyənləşdirilməsi;
- Dünya təsərrüfat sisteminin dinamik konyukturasını nəzərə almaqla onun institutsional və funksional bölmələri kəsimində fəaliyyət strategiyasının müəyyənləşdirilməsi;
- Dünya bazarında ölkənin mövqeyinin möhkəmləndirilməsi strategiyasının müəyyənləşdirilməsi, bu likvidli istehsal sahələrinin üstün inkişafını nəzərə almalıdır;
- Ölkənin milli maraqlarına və geosiyasi şəraitə müvafiq xarici iqtisadi təhlükəsizlik strategiyasının formalaşdırılması.

Sadalanan bu istiqamətlərin hər birinin xüsusi lokal məqsəd və vəzifələri vardır. Bu məqsəd və vəzifələri indiki şəraitdə aşağıdakı kimi müəyyənləşdirmək mümkündür:

1. Dünya təsərrüfat sisteminin dinamik dəyişən şəraitinə uyğun ixtisaslaşma və investisiya əməkdaşlığı strategiyası:

- ölkənin iqtisadi potensialına, daxili tələbatına və beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlüklərinə uyğun dayanıqlı və stabil beynəlxalq iqtisadi ixtisaslaşmasının təmin olunması. Bu məqsədə nail olunmasının ən mühüm şərtlərindən biri ölkənin DTS irimiqyaslı inkişaf meyillərinə çevik reaksiyasıdır;
- milli texniki, sənaye və sosial siyasətin dünya standartlarına istiqamətləndirilməsi. Bu dünya səviyyəsində gedən intensiv ETT proseslərinə vaxtında qoşulmaq və onlardan maksimum səviyyədə faydalanmaq məqsədi güdür;
- ixrac potensialının inkişaf etdirilməsi və ixracın strukturunun dünya bazarında rəqabətədavamlı və likvidli son məhsul hesabına yaxşılaşdırılmasıdır;
- idxalı əvəz edən məhsul istehsalının artırılması və bunun üçün daxili bazarın rəqabətliliyini təmin etməklə, qorunmasının təmin olunması;
- nəqliyyat və rabitə kommunikasiyalarının, həmçinin, digər istehsal və xidmət sahələrinin, o cümlədən, xüsusilə biznesə xidmət edən bazar infrastrukturu sahələrinin inkişaf etdirilməsi;
- ölkənin investisiya iqlimi xəritəsinin hazırlanması və elan olunması, o cümlədən, xarici investisiyanın təşviqi və stimullaşdırıldığı, qadağan olunduğu və az səmərəli hesab edilən sahələrin müəyyənləşdirilməsi; açıq iqtisadiyyatın qurulması, ölkə iqtisadiyyatına xarici investisiyanın aktiv cəlb olunmasını tələb edir. Bunun üçün, ilk növbədə, ölkədə əlverişli investisiya iqlimi yaradılmalıdır. Xarici investisiyanı müxtəlif qanunlar vasitəsi ilə himayə etmək müəyyən dövr üçün əlverişli olsa da, dünya miqyasında hazırda belə üsul heç də optimal hesab olunmur. Ən yaxşı qəbul edilən yol ölkədə xarici və

daxili investisiya üçün eyni, stabil şərait yaradılması hesab olunur. İnvestisiyanın ölkə üçün səmərəliliyi artırmaq və iqtisadi təhlükəsizliyi təmin etmək üçün investisiya xəritəsi və müvafiq qaydalar sistemi yaradılmalı və elan edilməlidir. Xarici investisiyanın stimullaşdırıldığı və qadağan olunduğu, az səmərəli hesab olunan tətbiq sahələri dövlət tərəfindən iqtisadi siyasətə müvafiq müəyyənləşdirilməlidir. Xarici investisiyanın kommersiya krediti əsasında cəlb olunması geniş inkişaf etdirilməlidir. Qeyd etmək vacibdir ki, ölkəmizdə bu sahədə aparılmış işlər dünyada ən cədbedici nümunələr sırasındadır. Bunun sübutu ölkənin investisiya reytinqinin ardıcıl yüksəlməsi hesab edilə bilər.

2. Dünya təsərrüfat sisteminin institutsional və funksional bölmələri kəsimində fəaliyyət strategiyası:

- ikitərəfli dövlətlərarası əlaqələrin qarşılıqlı fayda əsasında daha da genişləndirilməsi və inkişaf etdirilməsi;
- Azərbaycanın milli mənafelərinə cavab verən beynəlxalq və regional, sahə və funksional xarakterli iqtisadi birliklərə və təşkilatlara daxil olmaqla onların işində fəal iştirakın təmin olunması. Beynəlxalq və regional iqtisadi birliklərə və təşkilatlarla işin iqtisadi səmərəlilik üzərində qurulmalı və belə təşkilatlara qoşulma prosesində Azərbaycan üçün keçid iqtisadiyyatı olan ölkələrə verilən güzəştlər sisteminin genişləndirilməsinə nail olmağa çalışmaq son dərəcə mühüm məsələlərdən biridir;
- transmilli kooperasiyalarla əməkdaşlığın qarşılıqlı fayda əsasında genişləndirilməsi, ilk növbədə, TMK daxili bazarların imkanlarından geniş istifadə olunması və s.

3. dünya bazarında ölkənin mövqeyinin möhkəmləndirilməsi strategiyası:

- ixrac olunan xammalın və aralıq məhsulların ölkə daxilində emal olunaraq dünya bazarına likvidli və rəqabətə davamlı son məhsul kimi çıxarılması;

- xarici bazarlarda milli ixracçıların mənafelərinin qorunması tədbirləri, o cümlədən, ixrac risklərinin sığortalanması sisteminin formalaşdırılması;
- ixracın stimullaşdırılması və xarici iqtisadi əlaqələrin mütərəqqi formalarının tətbiqinin genişləndirilməsi;
- iqtisadi rezidentlərin dünya bazarına çıxışının tam liberallaşdırılması və s.

4. Ölkənin milli maraqlarına və geosiyasi şəraitə müvafiq xarici iqtisadi təhlükəsizlik strategiyasının formalaşdırılması: Hesab olunur ki, ki, islahatlar şəraitdə ***ölkənin xarici iqtisadi təhlükəsizlik konsepsiyası*** aşağıdakı istiqamətlərə yönəldilmişdir.

a) Xarici iqtisadi təhlükəsizlik sisteminin təşkilati-strukturunun təkmilləşdirilməsi;

- ölkədə iqtisadi fəaliyyətin tənzimlənməsinin hüquqi-normativ bazasının beynəlxalq hüquq normalarına və dünya praktikasına uyğunlaşdırılması və onun tamamlanması;
- ixracın inkişafının dövlət proqramının hazırlanması, o cümlədən, ixracın kreditləşdirilməsi və sığortalanması sisteminin yaradılması;
- idxalın tarif tənzimlənməsi sisteminin və vergiyə cəlbetmə sisteminin daxili bazarı və iqtisadi şəraiti nəzərə alınmaqla təkmilləşdirilməsi;
- ölkəyə idxal olunan malların texniki təhlükəsizliyinə nəzarət sisteminin beynəlxalq standartlara uyğun olaraq qurulması;
- ixraca və valyutaya nəzarət sisteminin təkmilləşdirilməsi və s.;
- dünya təsərrüfat konyunkturasının inkişafının izlənməsi və ticarət əlaqələrində ondan istifadə mexanizminin yaradılması;

b) xarici iqtisadi təhlükəsizlik konsepsiyasının elmi ideologiyasının hazırlanması.

Bu vəzifələrin həlli konkret olaraq aşağıdakılara təzahür edir:

- Gömrük işinin təkmilləşdirilməsi. Gömrük nəzarəti mühüm iqtisadi tənzimləmə aləti kimi ölkə iqtisadiyyatının dövlət idarəetmə sisteminə daxil olan aparıcı tənzimləyici vasitələrdən biridir. Bu sistem hazırda əsasən, iki mühüm vəzifəni həyata keçirir. Birincisi, ölkənin xarici iqtisadi əlaqələri, əsasən də məhsul və xidmətlərin ölkə ərazisinə aparılıb gətirilməsi vasitəsilə həyata keçirilən əlaqələrdə müəyyən olunmuş qayda-qanunlara əməl edilməsinə nəzarət etməklə ölkə iqtisadiyyatına mümkün mənfi təsirlərin qarşısını almaq, ikincisi isə gömrük rüsumları və vergiləri vasitəsilə dövlət büdcəsinə vəsait daxil olmasını təmin etməkdən ibarətdir.

- Lakin nəzərə almaq vacibdir ki, hazırki şəraitdə göirük fəaliyyətinin iqtisadi fəaliyyətdə funksional tənzimləyici rolunun artırılması daha məqsədəuyğundur. Ona görə də, fikrimizcə, indi əsas diqqət gömrük tarifləri və rüsumlarının dərəcələrinin müəyyənləşdirilməsi meyarlarının hazırlanması, çünki daxili bazarın qorunması ölkə iqtisadiyyatının bağlanmasına gətirməməlidir. Eyni zamanda xarici malların və qiymətlərin ölkənin təsərrüfat konyunkturuna həlledici təsir etmə imkanına yol vermək olmaz. Ona görə də gömrük tariflərinin dərəcələri eynitipli məhsullar üçün ölkələrarası, müxtəlif tipli məhsullar üçün isə daxili müqayisəli xərclər və mənfəətlilik göstəriciləri əsasında hazırlanmalıdır;

- Tədiyyə balansının tərtibi metodikasının təkmilləşdirilməsi. Mərkəzi Bankda tərtib edilən son illərin tədiyyə balansı ilə Dövlət Statistika və Gömrük komitələrinin eyni parametrlər üzrə müxtəlif göstəricilər verməsi TB-nin tərtibi təcrübəsinin iqtisadi siyasət prinsiplərilə uzlaşmadığını göstərir. Tədiyyə balansının düzgün tərtibi və xarici borcların idarə olunması ixrac və valyutaya etibarlı nəzarət sisteminin yaradılmasını zəruri edir. Tədiyyə balansına daxil edilən parametrlər Azərbaycan iqtisadiyyatının əsas istehsal göstəriciləri əsasında formalaşdırılmalıdır. Məsələn, yuxarıda qeyd edildiyi kimi, BVF təklif etdiyi stabilləşdirmə siyasəti üçün 2-3 aylıq beynəlxalq ehtiyatlar norması, cari hesablar üçün kəsiri ödəmə

qabiliyyətinin iqtisadi siyasətdə əsas hesab edilməsi halında doğru olaraq məqbul hesab edilə bilməz;

- beynəlxalq iqtisadi, maliyyə təşkilatları, xarici ölkələrlə iqtisadi sazişlərin çərçivə məhdudiyyətlərinin müəyyənləşdirilməsi;

- xarici borc siyasətinin müəyyənləşdirilməsi, borc siyasəti tədiyyə balansının proqnozlaşdırılan səviyyəsi ilə müəyyənləşdirilməlidir;

- iqtisadi inteqrasiya siyasətinin hazırlanması və həyata keçirilməsi aktiv xarici itisadi fəaliyyət prinsipi əsasında qurulmalı, Azərbaycanın təbii, iqtisadi coğrafi potensialının reallaşmasına və ölkənin siyasi nüfuzunun artmasına xidmət edir.

Xarici iqtisadi təhlükəsizliyin təmin olunmasının yuxarıda sadalanan əsas istiqamətləri heç də tam deyil. Məsələn, Azərbaycan üçün ən əhəmiyyətli istiqamətlər sırasında texnoloji, nəqliyyat, ekoloji təhlükəsizliyin təmin olunması da vacib hesab edilir.

8. 4. İqtisadi transformasiyasının analitik informasiya sistemi

8.4.1. Makroiqtisadi və sosial inkişafın monitorinqi

Transformasiya dövrü yaşayan iqtisadi sistemin ən vacib xüsusiyyətlərindən biri onun özünü tənzimləmə imkanlarının azalmasıdır. Bunun səbəbi islahatlaşdırmanın mahiyyəti ilə birbaşa bağlıdır. Yəni, qəbul edilmiş təsərrüfat mexanizmi çərçivəsində formalaşmış sistem daxili münasibətlər, islahat prosesində məcburi dəyişmələrə məruz qalır. Belə olan halda isə sistem yaradıcı faktorlar arasındakı nisbətlər pozulur və bununla da özünütənzimləmə mexanizmi dağılır.

İstənilən halda transformasiyanın məqsədinin iqtisadi sistemin məhsuldarlığının və səmərəliliyinin artırılması olduğunu nəzərə alsaq, bu prosesin gedişatının izlənməsi və qiymətləndirilməsi vacibdir. Bu bir tərəfdən obyektiv olaraq yeniləşmənin yaratdığı çətinliklərin aşkarlanması ilə onların yol

verilən həddinin qorunmasına, digər tərəfdən isə islahatların özünün strategiya və taktikasında zəruri korrektivlərin aparılmasına imkan verə bilər.

Dünya təcrübəsini və Azərbaycan reallıqlarını nəzərə alaraq, iqtisadi islahatların gedişinin qiymətləndirilməsi üçün analitik modellər sisteminin formalaşdırılması məqsədəuyğun hesab olunmuşdur. Hesab edilir ki, bu sistem özünəməxsus makroiqtisadi və sosial inkişaf manitorinqi rolunu oynaya bilər. İqtisadi idarəetmə və iqtisadi təhlil təcrübəsində ilk dəfə təkilif olunan bu modelin formalaşdırılması zamanı (bax: R.Həsənov. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı: Elm, 1998), Azərbaycan iqtisadiyyatının bir sıra xüsusiyyətləri:

- təbii-iqtisadi potensialının xarakteristikasını və onun indiki mərhələdə reallaşdırılma meyilləri;
- işçi qüvvəsinin bolluğu və onun natamam istifadə olunması;
- Azərbaycan iqtisadiyyatı, o cümlədən, sənayesinin və kənd təsərrüfatının qeyri-mütənasib inkişafı meyillərini;
- sosial şəraitin iqtisadi potensiala adekvatlığı səviyyəsi;
- iqtisadiyyatda yaranan gəlirlərin iqtisadi agentlər arasında qeyri-bərabər bölünməsi və bunun sayəsində bazar iqtisadiyyatında əsas aparıcı bölmə olan orta təbəqənin dəyişməsi və s. kimi xüsusiyyətlərinin ölkənin gələcək inkişafındakı fövqəladə təsir potensialı nəzərə alınmışdır. Analitik monitorinq sisteminə Keyns investisiya multiplikatoru; çoxvariantlı Kobba-Duqlas istehsal funksiyası; Solou funksiyası; Keyns tipli Kleyn ekonometrik modeli; Fillips əyrisi; Lorens əyrisi və Cin əmsalı; orta təbəqənin dinamikası daxil edilmişdir.

1. Milli gəlirin Keyns investisiya multiplikatoru ilə təyin edilməsi. Məlum olduğu kimi, istehsal edilən, əldə olunan və sərf edilən ümumi daxili məhsul (ÜDM) və ümumi milli məhsul (ÜMM) öz tərkib hissəsinə görə üç qayda ilə hesablana bilər. Təhlilin məqsədindən asılı olaraq həm milli gəlir, həm də

ÜMM və ya xalis maddi məhsul anlayışlarından istifadə edilə bilər.

Milli gəlir bir il müddətində yeni yaradılan bütün nemət və xidmətlərin dəyəridir. Milli gəlir üç qayda ilə: 1) istehsal prosesinin yaratdığı nemət və xidmətlərin dəyərinə görə; 2) gəlir göstəricilərinə görə; 3) istehlak və yığım göstəricilərinə görə (tələb göstəriciləri) təyin oluna bilər.

İstehsal prosesinin yaratdığı nemət və xidmətlərin dəyərinə görə milli gəlir aşağıdakı kimi hesablanır.

$$Y = \sum_{i=1}^{n} P_i x_i \qquad (1)$$

Y – milli gəlir; n - nemət və xidmətlərin sayı; $x_i - i$ - ci nemət və ya xidmətin natural miqdarı ($i = \overline{1,n}$); $P_i - i$ -ci nemət və ya xidmətin ($i = \overline{1,n}$) qiymətidir.

Gəlir göstəricilərinə görə milli gəlir, ümumi halda

$$Y = Z + W + T \qquad (2)$$

kimi təyin edilə bilər, burada, Z – gəlir (amortizasiya ayırmaları, sahibkarlıq gəliri, divident və s.), W – əmək haqqı, T – dolayı vergilərdir.

İstehlak və yığım (əmanət) göstəricilərinə görə milli gəlir.

$$Y = C + S \qquad (3)$$

kimi təyin edilir.

Burada S – istehlakı, S – yığımı (əmanəti) göstərir.

Milli gəlirin hesablanması səmərəli tələb prinsipinə əsaslandıqda məccmu səmərəli tələb S – istehlak və I – investisiya göstəricilərinin cəmi $D = C + I$ kimi təyin olunur.

Keynsin statik nəzəriyyəsinə görə S istehlak tələbi milli gəlirin xətti funksiyasıdır:

$$C = cY + A \quad , \quad 0 < c < 1 \qquad (4)$$

Burada, A – sabiti iqtisadi mənasına görə baza dövründə istehlak həcmini, s isə Y milli gəlirinin artmasından asılı olaraq istehlak həcminin artım nisbətini xarakterizə edən əmsaldır. s -yə istehlaka meylliliyin dərəcəsi də deyilir.

Qısa müddətli dövr üçün investisiyanın dəyişmədiyini ($I = I_0$) yəni, milli gəlirin həcmindən asılı olmadığını fərz etsək, milli gəlirin Y_e müvazinətli (tarazlıq) qiyməti D səmərəli tələbin Y milli gəlirinə bərabərliyi şərtindən təyin edilə bilər.

Milli gəlirin Y_e müvazinətlik qiyməti təsərrüfat obyektlərinin, iş adamlarının elə aktivliyinə uyğun gəlir ki, bu müəyyən mənada fərdi təsərrüfatlar (ailə təsərrüfatı) və müəssisələrin fəaliyyəti ilə təmin olunur. Lakin gəlirin səviyyəsi həmişə milli gəlirin arzu olunan səviyyəsindən (yəni, tam məşğulluğu təmin edən səviyyəsindən) kiçik olur.

Ona görə də bu sahədə dövlət siyasətinin başlıca istiqaməti əlavə investisiya qoymaq hesabına həllin bərabərliyini təmin etmək olmalıdır. Yalnız bu halda fərdi təsərrüfatlar, iş adamları və s. banklardakı əmanətlərin, yəni S_0-ın müəyyən S hissəsindən əlavə yerdə qalan hissəsini qısa dövrdə sərmayə qoymaq məqsədilə istifadə edəcəkdir.

Qısa dövrdə sərmayə qoymaq məqsədilə istifadə olunacaq hissənin, Y milli gəlirin artmasından asılı olaraq, müəyyən faiz nisbətdə artacağını qəbul etsək, onda milli gəlirin müvazinətlik səviyyəsini

$$Y_e = \frac{1}{1-c}(A + I_0) = \frac{1}{s}(S_0 + I_0) \qquad (5)$$

kimi ifadə etmək mümkündür.

İstehlak xərcləri və sərmayə ehtiyatının hər biri ilə milli gəlir arasındakı asılılığın daşıyıcıları olan marjinal istehlak meyli s və marjinal ehtiyat meyli s, asılı olmayan istehlak və sərmayə xərcləri ilə birlikdə müvazinətlik səviyyəsinin müəyyənləşdirilməsinə imkan verir. Bu parametrlərin təsirini tədqiq edərək Keyns

$$\mu = \frac{1}{1-c} \quad \text{və} \quad \nu = \frac{1}{s} \qquad (6)$$

kəmiyyətlərinə multiplikator adı vermişdir. Bunların makroiqtisadi təhlildə xüsusi əhəmiyyəti vardır. İqtisadi mənası investisiya ehtiyatının verilmiş səviyyəsində milli gəlirin nə qədər artdığını xarakterizə edir. Elə ona görə də, μ və ν investisiya multiplikatoru adlanır. Bunlar Keyns nəzəriyyəsinin əsas elementləridir. İqtisadi təhlil göstərir ki,

$$\mu = \frac{1}{1-c} = 1 + c + c^2 + ... + c^k ... \qquad (7)$$

və

$$\Delta Y = \Delta I + c\Delta I + c^2\Delta I + ... + c^K\Delta I + ... =$$
$$= (1 + c + c^2 + ...c^k + ...)\Delta I = \frac{1}{1-c}\Delta I = \mu\Delta I. \qquad (8)$$

münasibəti doğrudur, başqa sözlə, milli gəlirin artımı investisiya multiplikatoru ilə investisiya artımının hasilinə bərabərdir.

Qısamüddətli dövr üçün Keyns modelində sərmayə qoyuluşundakı artımlar sadəcə tələb artımından əldə edilir. Bu, o deməkdir ki, qısamüddətli dövr üçün yaranan tələb-təklif müvazinətliliyi uzun müddət davam edə bilməz və dövr uzandıqca müvazinətin səviyyəsi dəyişəcəkdir. Tələb-təklif müvazinətliliyinin müntəzəm davam etməsi üçün əvvəlki dövrlərdəki sərmayə qoyuluşlarının sonrakı dövrlərdə yaradacağı təklifin təsirilə sonrakı dövrdəki sərmayə qoyuluşu artımları uzlaşmalıdır.

Keyns multiplikatorunun və o cümlədən, analtik monitorinqə daxil edilmiş digər parametrlərin Azərbaycan iqtisadiyyatına tətbiqi imkanlarını yoxlamaq üçün 1990-1997-ci illərdə iqtisadi inkişaf dinamikasının tədqiqi aparılmışdır. Nəzərə almaq vacibdir ki, bu dövrdə inkişafın qeyri-bərabərliyi sıçrayışlı xarakteri və xüsusilə dövrün ilk illərindəki tədbirlərin qeyri-ardıcıllığının təsiri çox əhəmiyyətli olmuşdur. Bununla

belə təklif olunan analitik informasiya sisteminin praktiki əhəmiyyətini göstərmək üçün həmin monitorinqin bir sıra nəticələrinin qısa şərhi aşağıda verilmişdir. Məsələn, rəsmi məlumatlar əsasında aparılmış hesablamalara görə, 1997-ci ildə investisiya multiplikatoru

$$\mu = \frac{1}{1-c} = \frac{1}{1-0,82} = 5,555556$$

olmuşdur. Qəbul edilmiş metodoloji yanaşmaya görə, ölkədə xalis maddi məhsulun səviyyəsi sonrakı ildə Y = 10290000 + +7857283 = 18147283 milyon manat olmalı idi. Lakin faktiki olaraq, 1997-ci ildə ümumi daxili məhsulun həcmi 15352000 milyon manat (sonradan Statistika Komitəsinin dəqiqləşdirmələrinə görə 17760000 milyon manat) olmuşdur. Rəsmi statistikada xalis maddi məhsulun həcmi göstərilməmişdir. Lakin xalis maddi məhsul, ümumi daxili məhsuldan amortizasiya ayırmaları çıxdıqdan sonra alındığı üçün aydındır ki, 1997-ci ildəki xalis maddi məhsul ümumi daxili məhsuldan az olacaqdır.

Beləliklə, deyə bilərik ki, 1997-ci ildəki xalis maddi məhsulun səviyyəsi Keyns multiplikatoru ilə təyin olunmuş tarazlıq səviyyəsindən aşağı olmuşdur.

Keyns nəzəriyyəsinə görə təklif edilir ki, bu zaman dövlət iqtisadiyyata müdaxilə etməklə istehsal və məşğulluğun səviyyəsini qaldırmalıdır. Çünki yuxarıda qeyd edildiyi kimi, istehsalın səviyyəsinin məşğulluq səviyyəsindən aşağı olması bir tərəfdən istehsalın səmərəliliyinin tarazlıq aşağı olmasıdırsa, digər tərəfdən dövlətin iqtisadiyyata müdaxiləsinin lazımi səviyyədə olmamasıdır.

2. Milli gəlirin Kobba-Duqlas istehsal funksiyası ilə qiymətləndirilməsi. Kobba-Duqlas istehsal funksiyası iqtisadi proseslərin tədqiqində, analizi və proqnozlaşdırılmasında geniş istifadə edilir və o istehsal funksiyalarının bir növ "çempionu" hesab edilir. Məhz, buna görə də, milli gəlirin bu funksiya vasitəsilə tədqiq edilməsi də zəruri hesab edilir.

Məlumdur ki, Kobba-Duqlas istehsal funksiyası, məhsul istehsalı (U) ilə ona təsir edən istehsal fondları kapital (K) və işçi qüvvəsi (L) arasındakı kəmiyyət xarakteristikasını öyrənir və bu aşağıdakı şəkildədir:

$$U=aK^{\alpha} L^{\beta}, \quad \alpha+\beta=1$$

Burada, α, β – parametrlərdir və uyğun olaraq K və L-in elastiklik əmsallarıdır. a – sabit ədəddir.

Təhlil zamanı U – nəticə göstəricisi kimi milli gəlir, K – əsas istehsal fondları, L – işçilərin orta illik sayı qəbul edilmişdir.

Bu göstəricilər 1990-1996-cı illər üçün rəsmi statistikadan götürülmüş və həmin illərdə ölkədə inflyasiyanın güclü olması nəzərə alınaraq qiymət indeksinə uyğun olaraq milli gəlir və əsas istehsal fondlarının həcmi indeksləşdirilərək təhlil üçün yararlı hala salınmışdır.

Modelin realizasiyası üçün iqtsadi nəzəriyyədə qəbul olunmuş aşağıdakı üç halda parametrləri qiymətləndirmişdir.

I. İntensiv inkişaf yolu. Burada $\alpha+\beta\neq1$ qəbul olunur. İqtisadi məntiqə görə əgər $\alpha+\beta<1$ olarsa istehsalın səmərəliliyi azalır, $\alpha+\beta>1$ olarsa istehsalın səmərəliliyi artır. Alınmış nəticə aşağıdakı kimi olmuşdur.

$$DW = 1,911, \qquad R2 = 0,51565$$
$$U = 2,625E - 24\, K^{0,2263} L^{12,4648}$$

Göründüyü kimi, $\alpha+\beta = 16,4939 > 1$ alındığı üçün deyə bilərik ki, ölkədə bu dövrdə vahid miqdarda milli gəlir yaradılmasına sərf edilən məlum istehsal faktorları get-gedə azalmışdır. Bu fikrin nə dərəcədə doğru olmasını tənliyin statistik xarakteristikalarından bilmək olar. $R2$=0,516 olması milli

gəlirin dəyişməsinin 51,6%-i nəzərə alınan K və L faktorları hesabına olduğunu göstərir. Digər tərəfdən alınmış tənlik özü ziddiyyətlidir. Belə ki, a-əmsalının həddən artıq kiçik alınması, istehsalın səmərəliliyinin aşağı olmasına işarədirsə, $\alpha+\beta>1$ alınması əksinə olaraq səmərəliliyin yuxarı olmasını göstərir.

II. Ekstensiv inkişaf yolu. Burada $\alpha+\beta=1$ qəbul edilir. Bu şərtə görə fərz edilir ki, istehsalın səmərəliliyi istehsalın miqyasından asılı deyil.

Bu hal üçün Kobba-Duqlas istehsal funksiyası

$$R2=0,330\,,\ DW=0,418$$
$$U = 0,69799K^{0,326}\,L^{0,674}$$

kimi tapılmışdır.

Artım tempinin münasibəti $\rho_y=0,674\rho_L+0,326\rho_K$ kimi olacaqdır. Burada, $\rho_u=\ln U$, $\rho_L=\ln L$, $\rho_K=\ln K$. Qiymətləndirilmiş tənlikdən görünür ki, K – üçün elastiklik əmsalı $\alpha=0,326$, L – üçün isə $\beta=0,674$ bərabərdir. $\beta=0,674$-ə bərabər olması göstərir ki, 1990-1996-cı illər ərzində milli gəlirin yaradılmasında işçi qüvvəsinin təsiri əsas istehsal fondlarından daha böyük olmuşdur. Başqa sözlə, həmin dövrdə işçilərin sayının 1% dəyişməsi milli gəlir həcminin 0,674% dəyişməsinə səbəb olduğu halda, əsas istehsal fondlarının 1% dəyişməsi, milli gəliri 0,326% dəyişdirmişdir. DW və $R2$ üçün alınmış ədədlər isə tənliyin verilmiş illərdəki real vəziyyətini əhəmiyyətli şəkildə əks etdirmədiyini göstərir.

III. Elmi-texniki tərəqqinin nəzərə alınması. Fərz edilir ki, $\alpha+\beta=1$ və ETT milli gəlirin yaradılmasına $e^{\lambda t}$ vuruğu ilə təsir edir. Burada t – zamanı, λ – isə ETT-nin sürətidir. Model belə alınmışdır:

$$R2=0,86967\ ,\ DW=2,346658$$
$$U = 1,039214e^{-0,196985\,t}K^{0,135}\,L^{0,865}$$

Xarakteristikalar göstərir ki, bu ifadə riyazi cəhətdən adekvatdır. λ = - 0,196985 olması respublikanın milli gəlirinin həcminin K – əsas istehsal, istehsal fondları və L – işçilərin orta illik sayı sabit qaldıqda belə əvvəlki ilə nisbətən 19,7% azalmasını göstərir.

Bunu belə izah etmək olar ki, həmin dövrdə bazar münasibətlərinə keçid prosesində sturuktur dəyişikliyi aparılması səbəbindən, əsas fondlar tam gücü ilə işləməmiş, yeni texnologiyalar vasitəsilə isə tam məşğulluğu təmin etmək mümkün olmudur.

Məlumdur ki, artım tempi ρ_u=-0,196985 + 0,865ρ_L + 0,135ρ_K tənliyi ilə izah olunur. Əgər gələcəkdə məşğulluğun artmayacağı fərziyyəsini qəbul etsək ($\rho_L=0$), onda λ-ETT mənfi təsirini kompensasiya etmək üçün $\rho_K=1,459$ olmalıdır. Milli gəlirin illik 1% artımını təmin etmək üçün kapitalın, ($\rho_K=8,87$) 8,87% artırmaq lazımdır olduğunu taparıq.

Beləliklə, tədqiqat dövründə ölkənin milli gəlirinin Kobba-Duqlas funksiyası ilə yuxarıdakı üç hala uyğun tədqiqi göstərir ki, yalnız üçüncü hala uyğun alınmış model adekvatdır. Lakin qeyd edək ki, onunla proqnoz vermək olmaz, çünki həmin illər tənəzzül illərini əhatə edir. Adətən tənəzzül illəri üçün qurulmuş modellə verilən proqnozlar xeyli xətalara gətirib çıxarır.

3. Milli gəlirin CES - istehsal funksiyası (Solou funksiyası) ilə qiymətləndirilməsi. Kobba-Duqlas istehsal funksiyası ilə yanaşı geniş tətbiq edilən neoklassik istehsal funksiyalarından biri də əvəz etmə elastikliyi sabit olan CES (Constant Elasticity of Substitution) istehsal funksiyasıdır. Texniki tərəqqini nəzərə almaqla bu funksiya ümumi şəkildə aşağıdakı kimi ifadə olunur.

$$U= a\,e^{\lambda t}\,(\,\delta K^{-r} + (\,1-\delta\,)\,L^{-r}\,)^{-1/\rho}$$

Bu funksiyaya çox vaxt onun müəllifinin adı ilə Solou funksiyası da deyilir. CES funksiyasında da Kobba-Duqlas funksi-

yasında olduğu kimi K və ya L-ə görə son əvəzetmə normasının sabit azalan olması qəbul edilir. Lakin bu funksiyalar arasında aşağıdakı əhəmiyyətli fərqlər də var.

1) Məlum olduğu kimi əvəzetmə elastikliyi bir faktorun digəri ilə əvəzedilməsi mümkünlüyünün ölçüsüdür. Məsələn, kapitalın əməklə və ya əksinə. Kobba-Duqlas funksiyasında bu əvəzetmə elastikliyi həmişə vahidə bərabərdir. SES – funksiyasında isə ixtiyari qiymət ola bilər.

2) Kobba-Duqlas funksiyasında $\sigma = 1$, CES-də isə $\sigma = 1/(1-\rho)$ qəbul olunur. Başqa sözlə, CES - funksiyasında $\sigma \neq 1$. (Baxmayaraq ki, Kobba-Duqlas funksiyasında olduğu kimi sabitdir). Məhz, CES–funksiyasının adı da onun əvəzetmə elastikliyinin sabit olmasına işarədir.

3) $\rho \to 0$ olduqda $\sigma \to 1$ olur. Yəni funksiya Kobba-Duqlas funksiyasına, $\rho \to \infty$ olduqda isə $\sigma \to 1$ olur və funksiya Leontyev funksiyasına çevrilir. Ona görə də CES funksiyasını istehsal funksiyasının daha ümumi halı adlandırırlar.

1990-1996-cı illər Azərbaycan iqtisadiyyatı üçün CES istehsal funksiyası aşağıdakı kimi qiymətləndirilmişdir:

$$Y = 1{,}05733e^{-0{,}1919t}(0{,}3217946K^{0{,}666} + 0{,}6782054L^{0{,}666})^{1{,}4999}$$

$$R2 = 0{,}87346\,; \qquad DW = 2{,}394745$$

əvəzetmə elastikliyi $\sigma = 3$. Statistik xarakteristikaların alınmış qiymətləri göstərir ki, model adekvatdır. Əvəzetmə elastikliyinin Azərbaycan iqtisadiyyatı üçün vahiddən kifayət qədər böyük alınması sübut edir ki, Kobba-Duqlas istehsal funksiyası ilə qiymətləndirilməsi zamanı aldığımız modellərin heç biri CES-də olduğu qədər adekvat alınmamışdır. Daha doğrusu, əvəzetmə elastikliyini əvvəlcədən vahidə bərabər qəbul edib qiymətləndirmə aparılması doğru olmayan nəticə verə bilər. Lakin bununla bərabər CES-funksiyasında aldığımız a-sabiti və λ-texniki tərəqqinin artım tempinin qiymətləri, demək olar ki, Kobba-Duqlas istehsal funksiyasıda aldığımız qiymətlərlə üst-üstə düşür. Buradan belə nəticəyə gəlmək olar

ki, Kobba-Duqlas istehsal funksiyası ilə qiymətləndirdiyimiz iqtisadiyyatın səmərəliliyi (a - sabiti iqtisadiyyatın səmərəlilik ölçüsü kimi də interpretasiya edilir) və elmi-texniki tərəqqinin təsiri CES-funksiyası üçün aldığımız qiymətləndirmə ilə bir daha sübut olunur.

IV. Keyns tipli Kleyn modeli. Keyns iqtisadi nəzəriyyəsinə əsaslanan məşhur makroiqtisadi modellərdən biri Kleyn modelidir. Lorens Kleyn bu modeli 1950-ci ildə dərc etdirmişdir. L.Kleyn 1921-1941-ci illərdə Amerika iqtisadiyyatında baş verən iki böyük depressiyanı (böhranı) təhlil edərək, böhranın inkişafını əks etdirən riyazi modelləri təklif etmişdir.

İndiki mərhələdə bir sıra xüsusiyyətlərinə görə Azərbaycan Respublikasında makroiqtisadi proseslərin öyrənilməsi, tədqiqi və proqnozlaşdırılmasında Keyns tipli modellərdən istifadə edilməsi fikrimizcə son dərəcə vacibdir.

Kleyn modelində bütün nəzəri əlaqələr xətti ifadə edilmişdir. Model üç struktur tənliklərindən və üç eynilikdən ibarətdir. Struktur tənlikləri aşağıdakılardır:

İstehlak funksiyası:

$$S = \beta_{11} + \beta_{12} P + \beta_{13} P_{-1} + \beta_{14} (W^1 + W^2) + U^1$$

Burada, S – istehlakı, P – gəliri, P_{-1} – əvvəlki dövrdəki gəliri, W^1 – özəl sektorda əməkhaqqından alınan gəliri, W^2– dövlət sektorunda əməkhaqqından alınan gəliri və U^1 – reqresiya qalığını göstərir.

İnvestisiya funksiyası:

$$I = \beta_{21} + \beta_{22} P + \beta_{23} P_{-1} + \beta_{24} K_{-1} + U^2$$

Burada, I – investisiyanı, K_{-1} – əvvəlki periodun sonunda əsas kapitalı göstərir.

Özəl sektorda əməkhaqqı funksiyası :

$$W^1 = \beta_{31} + \beta_{32}(Y+T-W^2) + \beta_{33}(Y+T-W^2)_{-1} + \beta_{34}(t-1993) + U^3$$

Burada Y – milli gəlir, T – dolayı vergilər, t – vaxt indeksi, $(Y+T-W^2)_{-1}$ isə əvvəlki c.vrü göstərir.

Eyniliklər:

$$Y + T = C + I + G$$
$$Y = W^1 + W^2 + P$$
$$\Delta K = (K - K_{-1}) = I$$

Burada, G – dövlət xərcləridir.

Kleyn modeli qarşılıqlı asılı iqtisadi modellər sinfinə, başqa sözlə, elə modellər sinfinə daxildir ki, öz tənliyinin sağ tərəfindəki dəyişənlər bir-birindən asılıdır.

Modelin realizasiyası aşağıdakı kimi nəticələr vermişdir:

1. İstehlak funksiyası:

$$S = -112,6162+1,018835\,P+0,425163\,P_{-1}+ 0,259447\,(W^1+W^2)$$
$$R = 3566,181,\ DW = 1,839249,\quad *R2 = 0,9652672$$

2. İnvestisiya funksiyası:

$$I = -4129,076+24,2812\,P + 2,851562\,P_{-1} - 2,630749\,K_{-1}$$
$$R = 2278805,\quad DW = 1,661538,\quad *R2 = 0,8898061$$

3. Özəl sektorda əməkhaqqı funksiyası:

$$W^1 = -20,43382+0,175844(Y+T-W^2)+0,013392(Y+T-W^2)_{-1}+4,432711(t-1993)$$

$$R = 347,5369,\ W = 2,850652,\quad *R2 = 0,8405794$$

İstehlak funksiyasının reqresiya tənliyinin statistik xarakteristikası göstərir ki, qurulmuş model adekvatdır. Belə ki, dəqiqləşdirilmiş determinasiya əmsalı vahidə xeyli yaxındır. (*$R2=0,9652672$). Yəni, Azərbaycanda istehlakın həcminin 1990-1996-cı illər ərzində ilbəil dəyişməsinin səbəbinin təxminən 96,5 faizi, baxılan amillərin (baxılan ildəki və əvvəlki ildəki gəlirlər, dövlət və özəl sektorda əməkhaqqından alınan gəlirlərdən) həcmlərinin dəyişməsi ilə izah edilə bilər.

V. İnflyasiya və işsizlik arasında funksional əlaqənin Fillips əyrisi vasitəsilə qiymətləndirilməsi. İngilis iqtisadçısı A.U.Fillips Böyük Britaniyanın 1861-1957-ci illərdəki dövrdə nominal əməkhaqqının və işsizlik səviyyəsinin orta illik tempini xarakterizə edən statistik rəqəmləri tədqiq edərək, onlar

arasında funksional əlaqənin mövcudluğunu sübut etmişdir.

Tədqiqatlar nəticəsində nominal əməkhaqqının ($\dot{w}$) artım tempi ilə işsizlik səviyyəsinin artım tempi (u) arasında alınmış əyri Fillips əyrisi adlanır.



İqtisadi islahatların dərinləşdiyi dövrdə Azərbaycanda işsizliyin problem olaraq qaldığını nəzərə alaraq, bu üsulun tətbiqini monitorinqin tərkibinə daxil etməyi məqsədəuyğun hesab edirik.

İşsizliyin növləri və formalarına müxtəlif ədəbiyyatlarda müxtəlif şəkildə yanaşılmışdır.

Fillipsin klassik əyrisi $w = f(u)$ praktikada müəyyən dəyişikliklərə məruz qalmışdır. Belə ki, nominal əmək haqqı dövlətin iqtisadi siyasətinin məqsəd funksiyasına daxil edilmir və göstərilən asılılığı siyasi məsələlərin həllərinin optimallaşdırılmasında istifadə etmək qeyri-mümkündür.

Fillips əyrisini amerikan iqtisadçıları P.Samuelson və R.Solou (1960-cı ildə) modifikasiya etmişlər. Onlar isbat etmişdilər ki, nominal əməkhaqqı tempini qiymətin artma tempi ilə ($\dot{p}$) əvəz etmək olar. Daha doğrusu, əyrini $\dot{p} = h(u)$ şəklində axtarmaq lazımdır.

Bu funksional asılılıq praktiki cəhətcə daha əlverişlidir. Belə ki, qiymətin artım tempi (inflyasiya tempi) iqtisadi siyasətin məqsəd funksiyasına daxil edilir.

Monetaristlər isə inflyasiyanın gözlənilən tempi anlayışını daxil edərək staqflyasiya vəziyyətini izah etməyə nail olmuşlar.

Staqflyasiya mexanizmini nəzərə almaqla Fillips əyrisi riyazi şəkildə aşağıdakı kimi yazılır.

$$\beta\left(u^{*}-u\right)=p-p_{e}$$

burada, β – sabit ədəddir, $\beta>0$, p – inflyasiya tempinin gözlənilən səviyyəsidir.

Beləliklə, inflyasiyanın gözlənilməsini nəzərə almadan Fillips əyrisinin tənliyi

$$\Pi=-\beta\left(u-u^{*}\right)$$

kimi, inflyasiyanın gözlənməsini nəzərə alan tənlik isə

$$\Pi=\Pi^{e}-\beta\left(u-u^{*}\right),$$

kimi verilir. Burada, $p=\Pi$ – inflyasiya səviyyəsi, $p_{e}=\Pi^{e}$ – inflyasiyanın gözlənilən səviyyəsi, u – işsizlik, u^{*} – isə təbii işsizliyin səviyyəsidir.

İnflyasiya gözləməsi ilə Fillips əyrisi modelində, inflyasiya tempində dəyişiklik yaratmayan işsizliyin "təbii" səviyyəsi qəbul edilir. Bu səviyyə xarici ədəbiyyatlarda NAIRU (Not Accelerating Iyflation Rafe of Unemployment) kimi qeyd olunur. Onda əyrinin tənliyi aşağıdakı şəkil alır:

$$\Pi=a\left(u^{*}-u\right)+\text{в}\Pi(-1).$$

Burada, $\Pi(-1)$ ətaləti və əvvəlki dövrdəki (ildəki) inflyasiyanın artım tempini əks etdirir.

Azərbaycan iqtisadiyyatının 1990-1997-ci illər dövründə inflyasiya ilə işsizlik arasındakı funksional asılılığı xarakterizə edən Fillips əyrilərinin tənliklərini tədqiq etmək üçün müxtəlif

dövrlərin, müxtəlif yanaşmalara hesablanmış nəticələrini nəzərdən keçirməyi zəruri hesab edirik.

Əvvəlcə inflyasiya gözləməsini nəzərə almayan tənlikləri qiymətləndirək:

$$\Pi=-\beta\left(u-u^{*}\right)=\beta\, u^{*}-\beta\, u,$$

u^{*} – təbii işsizlik səviyyəsi Azərbaycan üçün qiymətləndirilmədiyi üçün, $\beta\, u^{*}=\alpha$ ilə işarə edək, α – sabit ədəddir. Onda

$$\Pi=\alpha\quad-\beta\, u\quad \text{alarıq.}$$

1990-1997-ci illər üçün alınmış nəticə aşağıdakı kimi olmuşdur:

$$\Pi=-1332{,}47-(-75{,}94)u$$

$$R=0{,}085527,\quad R2=-0{,}37171,\quad DW=1{,}079247$$

deməli, $\alpha\quad=\beta\, u^{*}=-1332{,}47$

$\beta=-75{,}94$ olduğundan, u^{*} – təbii işsizliyi hesablaya bilərik.

$$u^{*}=1332{,}47:75{,}94\approx 17{,}5\%$$

Nəticədən göründüyü kimi, işsizliyin səviyyəsi ilə inflyasiyanın artım tempi arasında düz mütənasib asılılıq vardır, halbuki klassik Fillips əyrisi bunun əksini göstərir. Bu isə staqflyasiyanın əlaməti deməkdir. Lakin tənliyin statistik xarakteristikalarından göründüyü kimi alınmış nəticələr yüksək etibarlılığı ilə qəbul edilən deyil.

Ümumiyyətlə, Fillips əyrisi işsizlik ilə inflyasiya arasındakı əlaqəni qısamüddətli dövrdə əks etdirir. Ondan uzunmüddətli təhlildə istifadə etmək olmaz. Məcmu tələbi stimullaşdırmaqla işsizliyin azaldılmasına yönəldilmiş iqtisadi siyasət o vaxta qədər səmərəli olur ki, iqtisadi agentlər özlərininin inflyasiya gözləmələrini dəyişməmiş olsunlar. Məsələn, dövlətin stimullaşdırma siyasətinə uyğun olaraq tələb edilmir ki,

qiymətlərin artması ilə əlaqədar nominal əməkhaqqı qaldırılsın. Lakin sonradan inflyasiyanın inkişafı öz gözləmələrini dəyişdirir, nominal əməkhaqqının artımı başlanır və başqa xərclər artır, nəticədə istehsalın genişləndirilməsinə stimul yox olur, işsizlik əvvəlki səviyyəsinə qalxır və iqtisadiyyat yeni inflyasiya gözlənməsi səviyyəsinə keçir.

Səmərəli gözləmə nəzəriyyəsinin tərəfdarları hesab edirlər ki, iqtisadi agentlər öz gözləmələrini təkcə keçmiş illərin təcrübəsindən deyil, bütün mümkün informasiya mənbələri əsasında formalaşdırırlar. Ona görə də, onlar dövlətin stimullaşdırma siyasətinin nəticəsini doğru qiymətləndirə bilib, özlərinin inflyasiya gözləmələrini kifayət qədər tez dəyişib, nominal əməkhaqqının artırılmasını tələb edərlər. Nəticədə praktiki olaraq heç bir məhsul buraxılışı artımı baş verməz, hətta qısamüddətli dövrdə məcmu tələbin artımı ancaq qiymətlərin artmasına gətirib çıxarar.

Beləliklə ənənəvi Fillips əyrisi inflyasiya və işsizlik arasındakı əks əlaqəni bu dəyişikliklərin qısamüddətli dinamikası üçün əks etdirir.

Uzunmüddətli dövr üçün məcmu tələbin stimullaşdırılması adətən pul kütləsinin artımı ilə müşahidə olunur, işsizliyin səviyyəsinə və real məhsul buraxılışına əhəmiyyətli təsir göstərmir.

6. Sosial bərabərsizliyin Lorens əyrisi vasitəsilə qiymətləndirilməsi. Bazar iqtisadiyyatının formalaşması mərhələsində əhalinin həyat səviyyəsinin öyrənilməsi, ölkədə sosial diferensiallaşmanın və orta təbəqənin qiymətləndirilməsini Azərbaycan üçün xüsusilə vacib məsələlərdən hesab edərək,iqtisadi siyasətdə bir neçə müxtəlif əhətlərin, meyarların qiymətləndirilməsi və bunun monitorinqə aid edilməsi məqsədə uyğun hesab olunur.Sosial diferensiallaşmanın ən əsas faktorlarından biri sosial siyasətin formalaşdırılmasının müasir tendensiyasıdır. Bu tendensiya inkişaf etmiş kapitalist ölkələrində tam tədqiq edilir. Onların təcrübəsi hazırda bizim keçid dövrü üçün də əhəmiyyətlidir.

Bazar iqtisadiyyatına malik ixtiyari ölkələrin əhalisinin kəlirləri diferensiallaşdırılır. Gəlirlərin diferensiallaşma dərəcəsini (səviyyəsini) ölçmək üçün qrafiki göstərici kimi aşağıda ifadə olunan Lorens[1] əyrisindən istifadə edilir.

Gəlirlərin diferensiasiya dərəcəsini qiymətləndirmək üçün isə Cin[2] əmsalından (indeksindən), habelə median (*Me*), kvartil (*Q*), desil (*d*), yarımdesil və persentil əmsallarından istifadə edilir.

Cin əmsalı aşağıdakı qrafikdəki *OAE* fiqurunun sahəsinin *OAV* üçbucağının sahəsinə olan nisbətinə bərabərdir.

Cin əmsalı sıfırla vahid arasında olur. Cin əmsalı sıfra yaxın olduqda sosial bərabərsizliyin (diferensiallaşmanın) səviyyəsinin aşağı olmasını, vahidə yaxın olduqda isə sosial bərabərsizliyin (diferensiallaşmanın) səviyyəsinin yuxarı olmasını göstərir.



Azərbaycan Respublikası üçün 1990-1997-ci illərdə trapesiya üsulu və polinomial reqresiya ilə qurulmuş Lorens əyrisi

1 A.Lorens (1876-1959) – amerikan iqtisadçısı və statistikidir.
2 Korrado Cin (1884-1965) – italyan iqtisadçısı və statistikidir.

və ona uyğun hesablanmış əmsallar *WINDOWS 95* mühitində işləyən *Mathcad 7.0 PLUS* sistemində həyata keçirilmişdir.

8.4.2. İqtisadi təhlükəsizlik strategiyasının seçilməsi

İqtisadi sistemin qlobal transformasiyası dövründə obyektiv və subyektiv səbəblərə görə iqtisadiyyatın idarəolunma səviyyəsi kəskin aşağı düşür. Planlı təsərrüfatçılıq formasından bazar münasibətlərinə keçilməsi saysız-hesabsız müstəqil təsərrüfat subyektlərinin yaranmasına gətirib çıxarır. Belə subyektlər isə iqtisadi qərar qəbuletmə prosesində öz qərarlarının makroiqtisadi vəziyyətə təsirini nəzərə almağı heç də zəruri və ya mütləq hesab etmirlər.

Bu şəraitdə sosial-iqtisadi sistemin transformasiyası «xərclərinin» azaldılması, cəmiyyətə və dövlətə dəyə biləcək zərərlərin qarşısının alınması üçün ölkə iqtisadiyyatının milli-dövlət mənafe və maraqlarının geopolitik vəziyyətinin müəyyənləşdirilməsi prinsipial əhəmiyyətə malikdir. Azərbaycan Respublikası üçün həmin faktorların xüsusilə mühüm əhəmiyyətə malik olduğunu məlum məqamlar şərtləndirir.

Dünya təcrübəsi və iqtisadi nəzəriyyə bir-biri ilə kəsişən belə çoxsaylı iqtisadi problemlərin həlli üçün ən əlverişli yolun ölkə iqtisadiyyatının düşünülmüş ardıcıllıqla «açılmasında», onun dünya təsərrüfat sisteminə rasional qovuşmasında olduğunu təsdiq edir. Müasir dövrdə hətta ən inkişaf etmiş ölkələrdə belə iqtisadiyyatın səmərəliliyinin artırılması beynəlxalq ixtisaslaşma və kooperasiyanın dərinləşməsi, texnologiyanın beynəlxalq mübadiləsi hesabına əldə edilir. İndi beynəlxalq rəqabət texniki tərəqqinin güclü faktoruna çevrilmişdir. Məhz bu səbəbdən, hətta inkişaf etmiş sənaye ölkələrinin belə iqtisadi sistemlərinin tam açılmasını zəruri hesab edir. Bütün bunlara görə, Azərbaycan iqtisadiyyatında müasir problemlərin həlli üçün onun dünyaya tələsmədən, lakin sürətli açılması zəruri hesab edilir. Dünya təsərrüfat sisteminə üzvi qovuşmaqla nəticələnən belə açılma ümumi iqtisadi islahatlar proqramının **tərkib hissəsi olmaqla**, ölkənin iqtisadi təhlükəsizliyi, o cümlədən, **xarici iqtisadi təhlükəsizliyinin** təmin olunması şəraitində **aparılmalıdır.**

İqtisadi **təhlükəsizlik nisbətən yeni iqtisadi** anlayış, kateqoriya olmaqla **bərabər mürəkkəb daxili quruluşa**, məntiqə malik olduğu üçün **elmi-təcrübi ədəbiyyatda onun** müxtəlif şərh və izahlarına rast gəlinir. **Akademik L.Abalkinin** fikrincə iqtisadi təhlükəsizlik üç şərtin:

- iqtisadi sərbəstlik, yəni dövlətin **bütün milli ehtiyatlara** və istehsala tam nəzarəti, sərbəst iqtisadi **qərar qəbul** edə bilməsi;
- milli iqtisadiyyatın dayanıqlığı və **stabilliyinin** təmin edilməsi, yəni mülkiyyətin bütün formalarının **qorunması** və fəaliyyətinə şərait yaradılması, vəziyyətin dayanıqlığını poza biləcək addımların qarşısının alınması;
- özünü inkişafetdirmə qabiliyyətinin olması şərtlərinin ödənilməsini tələb edir.

Yapon alimləri isə iqtisadi təhlükəsizliyin təmin olunmasını beynəlxalq faktorların ölkə iqtisadiyyatına dağıdıcı təsirlərinin qarşısının alınması kimi qəbul edirlər. Məsələn, ötən əsrin 80-ci illərində Yaponiyanın iqtisadi təhlükəsizliyini dörd faktor: iqtisadi və enerji ehtiyatları, ərzaq məhsulları ilə təmin olunma və dəniz nəqliyyatının təhlükəsizliyinin səviyyəsi ilə müəyyənləşdirirdilər. Bir sıra alimlər, məsələn, V.Rubanov, V.Sençaqov, K.Samsonov, E.Buxald və başqaları iqtisadi təhlükəsizliyin səmərəli iqtisadiyyat, daxili sosial dayanıqlıq, iqtisadiyyatın tarazlı inkişafı, xarici əlaqələrin idarəolunması dərəcəsi, texnoloji yeniliklərin tətbiqetmə imkanları və s. ilə əlaqələndirirlər. Son dövrlərdə beynəlxalq iqtisadi əlaqələrin sürətli inkişafı iqtisadi təhlükəsizliyin beynəlxalq səviyyədə təmin olunmsı zəruriliyini qabartmışdır. Heç də təsadüfi deyildir ki, hələ XX əsrin 80-ci illərində bu sahədə BMT səviyyəsində iki mühüm sənəd qəbul edilmişdir. BMT Baş məclisinin «Beynəlxalq iqtisadi təhlükəsizlik» adlı 42/165 saylı qətnaməsi və BMT Baş katibinin «Beynəlxalq iqtisadi təh-

lükəsizlik konsepsiyası» adlı məruzəsində dünya iqtisadiyyatının əsas problemləri araşdırılmış, iqtisadi təhlükəsizliyin beynəlxalq və milli mənbələri təsnifləşdirilmişdir.

İqtisadi təhlükəsizliyə dair çox geniş üfüqlü baxışları təhlil edərək, həmçinin, keçmiş sosialist ölkələrin iqtisadiyyatının islahatlaşdırılması prosesinin nəticə və dərslərini nəzərə alaraq, fikrimizcə, müasir Azərbaycan iqtisadiyyatının təhlükəsizliyinin təmin edilməsinin əsas problem və vəzifələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

- ölkənin mövcud iqtisadi kompleksinin iş qabiliyyətinin qorunması və himayə olunması ilə bağlı problemlər;
- davam edən müharibə şəraiti və nəqliyyat blokadası ilə bağlı fövqəladə şəraitdə iqtisadiyyatın fəaliyyətinin təmin olunması problemləri;
- əhalinin transformasiya proseslərinin dəstəklənməsini gücləndirmək üçün onun iqtisadi inkişafda bərabər maraqlılığının təmin olunması və sosial diferensiallaşmanın yumşalması problemləri;
- bazar münasibətlərinə keçidlə, o cümlədən mülkiyyət münasibətlərinin dəyişilməsi ilə bağlı problemlər;
- dünya təsərrüfat sistemi ilə qarşılıqlı əlaqənin güclənməsi, iqtisadiyyatın açılması, xarici iqtisadi fəaliyyət və geopolitik mövqenin müəyyənləşdirilməsi ilə bağlı problemlər.

Bu problemlər qrupunun hər birinin öz daxili quruluşu və həlli məntiqi vardır. Məsələn, istehsal güclərinin bərpası yaranmış şəraitdə fikrimizcə aşağıdakı meyarlar üzrə aparılmalıdır:

- dünya bazarında likvidli tələbə malik istehsal sahələrinin prioritetli inkişafı təmin olunmalıdır, buraya, ilk növbədə, yerli təbii ehtiyatlardan istifadə üzəridə qurulan sahələr aid edilməlidir;
- rəqabət mübarizəsinin kəskinləşdiyi dünya bazarında öz seqmentinin yaradılması ixtisaslaşma istiqamətini formalaşdıran amillərdən biri kimi qəbul edilməlidir;

- yaxın on il ərzində hasilat sənayesinin üstünlüyünü məcburi şərt kimi qəbul edərək, strateji planda güclü emal sənayesinin yaradılmasına istiqamətlənmək zəruridir;
- bərpa olunan istehsal ehtiyatlarının istifadə intensivliyini artırmaqla, ümumi daxili məhsulda bu tip sahələrin payının 50-70%-ə çatdırılması strateji hədəfə çevrilməlidir;
- tam məşğulluğun təmin olunması faktorunu əsas götürməklə ÜDM-də geniş mənada infrastruktur sahələrinin inkişafı, o cümlədən, nəqliyyat-kommunikasiya, aqrar və məişət-rekreasiya sahələrinin yeni inkişaf səviyyəsi təmin olunmalıdır.

İstənilən ölkədə radikal transformasiya prosesləri geniş xalq gütlələrinin onları dəstəklədiyi halda, sürətli uğurlar qazana bilir. İqtisadi proseslərdə isə bu daha önəmlidir. Çünki iqtisadi transformasiya bilavasitə hər kəsin şəxsi mənafeyinə toxunur və burada siyasi əqidə mənsubiyyəti mühüm rol oynamır.

Azərbaycanda bu sahədə vəziyyət özünəməxsusluğa malikdir. Əvvəla, əhalinin tam əksəriyyəti dövlət rəhbərliyinə tam etimad göstərir və ona görə aparılan iqtisadi islahatların düzgünlüyünü bütövlükdə təsdiq edir. Digər tərəfdən son illərdə dövlət əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq üçün ardıcıl tədbirlər görür.

Yaranmış şəraitdə fikrimizcə, aparılan iqtisadi siyasət aşağıdakı meyarları qorumalıdır:

- bütövlükdə bütün iqtisadi transformasiya sosial-strukturlaşdırılmış iqtisadi sistemin yaradılmasına istiqamətlənməlidir;
- əhalinin iqtisadi islahatları dəstəkləməsinin ən vacib şərti kimi təkcə sosial şəraitin hansı səviyyədə təmin olunması deyil, hər kəsin ədalətli pay almasının təmin olunması qəbul olunmalıdır;
- iqtisadi yüksəlişdə daxili potensialın səfərbər olunması bazar iqtisadiyyatı şəraitində orta təbəqənin həcm və keyfiyyətcə yeni tərkibinin formalaşdırılması əsasında aparılmalıdır.

Azad rəqabət və mülkiyyət çoxnövlülüyünün təmin olunması bütün postsosialist ölkələri kimi Azərbaycan üçün də son dərəcə aktual və həlledicidir. Ölkədə aparılan bu vacib islahatların yetərincə nəticəliliyini artırmaq üçün müvafiq siyasətə aşağıdakı məqamlar prizmasından korreksiya verilməsi zəruridir:

- iqtisadiyyatın dövlətsizləşdirilməsi və dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesi yeni iqtisadi münasibətlərin formalaşdırılması vasitəsi kimi dəyərləndirilməlidir. Buna əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması və dövlət büdcəsinə əlavə gəlir kanalı yaradılması kimi baxmaq onun strateji əhəmiyyətini xeyli aşağı salır;
- mülkiyyət münasibətlərinin əsaslı transformasiyası iqtisadiyyatın idarə olunmasını yeni əsaslar üzərində qurmağı tələb edir. Çünki əvvəla, iqtisadi fəaliyyət subyektlərinin, o cümlədən ölkədə iqtisadi vəziyyətə təsir göstərə biləcək subyektlərin miqdarının kəskin artımı baş verir. Bu subyektlərin iqtisadi mənafeləri bir-birindən fərqləndiyi üçün onların sivil koordinasiyası sisteminin yaradılması zəruri olur;
- mülkiyyət münasibətlərinin dəyişməsi bir tərəfdən milli sahibkarların yaranması ilə obyektiv olaraq əhali arasında təbəqələşmə doğurur, digər tərəfdən isə ölkədə xarici kapitalın iştirakını genişləndirir. Ona görə də, bu prosesin güclü təbliğatla dəstəklənməsi vacibdir;
- mülkiyyət münasibətlərinin dəyişməsi həm də iki mühüm iqtisadi göstəricini – ümumi milli məhsul və ümumi daxili məhsulun nisbətlərinin dəyişməsini doğurur. Bu obyektiv prosesdir. Lakin Azərbaycanda həmin göstəricilərin fərqi ekspert qiymətləndirmələrinə görə 40%-ə çatır. Bu xüsusilə iqtisadi artım dinamikasında daha qabarıq əks olunur. Hesab edirik ki, bu fərqin indiki mərhələdə heç olmasa 10%-ə qədər endirilməsi məqsədəuyğundur;
- mülkiyyət münasibətlərinin bazar prinsiplərinə əsasən formalaşmasının sürətləndirilməsi «kölgə iqtisadiyyat», o cümlədən, «kriminal iqtisadiyyat» və həmçinin, vergilərdən yayınmalar və qeyri-leqal kapital axını kimi xoşagəlməz hallarla mübarizəni gücləndirməyi tələb edir və s.

Azərbaycanın müasir inkişaf səviyyəsinin xarakterini nəzərə alaraq sonuncu qrup problemlər – xarici iqtisadi təhlükəsizliyin təmin olunması problemləri üzərində daha geniş dayanmağı məqsədəuyğun hesab edirik. Xarici iqtisadi əlaqələr sahəsində tanınmış alim prof. İ.Faminski açıq iqtisadi sistemdə xarici iqtisadi təhlükəsizliyin təmin olunmasını aşağıdakı kimi şərtləndirir: – əvvəla, ölkənin dünya təsərrüfat əlaqələrində iştirakı milli istehsalın inkişafı üçün əlverişli şərait yaratmalıdır; ikinci isə dünyada baş verən siyasi və iqtisadi dəyişikliklərin milli iqtisadiyyata mənfi təsirləri minimuma endirilməlidir.

Bir-birini tamamlayan bu şərtləri Azərbaycan üçün də tamamilə məqbul hesab etmək olar. Lakin həmin şərtlərin konkret realizasiyasına xidmət edən vəzifələrin müəyyənləşdirilməsi ölkənin potensial və cari xüsusiyyətlərini nəzərə almalıdır. Müasir dünya təsərrüfat sisteminin əsas inkişaf tendensiyası – iqtisadiyyatın beynəlmiləlləşməsinin dərinləşməsi, onun milliləşməsi və dünya təsərrüfat kompleksinin formalaşmasının sürətlənməsi iqtisadi təhlükəsizliyin təmin olunmasına strateji yönümdən baxılmasını tələb edir.

Hesab olunur ki, müstəqil Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin və iqtisadi təhlükəsizliyinin təmin olunmasının ideoloji əsaslarını aşağıdakı cəhətlər təşkil etməlidir: əvvəla, xarici iqtisadi siyasət strateji planda Azərbaycanın dünyanın müəyyən regionu və dünya bazarının müəyyən sektorlarında iqtisadi inkişafın istiqamətverici rolunun formalaşmasına yönəlməlidir.

Taktiki planda isə xarici iqtisadi siyasət dərin iqtisadi böhranın səngiməsinə, struktur dəyişmələrinin sürətlənməsinə, təsərrüfat mexanizminin düşünülmüş transformasiyasına və sosial-iqtisadi gərginliyin aradan qaldırılmasına xidmət etməlidir.

İkincisi - xarici iqtisadi təhlükəsizliyin təmin olunması Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat sisteminə sürətli və rasional qoşulmasına prinsipial maneələr yaratmamalıdır.

Yuxarıda qeyd olunan meyarlar əsasında Azərbaycan Respublikasının xarici iqtisadi təhlükəsizlik konsepsiyası, problemin bir-biri ilə üzvi olaraq bağlı iki cəhətinin xarici iqtisadi fəaliyyətin əsas istiqamətlərinin məhdudlaşdırıcı və inkişaf prinsiplərini müvafiq fəaliyyətin iqtisadi-təşkilati mexanizminin əsaslarını əhatə etməlidir.

8.5. Azərbaycan iqtisadiyyatının inkişaf strategiyasının perspektivləri

Müasir mərhələdə müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyası 1995-2008-cu illərdə əldə olunmuş nəticələrə söykənməli və bu dövrdə başlanmış sosial-iqtisadi transformasiyanın yeni keyfiyyət mərhələsinə keçirilməsinə istiqamətlənməlidir.

Yaxın gələcəkdə *iqtisadi inkişaf strategiyasının əsas məqsədi* aparılan iqtisadi islahatları dərinləşdirmək yolu ilə müasir bazar münasibətləri və dünya təsərrüfat sisteminin inkişaf meyilləri əsasında ölkənin iqtisadi sisteminin yeni inkişaf səviyyəsinə keçməsinin təmin edilməsi olmalıdır.

Nəticə etibarı ilə ölkənin iqtisadi qüdrətinin sürətli yüksəlişini təmin edəcək bu strateji məqsəd, ölkənin əsas təbii iqtisadi ehtiyatlarının aktiv təsərrüfat dövriyyəsinə cəlb olunmasının sürətləndirilməsi, o cümlədən: Xəzərin neft və qaz ehtiyatlarının iqtisadiyyatın kompleks inkişafının təminedicisinə çevrilməsi; ölkənin tranzit potensialının genişləndirilməsi və ondan istifadənin səmərəliliyinin yüksəldilməsi, yeni torpaq münasibətlərinin möhkəmləndirilməsi vasitəsilə əhalinin torpağa bağlılığının gücləndirilməsi və insan ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması kimi əsas vəzifələrin həllini nəzərdə tutur.

Bu vəzifələrin müvəffəqiyyətli həlli fikrimizcə iqtisadi inkişafda aşağıdakı kimi bir sıra keyfiyyət dəyişikliklərini yarada biləcəkdir:

- dinamik inkişaf edən və bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın formalaşdırılmasının əsasən başa çatdırılması;
- sənayenin aparıcı sahələrinin, o cümlədən yerli xammalla işləyən və dünya bazarında likvidli tələbə malik məhsullar istehsal edən baza sahələrinin müasir texnoloji əsasda dinamik inkişafının təmin olunması;
- ölkədə azad rəqabət və mülkiyyət çoxnövlülüyün sərbəst fəaliyyətini təmin edən və sahibkarlığı stimullaşdıran çevik təsərrüfat mexanizminin formalaşdırılmasının başa çatdırılması;
- ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyasının dərinləşdirilməsi və genişləndirilməsi;
- iqtisadiyyatın dövlətsizləşdirilməsi vasitəsilə dövlətin bilavasitə iqtisadi faliyyətdəki rolunun azaldılmasının davam etdirilməsi ilə yanaşı, müasir və çevik iqtisadi idarəetmə sistemi, tənzimləmə vasitələrilə dövlətin iqtisadi inkişafda istiqamətləndirici rolunun yüksəldilməsi;
- ölkənin ayrı-ayrı bölgələrinin dinamik inkişafını təmin edəcək məqsədəyönlü regional siyasətin həyata keçirilməsi ;
- əhalinin etibarlı sosial müdafiə və sosial təminat sisteminin müasir tələblərə uyğun təkmilləşdirilməsi və iqtisadi yüksəliş hesabına əhalinin həyat səviyyəsinin daha yüksək pilləyə qaldırılmasının təmin olunması.

Qeyd olunan strateji məqsədlərə nail olmaq üçün ölkənin iqtisadi siyasəti məqsədli proqramlar vasitəsi ilə yaxın illərdə aşağıdakı konkret vəzifələrin həllinə yönəldilməlidir:

I. Makroiqtisadi hədəflər.

1989-cu ildən başlayan və 1991-94-cü illərdə xüsusilə dərinləşən iqtisadi böhranın aradan qaldırılması üçün son beş ildə müşahidə olunan sürətli artımı daha da sürətləndirərək stabil inkişaf dinamikasına nail olmaq, o cümlədən:

- ÜDM istehsalının orta illik artım sürətinin 10% yuxarı olmasını təmin etmək;
- iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi yolu ilə əsas fəaliyyət sahələrinin ÜDM-in formalaşmasında mütənasibliyini təmin etmək;

- dövlət büdcəsinin formalaşmasında birbaşa və dolayı vergilərin paritetli nisbətlərinin təmin olunması vasitəsi ilə vergi yükünün optimal bölüşdürülməsi;

- əhalinin pul gəlirlərinin xərcləri üstələməsi meylinin gücləndirilməsi üçün dövlət bölməsində çalışanların orta aylıq əməkhaqqının minimum istehlak büdcəsi səviyyəsini ötməsinin təmin olunması;

- təsərrüfat mexanizminin şəffaflığını artırmaqla qarşılıqlı öhdəliklərin yerinə yetirilməsi və ödəmə intizamının qeyri-şərtsiz qorunmasının təmin olunması;

- real iqtisadiyyatın normal fəaliyyəti üçün pul-kredit siyasətinin iqtisadi şəraitə adekvatlığının təmin olunması.

II. Real sektorun yenidən qurulması vəzifələri.

İslahatların müasir mərhələsində iqtisadi inkişafın sürətləndirilməsi mövcud təbii-iqtisadi ehtiyatların aktiv təsərrüfat dövriyyəsinə cəlb olunmasını intensivləşdirilməsini tələb edir. Buna nail olmaq üçün müasir tələblərə cavab verən və dünya iqtisadiyyatında müşahidə olunan strateji meylləri nəzərə alan yeni sənaye siyasətinin həyata keçirilməsi zəruridir. Sənaye siyasətinin aparıcı prinsiplərini ayrı-ayrı sahələrin cari ödəmə qabiliyyətinin təmin olunması, enerji ehtiyatlarının qənaətli istifadəsi, dünya bazarında likvidli məhsul istehsalı üzrə ixtisaslaşma və təsərrüfat mexanizminin şəffaflığı təşkil etməlidir.

Sənayenin mühüm bölməsi olan yanacaq-enerji kompleksi iqtisadiyyatın həlledici sahələrindən biri kimi qalır. Eyni zamanda o yüksək enerji tutumlu digər sahələrin fəaliyyəti və perspektiv inkişafı üçün çox vacib rol oynayır. Ona görə də, iqtisadi siyasətdə neft faktoru aparıcı mövqe tutur. Bu sahələrin intensiv inkişafı iqtisadiyyatın rəqabət qabiliyyətini artırır və həm də dünya təcrübəsində məlum neft sindromlarının ölkəmizdə baş verməməsinə zəmin yaradır.

Neft müqavilələrinin uğurla reallaşdırılması Azərbaycanda de-fakto dünya əhəmiyyətli neft bazarı yaranmasına səbəb olmuşdur. Belə şəraitdə neftayırma sənayesinin inkişafı bir sıra digər sənaye sahələrinin də intensiv inkişafını təmin edir.

Neftayırma sənayesinin inkişafı istehsal gücünün bərpasını təmin edəcək və neft məhsullarının maya dəyərini aşağı salmaqla onların dünya bazarında rəqabət qabiliyyətliliyini artıracaqdır.

Fikrimizcə, neftayırma sahəsi dövlət büdcəsinin əsas gəlir kanallarından biri olmaqla bərabər, gələcəkdə beynəlxalq neft müqavilələrindən daha çox xeyir əldə etmək vasitəsinə çevrilməlidir. Ona görə də, neftayırmanın xüsusi İnkişaf Proqramının həyata keçirilməsi zəruridir.

Hələ ötən əsrin 70-ci illərində ölkə rəhbərliyinin ciddi səyləri sayəsində Azərbaycanda enerji müstəqilliyini təmin edə biləcək sistem yaradılmışdır. Son illərdə xeyli zəifləmiş bu sistemin bərpası üçün radikal addımların atılması təqdirəlayiq hesab olunur.

Kənd təsərrüfatı siyasəti ölkənin daxili istehlak bazarının təmin olunması, iqtisadiyyatın neftdən asılılığının azaldılması, əmək ehtiyatlarından səmərəli istifadə olunması kimi ciddi sosial problemlərin həllinə istiqamətləndirilməlidir. Belə siyasət və onun realizasiya mexanizmi bazar iqtisadiyyatı prinsipləri, aqrar və torpaq islahatının mənafeyini əsas tutmaqla həyata keçirilməlidir.

Aqrar islahatlarının ötən dövrdəki təcrübəsinə əsaslanaraq deyə bilərik ki, kənd təsərrüfatında normal iş ahənginin bərpası üçün ilk növbədə, aşağıdakılar həll olunmalıdır:

- meliorasiya və irriqasiya sisteminin və torpaq fondunun məhsuldar iş qabiliyyətinin bərpası;
- emal güclərinin modernləşdirilməsi və yenilərinin yaradılması;
- müasir xidmət sferasının, o cümlədən ipoteka, maliyyə-sığorta sisteminin inkişafı;
- ayrı-ayrı istehsal və infrastruktura vəsilələri arasında stabil iqtisadi münasibətlər sisteminin yaradılması.

III. Geosiyasi mövqeyin iqtisadi potensialının reallaşdırılması.

Yaxın illər ərzində dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri ölkəmizin geopolitik mövqeyinin yaratdığı tranzit potensialının genişləndirilməsi, onun iqtisadiyyatın inkişafının əsas faktorlarından birinə çevrilməsi olmalıdır. Bu məq-

sədlə son illərdə əsası qoyulmuş bir sıra beynəlxalq və regional layihələrin reallaşdırılmasının sürətləndirilməsi zəruridir.

Məşhur İpək yolunun bərpası üçün aparılan genişmiqyaslı tədbirlər, bu yolun özünün geosiyasi əhəmiyyəti ilə yanaşı iqtisadi inkişaf vasitəsinə çevrilə bilər. İpək yolu Qərblə Şərq arasında körpü olmaqla Azərbaycan məhsullarının satış bazarının genişlənməsinə, daxili bazarın təminatının yaxşılaşmasına və onun tutumunun artmasına, əhalinin məşğulluğunun çoxalmasına və beləliklə, iqtisadiyyatın gəlirliliyinin yüksəlməsinə səbəb olacaqdır.

Lakin bizim fikrimizcə burada «çoxqütblü» siyasət aparılması zəruridir. Belə ki, ölkənin tranzit potensialının genişləndirilməsi üçün Şimal-Cənub istiqamətində də müvafiq strateji layihələrin reallaşdırılması son dərəcə aktualdır.

Tranzit imkanlarının genişlənməsi üçün nəqliyyat növlərinin hamısının iştirakı ilə ölkədə vahid nəqliyyat sisteminin sürətli inkişafı təmin olunmalıdır.

Son dövrlərdə regionumuzun təbii ehtiyatlarının istifadəsi istiqamətində həyata keçirilən beynəlxalq layihələrin tərkib hissəsi kimi neft və qaz kəmərlərinin yeni regional sisteminin yaradılmasında istismarında Azərbaycanın aparıcı mövqeyinin təmin edilməsi çox vacibdir və bu baxımdan, dövlətinin mövqeyi düzgün, iqtisadi cəhətdən əsaslandırılmış və ədalətlidir.

Neft müqavilələrinin və tranzit layihələrinin reallaşdırılması Azərbaycanda bir sıra fəaliyyət sahələri üçün beynəlxalq mərkəzlərin, o cümlədən, neft, qaz və neft məhsulları bazarı, maliyyə-kapital bazarı iş qüvvəsi bazarlarının yaranmasına, infrastruktura və xidmət sferasının sürətli inkişafına əlverişli şərait yarada bilər. Fikrimizcə hökumət orqanları artıq bu istiqamətdə konkret fəaliyyətə başlamalıdır.

IV. İnvestisiya siyasətinin vəzifələri.

Son illərdə Azərbaycanda investisiya prosesinin əhəmiyyətli fəallaşması bu prosesin gələcəkdə sürətləndirilməsi üçün möhkəm əsas yaradır. Ötən dövrdə investisiya prosesinin bütövlükdə təhlili investisiya mühitinin yaxşılaşması, sahə quruluşunun və mənbəə müxtəlifliyinin genişlənməsini sübut edir. Lakin son 4-5 ilin təcrübəsi göstərir ki, investisiyaların multiplikativ effekti bizim iqtisadiyyatımızda, xüsusilə böyük gecikmə addımlarına malikdir.

Ona görə də, çıxış yolu investisiyanın daha tez səmərə verə biləcəyi sahələrə, xüsusilə qeyri-neft bölməsinə yönəldilməsi çox vacibdir. Təcrübə göstərir ki, belə sahələrə qoyulan investisiya qısa müddətdə real inkişafı təmin edir. Yuxarıda qeyd etdiyimiz kimi son dövrlərdə bu meyil güclənir. Ancaq hazırki sürəti qənaətbəxş hesab etmək olmaz.

İnvestisiya siyasətində daha bir yeni addım fikrimizcə investisiyaların sığortalanması sisteminin yaranması, investisiya fondları və qiymətli kağızlar bazarının formalaşdırılmasının sürətləndirilməsi vasitəsilə ölkəyə portfel investisiyaların axınının stimullaşdırılmasıdır.

Bütövlükdə, investisiya siyasətinin indiki mərhələdəki ən mühüm şərtlərindən biri onun real sektorun sağlamlaşdırılması və restrukturizasiyasının sürətləndirilməsinə istiqamətləndirilməsidir.

İqtisadiyyatın inkişaf sürətinin və əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün fikrimizcə yaxın beş ildə aşağıdakıların həyata keçirilməsi nəzərdə tutulur:

- istehsal və infrastruktur fondları potensialının əsaslı modernləşdirilməsi və yenilərinin yaradılması üçün məcmu yığımının stimullaşdırılması siyasətinin aparılması;
- xarici və yerli investorlar üçün daha əlverişli investisiya mühitinin yaradılması;
- real iqtisadi imkanları nəzərə alaraq dövlət investisiyasının həcminin, o cümlədən, qaytarıla bilən xarici və daxili kreditlərin cəlb olunması hesabına artırılması;

Azərbaycan iqtisadiyyatına xarici kapitalın cəlb olunması siyasətində ölkənin maraqlarını maksimum qorumaqla beynəlxalq təcrübədə qəbul olunmuş əsas prinsiplər tətbiq edilməlidir.

Yaxın illərdəki investisiya siyasətinin xüsusiyyəti yerli investorların milli iqtisadiyyatın inkişafında iştirakını stimullaşdırılması olacaqdır. Bunun üçün: vergi qoymağın ağırlıq mərkəzinin tədricən istehsal sferasından istehlaka keçirilməsi; müəssisələrin yenidənqurulması; əsas fondların yenidən qiymətləndirilməsindən sonra amortizasiya ayırmalarının payının artırılması; kommersiya banklarının kredit ehtiyatlarının istehsala cəlb olunması; əhalinin yığımının səviyyəsinin qaldırılması nəzərdə tutulmalıdır.

V. İqtisadi inkişafın sosialyönümlülüyünün gücləndirilməsi.

Dövlətin iqtisadi siyasətinin ən vacib vəzifəsinin əhalinin maddi-rifah halının yaxşılaşdırılması olduğunu nəzərə alaraq, yaxın gələcəkdə iqtisadi siyasətin sosial yönümlülüyünün güclən-dirilməsi zəruridir. Bunun üçün bütün prinsipial iqtisadi qərarların strateji baxımdan sosial xarakterinin təmin olunması nəzərdə tutulur və bu real iqtisadi şəraitə adekvat olmalıdır.

Bütövlükdə, son illərdə iqtisadiyyatda stabil inkişafın təmin olunması, iqtisadi siyasətin sosialyönümlülüyünün artırılması üçün son dərəcə əlverişli şərait yaratmışdır.

Hazırda dövlət büdcəsindən ayrılan sosialyönümlü xərclərin həcminin və orta əməkhaqqının artım sürəti təmin olunsa da, ölkədə aparılan iqtisadi siyasətin sosial istiqamətliliyi ilə kifayətlənmək olmaz. Çünki ən azı minimum istehlak səbəti ilə orta əməkhaqqı arasında fərq hələ də qalır.

Ona görə də, əhalinin ödəmə qabiliyyətli tələbi və imkanları sürətlə artmır. Hər bir ölkədə iqtisadiyyatın aparıcı qüvvəsi hesab olunan orta təbəqə ölkəmizdə getdikcə azalır və bu təhlükəli meylin qarşısı alınmalıdır. Fikrimizcə, sosial siyasətin parametr-ləri formalaşdırılarkən yoxsulluq həddini müəyyən edən təminat səviyyəsini artırmaq vacibdir.Hətta bu, yeni hökumət proqramının aparıcı elementinə çevrilməli, bu və ya bütün digər göstəricilər bu prizmadan qiymətləndirilməlidir.

VI. İqtisadiyyatın idarə olunması.

Qarşıdakı beş ildə iqtisadi siyasətin başlıca vəzifələrindən biri də dövlətin iqtisadi fəaliyyətdəki rolunun müəyyənləşdiril-məsidir. Bazar münasibətləri şəraitində dövlət idarəetmə orqan-larının iqtisadi fəaliyyətin təşkil olunmasında ümumi ictimai xidmətlərin təminatçısına çevrilməlidir. Yaxın vaxtlarda yeni iqtisadi idarəetmə sisteminin formalaşdırılması başa çatdırıl-malıdır. Çevik və azsaylı dövlət idarəetmə orqanlarından ibarət olacaq bu sistemin əsas vəzifəsi iqtisadi siyasətin formalaşdı-rılması, onun həyata keçirilməsi üçün zəruri qanunvericilik baza-sının yaradılması, nəzarətedici və stimullaşdırıcı mexanizmin qu-rulması olmalıdır.

Ədəbiyyat

1. A.Abdullayev. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, 2003. - 227 s.
2. Аникин А.В. История финанасовых потрясений, Москва, 2002, - 448с.
3. Алле Морис. Условия эффективности в экономике. М., НИЦ « Наука для общества», 1998. - 304 с.
4. Bayramov Ə.Ə. Regional iqtisadi inteqrasiya – nəzəriyyə və praktika. Bakı, 1997.
5. Бьюкенен Д.М. Сочинение. Пер.с англ. Серия «Нобелевские лауреаты по экономике" М.: Таурус Альфа, 1997. - 560 с.
6. Вельфенс П. Основы экономической политики. Учебник. Пер. нем. СПб, 2002. – 495 с.
7. Брайцева Т.В. Государственные финансы, СПб, 2001. - 288 с.
8. Финансы в вопросах и ответах. Под ред. В.В.Иванова и В.В.Ковалева. Москва, 2005. - 272 с.
9. Фридмен М. Если бы деньги заговарили Москва, 1999. - 160 с.
10. Государственное регулирование рыночной экономики: Под ред. И.И.Столярова. Учебное пособие. – М.: Дело, 2001. -280 с.
11. Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев, 2000. - 504 с.
12. Гасанов Р.Т. и другие. Социальная политика в постсоциалистическом обществе: задачи. противоречия. Механизмы. Под ред. акад. К.Микульского. М.: Наука, 2001. – 648 с.
13. Ротбард М. Государство и деньги как государство завладело денежной системой общества. Москва, 2003.-166 с.
14. Həsənov R.T. Azərbaycan Respublikasının sosial iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı: Elm. -343 s.

15. Həsənov R.T. İqtisadi inkişaf və makroiqtisadiyyat. Bakı, 2001. -74 s.
16. Həsənli Y.H., Həsənov R.T. İqtisadi tədqiqatlarda riyazi üsulların tətbiqi. Bakı, 2002. - 303 s.
17. Корнаи Я. Социалистическая система. Политическая экономия коммунизма. Пер. с англ. М.: Вопросы экономики, 2000. - 672 с.
18. Курс переходной экономики: Учебник. Под ред. Абалкина Л.И. М.: Финстатинформ, 1997. -633с.
19. Кулиев Т. Пародоксы экономических теорий Баку, 2008. – 316 с.
20. Линдерт П.Х. Экономика мирохозяйственных связей Москва, 1992. – 520 с.
21. Məmmədov N., Barxudarov M. İqtisadi təhlükəsizlik Bakı, 2006. – 452 s.
22. Монтес М.Ф., Попов В.В. Азиатский вирус или голландская болезнь?. М.: Дело, 2000. - 136 с.
23. Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, 2001. - 452 s.
24. Нуреев Р.М. Теория общественного выбора: Учебное пособие. М.: Изд. дом ГУ ВШЭ, 2005. - 531 с.
25. Нуреев Р.М. Экономика развития: модели становления рыночной экономики. М.: 2001. - 240 с.
26. Чекалин А. Темнее всего перед рассветом. М. ГП Редакция газеты «Экономическая газета», 1999.- 816 с.
27. Savas E.S. Özəlləşdirmə və ictimai-özəl əməkdaşlıqlar. (ingilis dilindən tərcümə R.Sadırxanov) Bakı, 2001. 408 s.
28. Сажина М.А. Научные основы экономической политики государства. М.: 2001. 224 с.
29. Səmədzadə Z. Çin qlobal dünya iqtisadiyyatında. Bakı, 2009. - 608 s.
30. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri Bakı, 2004. - 503 s.
31. Социальная политика: Учебник. Под общ.ред. Н.А.Волгина. М.: Экономика, 2002. - 736 с.

32. Stiqlis J. Qloballaşma və onun doğurduğu narazılıqlar. Bakı, 2004.
33. Основы торговой политики и правила ВТО. – М.: Междунар. отношения, 2005. – 448 с.
34. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri Bakı: 2001, - 175 s.
35. Уткин А.И. Глобализация: процесс и осмысление М. Логос, 2001.- 253 с.
36. Экономическая безопасность. Производства, финансы, банки. Под ред. В.К.Сенчагова. М.: Финстатинформ, 1998.
37. Зиберт Хорст. Эффект кобры. Как можно избежать заблуждений в экономической политике СПб, 2003.- 246 с.
38. Qloballaşma amilləri. Bakı, 2001. -175s.

Nəşriyyatın müdiri	***Kamil Hüseynov***
Baş redaktor	***İsmət Səfərov***
Redaktor	***İsabə Hüseynova***
Korrektor	***Südabə Manafova***
Kompyuter operatoru	***Təranə Baxşəliyeva***
Dizayner	***Vüsalə Axundova***

Rasim Həsənov
iqtisad elmləri doktoru, professor

İqtisadi siyasət:
metodologiya və praktika
(Dərs vəsaiti)

Çapa imzalanıb 10. 03. 2010. Kağız formatı 60x84 1/16.
Həcmi 17,6 ç.v. Ş.ç.v. 16,4. Sifariş 65. Sayı 500.

" İqtisad Universiteti " Nəşriyyatı.
AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6